NƏSİMAN YAQUBLU

Nuru Paşa

BAKININ QURTULUŞU

NƏSİMAN YAQUBLU

BAKININ QURTULUŞU

(Bakının Qurtuluşunun 90 illiyinə)

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

«Elm və təhsil»
Bakı – 2010

Rəyçilər: **Maarif Teymur**
S. Mümtaz adına Ədəbiyyat və İncəsənət Arxivinin direktoru

Aslan Kənan
S. Mümtaz adına Ədəbiyyat və İncəsənət Arxivinin şöbə müdiri

Elmi redaktor: **Sabir Məmmədli**
Tarix elmləri namizədi,
Bakı Dövlət Universitetinin dosenti

Bu kitab Türkiyə Cümhuriyyəti Bakı Böyükelçiliyinin maddi-mənəvi dəstəyi ilə yayımlanıb.

Nəsiman Yaqublu. Bakının Qurtuluşu.
Bakı, «Elm və təhsil», 2010. – 200 səh.

Kitabda XX əsr Azərbaycan Milli İstiqlal Mübarizəsinin ən mühüm hadisələrindən biri olan Bakının Qurtuluşu tarixi araşdırılıb.

Müəllif kitabda əsasən tarixi sənədləri, yazıları, faktları olduğu kimi toplayıb oxuculara çatdırmağa çalışıb. Bundan ötrü o, əvvəlcə Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920-ci illər) dövründə nəşr edilmiş yazıları, sonradan isə mühacirətdə yaşamış azərbaycanlı siyasətçilərin və ziyalıların məqalələrini toplayıb oxucuya təqdim edib.

Bundan əlavə, tanınmış Azərbaycan şairlərinin Qafqaz İslam Ordusuna, qəhrəman Türk əsgərlərinə həsr etdiyi şerlər də kitabda toplanıb.

Bu kitab dərs və əlavə vəsait kimi yalnız müəllim, aspirant və tələbələr üçün deyil, həmçinin geniş oxucu kütləsi və Beynəlxalq Əlaqələr, Azərbaycan-Türkiyə əlaqələri sisteminin, mühacirət mətbuatımızın öyrənilməsi üçün də əhəmiyyətli olacaqdır.

$Y\frac{4702000000}{N098 - 2010}$ ***qrifli nəşr***

© «Elm və təhsil», 2010

MÜNDƏRİCAT

I FƏSİL. Bakı uğrunda mübarizə.....5
Azərbaycan istiqlalının elan edilməsi.
Osmanlı dövləti ilə əlaqələrin yaradılması.
Bakının azad edilməsinin həyati əhəmiyyəti.....6
Qafqaz İslam Ordusu. Nuru Paşanın fədakarlığı.
Bakının Qurtuluşu.....17

II FƏSİL. Azərbaycan Xalq Cumhuriyyəti dövründə
Bakının Qurtuluşunun dəyərləndirilməsi.....27
Azərbaycan Xalq Cumhuriyyəti qurucuları
Bakının Qurtuluşu haqqında.....28
Dövlətin rəsmi mətbuatında – "Azərbaycan" (türkcə və rusca)
qəzetində 15 Sentyabr zəfəri ilə bağlı yazılar.....38
Azərbaycan şair və yazıçılarının türklərin Bakını azad etməsinə
həsr olunan bədii əsərləri.....50

III FƏSİL. Azərbaycanlı mühacirlərin
Bakının Qurtuluşu tarixini yaşatması.....79
Türkiyədə nəşr edilən mətbuat orqanlarında
və kitablarda 15 Sentyabr hadisələri.....80

Almaniyada nəşr edilən qəzet və jurnallarda
Bakının xilası ilə bağlı yazılar 156
Müqavilə 176
Ədəbiyyat siyahısı 178
Kitabda adı çəkilən şəxsiyyətlər 182
Fotolar, sənədlər 201

I FƏSİL

BAKI UĞRUNDA MÜBARİZƏ

"Bu hadisələrdən sonra fikir müxtəlifliyində olan azərbaycanlılar, gürcülər və ermənilərin Seymdə birgə fəaliyyəti mümkün olmur, münasibətlərdə inamsızlıq yaranırdı. Qeyd edək ki, gürcülər və ermənilər Türkiyə ilə münasibətdə ciddi siyasi ziddiyyətdə idilər. Gürcülər Batum və Acarıstanın saxlanılması cəhdində olsalar da, buna nail olmaq üçün Qars və Ərdəhanı güzəştə getməyi lazım bilirdilər. Türklərin isə Seym daxilindəki ziddiyyətlərdən məlumatları var idi. Odur ki, Zaqafqaziya hökumətinin Türkiyə ilə apardığı müharibə 8 gündən artıq çəkmədi. Türklər aprelin 15-də Batumu tutdular, eyni zamanda Qarsı mühasirəyə aldılar".

AZƏRBAYCAN İSTİQLALININ ELAN EDİLMƏSİ.OSMANLI DÖVLƏTİ İLƏ ƏLAQƏLƏRİN YARADILMASI. BAKININ AZAD EDİLMƏSİNİN HƏYATİ ƏHƏMİYYƏTİ

1917-ci ilin sonlarına doğru Azərbaycanın siyasi həyatında böyük yüksəliş dövrü idi. Artıq milli hərəkatda üç cərəyan seçilirdi: milli demokratlar, sosialistlər və islamçılar. Xüsusi olaraq fərqlənən milli demokratlar Azərbaycanın inkişafını milli dövlətçilikdə görürdülər.

Belə vəziyyətdə Zaqafqaziyadakı siyasi təşkilatlar da fəaliyyəti gücləndirdilər. 1917-ci ilin noyabr ayında Tiflisdə Zaqafqaziyadakı siyasi təşkilatların yığıncağı keçirildi və Zaqafqaziya komissarlığı yaradılması qərara alındı. Həmin ilin noyabr ayının 14-də yaradılmış yeni hökumətin tərkibi elan edildi.

1918-ci ilin fevralından Zaqafqaziya Seyminin ilk iclasından isə Azərbaycan siyasətçilərinin Zaqafqaziya istiqlalı uğrundakı mübarizəsinin yeni mərhələsi başlandı. Həmin ilin fevralın 23-də Tiflisdə Zaqafqaziyanın qanunverici orqanı – Zaqafqaziya Seyminin açılışı oldu. Seymdəki Azərbaycan fraksiyası 44 millət vəkilindən ibarət olub. "Müsavat", "İttihat", "Hümmət" və "Müsəlman Sosialist bloku"nu təmsil edirdilər. 1918-ci ilin martın 14-də keçirilən Trapezund Sülh Konfransında da Türkiyə nümayəndələri artıq Zaqafqaziya nümayəndələrindən respublikaların siyasi quruluşları haqqında qətnamə tələb edirdilər.

Bundan əlavə 1918-ci ilin mart hadisələri də Zaqafqaziya Seymindəki münasibətləri gərginləşdirdi və Azərbaycanın milli müstəqilliyi uğrundakı mübarizədə həlledici mərhələ sayıldı. Qeyd edək ki, on minə yaxın günahsız adamın ölümünə səbəb olmuş 1918-ci ilin mart hadisələri Azərbaycan tarixinin ən faciəli səhnələrindən idi.

Qeyd olunmalıdır ki, Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğu dövründə ermənilərin Azərbaycanda həyata keçirdikləri kütləvi

terror və qırğınları öyrənmək məqsədi ilə ayrıca bir fövqəladə təhqiqat komissiyası yaradılmışdı.

1918-ci ilin martın 29-da Bakı və Tiflis dəmiryolu bağlandığından şəhərdə qalan erməni silahlıları "Evelina" gəmisində Müsəlman diviziyasının bir neçə yüz əsgərini tərksilah etdikdən sonra vəziyyət gərgin həddə çatmış və Qızıl Ordu dəstəsinə atılan təxribati güllədən sonra silahlı ermənilər dinc əhaliyə hücum edərək onları amansızcasına qırmışdı.

Bununla əlaqədar M. Ə. Rəsulzadə yazırdı: "Bu hadisə ilə bolşeviklər bir çox vilayətlərdə yapdıqları qanlı əməliyyatı Bakıda da tətbiq edirdilər. Əmələ və füqəra hakimiyyəti naminə "Müsavat firqəsi milli-müsəlman şurası"na elani-hərb edən "Bakı Soveti" erməni alayları ilə biliştirak 10 000 qərib müsəlmanı qətl etdi" (53, s. 33).

Qeyd edək ki, hakimiyyəti ələ keçirmək üçün mart ayında Bakıda bolşeviklərin daşnaklarla birlikdə qaldırdığı qiyam və aprel ayında Bakı quberniyasında törədilən milli qırğın xalqların təyini müqəddəratını elan etmiş Sovet Rusiyasının Azərbaycana münasibətinin təzahür forması idi. (31, s. 57)

Minlərlə günahsız adamın ölümünə səbəb olan ermənilərin xəyanəti, törətdikləri qırğın haqda məlumat 1918-ci ilin aprelin 2-də Zaqafqaziya Seyminə çatdırıldı. Lakin Seymin bu qırğına laqeyd münasibəti azərbaycanlı nümayəndələrdə ciddi narazılıq doğurdu. Eyni zamanda Seymin gürcü-erməni çoxluğu Bakı Sovetinə ciddi təsir göstərmək istəmirdi. Bu münasibəti görən Seymin azərbaycanlı deputatları ayrı-ayrı partiyaları təmsil etsələr də, eyni mövqeyə gəlib birgə fəaliyyətə üstünlük verdilər. Mart hadisələri Milli İstiqlal Mübarizəsinin nəinki məqsədində, eləcə də forma və vasitələrində keyfiyyət dəyişikliyi yaratdı.

Bu hadisələrdən sonra fikir müxtəlifliyində olan azərbaycanlılar, gürcülər və ermənilərin Seymdə birgə fəaliyyəti getdikcə mümkün olmur, münasibətlərdə inamsızlıq yaranırdı. Qeyd edək ki, gürcülər və ermənilər Türkiyə ilə münasibətdə ciddi siyasi ziddiyyətdə idilər. Gürcülər Batum və Acarıstanın saxlanılması cəhdində olsalar da, buna nail olmaq üçün Qars və Ərdəhanı güzəştə getməyi lazım bilirdilər. Türklərin isə Seym daxilindəki ziddiyyətlərdən məlumatları var idi. Odur ki, Zaqafqaziya hökumətinin Türkiyə ilə apardığı müharibə 8

gündən artıq çəkmədi. Türklər aprelin 15-də Batumu tutdular, eyni zamanda Qarsı mühasirəyə aldılar.

Belə vəziyyətdə aprelin 19-da Seymə daxil olan Azərbaycan nümayəndələrinin birgə yığıncağında onlar Zaqafqaziyanın müstəqilliyini tələb etdilər. Azərbaycanlı nümayəndələr bildirdilər ki, əks halda, onlar Azərbaycanın müstəqilliyi istiqamətində hərəkət edəcəklər.

Tezliklə gürcülər və ermənilər türklərin əsas tələbinin yerinə yetirilməsinin – yəni Brest-Litovsk Müqaviləsi şərtlərinin və Zaqafqaziyanın müstəqilliyinin elanının vacibliyini dərk edib, müharibənin dayandırılması zərurəti qarşısında qaldılar. 1918-ci ilin aprelin 22-də Zaqafqaziyanın müstəqilliyi elan edildi.

Lakin Zaqafqaziya Seymi daxilində ziddiyyətlər azalmır, getdikcə gərginləşirdi. Xüsusən, Almaniyanın da Zaqafqaziyada təsirinin artması, gürcülərin onlara meylini artırırdı.

Bakı məsələsi ilə bağlı Almaniyanın da mövqeyi maraqlı idi. Almaniya Bakı məsələsinə görə "Rusiyanın yenidən ittifaq dövlətlərinə qarşı müharibəyə girməsinin öz mənafeyi baxımından təhlükəli olacağını düşünürdü. Çünki Rusiya Bakının Osmanlı ordusu tərəfindən alınmasını müharibə səbəbi sayırdı. (45, s. 156). Anlaşılacağı kimi, Bakı Qafqaz probleminin zirvə nöqtəsi halına gəlmişdi. Bir tərəfdən, cənubdan Bakıya tərəf irəliləyən ingilis əsgərləri qarşısında Bakının bir an əvvəl İttifaq dövlətləri tərəfindən işğalı məcburiyyəti, digər tərəfdən, Bakının Osmanlı dövləti tərəfindən alınmasını müharibə səbəbi sayan Rusiya və Qafqazda Bakını almaq üçün kifayət qədər əsgəri olmayan Almaniya. (45, s. 156).

Zaqafqaziya Seymi daxilindəki narazılıqlar, Gürcüstanın Qafqaz birliyindən çıxıb Almaniya himayəsinə keçmək istəyi artıq bu millətlərin birləşib bir orqanda fəaliyyət göstərməyini sual altına qoymuşdu.

Qeyd edək ki, ermənilərin "Daşnaksütyun" partiyasının Seymdəki deputatları müsəlman burjuaziyasına belə bir siyasi təklif də etmişdilər: "Bakıda gələcək hökumətin sırf müsəlman deyil, beynəlmiləl xarakterdə olması və erməni hissələrinin Bakıda qalması". Bunun müqabilində onlar təklif edirdilər ki, Bakı Sovetini buraxmağı öz öhdələrinə götürürlər. Lakin Seymin müsəlman nümayəndələri bu həyasız şərtləri qətiyyətlə rədd edib, Bakı şəhərində hakimiyyətin bölünməzliyini bildirmişdilər. (35a, s. 45).

Mayın 25-də gürcülər Seymin buraxılması və Gürcüstanın Müstəqilliyini elan etməsi qərarına gəldilər.

1918-ci ilin mayın 26-da Seymin sonuncu iclası keçirildi və onun fəaliyyəti dayandırıldı. Seymin fəaliyyəti dayandırıldıqdan sonra 1918-ci ilin mayın 27-də Zaqafqaziya Seyminin buraxılması ilə bağlı buraya daxil olan Azərbaycan nümayəndələrinin fövqəladə iclası keçirildi və iclas Azərbaycanın idarə olunması vəzifəsini öz üzərinə götürərək, Azərbaycan Müvəqqəti Milli Şurasını elan etdi. Sonra Milli Şuranın sədri seçkisinə başlanıldı. Müsavat Partiyası M. Ə. Rəsulzadənin sədrliyini irəli sürdü. **"İttihad" partiyası istisna olmaqla, qalan təşkilatların səsverməsi nəticəsində M. Ə. Rəsulzadə Milli Şuranın sədri seçildi. H. Ağayev və M.Seyidov Milli Şura sədrinin müavinləri seçildilər. Elə həmin iclasda Milli Şuranın doqquz nəfərdən ibarət icraiyyə orqanı yaradıldı. F.Xoyski icraiyyə orqanının sədri seçildi. İlk Azərbaycan hökumətinin təşkili F. Xoyskiyə tapşırıldı. Yaradılan ilk hökumət aşağıdakı tərkibdə idi: "Nazirlər Şurasının sədri və Daxili İşlər naziri – F. X.Xoyski; Hərbi nazir – Xosrov bəy Sultanov; Xalq Maarifi və Maliyyə naziri – Nəsib bəy Yusifbəyli; Xarici İşlər naziri – Məmməd Həsən Hacınski; Poçt-teleqraf və yollar naziri – Xudadat bəy Məlikaslanov; Əkinçilik və ərzaq naziri – Əkbər ağa Şeyxülislamov; Ədliyyə naziri – Xəlil bəy Xasməmmədov; Ticarət və sənaye naziri – Məmməd Yusif Cəfərov; Dövlət naziri – Cəmo bəy Hacınski.**

Mayın 28-də Milli Şuranın ilk iclasında (24 nəfərin iştirakı ilə) aşağıdakı məsələlər müzakirə edildi: 1. H. Ağayevin Yelizavetpoldakı (Gəncədəki) son hadisələr barədə məlumatı; 2. M. Ə. Rəsulzadənin Batumdan teleqramının və məktubunun oxunması; 3. Seymin buraxılması və Gürcüstanın müstəqilliyini elan etməsi ilə əlaqədar Azərbaycanın vəziyyəti.

Üçüncü məsələ ilə bağlı (yəni Azərbaycanın vəziyyəti) Şura üzvü X.Xasməmmədov Azərbaycanın müstəqil respublika elan edilməsi vacibliyini bildirdi, F.Xoyski isə "yerlərdə bəzi məsələlərin aydınlaşdırılmasına kimi Milli Şura hələlik Azərbaycanın istiqlaliyyətini elan etmədən ölkələrlə sülh danışığı aparmaq üçün tamhüquqlu Azərbaycan hökumətinin yaradılması ilə bağlı kifayətlənməyi təklif etdi. Lakin Milli Şura 22 səslə (S. M. Qəniyev və C. Axundov bitərəf qaldılar)

Azərbaycan istiqlalının elanı haqqında qərardan sonra "İstiqlal bəyannaməsi" qəbul etdi.

"İstiqlal bəyannaməsi" (həm "Əqdnamə", həm də Misaqi-milli" adlandırılır) altı maddədən ibarət idi:

"1. Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət haqqına malik olduğu kimi, Cənubi-Şərqi Zaqafqaziyadan ibarət olan Azərbaycan dəxi kamilsəl hüquq müstəqil bir dövlətdir.

2. Müstəqil Azərbaycan dövlətinin şəkli-idarəsi Xalq Cümhuriyyəti olaraq təqərrür edir.

3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlər və bilxassə həmcüvar olduğu millət və dövlətlərlə münasibati-həsənə təsisinə əzm edər.

4. Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, məslək və cins fərqi gözləmədən qələmrovunda (hüdudu daxilində) yaşayan bütün vətəndaşlarına hüquqi-siyasiyyə və vətəniyyə təmin eylər.

5. Azərbaycan Xalq Cümhuriyyəti ərazisi daxilində yaşayan bilcümlə millətlərə sərbəstanə inkişafları üçün geniş meydan buraxır.

6. Məclisi-Müəssisan toplanıncaya qədər Azərbaycan ibarəsinin başında areyi ümumiyyə ilə intixab olunmuş şuraya milli və şurayi milliyə qarşı məsul hökuməti müvəqqətə durur (70, s. 48).

Qeyd edək ki, Azərbaycan İstiqlalının elan olunması günündə M. Ə. Rəsulzadə iştirak etmirdi. Səbəbi həmin hadisə ərəfəsində onun Batuma göndərilərək, orada türklərlə danışıqlar aparması idi. Çünki Müstəqil Qafqazın Batum danışıqlarına sülh heyəti göndərərkən (M. Ə.Rəsulzadə məhz bu heyətdə idi) "Azərbaycan siyasi firqələrinin birləşmiş iclasında" Nəsib bəy Yusifbəyli "Osmanlı dövlətindən yardım istəmək zərurətini" bildirmişdi.

Azərbaycan istiqlalı elan edilməsinin məna və əhəmiyyəti böyük idi. Bu baxımdan 1918-ci ildə Azərbaycan istiqlalı elan edilməsinə xarici ölkə alimlərinin və tədqiqatçılarının verdiyi qiymət olduqca dəyərlidir.

Professor Qothard Coske: "28 Mayıs 1918-ci ildə elan olunan Azərbaycan İstiqlaliyyəti, Türk və Azərbaycan düşməni bəzi bədxah zümrələrin "isbata" çalışdıqları kimi, təsadüfi bir hadisə və ya işin içindən çıxa bilmək üçün verilmiş məcburi bir qərar deyildir və uzun

müddətdən bəri inkişaf etməkdə olan təbii bir təkamül seyrinin son mərhələsi və nöqtəsidir" (71, s. 72).

Professor Berd Fon Mende: "Bu tarix bilavasitə onunla əlaqədar olan zümrə xaricindəkiləri əlaqədar edən böyük bir günün tarixidir. Çünki, bu sadə Qafqaziyadakı milli dövlətçilik inkişafı üçün mühüm bir təməl daşı olmaqla qalmayıb, eyni zamanda Rusiya imperatorluğunda başlayan siyasi hadisələrin seyrində milliyyət prinsipinin hakim rol oynamağa başlandığı bir günün tarixidir" (71, səh. 72).

Professor Herbert Duda: "Həqiqi milliyyətçiliyin lüzumu ilk öncə Azərbaycanda qavrandı və bütün Türk irqdaşlarını kültür baxımından birləşdirmək məfkurəsinə orada çalışıldı"(71, s. 73).

Professor Herbert Yanski: "1918-ci ildə rus əsiri olan türklər üçün bir istiqlal açıldı: həsrətini çəkdikləri hürriyyətə qovuşacaqlardı. Müstəqil bir dövlətin təməlini quran ilk türk yurdu Azərbaycan idi".

Doktor Bartold Spuler: "28 Mayısın aşıladığı ruh əsrimizin hakim və mədəni insanlığın əbədi və əzəli həyat prinsipi – millətçilik ümdələrinə dayandığı üçün Azərbaycanın çalınmış istiqlalını geri almaq işində mühəqqəq tarixi rolunu müvəffəqiyyətlə ifa edəcəkdir" (71, s. 73).

Cohannes Benzinq: "28 Mayısı doğuran Azərbaycanı necə tanımaq lazım? 28 Mayısın ilhamları haradan gəlir? Vəd olunan suallara qısa bir məqalə çərçivəsində kafi dərəcədə bir cavab vermək çətin olmaqla bərabər bəzi əsas nöqtələr təbarüz etdirilirsə, 28 Mayıs anlaşılır: Azərbaycan tarixi hər şeydən əvvəl bizə Azəri Türkünün hürriyyətə olan dərin bir sevgisini göstərməkdədir"(71, s. 73).

Professor Tadeuş Svyatoçovski: "İndiyə qədər coğrafi bir bölgənin adı olan Azərbaycan artıq iki milyonluq bir dövlətin adı idi. Tatarlar, Transqafqaziya müsəlmanları və Qafqaziya türkləri kimi dəyişik isimlərlə anılan xalq artıq rəsmən azərbaycanlı olmuşdu"(71, s. 73).

Qeyd edək ki, 28 May İstiqlalının elanı bütün Şərq aləmində və bütün türk dünyasında yeni, demokratik prinsiplərə söykənən bir dövlətin qurulduğunu xəbər verirdi. Rusiya əsarətində yaşayan türk xalqları arasında Azadlıq bayrağını ilk dalğalandıran Azərbaycan oldu və 28 May "Azadlığa qovuşan bir insan kütləsinin hürriyyəti simvolu"na çevrildi.

Azərbaycan Milli Qurtuluş hərəkatının böyük ideoloqu M. Ə. Rəsulzadə 28 May İstiqlalını mühüm hadisə adlandıraraq bu münasibətlə yazırdı: "O tarixdən əvvəl bir millət olaraq varlığını isbat edən Azər-

baycan xalqı bu tarixdən etibarən millət olaraq dövlət qurmuş və bu dövlətin istiqlalı uğrunda bütün mövcudiyyəti ilə meydana atılmışdır"(71, s. 74).

Azərbaycan istiqlalı elan olunandan sonra Zaqafqaziya hökumətinin Batumdakı sülh danışıqları aparan heyəti parçalandı. Azərbaycan Milli Şurasının sədri M. Ə. Rəsulzadə müstəqil Azərbaycan Cümhuriyyəti adından M. H. Hacınski (o, Xarici İşlər naziri idi) ilə birlikdə Türkiyə nümayəndəliyi ilə iyunun 4-də dostluq haqqında müqavilə imzaladı (15, s. 2, iş. 88, v. 1).

1918-ci ilin iyunun 4-də "Osmanlı imperatorluğu hökuməti ilə Azərbaycan Respublikası arasındakı dostluq müqaviləsi"ni Türkiyə dövləti adından Ədliyyə naziri Xəlil Menteşə, Qafqaz cəbhəsinin Baş komandanı Vəhib Paşa, Azərbaycan hökuməti adından isə Xarici İşlər naziri M. H. Hacınski və Milli Şuranın sədri M. Ə. Rəsulzadə imzaladılar. Azərbaycan Respublikası nümayəndələrinin xarici ölkələrlə imza atdığı ilk sənəddə hər iki dövlətin – Osmanlı imperiyası və Azərbaycan hökuməti arasında "Siyasi, hüquqi, iqtisadi və intellektual zəmində mehriban dostluq münasibətləri bərqərar etməkdə qarşılıqlı surətdə razılığa gəlindiyi" bildirildi.

İmzalanan sənədin birinci maddəsi belə idi: "Osmanlı imperatorluğu hökuməti ilə, Azərbaycan Respublikası hökuməti arasında daima sülh və möhkəm dostluq olacaqdır" (16, s. 2, iş 89, v. 10).

Sənədin 4-cü maddəsində isə yazılmışdı: "Dinclik və asayişi möhkəmləndirmək, ölkənin təhlükəsizliyini təmin etmək üçün, əgər ehtiyac olarsa, Osmanlı hökuməti Azərbaycan Respublikasına hərbi yardım göstərməyi öz üzərinə götürür" (16, s. 2, iş89, v. 10).

Azərbaycan hökuməti ən ağır və çətin şəraitdə məhz həmin müqavilə əsasında türk qoşunlarını Azərbaycana dəvət etmişdi. M. Ə. Rəsulzadə yazırdı: "Bütün Azərbaycan xalqının çar-çeşmlə bəklədiyi ümidə tərcüman olan bu müraciətimizdə Türkiyə heyəti-mütəxəssisi həmən müvafiqət cavabını verdi" (53, s. 40).

M. Ə. Rəsulzadənin başçılıq etdiyi Milli Şuranın da Azərbaycanın bir müstəqil dövlət halına gəlməsində həqiqətən böyük xidmətləri oldu.

Azərbaycan İstiqlal Bəyannaməsinin altıncı maddəsində göstərildiyi kimi, "Azərbaycan İdarəsinin başında Şurayi Milli" dururdu.

Azərbaycan Milli Şurası istiqlalımız uğrunda hətta özünün buraxmaq dərəcəsinədək lazım gələndə güzəştə getmişdi. Milli Şuranın

İstiqlal elanının ilk vaxtlarındakı mübarizəsi olduqca çətin idi. Azərbaycan daxilindəki bəzi qüvvələr Milli Şuranı ləğv etməyə çalışırdılar. Bu qüvvələr "İlhaqçılar" adı altında çıxış edərək hökumətin buraxılaraq Nuru Paşanın yeni hökumət təşkil etməsini tələb edirdilər. M. B. Məmmədzadə yazırdı: "O, yalnız bitərəflik elan etməmiş, hökumətin və Milli Şuranın tamamilə dağılmasını və mövqeyini paşanın öz ordusu ilə təşkil edəcəyi hökumətə verməsini istəyirdi. Təşkil olunacaq bu "hökumət" isə rus çarizminin sabiq deputatları ilə şeyxülislamdan ibarət olacaqdı".

Milli Şuranın son iclasında çıxış edən M. Ə. Rəsulzadə dedi: "Əfəndilər, hələ səhər iclasını açanda indiki şəraitin necə əhəmiyyətli olduğunu xatırlamışdım.

Əfəndilər, demək istəyirəm ki, Azərbaycan hətta Qafqazda ən azadlıqsevər və inqilabi respublika sayılan Gürcüstandan da xoşbəxt olacaq!.." (69, s. 83).

Vəziyyətin gərginliyini nəzərə alıb, N. Yusifbəylinin təklifi ilə Milli Şuranın 17 iyun tarixli iclasında Fətəli Xan Xoyskinin ikinci kabinəsi təşkil edildi.

Qeyd edək ki, Bakıdakı xəyanətkar qüvvələr bu mühüm şəhəri əldən verməmək üçün ciddi müqavimət göstərirdilər. S. Şaumyanın Leninə göndərdiyi teleqramların məzmunundan aydın olurdu ki, Bakını əldən verməmək üçün hər xəyanətə əl atılırdı. Azərbaycanın müstəqilliyi elan olunduqdan sonra da Bakı Soveti və onun İcraiyyə orqanı olan Bakı Xalq Komissarları Soveti bütün vasitələrlə milli hökumətə qarşı mübarizə aparırdı. Bakı Xalq Komissarları Soveti tabeliyindəki ordunun köməyi ilə Azərbaycan hökumətinin yerləşdiyi Gəncəyə hücum etmiş, lakin Göyçay vuruşmasında kommuna qoşunlarının hücumu dəf edilmişdi. Sovet Rusiyasının köməyindən məhrum olan, Türkiyə qoşunlarının Bakıya yaxınlaşdığını görən Bakı Xalq Komissarları Soveti vəziyyətin gərginliyini başa düşürdü. Nəticədə ingilislərin Bakıya dəvət olunması haqqında qətnamə qəbul edildi və iyul-avqust aylarında eser-daşnak-menşevik ittifaqı əsasında "Sentrokaspi və Sovetin Müvəqqəti İcraiyyə Komitəsinin Rəyasət Heyəti diktaturası" adlı mürtəce hökumət təşkil olundu. Bakının taleyi olduqca təhlükəli xarakter aldı.

Bununla əlaqədar olaraq M. Ə. Rəsulzadə Şaumyanın mövqeyini kəskin tənqid edirdi. 1918-ci ilin mart hadisələri zamanı "Bakının və

ətraf rayonların İnqilabi Müdafiə Komitəsinə başçılıq edən Şaumyan qırğında bilavasitə məsuliyyət daşıyırdı.

S. Şaumyan "Bakinski raboçi" qəzetinin 1918-ci ilin 17 fevralındakı "Vətəndaş Rəsulzadəyə cavab" yazısında öz xəyanətkar mövqeyini açıqlayırdı. Hələ o zaman irəli sürülən Azərbaycan Muxtariyyəti ideyasına qarşı barışmazlıq göstərən Şaumyan 1917-ci ilin dekabrında Leninin imzaladığı Türkiyə ərazisində Ermənistana muxtariyyət verilməsi dekretinə nail olmuşdu. M. Ə. Rəsulzadənin təbirincə belə bir sənədi cibində gəzdirirdi.

M. Ə. Rəsulzadəyə hücumunu davam etdirən Şaumyan bildirirdi: "Tutaq ki, Rəsulzadənin özü inqilabi qayda-qanunun bərpası naminə milli polkların təşkilində şəxsən iştirak etsin, tutaq ki, onun obyektiv niyyətləri büllur kimi safdır, lakin obyektiv surətdə onun fəaliyyəti əks nəticə verəcəkdir, ona görə ki, sinfin siyasəti bu və ya digər şəxsiyyətin yaxşı niyyətlərindən deyil, sinfi niyyətlərindən irəli gəlir.

Şaumyanın davam etdirdiyi qorxulu siyasəti V. İ. Lenin 1918-ci ildə ona göndərdiyi teleqramda belə ifadə edirdi: "Sizin möhkəm və qəti siyasətiniz bizi sevindirir" (70, s. 53).

Qeyd edək ki, Sovet Rusiyası hökuməti və onun rəhbəri V. İ. Lenin 1918-ci ilin martında Kremldə Qırmızı Xaçın Rusiyadakı Amerika missiyasının rəisi polkovnik R. Robinsonla keçirdiyi söhbətində qeyd edirdi: "Bakının Rusiya Sovet Respublikası üçün iqtisadi əhəmiyyəti nədən ibarətdir? Bu – neft, işıq, enerjidir". (Dərabadi). Həmin dövrdə isə Bakı Xalq Komissarları Soveti Bakı quberniyasını RSFSR-in tərkib hissəsi elan etmişdi. Bolşevik hökuməti bununla yanaşı regiona xüsusi önəm verir, strateji cəhətdən mühüm Həştərxanın müdafiə qabiliyyətinin möhkəmləndirilməsi və eləcə də Xəzərdəki hərbi donanmasının döyüş qabiliyyətinin gücləndirilməsi yolunda bir sıra ciddi addımlar atılmışdı. (23a, s. 28).

Əlavə edək ki, Türklərin Bakıya hücumunun qarşısını almaq üçün bolşeviklər hətta düşmən münasibətdə olduqları ingilislərlə də əlaqə qurmağa çalışırdılar. Bununla əlaqədar bolşeviklərin Ənzəlidəki komitələrinin sədri Çelyabin Bakıdakı sovet hökumətinə ingilislərin silah və avtomobillə kömək göstərməsini xahiş etmişdi. (39, s. 204).

Bu ərəfədə iyulun 17-də Azərbaycan Respublikası nümayəndələrinin İstanbul Beynəlxalq Konfransına (orada Mərkəz – Almaniya,

Avstriya, Macarıstan, Türkiyə, Bolqarıstan və Qafqaz – Gürcüstan, Azərbaycan, Ermənistan və Dağlılar İttifaqı) göndərilməsi müəyyənləşdi. Konfransda iştirak etmək üçün M. Ə. Rəsulzadə X. Xasməmmədov və A. Səfikürdskidən ibarət nümayəndə heyəti təsdiq edildi. (Buraya əlavə dörd nəfər məsləhətçi və texniki heyət də daxil idi). Nümayəndə heyətinə konfrans iştirakçıları ilə siyasi, iqtisadi, maliyyə və hərbi məsələlərlə bağlı danışıqlar aparmaq və müqavilələr bağlamaq səlahiyyəti verilmişdi.

M. Ə. Rəsulzadənin başçılıq etdiyi nümayəndə heyəti iyunun 24-də İstanbula gəldi. İstanbulda nümayəndə heyəti çox gərgin vəziyyətdə işləməli oldu. Bu vəziyyət M. Ə. Rəsulzadənin göndərdiyi məlumatlarda daha dəqiq ifadə olunmuşdur. **M. Ə. Rəsulzadənin 1918-ci ilin avqustun 6-dakı 18 saylı məlumatında bildirilirdi: "Xarici İşlər naziri cənab Məmməd Həsən Hacınskiyə. Mən bir daha Tələt Paşa və Ənvər Paşa ilə görüşdüm. Sual çox qaranlıq idi, indi hər şey keçdi, onlar mənə ümid verdilər. Mən alman səfiri Bernsdorfolmla görüşdüm. Bakının neytral olması xəbərini qəzetə məlumat verən Tiflis nümayəndəliyindəki bir məmurdan öyrəndim... Hər ehtimala qarşı Bakı məsələsi əhəmiyyət kəsb edir. Azərbaycanın səlahiyyətli nümayəndəliyinin sədri – Məhəmməd Əmin Rəsulzadə.**

M. Ə. Rəsulzadə İstanbuldan yazdığı məktublarda narahatlıqla bildirirdi: **"Nəyin bahasına olursa-olsun Bakını tutmaq lazımdır"** (16, F. 277, s. 2, iş 1, v. 37).

O, Nazirlər Şurasının sədri F. Xoyskiyə göndərdiyi məktubda isə bildirirdi: "Siyasi mənzərə tamamilə dəyişib. Vilsonun prinsipləri əsasında sülh təklif edilib. Konfrans baş tutmayacaq. Ermənilər Qarabağı tələb edirlər. Avropada mütləq gecikmədən təbliğat lazımdır. Biz getməyə hazırlaşırıq. Əli Mərdan bəy Avropaya gedir" (16, F.277, s. 2, iş 1, v. 37).

Göründüyü kimi, Bakının alınması həyati bir məsələyə çevrilmişdi. Müsavat Partiyasının yaradıcılarından biri olan M. Ə. Rəsuloğlunun xatirələri bu mənada çox maraqlıdır: "Türk ordusu qərargahına xəritə, plan yetişdirmək üçün Müsavat partiyası bütün qüvvəsilə çalışırdı. Hər gün dəniz və quru yolla türk ordusu qərargahı nəzdində bulunan arkadaşımız Abbas bəy vasitəsilə şəhərdəki əsgərlərin hərəkəti haqqında türk ordusu qərargahına lazımi məlumatlar verilirdi. Bolşeviklər bu məlumatın sürətlə öyrənilməsinə heyrət edirlərdi..."

Qeyd edək ki, M. Ə. Rəsulzadə hələ İstanbulda olarkən Almaniya ilə sovet Rusiyasının arasında Brest-Litovsk müqaviləsinə əlavə sazişə (27 avqust) cavab olaraq (həmin sazişə görə Almaniya Bakı neftinin bir hissəsini almaqla, Azərbaycanın bütün zəngin neft yataqlarının Kür sahilinə qədər Rusiyaya verilməsinə razı olurdu) Azərbaycan hökuməti adından Almaniyanın səlahiyyətli nümayəndəsi qraf Valdburqa bəyanat təqdim etmişdi.

M. Ə. Rəsulzadənin təqdim etdiyi bəyanatda deyilirdi: "Axirən Almaniya ilə Rusiya arasında bağlanmış müqavilənin Bakıya aid maddələrindən son dərəcə təəccüb və heyrətə düçar olan hökumətindən aldığım təlimata əsasən aşağıdakı maddələri ali nəzərinizə çatdırmağa tələsirəm: - Azərbaycan əhalisi rus inqilabında elan edilən və Brest-Litovskda rus rus hökuməti tərəfindən təkid edilən "hər millətin öz müqəddəratını özünün təyin etməsi hüququndan" istifadə etməklə Dördlər İttifaqı dövlətlərinin dostluq duyğularına istinad edərək əsrlərdən bəri altında əyildiyi rus boyunduruğunu üstündən ataraq istiqlalını elan etsə də, adı çəkilən müqaviləyə əlavə olaraq bağlanmış müqavilələrlə Bakı şəhərinin rus hakimiyyəti altında qalmasına yardım etdiyini xəbər verməklə çox mütəəssir və kədərlidir" 11, s. 8).

M. Ə. Rəsulzadə bu problemlə bağlı qəti və kəskin mövqeyini "İqdam" qəzetindəki yazılarında da bildirirdi. Bundan əlavə, ona müraciət edən qəzetlərin müxbirlərinə demişdi: **"Bakısız Azərbaycan – başsız bədəndir"**(70, s. 56).

Göstərilən cidd-cəhdlər nəticəsində 1918-ci il sentyabrın 23-də Tələt Paşa ilə Almaniya arasında gizli protokol imzalandı və həmin protokola əsasən Türkiyə qoşunları Azərbaycandan çıxır, Almaniya isə Azərbaycanın istiqlalının Rusiya tərəfindən tanınmasını təmin edirdi.

Lakin sonrakı vəziyyət Almaniyanın bu prosesi təmin etməyinə imkan yaratmadı. Məlum oldu ki, müharibədə Almaniya, Avstriya-Macarıstan və Osmanlı dövləti ilə Bolqarıstan məğlub olmuş, hadisələrin istiqaməti dəyişmiş və Azərbaycan üçün yeni bir imtahan dövrü başlamışdı. Belə ki, Almaniya artıq məğlub dövlətə çevrilmişdi və 1918-ci ilin oktyabrın 30-da Lemnos adasının Mudros limanında, ingilislərin "Aqamemnon" gəmisində imzalanan sülhə əsasən Bakı, Batumi və digər yerlər müttəfiqlərin nəzarəti altına keçirdi.

Türk qoşunlarının Bakıdan çıxarılmasından sonra şəhərə girən ingilislər Azərbaycanı müstəqil dövlət olaraq qəbul etmirdilər. Lakin general Tomsonla aparılan uğurlu danışıqlar getdikcə real nəticələr verirdi.

QAFQAZ İSLAM ORDUSU. NURU PAŞANIN FƏDAKARLIĞI. BAKININ QURTULUŞU

Rusiyada 1917-ci ildə baş verən Oktyabr inqilabından və bu hadisə nəticəsində bolşeviklərin hakimiyyətə gəlməsindən sonra Osmanlı dövləti Güney Qafqazda fəallığını artırdı. Bu fəallaşmada Baş komandan vəkili **Ənvər Paşanın** və III Ordu komandanı Vəhib Paşanın xüsusi rolu vardı. Məhz Ənvər Paşanın təklifi ilə Vəhib Paşa 1918-ci ilin yanvarın 9-da Qafqazdakı rus hərbi qüvvələrinin müvəqqəti komandanı, gürcü generalı Odişelidzeyə bir məktubla müraciət etmişdi (s. 442). 1918-ci ilin yanvarın 16-da isə Vəhib Paşa Ənvər Paşanın hazırladığı teleqramı Tiflisdəki Rus-Qafqaz ordusu komandanlığına çatdırdı. Bu teleqramda Ənvər Paşa Zaqafqaziya hökumətinin Brest-Litovsk sülh danışıqlarında iştirakı vacibliyini bildirir və bu zaman Zaqafqaziya hökumətinin tanınmasına Osmanlı dövlətinin kömək edəcəyini bildirirdi (14, s. 442). Sonrakı dövrdə də Osmanlı dövləti Qafqazla bağlı siyasətini davam etdirməyə başladı.

Eyni zamanda Azərbaycandan olan milli qüvvələr də Osmanlı dövlətindən yardım almaq üçün əlaqələr qurmağa başladılar. Bu işin reallaşmasında rus əsirliyindən qaçaraq Gəncəyə gəlmiş Osmanlı zabiti Hüsaməddin Tuğac bəyin rolu böyük idi. Az sonra Gəncədəki Milli Komitənin tapşırığı ilə (burada Nəsib bəy Yusifbəylinin böyük rolu vardı) Nağı Şeyxzamanlı, ziyalı Ömər Faiq Nemanzadə, acarların nümayəndəsi Cəlal Həmşizadə və axılkələkli Əbraim bəy birlikdə Türkiyəyə getdilər. Onların məqsədi icmaları adından türk ordusunu öz vətənlərinə dəvət etmək idi (14, s. 445).

Az müddət sonra bu əlaqələrin ilk bəhrələri görünməyə başladı. Belə bir zamanda Ənvər Paşa bolşevik inqilabından sonra Qafqazda yaranmış vəziyyətdən bəhrələnib Berlin müqaviləsi ilə itirilmiş Qars, Ərdəhan və Batumu vətənə geri qaytarmaq, həm də Azərbaycan və Quzey Qafqazda Osmanlı himayəsində müstəqil dövlətlər qurmaq istiqamətində fəal siyasət tərəfdarı idi (14, s. 445).

Bu dövrdə Osmanlı dövləti Qafqaza bir ordu göndərmək qərarını alınca, **Ənvər Paşa bu ordunun komandanlığına öz qardaşı Nurunu təyin etdi.** Əvvəlcə ona diviziya generalı rütbəsi, sonra Paşa (gene-

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

ral) rütbəsi verildi. Bu təyinatdan sonra Nuru Paşa 1918-ci ilin martın 25-də Mosula, oradan isə Gəncəyə gəlib Qafqaz İslam Ordusunu yaratmağa başladı. **Qeyd edək ki, Nuru Paşa Gəncəyə mayın 25-də gəlib çıxmışdı.**

Ənvər Paşa

Azərbaycanın görkəmli dövlət xadimi Məhəmməd Əmin Rəsulzadə Nuru Paşanın Gəncəyə gəlişini belə qeyd edirdi: "Cənubi Qafqaz nümayəndələri ilə türk nümayəndələri Batumda müzakirələr apararkən Nuru Paşa ilə bərabər tabeliyində olan bir çox zabitlər – İran və Qarabağ istiqamətindən Gəncəyə daxil oldular. O zaman müdhiş bir anarxiyaya məruz qalan, digər tərəfdən də bolşevik təcavüzü ilə təhdid olunan **Gəncə Nuru Paşanı göydən enmiş xilaskar bir mələk kimi qəbul etmişdi. Xalqın ona göstərdiyi istiqlal Gəncə tarixində görünməmişdi"** (53, s. 39).

Nuru Paşa Gəncəyə gəldikdən sonra burada və ətraf bölgələrdə olan müqavimət dəstələrini təşkilatlandırmağa başladı.

Maraqlıdır ki, Nuru Paşa Gəncədəki vəziyyəti öyrəndikdən sonra Üçüncü ordu komandanlığına çox dəyərli və tarixi əhəmiyyəti olan bir məlumat göndərilmişdi. Nuru Paşa Üçüncü ordu komandanı Vəhib Paşaya yazdığı məlumatda bildirirdi: "Gəncədə Milli Kolordu (hərbi birlik) adında təşəkkül edən 600 nəfərlik bir qüvvət vardır. Bakıya qarşı da Kürdəmir stansiyasında knyaz Mağalov adında bir gürcü zabitinin komandası altında 400-ə qədər əsgər vardır. Bakı qətliamında gürcülərin müsəlmanlarla təşrixi-məsai etmələrinə bir əlamət və müsəlmanlarla bir cəmilə olaraq Tiflisdən göndərilmiş olan bu əsgərlərin 300-dən ibarət olan gürcüləri də Tiflisə dönüblər.

Azərbaycanın milli bir ordu yaratmaq imkanı mövcuddur. Əsgərliyə layiq çox insan vardır. Muğan kimi bölgələrdə 10 000 000 kiloya qədər də buğda və ərzaq mövcuddur. Fəqət ordu təşkili üçün paltar, silah və cəbbəxana yoxdur. Paşa həzrətləri bu xüsusda yardım edilməsini rica edir və əlavə edir ki, əsgərin təlim və tərbiyəsi üçün buraya

gələn əsgər heyəti Mosulda qaldı. Bir müddətə qədər gəlməyəcəklər. Təşəkkül edəcək əsgərə komanda etmək üzrə mümkün olduğu qədər müəllim-zabit və kiçik zabitin izamım hassaten rica edirəm. Kıtaatı (hərbi hissələri) Osmaniyyənin Gəncəyə adəti vürudu muhtemet isə bilxassə merkuz heyətə fövqəladə ehtiyacımız olacaq – olur" (60, s. 18).

Üçüncü ordu komandanı Vəhib Paşa Nuru Paşaya 1918-ci ilin iyunun 2-də yazdığı cavab məktubunda bildirirdi: "Azərbaycan hökuməti Müstəqilliyi İslamiyyəsinin tələbi üzərinə, islamları bolşevik təcavüzündən qurtarmaq üçün müxtəlif qüvvətli bir güclə Qazax üzərindən Gəncə istiqamətinə gedəcəyim. Bu mübrəzənin (batalyonun, taburun) süvarisi Qazax ilə Gəncə arasındakı istasyonları mübarizə edəcəkdir" (60, s. 19).

1918-ci il iyunun 4-də Osmanlı dövləti ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında bağlanan müqavilənin 4-cü maddələrinə əsasən (məhz həmin bənddə Azərbaycanın Türkiyədən hərbi yardım istəməyi nəzərdə tutulurdu) Azərbaycan dövlətinin rəsmi müraciətinə uyğun olaraq Vəhib Paşa 1918-ci ilin iyunun 7-də bu əmri verdi: "Beşinci Qafqaz Firqəsinin heyətinin Qazax üzərindən Gəncəyə göndərilməsini rica edirəm. Firqənin Ağstafa stansiyasından Gəncəyə qədər qatarla nəqliyyatı üçün indidən hazırlıq buyurunuq və bunun üçün serizn icab edənləri (lazım olan hər şeyi) Qazaxa göndərin. Müsəlman zabitlərindən Gəncəli İbrahimzadə Nazim Əfəndi Ağstafa stansiyası ilə Gəncə arasındakı nəqliyyatı tənzim üçün əvvəlcə Batumdan Gəncəyə göndərilmişdi. Məmurlarımız Nazim əfəndi ilə təmas etsinlər, firqənin nəzdində ikinci Qafqaz Kolordusu telsiz stansiyanın verilməsini rica edirəm. Firqə indilik əmrinizdə və Gəncədə qalacaqdır, əfəndim" (60, s. 32; 48, s. 24).

Batumda imzalanmış müqavilə əsasında 5-ci Qafqaz diviziyası Gümrü və Qazax istiqamətində iki qrup halında Qazaxa gəldi: "1-ci qrup – diviziya qərargahı; Onuncu Qafqaz alayı, Doqquzuncu Qafqaz alayına mənsub 26-cı tabur; dağ topçu taburu; istehkam bölüyü; teleqraf bölüyü; orkestr bölüyü; cəmi – 147 zabit; 2812 əsgər; 698 heyvan. İkinci qrup – 13-cü Qafqaz alayı, güclü dağ topçu taburu; Səhiyyə bölüyü; 24-cü səyyar xəstəxana; səyyar mətbəx bölüyü: cəmi – 110 zabit, 2763 əsgər, 668 heyvan (60, s. 34).

Qeyd edək ki, Beşinci Qafqaz Diviziyasının başında Mürsəl bəy (Mürsəl Paşa Baku), Baş Qərargahı rəyasətində isə Rüşdü bəy dururdu.

Nuru Paşa ordu hissələrini qüvvətləndirmək üçün Gəncədə hərbi məktəb və qısa müddətli hərbi kurslar da təşkil etdi. Eyni zamanda yaranmış Azərbaycan korpusuna bir neçə Azəri türklərindən ibarət nizami alay, Dağıstan süvari alayı və bunlardan başqa Azərbaycanın hər tərəfindən gələn arası kəsilməyən könüllülər də daxil olurdu. H. Baykara "Azərbaycan istiqlal mübarizəsi tarixi" kitabında yazırdı: "Hərbi təlim-tərbiyənin vaxtı az olduğu üçün vuruşma zamanı çoxlu tələfat olurdu. Buna baxmayaraq döyüş meydanından əsla geri çəkilməyərək "Biz buraya ölməyə gəldik, dönməyə yox" – deyərək vuruşur və getdikcə döyüş havasına alışırdılar. Azərbaycan korpusunun təşkilatı tamamlandıqdan sonra ona podpolkovnik Həbib bəy Səlimov komandanlıq edirdi " (19, s. 237).

Nuru Paşa

Rüşdü bəy isə "Bakı yollarında" əsərində Qafqaz İslam Ordusu tərkibindəki qüvvələr haqqında da maraqlı məlumatlar verir: "İlk yaradılışında cənub qrupunun qüvvələri belə idi: 4-cü piyada alayı (azəri alayı); 1-ci və 2-ci tabur, iki süvari bölüyü, azəri süvarilərindən ibarət daha bir bölük, iki qrup dağ və rus səhra topundan ibarət olmuşdur. Bundan başqa ordu alaylarına verilən Azərbaycan səhra topçu bölüyü öküzlə daşındığı üçün şosse yolundan kənara çıxa bilmirdi. Ancaq bu heyvanlar düşmənin zirehli avtomobillərini, zirehli qatarlarını qaçırmaqda və toplarını susdurmaqda çox yararlı olurdu. Əsasən toplar, Türkiyə cəbhəsini tərk edərək Rusiyaya dönən əsgərlərdən Azərbaycan partizanları tərəfindən zorla alınmışdı. Bu topların mərmiləri rus alaylarından qənimət olaraq ələ keçirilmiş və olduqca çox idi. Azərbaycan korpusunda olan silahlar Rusiyada istehsal olunmuşdu. Buna görə də mərmi sarıdan çətinlik çəkilmirdi. Amma Osmanlı ordusunda istifadə olunan silahlar üçün mərmi çatışmırdı. Döyüş zamanı Osmanlı ordusunu, Azərbaycan korpusunu Azərbaycan hökuməti və xalqı ərzaqla təmin edirdi" (60, s. 92).

Müəllif xatirələrində daha bir maraqlı məlumatı da açıqlayır: "İslam Ordusu komandanlığından 5-ci Qafqaz diviziyası komandanlığına, Bakıya hücum zamanı verilən bir əmrdə aşağıdakı qeydlər çox əhəmiyyətlidir: "Bakıya yaxın olan müsəlman kəndlərinin silahlı yardımı ilə bərabər, sizə ət, çörək və digər ərzaqla yardım edəcəkləri də şübhəsizdir. Baxmayaraq ki, indiki vaxtda Siz həmin kəndlərdən 70 km aralıdasınız" (60, s. 113).

Bakının düşmən qüvvələrdən azad edilməsi üçün Qafqaz İslam Ordusu ciddi hazırlıq işləri aparmışdı. Ordu müəyyən hazırlığını başa çatdırdıqdan sonra Bakıya doğru hərəkət etmək qərarına gəldi. İyun ayının 1920-də Gəncədən Göyçaya gələn 5-ci Qafqaz diviziyası komandanı buradakı vəziyyəti gördükdən sonra aşağıdakı məlumatı hazırlamışdı: "1, Bakı, Dərbənd və qarşımızdakı düşmən qüvvətinin 7 000 sayda olduğu; 2. Düşmənin qəti bir zərbə altında əzilməsi və Bakıya sıxışdırılması üçün; a) Geridə qalmış qüvvələrin diviziyaya birləşdirilməsi; b) Qazaxdakı 800 milis atlısının toplaşaraq cəbhəyə cəlb edilməsi; c) keçmiş Qazax kaymakamı (qəza rəisi) Məhəmməd bəylə Daşsalahlı və hazırda Gəncədə olan Əli Nağı bəyin toplaya biləcəyi 4500 atlının cəbhəyə cəlb edilməsi; ç) Göyçay, Ağdaş, Bərdə atlılarının və Gəncədə toplanacaq atlı və piyadaların vacib cinahlara cəlbi; 3. Kürdəmir-Qaraməryəm xəttindəki zərbəni qəti endirdikdən sonra qüvvələri Şəki üzərindən Qubaya və ya Şuşaya göndərmək; 4. Yuxarıda sadalananların icrası üçün əmr hazırlamalı" (60, s. 56-57).

Bu hazırlıqlar başa çatdıqdan sonra Qafqaz İslam Ordusu qüvvələri iyun ayının 28-də düşmənə ilk zərbəni endirmiş, Qaraməryəmi, Göyçayı almış və sonra Ağsunu, Kürdəmiri azad etmişdir.

İyul ayının ortalarında isə xilaskar ordu iki istiqamətdən hücuma keçmişdi: birincisi – Ağsudan Şamaxıya, digəri də dəmiryol boyu ilə Hacıqabula – Bakıya doğru irəliləməkdə idi. İyulun 3-də isə artıq xilaskar türk və azərbaycanlı qüvvələr Bakıya xeyli yaxınlaşmışdılar. **İyulun 31-də isə ordu hissələri Nəvahiyə, axşamüstü isə "Qurd Qapıları"na (Volçi-Vorotaya) gəlib çatdılar.** Bakıya hücumu yekunlaşdırmaq üçün yenidən qüvvələr toplanılır və milis gücləri cəlb edilirdi.

Həmin hadisələrdə iştirak etmiş tanınmış mühacir Məhəmməd Əli Rəsuloğlu öz xatirələrində yazırdı: "Türk ordusu qərargahına xəritə, plan yetişdirmək üçün Müsavat partiyası bütün qüvvəsilə çalışırdı. Hər gün dəniz və quru yolla türk ordusu qərargahı nəzdində bulunan dostumuz Abbas bəy vasitəsilə şəhərdəki əsgərlərin hərəkəti haq-

qında türk ordusu qərargahına lazımi məlumatlar verilirdi. Bolşeviklər bu məlumatın sürətlə öyrənilməsinə heyrət edirdilər"... (58, s. 10-11).

Bakıya qəti hücum protokolu hazırlanırdı. Bununla əlaqədar Qafqaz İslam Ordusunun komandiri Nuru Paşanın 9-10 sentyabrda verdiyi əmrdə bildirilirdi: "1. Bakıya qəti hücum üçün hazırlıq aparılacaq və bu hazırlıq haqqında 11.09.1918-ci ildə, axşam saat 21-ə qədər mənə bildirəcəkdir. 2. İndiyə qədər Şərq cəbhəsi komandanlığı əmrində olan 5-ci və 15-ci diviziyalarla cənub qrupu halında mənə tabe olacaqdır..." (60, s. 112).

Həmin əmrdə digər qüvvələrin fəaliyyət istiqamətləri ilə yanaşı belə göstəriş də vardı: "Beşinci diviziyanın Hacı Həsən-Ermənikənd istiqamətində, 15-ci diviziyanın böyük bir hissəsi ilə Biləcəri-Ermənikənd istiqamətində, digər süvari və milislər Balaxanı-Sabunçu cəbhəsində Hövsandan Əhmədli və Keşlə üzərinə hücum edəcəklər. Azərbaycan qüvvələrinə aid zirehli qatar isə Heybət stansiyası yaxınlığında Volçi-Vorotadakı düşməni məşğul edəcək" (60, s. 194-198).

Mürsəl Paşa

Sentyabrın 13-də axşam Qafqaz İslam Ordusu komandirinin "Sarıxaçlı kilsə istiqamətində irəli" – deyə orduya müraciət əmri verildi. Bu əmr Bakıya qəti hücumun sentyabrın 14-də başlayacağını bildirirdi. 14 sentyabr səhər tezdən, hələ günəş çıxmamış xilaskar ordu Şubanı dağlarından enərək Yasamal yamaclarına çıxmış və əl bombaları ilə düşməni məhv edərək şəhərin girişində dayandı. Otuz altı saatlıq qanlı vuruşdan sonra bəyaz bayraqlı avtomobildə İran konsulu ilə bərabər döyüş yerinə gələn düşmənin qərb cəbhəsi üzrə erməni komandiri şəhəri təslim etməyə hazır olduqlarını bildirdilər.

Bakının azad edilməsində 17 erməni, 9 rus və 10 gürcü zabiti ilə 1.151 erməni, 383 rus, 4 ingilis və müxtəlif millətlərdən 113 əsgər əsir alındı. Eyni zamanda düşmənin çoxlu sayda silah-sursatı da müsadirə edildi.

Bakı uğrunda döyüşlərdə 15-ci diviziyanın və 5-ci Qafqaz diviziyasının 800-1000-ə qədər itkisi olmuşdu. Döyüşlərdə şəhid olanların

sayı isə 1100-1200 olaraq göstərilir. Rüşdü bəy öz xatirələrində yazırdı: "Beşinci Qafqaz Firqəsinin dörd ay yarımdan bəri Azərbaycanın istiqlalı uğrunda çarpışaraq verdiyi şəhid və mərhumların qanları ilə sulanan bu qardaş məmləkət torpaqları üzərində, Gəncədə, Göyçay, Ağsu-Şamaxı-Bakı şossesi yolu kənarında, Müsüslü-Kürdəmir-Kərər-Hacıqabul-Bakı dəmir yolu boyunda, Qarabağda və Kür çayı sahillərində, xalqın ziyarətgahına çevrilən bir çox məzarlara təsadüf olunur ki, iştə bunlar millətinin köməyinə gəlmiş Anadolu Məhmətciyinin mübarək məzarlarıdır. Əksər yerlərdə Məhmətciklə bərabər yatan Azəri Türkləri vardır" (60, s. 202).

Rüşdü bəyin xatirələrində çox təsirli məqamlar vardır: "Eyni irqə mənsub bu iki millət arasında əlaqə və münasibət, axıdılan qanlarla bir qat daha yaxınlıq peyda etmişdir. Anadolu türklərinin, Azərbaycanın istiqlalı uğrunda yapdıqları çətin və qanlı müharibələr əminəm ki, nəsildən-nəslə nəql ediləcək unudulmaz birgə dastan halında qalacaqdır" (60, s. 203).

Rüşdü bəy

Bakının azad edilməsi Azərbaycan xalqında böyük ruh yüksəkliyi yaratdı. Azərbaycanın görkəmli dövlət xadimi Məhəmməd Əmin Rəsulzadə yazırdı: "O zaman biz İstanbulda idik. Şərqi Avropa dövlətlərinin iştirakı ilə toplanacaq konfransda iştirak üçün digər Qafqaziyə Cumhuriyyətləri ilə bərabər Azərbaycan Cumhuriyyətini təmsil edən rəyasət heyətinin tərkibində idik. O dövrün Hərbiyyə naziri və Baş Komandan vəkili olan Ənvər Paşa həzrətləri telefon etdi: - Əmin bəy, Bakı alındı! – Bu qısa xəbərin məndə tövlid etdiyi təsiri qabil deyil, təsvir edə bilmirəm. O təsiri hələ unuda bilmirəm"...(53, s. 42).

Türklərin Bakıya hücumu Azərbaycanın tanınmış ziyalılarında böyük ruh yüksəkliyi yaratmışdı. Tanınmış şair Əhməd Cavad 1918-ci ilin iyulunda yazdığı "Bismillah!" şerində xoş və səmimi hisslərini belə açıqlayırdı:

Atıldı dağlardan zəfər topları,
Yürüdü irəli əsgər, Bismillah!

O Xan sarayında çiçəkli bir qız,
Bəkliyor bizləri zəfər, Bismillah!

Ey Bakı, sən qorxma, gəldin, gələli,
Sənincin atıldıq daim irəli!
Sağ qalanlar annələrə təsəlli,
Şəhidlərin ruhu gülər, Bismillah! ***(25, s. 147-148)***

Xilaskar Türk əsgərlərinin Bakıya gəlişi hamını sevindirirdi. Türklərin gəlişinə şerlər yazılır, mahnılar qoşulurdu. Tanınmış şair Abdulla Şaiqin yazdığı intizar və məhəbbət dolu misralar türklərin gəlişini gözləyən minlərlə azərbaycanlının ürəyindən idi:

"Neçin böylə gecikdin!
Sənsiz qəlbim qırıq, sönük,
Çeynənmiş, xırdalanmış.
Ömür şüşəm daşa dəymiş,
Həyatım parçalanmış...
...Başqasını istəməm də, ey türk,
Tez gəl, sən gəl, sən!" (20, s. 551-552)

Bakının azad edilməsi münasibəti ilə Noyabr ayının 10-da Yay klubunun zalında Nuru Paşanın şərəfinə böyük bir ziyafət verildi. Tanınmış bəstəkar və jurnalist Üzeyir Hacıbəyli bu münasibətlə yazırdı: "Nuru Paşa həzrətlərinin salona vürudu əsnasında musiqi orkestri tərənnümə başlayaraq, məclis əhli ehtiramla Paşa həzrətlərini səmimiyyətlə salamladılar, hər kəs badə əlində miz başında özünəməxsus olan yerini tutub ziyafət başlandı. Yemək əsnasında Baş nazirimiz Fətəli Xan Xoyski həzrətləri birinci olaraq bəlağətli bir nitq söyləyərək, Azərbaycan türklərinin əsarət bəndindən xilası səadətinə nail olması yolunda tökülən Osmanlı Türk qanına işarə ilə "Bu qan və bu qan tökülən mübarək yerlər heç bir vaxt unudulmaz və xatirdən çıxmaz" buyurdu. Azərbaycan türklərinin təşəkkürlərini Paşa həzrətlərinə bildirib qədəh qaldırdı. O halda bütün həzərat ayağa duraraq müzəffər və şanlı komandanımız Paşa həzrətlərinin şərəfinə şərbətnuş olub sürətli alqışlarla izhari məsərrət və şadyanalıq etdilər..." (30).

Ü. Hacıbəyli ziyafət məclisində Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin də çıxışının alqışlarla qarşılandığını qeyd edirdi: "Rəsulzadə nitqinə davam edərək, - siyasi üfüqdə qara buludlar görünən kimidir, lakin bu qara buludlara qarşı Nurularımızın zülmətqovan nuru vardır, - dedikdə bütün məclis əhli ayağa qalxıb Paşa həzrətlərini xüsusi bir təzimlə alqışlamağa başladılar" (30).

Məclisdə çıxış edən Ə. Ağaoğlu isə bu sözləri söyləmişdi: "Mən Bakını İstanbulda və İstanbulu Bakıda görüb özümü o qədər bəxtiyar görürəm ki, daha ölsəm o qədər də qəmim yoxdur, dünyadan kam almış kimiyəm" (30).

Ü. Hacıbəyli yazırdı: "Bu qədər nitq və alqışlara cavab olaraq Nuru Paşa həzrətləri gözəl İstanbul şivəsi ilə ruhumuza ləzzət verən və məzmunca qəlbimizi bir çox əndişələrdən təmiz etməklə bəlağətli və səlis nitqi ilə məclis əhlini şərəfyab və minnətdar etdi" (30).

Ziyafət məclisində tanınmış tədqiqatçı Salman Mümtaz Nuru Paşaya ithaf etdiyi "Öyün, millət" şerini oxudu:

Ziyasız, rus zülmündən o yüksək
Ruhun ölmüşdü,
Tökürdü şişəyə hərdəm, şərabi-nab
Tək qanın.
Qızıl gül tək açıl, gül,
Gör ki, türkün şanlı ordusu,
Rövnəq ərşə nəsib etmiş
Böyük Osmanlı ünvanını (20, s. 548).

Tanınmış aktyor **Abbas Mirzə Şərifzadə** isə Osmanlı generallarına məxsus geyimdə zala daxil olub, Ənvər Paşanın qiyafəsində monoloq söylədi: "Ey qəhrəman türklərin igid balaları! Siz şanlı türk övladları olduğunuzu Bakının qurtuluşuna varmaqla sübut etdiniz..." (59).

Ziyafətdə Baş Nazir Fətəli Xan Xoyski "Ədirnənin fəthi" əsərinin müəllifi, gənc dramaturq Cəfər Cabbarlını Nuru Paşaya təqdim etmişdi.

Qeyd edək ki, böyük dramaturq Cəfər Cabbarlı 1919-cu ildə Bakının Qurtuluşunun bir illik yubileyi münasibəti ilə "Bakı müharibəsi" pyesini yazmış və bu əsər həmin ilin sentyabrın 16-da Abbas Mirzə Şərifzadənin rəhbərliyi və iştirakı ilə tamaşaya qoyulmuşdu.

1919-cu ildə Bakının Qurtuluşu münasibəti ilə tanınmış müsavatçı və jurnalist Mirzə Bala Məmmədzadə də "Bakı uğrunda müharibə" pyesini yazıb nümayiş etdirmişdi.

1919-cu ildə isə Bakıda "Çəmbərəkənd" qəbirstanlığında Türk şəhidlərinə abidə qoyulması ilə bağlı təməl daşının atılması mərasimi keçirilmiş və abidənin maketi də hazırlanmışdı (71a).

1920-ci ilin 27 Aprelində Azərbaycanın bolşeviklər tərəfindən süqutundan sonra həmin abidənin də qoyulması mümkün olmadı.

Təəssüflər ki, 1918-ci ilin noyabrın 17-də Müttəfiq Dövlətlər Birliyinin hərbi hissələrinin Bakıya daxil olması ilə əlaqədar Qafqaz İslam Ordusu Azərbaycandan geri çağırıldı.

II FƏSİL

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ BAKININ QURTULUŞUNUN DƏYƏRLƏNDİRİLMƏSİ

Bolşeviklərlə azərbaycanlılar arasında axıdılan qan yalnız Azərbaycan məqsədinin hüsulunu təmin etmək şərti ilə dayandırıla bilər. Bunu biz səmimi qəlb ilə arzu edirik. Çünki, məqsədimiz qan axıtmaq deyil. Bakıya malik olmaqdır. Çünki, əfəndim, ***Bakı Azərbaycanın, Azərbaycan da Bakınındır. Bakını Azərbaycandan ayırmaq istəyən kim olursa, Azərbaycanın həyatına qəsd etmişdir. Bakısız Azərbaycan təsəvvür oluna bilməz.*** *Bakı tarixən də, indi də bir türk şəhəri və müsəlman bölgəsidir. İstiqbalən də elə olaraq Azərbaycanın paytaxtını təşkil edəcəkdir".*

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ QURUCULARI BAKININ QURTULUŞU HAQQINDA

MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ:

(Azərbaycan Milli Şurasının sədri)

Təbrik teleqramı

Bakının süqutu (azad edilməsi) münasibətilə Azərbaycan hökuməti – rəisi Fətəli Xan cənabları naminə İstanbuldan teleqram gəlmişdir:

"Paytaxtımızın istirdadından (geri alınmasından) dolayı təhdidareyi alilərində bulunan hökumətimizi səmimi təbrik ilə Bakının yeni türk ellərini istixlas üçün sarsılmaz bir qələyi-mətin olması ümidi ilə bütün arkadaşlarımla öpüşürsünüz.

"Azərbaycan" qəzeti, pəncşənbə 26 zilhiccə 5 oktyabr sənə 1336 (1918), №5.

BAKI MƏSƏLƏSİNƏ DAİR MÜZAKİRƏ

Bakı alınmamşdan əvvəl bizim bədxahlarımız tərəfindən Bakını Azərbaycandan ayırmaq üçün cürbəcür vəsilələr, dürlü-dürlü hiylələr axtarılırdı.

Bu xüsusda Tiflis "məhafili" ən ciddi iqdamatda bulunurdu. Həmin "məhaildən" Bakı Azərbaycanın olmayıb, "sərbəst" şəhər (volnı qorod) olsun" şüarı da çıxmışdı. Həmin şüar Tiflis saxta sosialist vərəqələri və erməni qəzetləri rövnəq verib, Avropa siyasi məhafilinin diqqətlərini Bakı məsələsinə cəlb etmək iddiasında idilər.

Həmin məsələ xüsusunda İstanbulda nəşr edilən "Tərcümani-həqiqət" qəzeti mühərrirlərindən birinin İstanbulda Azərbaycan heyəti müəxəssəsi rəisi Məhəmməd Əmin Rəsulzadə əfəndilərinin nəzdinə göndərib bəyanat istəmişdir.

Bakı alınmış isə də Məhəmməd Əmin cənablarının bəyanatının əhəmiyyəti itməmiş. Buna görə onun bəyanatını burada dərc edirik.

Məhəmməd Əmin bəy demişdir:

"Bolşeviklərlə azərbaycanlılar arasında axıdılan qan yalnız Azərbaycan məqsədinin hüsulunu təmin etmək şərtilə dayandırıla bilər. Bunu biz səmimi qəlb ilə arzu edirik. Çünki, məqsədimiz qan axıtmaq deyil, Bakıya malik olmaqdır. Çünki, əfəndim, ***Bakı Azərbaycanın, Azərbaycan da Bakınındır. Bakını Azərbaycandan ayırmaq istəyən kim olursa, Azərbaycanın həyatına qəsd etmişdir. Bakısız Azərbaycan təsəvvür oluna bilməz. Bakı tarixən də, indi də bir türk şəhəri və müsəlman bölgəsidir. İstiqbalən də elə olaraq Azərbaycanın paytaxtını təşkil edəcəkdir.*** Azərbaycan adı belə ehtimal ki, Bakının neft ocaqlarından o dünyanın uzaq guşələrindən özünə zairlər cəlb edən daim yanar təbii atəşlərindən alınmışdır. Azərbaycan bu günkü milli və mənəvi işığını da Bakıdan alır. Bura Qafqaz islamlarının mərkəzi-ürfanıdır. Azərbaycan qabiliyyəti – həyatiyyəsini təmin edən vardatimühəmmə buradan hasil olur. Bura məmləkətimizin yeganə limanıdır. ***Bakı – Azərbaycanın qapısıdır.*** Bütün aləmin iştəhasını cəlb edən nefti olmadığı zamanlar belə Bakı Şimali Azərbaycandan ötrü əhəmiyyəti – ticariyyəyə malik mühüm bir nöqtə təşkil edirdi. İndi də o əhəmiyyəti haizdir. Bunların hamısına bərabər Bakı, əksəriyyət nüfuz etibarı

ilə müsəlmandır. Bakıda mövcud olan ərazinin, əmlakın əfar və müstəqfatın qismi-küllisi müsəlmanlardır.

Ətrafında olan kəndlər tamamilə müsəlman kəndləridir, azəri türklərdir. Xülasə, Türkiyə üçün İstanbul, Almaniya üçün Berlin, Rusiya üçün Moskva nə isə Azərbaycan üçün də Bakı ondan artıq olmasa da, odur. Bu o qədər aydın bir məsələdir ki, bunu məsələ olaraq ortaya qoymaq həqiqətən də mövcubi-heyrətdir. Bakı bolşeviklərinin rus imperialistlərinin Qafqazdakı yaradıcılarının bu fikirdə olduqlarını, azərbaycanlıların inkar üçün bu şəkli iltizam etdiklərini bilirdik. Əksəriyyəti gənclərdən ibarət olduğu məlum olan Bakı bolşeviklərinin ingilislər tərəfindən də müzahirat görərək bu yolda təhrikatda olduqlarını duymuşduq. Fəqət Almaniya dövləti – fəximəsinin bu fikrə zəhir və məhmi olacağını qətiyyən kəsdirməzdik. Tiflis qəzetindən nəql etmiş olduğunuz xəbərdə mütləq bir yanlışlıq olacaq. Şübhəsiz ki, Bakı neftinin aləmşümul bir əhəmiyyəti vardır. Əlbəttə ki, bu neft məsələsi rusları da, Qafqazdakı məktəbləri də, Türkiyə ilə müttəfiqləri də əlaqədar edir.

Madam ki, Bakı ilə əlaqə neftlə bağlı bir əlaqədir, demək ki, iqtisadi və ticari məsələ qarşısında oluruq. Bəhri-Xəzər kənarında olan Azərbaycan nefti su yerində işlədəcək de-yildir. Neft Azərbaycanın ən böyük ixracatını təşkil edir. Şübhəsizdir ki, Azərbaycan əcnəbi sərmayəsindən istifadə edəcək və bu sərmayənin Bakı ərazisində tətbiqini də hər cür vasitələrlə təhsil və təminata çalışacaqdır. Neftin əhəmiyyəti – beynəlmiləliyyəsindən istifadə üçün Azərbaycan hökuməti ilə anlaşmaq və bağlaşmaq mümkün ikən başı bədəndən ayıracaq qədər qanlı tədabirə əcəba nədən ehtiyac görülsün? Əslində bunun üçün bu etiqaddayam ki, Tiflis qəzetləri ilə nəşr olunan şaiyə qərini-həqiqət olmasa gərək. Çünki düşünürəm: sərbəst bir şəhər elan etməklə təmini təsəvvür olunan fəvaidi-müştərək Azərbaycan hakimiyyəti təxtində də təmin edildikdən sonra Almaniya diplomatiyası əcəba nə üçün Azərbaycan həyati-milliyyə və mənafeyi-həyatlarına səbəbsiz bir surətdə qəsd etsin?!" (3).

"Tərcümani-həqiqət" qəzeti, İstanbu, avqust 1918-ci il,
"Azərbaycan" qəzeti, Gəncə, türkcə, N1.

İSTANBULDAN XARİCİ İŞLƏR NAZİRİ M. HACİNSKİYƏ GÖNDƏRDİYİ MƏKTUBDAN

6 avqust 1918

"Mən bir daha Tələt Paşa və Ənvər Paşa ilə görüşdüm. Məsələ çox qaranlıq idi. İndi hər şey ötdü, onlar mənə ümid verdilər. Mən **alman səfiri Berneffoltla görüşdüm.** Bakının neytral olması barədə xəbəri Tiflis nümayəndəliyindəki bir məmurdan öyrəndim. Hər ehtimala qarşı Bakı məsələsi əhəmiyyət kəsb edir. Və almanlar bolşevikləri tam narazı salmaq istəmirlər. **Lakin nə olursa-olsun siz Bakını almalısınız.** Qoy hər kəs fakt qarşısında qalsın. Əgər bu baş tutarsa, iş tamam başqa xarakter alar" (71, s. 79-80).

FƏTƏLİ XAN XOYSKİ

(Azərbaycan Nazirlər Şurasının sədri, Daxili İşlər Naziri)

Qafqaz İslam Ordusu Komandanı, sədaqətli Nuru Paşa Həzrətlərinə!

"Qafqaz Müsəlman Ordusunun komandanı Nuru Paşaya! Xoşbəxtəm ki, xalqın adından Siz əlahəzrətlərinə, xeyirxah türk ordularına və Azərbaycan paytaxtını düşməndən azad edən inanılmış cəsur əsgərlərə təşəkkürümüzü çatdırıram" (3).

Heyəti-vukala rəisi Fətəli xan
"Azərbaycan" qəzeti, 3 oktyabr 1918, N5

ŞƏRQ ORDULARI QRUPU KOMANDANI XƏLİL PAŞA HƏZRƏTLƏRİNƏ!

"Bakının, Azərbaycanın istiqlalını, səadətini iqtisadən və siyasətəntəmin edəcək və türk aləminin ikinci bir İstanbulu olmağa layiq bir mərkəzin türkün cəngavər, namuslu övladlarının qəhrəmanə hücumları sayəsində düşmənlərindən xilası münasibətilə Zati-aliyi-həmiyyətpərvəranələrini ən səmimianə bir surətdə təbrik edirəm!" (3).

Heyəti-vukala rəisi Fətəli xan
Azərbaycan" qəzeti, 3 oktyabr, N5

NƏSİB BƏY YUSİFBƏYLİ

(Azərbaycan Nazirlər Şurasının sədri, Maarif naziri)

AZƏRBAYCAN GƏNCLƏRİNƏ

Rus dövlət cilovunun devrilib süni hüdudundan təbii hüdudu dairəsinə sıxışdığı əsnada həyati-milliyəmizə qəsd etmiş olan Romanov sülaləsinin qurduğu tələlər və əsrlərdən bəri gördüyü tədbirlər və yürütdüyü siyasət nəticəsində bu kimi təhlükəli dəqiqələrdə öz həyat və namusunu təmin və mühafizəyə yeganə mədar olacaq hər cür vəsait və tərbiyə alətindən Rusiyada yaşayan 30 milyona yaxın türklərdən başqa heç bir millət yox idi. Və bu 30 milyon arasında ən ağır vəziyyətdə olanlardan biri də heç şübhə yoxdur ki, biz Azərbaycan türkləri idik. Bununla bərabər bu gün Rusiyada sakin türk və islamların ən məsud və ən kamranı yenə biz Azəri türkləriyik. Səbəbi meydanda: son sistem silahlarla müsəlləh düşmənlə hər tərəfdən əhatə olunduğumuz əsnada türk dünyasının yeganə hamisi və türk-islam birliyinin ən böyük nikahbanı olaraq öz qardaşlarının xilası uğrunda ən bərgüzidə övladının fədayi amadə olduğunu bifel isbat edən ən cəsur əsgəri, fatehlərin, yavuzların əhfadi olan türk qəhrəmanları, türk əsgəri sərdarlığına behəqqi-layiq nəcib Nuru Paşa və müavinləri başda olaraq qardaşlıq əllərini bizə uzatdılar və sevgili vətənimizi xain və zalım düşmənlərdən xilas ilə bizi bu günkü şanlı günləri görməyə müvəffəq etdilər.

Ey cəsur Türk qəhrəmanları! Sizə layiq bir söz vardır ki, onu da Bakının alınması münasibətilə Nuru Paşa həzrətlərinə Baş vəkilimiz yazmışdır. Ondan daha münasib bir təbir tapmadığımdan onu mən də təkrar edirəm və zənn edirəm ki, üç kəlmədən ibarət olan bu cümləni Azərbaycan durduqca hər bir azərbaycanlı türk qəlbində yaşayacaq və təkrar edəcəkdir:

Millət Sizə minnətdardır.

İndi Sizə, ey Azərbaycan dəliqanlıları, sizə müraciət edirəm. Üzərinizdə nə qədər böyük və ağır vəzifə olduğunu bilirsinizmi, artıq meydanda heç bir bəhanə qalmadı. Vətənimiz düşməndən xilas oldu və olur. Silah istəyirsiniz, qardaşlarınız sizin üçün təbrik edir, top istəyirsiniz hazır, digər ləvazimat istəyirsiniz hazır, hərbi məktəb istəyirsiniz hazır, müəllimlər və zabitlər istəyirsiniz o da hazır, para, iaşə, əlbəsə, fişəng zavodları, daha sənə nə lazım isə hamısı hazır. O halda artıq nə düşünürsünüz, haydı yavrularım, haydı silah başına. Baxsana ədib şəhirin Əlibəy Hüseynzadə bir neçə həftə əvvəl olmuş bir məclisdə nə demişdi: "Ey azərbaycanlılar! Siz bir bahadırsınız ki, inşallah tez bir zamanda bir əlinizə Osmanlı dövlətini alıb, o biri əlinizə Türküstanı götürəcəksiniz. Hər ikisini yüksəldib öz başınıza tac qoyacaqsınız". İndi vəzifəni anlayırsanmı, oğlum. Haydı, silah başına. Üç aya qədər səndən 100 min əsgər istərəm və görəcəyəm. Haydı övladlarım, düşmən dörd gözlə fürsət axtarır, bir şey edə bilməyəcəklər – deyə düşünür, sənin istiqlaliyyətini qəbul etmək istəmir, sənin paytaxtına göz dikir. Varsınlar qəbul etməsinlər! Sən işində ol! Silaha sarıl! 100 min qəhrəman omuz-omuza versin, Tanrı uludur.

Varsın, düşünsünlər; istədikləri kimi düşünsünlər, yalnız söylənməsinlər. Söylərlər isə tariximizi varaqlaram və bir çox göz çıxaracaq barmaqlar buluram. Ta əski zamanlardan başlaram... Miladi İsadan 530 sənə əvvəl sənin vətənin olan Qafqaziyada böyük müharibə və qələbədən sonra kainatın ən böyük qan tökücülərindən məşhur Key-xosrovun başını öz əli ilə kəsib, qanla dolu bir qabın içərisinə atıb"Ömrün olalı qan içməkdən doymadın, indi doy" – deyən böyük türk qadın xanlarından "Tomris Xanı" göstərim. Miladdan 310 il əvvəl məşhur Çin səddini aşıb Çinin yarısını öz istilasına keçirən türk "Tomris" qaanı göstərirəm. V əsrin ortalarında Fransanın içərilərinə, Reyn çayına qədər irəliləmiş Balamir və Atilla kimi dünyaca məşhur xanları göstərirəm.

Qara dənizdən bəhri-mühiti-kəbirə qədər mümtədd bir imperatorluq təşkil edən Çingiz xanımızı göstərirəm. Dünyanı lərzəyə salan Teymur xanımızı göstərirəm. Və ya Sivrinə bayrağını rəmz edən Süleyman Sultanımızı göstərirəm. Soruşaq onlardan: nə üçün dünyaya sahib olan türklər indi öz mülklərinə malik olmasınlar. Nə üçün şansız, şərəfsiz, tarixsiz, mazisiz millətlərin istiqlaliyyətə haqları olsun ki, dünyaya ağalıq etmiş nəcib, şanlı, şərəfli, mazili, istiqlallı türk

millətimizin istiqlala haqqı olmasın?! Başqalarını idarə etməyi, həm də insancasına idarə etməyi bilən türk milləti kimi bir millət dünyada tapılmadığı halda, nə üçün öz-özünü idarə etməyə həsəd edirsiniz? Bax XIV əsrin əvvəllərində Rusiyada hökmran olan Adil xanlarımızdan Özbək xanın əmrini dinlə: "Böyük və büləND olunan Allah-təalanın mərhəməti, iradə və qüvvətli əmri ilə mən Özbək özümün təsəvvürümdə olan cümlə böyük, həm orta, həm kiçik knyazlar ki, cümlə vəzirlər, əmirlər və dəftərçi və basqaq və bazuçi ilcilər ki və hər bir hökm yürkən tərəflərin xəlqlərinə fərman edəmən: nəsari və qeyrilərinin cümlə ruhaniləri, popları, rahibləri, kənisələr və ibadət ürünləri və işbu kənisədə ibadət ürünlərinə təxsis edilən mülklər vəqflər cümləsi xəracdan və miri işlərinin cümləsindən məafdır. Bularqa heç bir qul tikəzəcək olmasın. Çünki bular Allah üçün hazırlanqanlar, bular bizgə və biznin ailəmizgə dua qılsınlar. Əgər bizə və bularqa təərrüz edib bulardan bir nərsə alacaq bulsa ondan üç misli tulatulur. Əgər birə və bularnı əza edəcək olsa, Allahının qəhri ona bulsun!

Yazıldı qoyun jilində, göz fəslindən birinci ayının dördüncü günündə".

Bu fərmanı bizi türklüyümüz və islamlığımız üçün məhv etmək fikrində olanların gözünə soxar və söylərəm ki, dünyada yaşamaq haqqı, istiqlaliyyət haqqı bizdədir. Çünki insaf bizdə, alicənablıq bizdə, mərhəmət bizdə, cəsarət bizdədir. Elə isə nə üçün biz məhv olaq və siz qalasınız? İştə təkrar edirəm, övladlarım! Türk ordusu bizim üçün cənnət qapılarını açmışdır, oraya vasil olmaq üçün dəstə-dəstə toplanın, yüz min, iki yüz min toplanın, evinizi, kəndinizi, şəhərinizi, paytaxtınızı, Azərbaycanınızı, türk ellərinizi, islam məmləkətlərinizi mühafizə üçün köksünüzü sipər edin. O vaxt bizim istiqlaliyyətimizi tanımayan tanısın.

Haydı, oğullarım, haydı silah başına! (3)

01 sentyabr 1918.
"Azərbaycan" qəzeti, pəncşənbə
26 zilhiccə (oktyabr) sənə 1336, 1918, №5.

ƏLİMƏRDAN BƏY TOPÇUBAŞOV:
(Azərbaycan Parlamentinin sədri)

"Paşa həzrətləri, biz öz müttəfiqimiz və himayəçimiz olan Türkiyəyə Azərbaycanı müstəqil görmək istədiyinə görə Sizin şəxsinizdə necə təşəkkür etməyə söz tapa bilmirəm. Bu məsələnin həllindən bizim bütün gələcəyimiz asılıdır: Azərbaycan türklərinin bu dünyada mövcud olub-olmamağı asılıdır.

Türk sərkərdə və əsgərlərinin, dövlətimizin paytaxtı olan Bakının azad edilməsi uğrunda apardığı və uğurla başa çatdırdığı qəhrəmanlıq mübarizəsi bizi Azərbaycanın müstəqilliyinin təminatına həmişəlik olaraq inandırır və arxayın edir. Bu mənada biz indi sakit ola bilərik" (95, s. 5).

İstanbulda diplomatik söhbətlər.
Bakı, 1995.

MƏHƏMMƏD HƏSƏN HACINSKİ:
(Azərbaycanın Xarici İşlər Naziri)

"Biz fikrimizi müəyyənləşdirmişik. Onlar (yəni Türklər) yalnız müstəqil Azərbaycan hökumətinin qurulmasını istəyirlər. Onlar bizim işlərimizə qarışmaq istəmirlər" (69, s. 82).

HƏSƏN BƏY AĞAYEV:
(Azərbaycan Parlamenti sədrinin müavini)

Möhtərəm deputatlar!
Bu günkü bayramın nə qədər şərəfli, nə qədər tarixi olduğunu hər kəs düşünür və anlayır. Bu bayram münasibətilə Türklük və İslamlıq yolunda şəhid düşən türk igidlərini yad etmək üçün rica edirəm ki, cümləniz qiyam edəsiniz (hamısı ayağa qalxır).

Möhtərəm əfəndilər! Bu gün düz bir ildir ki, Azərbaycanın milli mərkəzi hesab olunan Bakı düşmənlər əlindən, zalımlar əlindən xilas olmuşdur. Bizim qəvi (sağlam) vücudumuzu təşrih (kəsmək) və bədənimizi parçalamaq istəyən və hüdudumuzu çeynəmək istəyən düşmənlər keçən il martdan başlayaraq ta Kürdəmir stansiyasından igid türklər tərəfindən qovulub Bakıya soxulmuşlar və sonra dənizə tökülüblər.

Beləliklə ən müqəddəs hesab etdiyimiz paytaxtımız olan Bakını alıb bizə vermişdilər. Mayın 28-də istiqlalımız elan edilmişdir. Sentyabrən 15-də isə haqq yerinə varmış, Bakı istirdad edilmişdir (geri qaytarılmışdır).

Əfəndilər! Can bahasilə türklük və islamlıq uğrunda şəhid vermişlər, vətənimizi xilas edən türk igidlərini yad etmək ilə bərabər onu da əlavə edirəm ki, biz azəri türkləri böyük qardaşımız olan türklərin canfədalıqlarını heç bir vaxt unutmayacağıq və çətinliklə qan bahasına alınmış və bizə bəxş olunmuş istiqlalımızı müdafiə etməyi əhd edib, hər şeydən müqəddəs tutaraq əqsayi (gələcək) muradımıza nail olacağıq. Bu gün azəri cəmiyyəti-xeyriyyəsi türk şəhidlərinin adına əbədi bir nişangah qoyur. Rica edirəm saat 11-də bulvarda keçiriləcək rəsmi keçiddən sonra qəbirstana buyurub tədbirlərimizdə iştirak edəsiniz.

Azərbaycan Parlamentinin
təntənəli iclasındakı çıxışı
15 Sentyabr 1919.
Az. RDTA, sr. 895, səh. 1, iş 142, 6.1-4.

DÖVLƏTİN RƏSMİ MƏTBUATINDA – "AZƏRBAYCAN" (TÜRKCƏ VƏ RUSCA) QƏZETİNDƏ 15 SENTYABR ZƏFƏRİ İLƏ BAĞLI YAZILAR

M. Ə. Rəsulzadə

QURTULUŞ GÜNÜ

Sentyabrın 15-də Bakı bir böyük gün daha keçirdi. Bu gün millət qəhrəman şəhidinin bir illik xatirəsini qabarıq hisslərlə yad edərkən cavan ordumuzun rəsmi keçidini görməklə köksünü gərmiş, nə qədər sevinmişdir.

Dəniz kənarında qəhrəmanca bir türlü yürüyən süngü dəryasını seyr etdikdən sonra bir nəşə istiqlal olaraq istiqlalının kuşl-daşını (məhək daşını, guşə daşını) təşkil edən şəhidinin məzar daşını qoymaq üçün gedən xalqın bu gün nə qədər böyüdüyünü, nə dərəcədə etimad nəfis hasıl etdiyini görməmək mümkün deyil.

Xalqımız türk nəslinə məxsus bir mətanətlə günün sevinclə bərabər dərin bir ciddiyyət və həzin bir təsliyət (təsəlli) günü olduğunu isbat etmişdi. Bu günkü bayramını millət daşqın bir cocuq kimi deyil, mütəfəkkir bir fərd olaraq qeyd etdi.

Gənc ordumuzun əzmkaranə bir surətdə atdığı qədəmləri, ümidli bir surətdə tutduğu tüfənkləri seyr edərkən paytaxtımızın küçələrini dolduran minlərlə əhali şəhid məzarı üzərində gözəl bayramımızın daima başlarımız üzərində dik tutulacağı həddində verilən sözlərin boşunda deyil, qüvvətinə istinad etmiş bir əhdi-peyman olduğuna inanırdı.

Əvət inanırdı. Bu inamın bünövrəsini bu gün bünövrəsini qoyduğumuz qurtuluş abidəsi altında yatan şəhidlər qoymuşlarsa da heç şübhəsiz ki, onu diri bir halda tutan amil, bu məzarı saran igid əsgərlərimizdir.

Mətbuatın, ədəbiyyatın, millətin qəlbində millət və istiqlal toxumu saçan bir amil olduğu məlumdur... Gənc şairimiz şəhidlərin məzarı

üzərində əhd edirdi ki, öz nəşidələri (sevincləri) ilə ədib və mühərrirlərimiz millətin ürəklərində abidələr tikəcək. Şəhidləri unutmayacaqlardır.

Öz cümhuriyyətlərində öz əsgərlərinin rəsmi keçidini, öz hökuməti, vasitəsi ilə qəbul edən, öz ordusunun öz generalları, öz zabit və öz nəfərlərindən təşkil etdiyini görən xalqın bir il əvvəl yas və matəmlə basıq olan qəlbi bu il o qədər açılmış ki, ruhun tərcümanı olan şairlər artıq təəssüf deyil, tərif və bəliğ bir lisanca ona qarşı ərz əbkar edə bilərlər.

Əvət, ey millətin lüsanülqeybi (qeybdən xəbər verən dili olan) şairlər, ədiblər, millətin əməllərini ülviyyət və məqsədlərini oxşayınız, özünə millət sevgisi, vətən məhəbbəti, hürriyyət eşqi təlqin ediniz, gənc ordumuz bu ülvi toxumların saçılacağı yurdumuzu qoruyacaq. O böyük duyğuların zərbini təşkil edən kukəsləri kökləri) qabartdıqca qabardacaqdır.

Bu gün yalnız paytaxtımızın qurtuluşu günü olmaqla deyil, doğma ordumuzun ilk dəfə olaraq bütün ərkan və rüsaləsilə (qərargah və sərkərdələri ilə) birlikdə qarei kəlisanın (xristian kilsəsinin) nümayəndələri iştirak etmək surəti ilə paytaxtımızın üzərində parlaq bir surətdə rəsmi keçid etdiyi gündür. Bu etibarla Sentyabrın 15-i Qurtuluş Günüdür! (5).

"Azərbaycan" qəzeti, 18 sentyabr, 1919, №62.

Hadi bəy

BAKININ AZAD OLUNMASININ İLDÖNÜMÜNƏ

Şənliklər, bacarıqlı musiqi oxucuları sırasında Azərbaycanın səmimi oglanları uzaq ölkədən öz azərbaycanlı qardaşlarının köməyinə gəlmiş və öz qanı ilə Yanardagın, Yasamalın və Badamdarın zirvələrini suvarmış, ürəklərindən və Azərbaycanın paytaxtından mart hadisələrinin qəhrəmanlarını, çiçəklənən Şamaxının, Qubanın və onlarla müsəlman kəndlərinin dagıdıcılarını qovmuş cəsur qəhrəmanları qarşısında baş əyəcəklər.

Bu gün məscidlərin qübbəsi altında, meydanlarda, azərbaycanlıların toplaşdıgı hər bir yerdə, xalq ürəyinin dərinliyindən geniş dalga ilə azərbaycanlılara minnətdarlıq edir və öz diyarının, paytaxtının ölmüş xilaskarlarının əbədi xatirəsini daşıyır.

Çox təəssüflər olsun ki, belə mərasim heç kimə lazım olmayan qurbanların qanı ilə çirkləndi. Bizə məlumdur ki, şəhərdəkilər ədavət və səbirsizlik göstərməsəydilər və şəhərin təhvil verilməsi haqqında təklifi qəbul etsəydilər, qəmli sentyabr hadisəsi çətin ki,baş verərdi.

Hər bir rütbəli və mövqeli avantüristlərin siyasi oyunu Azərbaycanı, xüsusilə də minlərlə insan qurban vermiş və özünün əsrlərlə qorunub saxlanılmış ehtiyatlarını itirmiş erməni-türk demokratiyasına çox baha başa gəlirdi.

Bu itkilərə Azərbaycanın azadlığı və işıqlı gələcəyi uğrunda cəzaları yüngülləşdirilmiş qurban kimi baxaq.

Xatırladaq ki, yaz aylarında ərimiş qarların suyu öz yolunda agacları, heyvanları və hətta insanları tutaraq səs-küylə aşagıya dogru axır. Lakin sakitlik yarananda torpaq yaşıllıqla,agaclar yarpaqla örtülür və bütün təbiət canlanır.

Aylarla bizim ölkəmiz üzərində sərt firtına vıyıldayır, qasırga və tayfun hökmranlıq edirdi. Lakin indi uzunmüddətli sakitlik yaranıb və buna bizi gənc respublikamızın yaradıcı həyatı əmin edir.

Həqiqətən dövlətçiliyimizin əsasının möhkəmləndirilməsi və sərbəst mövcudluğu bizim qanuni hüququmuzu möhkəmləndirmək üçün daha çox əziyyət və çətinlik tələb edir.

Vətənə sevgi və özünün xalq və tarix qarşısında məsuliyyətini dərk etmək bizim hər birimizdən daima vətənimizin maraqlarının qoruyucusu olmağı və düşmənlərimizdən qorumağı tələb edir.

Yaradıcılıq inşaatı yoluna daxil olmuş dövlət daima və müntəzəm olaraq sag- soldan təhlükəyə təhrik olunurdu. Hətta milli mərasimlər günü də biz illuziyaya təslim ola bilmərik, əksinə xalqın ruhunun yüksəldiyi andan istifadə etmək və hökumətə və qanunvericilik müəssisələrinə dəstək göstərmək lazımdır.

Hakimiyyətin xalq kütləsindən dayaq aldığına əmin olduqdan sonra o, möhkəm siyasət aparmaq və ölkəni xarici təhlükələrdən qorumaq iqtidarındadır.

Əgər azadlığa dogru düz yol açılarsa,ürəklərimizin dərinliyində doğma diyarımıza olan müqəddəs sevgi alovu sönməyibsə tam əmin ola bilərik ki, Azərbaycanın bir daha qalxan üç rəngli bayragı bir daha enməz, nə qədər təhlükə olursa olsun.

Azərbaycanın paytaxtının azad olunmasının ilk ildönümünün təmtəraqlı anında xatırlayaraq ki, bu həmin gün vətənə hədiyyə olacaq müqəddəs and içirik, nə qədər ki, onun sevimli və sadiq oğulları yaşayır, o qədər də onun bayrağı daim yüksələcək.

"Azərbaycan" qəzeti,1919, №197

C. DAĞISTANİ
(Ceyhun Hacıbəyli)

TARİXİ GÜN

Səkkiz-i zilhicceyi-haram 15-i Eylul (Sentyabr) bütün Türk və İslam aləminin ən səadətli, ən şövkətli günlərindən ədd olunacağı şübhəsizdir. Haman gün türk və islam tarixində zərrin (qızıl) bir səhifə işğal edəcəkdir.

Həmin gün Bakı süqut etdi. Bakının süqutu yalnız bir Azərbaycan deyil, bəlkə bütün türk və islam aləmi üçün siyasi və mənəvi nöqteyi-nəzərdən ali mövqe açr. Həmçinin əks surətdə kürreyi-zəmində yaşayan bütün türk və islam övladlarına onun mətəməngiz bir təsiri olacaq idi. Çünki siyasət meydanına atılan mətaziqiymət (qiymətli) idi. Haman mətatürk öğlunun namus və şərəfi idi.

Türklük və islamlığın ən mühib (təhlükəli) düşmənlərindən olan müstəbid Rusiya dövlətinin xarabazarlığından yaşıl budaq kimi ovcisəmayə (göyn ənginliklərinə) qalxan yeni, bir-birinə sarılmış türk milləti dörd bir tərəfdən əsən yellər, gələn fırtınalar qarşısında cavan qədd-qamətini əyəcəkmi, ya bu ruzigarı-xəsimanədən (düşmən hücumlarından) sağ və salim çıxacaqdır?

Əslində hamının diqqətini cəlb edən məsələ bu idi. Bunu həm dost, həm düşmən kəmali-diqqətlə dinləyib gözləyirdi. Öz-özlərinə buraxılmış türk övladı istedadmı və kəsalətmi (süstlük) göstərəcəkdilər? Dostlar bunu böyük bir iztirab içində, düşmənlər isə məxfi saxlanıla bilməyən təhqiranə bir xüsumət (düşmənçilik) və ədavətlə gözləyirdi.

Türklük və islamlıq əleyhinə bəslənilən ədavət və bədxahlıq o dərəcədə idi ki, düşmənlər hətta öz mənafelərindən belə vaz keçib türk ordusuna məğlubiyyət dilərdi. Halbuki, elə olduqda bütün Qafqaz qan içində çabalayıb, bütün Qafqaz millətlərinin rahatca güzəranı paymal olub gedərdi.

Lakin beminnətil-kərim (şükürlər olsun ki) düşmənlər öz məramlarına yetmədilər, məyus oldular. Türkün qəhrəman oğlanları öz istedadlarını, öz rəşadətlərini, özlərinin yaşamaq üçün ölməyə hazır olduqlarını bütün aləmin gözünə çarpdılar. Və bundan belə yüz illərlə başqalarının təhtitəzyiqində əzilən milyonlarca dindaş və millətdaşlarımıza böyük ümidlər bəxş etdilər.

İndi növbə onlarındır! (3).

"Azərbaycan", 3 oktyabr, 1918, №5.

ÜZEYİR HACIBƏYLİ

NURU PAŞA HƏZRƏTLƏRİ ŞƏRƏFİNƏ BÖYÜK BİR ZİYAFƏT

10 təşrini-sani (noyabr) yekşənbə gününün axşamı Bakı şəhər əhalisi tərəfindən qəhrəman ordumuzun şanlı komandanı Nuru Paşa həzrətləri şərəfinə yay klubunun zalında böyük və təntənəli bir ziyafət verildi.

Klubun içi və dəhlizləri gözəl və qiymətli xalılarla döşənmiş, divanları da ayulduzlu al bayraqlarla bəzənmiş idi: yuxarıda böyük musiqi orkestri, aşağıda da həm Osmanlı və həm Azərbaycan türklərinə məxsus milli sazəndə və xanəndələr tərənnüm etməkdə idilər.

Hökumət əhlindən ümum nazirlərimiz Baş nazirlə bərabər, şəhərimizin bütün böyük məmurları, ümum zabitan əfəndilər, İran konsulu cənabları, ziyalılarımız, böyük tacirlərimiz və sair əyan və əşrəf ziyafətdə hazır idilər.

Nuru Paşa həzrətlərinin salona vürudu əsnasında musiqi orkestri tərənnümə başlayaraq, məclis əhli ehtiramla Paşa həzrətlərini səmimiyətlə salamladılar; hər kəs badə əlində miz başında özünəməxsus olan yerini tutub, ziyafət başlandı.

Yemək əsnasında **Baş nazirimiz Fətəli Xan Xoyski** həzrətləri birinci olaraq bəlağətli bir nitq söyləyərək Azərbaycan Türklərinin əsarət bəndindən xilası səadətinə nail olması yolunda tökülən Osmanlı Türk qanına işarə ilə "Bu qan və bu qan tökülən mübarək yerlər heç bir vaxt unudulmaz və xatirdən çıxmaz" buyurdu, Azərbaycan Türklərinin təşəkkürlərini Paşa həzrətlərinə bildirib qədəh qaldırdı. O halda bütün həzərat ayağa duraraq müzəffər və şanlı komandanımız Paşa

həzrətlərinin şərəfinə şərbətnuş olub sürətli alqışlarla izhari-məsərrət və şadyanlıq etdilər.

Həqiqət, bu böyük məclisdə hamının, xüsusilə Bakı əhlinin olmazın dərd, möhnət, bəla və zillət çəkdiklər və olmazın həqarətlərə düçar olduqları ağarmış saç-saqqallarından, solğun çöhrələrindən, məhzun gözlərindən bəlli olan üzlərində bu axşam o qədər bəxtiyarlıq və bundan irəli gələrək o dərəcə şükr və səna əlaməti peyda idi ki, keçmiş qara günlərin fəna təsirləri bu gün nail olduğumuz ağ günlərin müqbilində unudulmaq üzrə olduğu aydın və aşkar idi!

Yox! Fəna təsirləri unudulur, fəqət o təsirləri buraxan qara günlər unudulmaz: onları unutmaq üçün ya filosof olmalıdır, ya laübalı!..

Nə qərib təsadüf:

Təqribən bir il bundan əvvəl, bu gün ay-ulduzlu Türk bayrağı ilə bəzədilmiş bu salonda bolşevik Suxarçev, Nikolay Romanova məxsus bir zalım hakim vəziyyətini alaraq, hüquq siyasəti və insaniyyətləri xüsusunda ağız açmağa "cürət" edən Bakı müsəlmanlarını təhdid yolu ilə "Bakıda daşı daş üstə qoymaram!" – deyə meydan açırdı.

Buna qarşı olaraq **Milli Şura sədri Məhəmməd Əmin Rəsulzadə** yoldaşımız: "Əlbəttə! Biz azadlıq yolunda mübarizə edirik, nəticədə bizə ya istiqlaliyyətimiz qalar, ya uçurulmuş daşlar! Fəqət əmin olun, müvəqqəti qələbə sizin üzərinizdə olsa da, daimi zəfər bizimdir!" – deyə gələcəkdən xəbər vermişdi. Bu axşam Rəsulzadə cənabları öz səlis nitqində bu fəqərəni yada salıb qanlı və həqşəkən Suxarçevlərin mühazirə oxuduğu bu meydanda bu gün daimi və əzmli bir Türk zəfərinin bayram edilməsinə işarə ilə haqq sözün haqq yerinə düşməyindən ötrü razılıq etdi.

Yox! Əgər Suxarçev bu axşam klub salonuna bədnəzər yetirib bu al bayraqları, bu şanlı komandanları, bu qəhrəman zabitləri, bu cəsur əsgərləri, bu bəxtiyar çöhrələri görsə idi, hədəsinin nə qədər gülünc və əbəs olduğunu özü də etirafa məcbur olardı.

Rəsulzadə nitqinə davam edərək, - siyasi üfüqdə qara buludlar görünən kimidir, lakin bu qara buludlara qarşı Nurularımızın zülmətqovan nuru var, - dedikdə bütün məclis əhli ayağa qalxıb Paşa həzrətlərini xüsusi bir təzimlə alqışlamağa başladılar.

Bir ildən bəri əziz qonağımız və keçirdiyimiz qara günlərə bizimlə bərabər şərik olan Rövşəni bəy həzrətlərinin bəliğ nitqi o qədər yanıqlı və o qədər atəşli idi ki, həzəratın üzərində böyük bir təsir buraxdı: əqi-

də amalımıza yetmək, azad edilmiş hüdudumuzu son qüvvəmizlə saxlamaq və bu yolda hər bir fədakarlığa hazır olmaq üçün bu gecənin şərəfinə həmin lüzumundan bəhslə məclis əhlinin ruhunu yüksəldirdi.

Həzərat aramızda oturan bir nəfərin nitqinə müntəzir görünürdü: bu cənabın illərdən bəri eşitmədiyi səsini eşitmək, fikrini bilmək, nəzəriyyəsindən xəbərdar olmaq istəyirdi. **O möhtərəm cənab sevgili ustadımız Əhməd bəy Ağayev** idi ki, nitq söyləmək üçün yerindən qalxarkən salonda dərin bir sükunət əmələ gəlib, hər kəs bütün diqqətini ona tərəf yönəltdi.

Əhməd bəyin nitqində bəzilərinin gözlədiyi atəş yox idi, amma həqiqi bir səmimiyyət vardı: "Mən Bakını İstambulda və İstambulu Bakıda görüb, özümü o qədər bəxtiyar görürəm ki, daha ölsəm o qədər də qəmim yoxdur, dünyadan kam almış kimiyəm" – kimi sözləri o, səmimi bir hisslə söyləyirdi ki, eşidənlər də özünün Əhməd bəy kimi bəxtəvər və bəxtiyar hiss edirdilər.

Biz Əhməd bəyin nitqini icmala cəsarət etməyib, tamamilə qəzetimizdə dərc üçün lütfən bizə göndərilməsi ümidilə oxucularımızı səbrə dəvət edirik.

Bu qədər nitq və alqışlara cavab olaraq Nuru Paşa həzrətləri gözəl İstanbul şivəsilə ruhumuza ləzzət verən və məzmunca qəlbimizi bir çox əndişələrdən təmiz etməklə bəlağətli və səlis nitqilə məclis əhlini şərəfyab və minnətdar etdi.

Bu nitqin təsiri ilə idi ki, hər kəsdə gələcəyə artıq əndişəsiz bir nəzər əmələ gəlib özündə böyük bir ümid, yüksək bir hiss edərək, xoşbəxt və xoşvaxt bir hal ilə bir-birini təbrik edib məclisə xitam verdilər(2).

Müəllifin bu məqaləsi "Ü" imzası ilə çap edilib.
"Azərbaycan" qəzeti, 1918, №37.

BAKI, 15 SENTYABR 1919-CU İL
(Bakının Qurtuluşunun 1 illik yubileyi)

Əgər 28 Mayı biz müstəqilliyimizin elanının rəsmi günü olaraq qəbul ediriksə, onda 15 Sentyabrı Azərbaycan qoşunlarının və Azərbaycan hökumətinin Bakıya daxil olması günü sayırıq. Çünki məhz bu gündən müstəqilliyin faktiki qazanılması və dövlətçiliyin əsaslarının yaradılması başlanılmışdır.

Bu gün, təşkilatlanmış daşnak-bolşevik qüvvəsi tərəfindən nəinki Azərbaycanın və digər Zaqafqaziya respublikalarının müstəqilliyinə, həm də Zaqafqaziyadakı türk xalqlarının fiziki mövcudluğuna olan ölüm təhlükəsini aradan qaldırdığı gündür. Bu, Şamaxı uyezdini bürümüş və Azərbaycanın digər uyezdlərinə də od ələyən böyük bir yanğının söndürüldüyü gündür. Bu, Azərbaycan xalqının düşmənləri tərəfindən hazırlanmış böyük bir planın ləğv olunduğu gündür.

Azərbaycanın siyasi müstəqilliyinin elan edildiyi gün bütün xalqa aydın oldu ki, Azərbaycan özünün mədəni, milli, iqtisadi və siyasi mərkəzi olan Bakısız mövcud ola bilməz. Hamıya aydın idi ki, Azərbaycanın ürəyi, onun milli mövcudluğunun mənbəyi olan Bakının alınması gənc Azərbaycan hökuməti və bütün xalq üçün "condito sine gua non" (latınca – "mütləq şərt") deməkdir.

Maddi vəsait, sursat və təşkilatlanmış ordusu olmadan gənc respublikanın qüvvələri əzəli mərkəz saydıqları Bakıya daxil olmaq üçün sayca özlərindən qat-qat çox olan daşnak-bolşevik bandaları ilə mübarizəyə girdilər. Gənc respublika bu mübarizənin nə ilə nəticələnəcəyini görə bilməsə də, möhkəm əmin idi ki, ədalətin və oyanmış xalqın milli, mədəni və siyasi hüquqlarının müdafiəsi işi kobud fiziki güc üzərində qələbə çalacaq.

Türkiyə qoşunları Azərbaycan Respublikasına köməyə hansısa imperialist məqsədlər naminə və işğalçılıq üçün gəlməmişdi. Onlar özlərinin qardaşlarını xilas etmək məqsədilə gəlmişdilər və Azərbaycanın savaş meydanında qanlarından fədakarcasına keçərək qardaşları qarşısında borclarını yerinə yetirdilər.

Alicənab Azərbaycan xalqı Türkiyə qoşunlarının əvəzsiz xidmətlərini heç vaxt unutmayacaq və onların Azərbaycan qoşunları ilə Bakıya birgə girişi xalqımızın tarixinin ilk səhifələrinə həkk olunacaq.

Əgər 28 Mayı biz müstəqilliyimizin elanının rəsmi günü olaraq qəbul ediriksə, onda 15 Sentyabrı Azərbaycan qoşunlarının və Azərbaycan hökumətinin Bakıya daxil olması günü sayırıq. Çünki məhz bu gündən müstəqilliyin faktiki qazanılması və dövlətçiliyin əsaslarının yaradılması başlanılmışdır.

Biz bilirik ki, Bakının alınması günahsız qurbanlarla da müşaiyət olunub. Biz bunları dərin kədərlə xatırlayırıq, amma müharibənin təbiəti və onun nəticələri belə hallarsız ötüşmür.

Tarix həmişə öz hüdudlarını müdafiə edən xalqa münasibət bəsləyib. Və tarixin Azərbaycana köməyə göndərdiyi Osmanlı imperiyasının mərd oğulları öz qan qardaşlarına yardım etmək üçün dağ və dərələrdən keçərək, hər cür çətinliyə, aclığa və əzaba dözərək bolşevik cəbhələri üzərinə şığıdılar.

O vaxtdan bir il keçib. Bu vaxt ərzində Azərbaycan dövlətçiliyi siyasi çaxnaşmada, xarici və daxili təhlükələr içərisində yavaş-yavaş cücərib və möhkəmlənib. Və indi fikrən bir il əvvələ qayıdaraq gənc respublikanın necə özünü qoruduğunu, özünün siyasi gücünü təsdiq etdiyini düşünəndə, bir illik müstəqil siyasi həyat dövründə əldə olunmuş nailiyyətləri analiz edəndə, möhkəmlənən dövlətçiliyi və gənc respublikanın həyatının bütün sahələrində qurulmuş qaydaqanunu görürük. Bu zaman aydın olur ki, Azərbaycan dövlətinin və xalqının zəifləməyən inkişaf tempi gələcək siyasi həyat və dövlətçilik quruculuğunda indiyədək görünməmiş qabiliyyət vəd edir (6).

"Azərbaycan" (rusca),
15 Sentyabr, 1919-cu il, N197.

ELAN

"Qafqaz İslam Ordusunun komandiri Nuru Paşa hər gün saat 10-dan 12-yə qədər gələnləri qəbul edir. Qəbula gəlmək istəyən şəxslər adyutanta növbəyə yazılsınlar."

"Azərbaycan" qəzeti (rusca),
15 Sentyabr, 1919-cu il, N197.

AZƏRBAYCAN ŞAİR VƏ YAZIÇILARININ TÜRKLƏRİN BAKINI AZAD ETMƏSİNƏ HƏSR OLUNAN BƏDİİ ƏSƏRLƏRİ

ƏHMƏD CAVAD

GƏLMƏ!

Bu dağlar mənimdi: yeni gün gördü,
Boğar səni ahım, ey duman gəlmə!
İnanma fələyə dönükdür üzü,
Bir üzə gülməyir, hər zaman gəlmə!

Ey yağmursuz bulud, uğursuz gəlmə!
Dəyişməm mən alı o çirkin rəngə.
Sevdası könlümdə bir darğın ölkə,
Baxar yad gözlərə pək yaman, gəlmə!

Könüllər bir dəniz, coşdurma onu,
Coşqun könüllərin fırtına sonu.
Sən ey şimal yeli, gəl etmə bunu,
Yox isə əmrinə uyanlar, gəlmə!

Sən ey gözlərimə batan quruntu,
Sağlam bir imanə səndən nə qorxu!
Bəslərsə vicdanlar pək böyük duyğu,
Yenilməz bir qələ hər heçdən, gəlmə!..(25, s. 139)

11 noyabr, 1919, Bakı.

Qaliblərin təkrar Bakıya gələcəyi xəbəri çıxdığı vaxt söylənmişdir.
Seçilmiş əsərləri, I cild, Bakı, 1992, səh. 139.

İNGİLİS

Bakıya gəlmişsiz salam verməyə,
Ey Xan sarayını tutan ingilis!
Gedərkən Kəbəyə Hacı karvanı,
Hacı karvanını tutan ingilis!

Damağında Çanaqqala ağısı,
Sənmisən türk ellərinin yağısı?
İslam dünyasını ölüm çalğısı,
Ölüm niyyətilə yaxan ingilis!

Sarıb Hindistanın cansız qolunu,
Gəldin bağlamağa Turan yolunu.
Aldadıb hər yerdə Tanrı qulunu,
İnsanları ucuz satan ingilis!

Bax yenə qarşımda köksümü açdım,
Bakı dağlarına al bayraq sancdım.
Sən meydan oxudun, gəldim, ulaşdım,
Mərd deyil meydandan qaçan, ingilis!

Sən bağla hər yolu, süngüm tez açar,
Üç ayda gələnlər üç gündə qaçar.
Zənn etmə qurşunum havalı uçar,
Türkdür bu qurşunu atan, ingilis.

O xain gözünü dikdiyin ellər,
Mənim nişanlımdır, türkülər söylər...
Göz dikmə taxtıma, bax əlim titrərə,
Düşəcək təxtinə talan, ingilis! (25, s. 150-151)

Bu parça 12 sentyabr 1918-ci ildə əsgərlərimiz tərəfindən Bakı mühasirə edildiyi vaxt Bakı ətrafında olan Güzdəkdə söylənmişdir.

Seçilmiş əsərləri, I cild, Bakı, 1992.

ŞƏHİDLƏRƏ

(Azərbaycandakı Osmanlı şəhidlərinə)

Qalx, qalx! Sarmaşıqlı məzar altından,
Gəlmiş ziyarətə qızlar, gəlinlər.
Ey karvan keçidi, yollar üstündə,
Hər gələn yolçuya yol soran əsgər!

Sənin qovduqların yabançı xanlar,
Qurtardı ölkəmi tökdüyün qanlar!
Bax nasıl ölməkdə tozlar, dumanlar,
Qərib məzarını mən də bərabər!

Sənin qanındanmı düzlərdə böylə,
Qüdrət bitirmişdir sayılmaz lalə?!
Dost elindən qopdu bir yanıq nalə,
Yoxsa o nalənin ruhumu söylər?!

Keçərkən göylərdən bir qatar durna,
Ağlar buraxdığın gözləri sorma!
Bax doğru çıxmaqda gördüyün röya,
Bəslədiyin əməl bu gün gülümsər.

Çarıqlı qardaşın sadədil köylü,
Gəldi məzarına bir örük urdu.
Toplanıb baş-başa hər üçü-dördü,
Hər gün köylü qızlar dərdini dinlər! (25, s. 154-155)

10 mayıs 1919, Gəncə.
İstiqlalımızın bir illiyi münasibətilə çıxan "İstiqlal" məcmuəsi üçün verildi.
Seçilmiş əsərləri, I cild, Bakı, 1992.

TÜRK ORDUSUNA

Ey şanlı ölkənin şanlı ordusu,
Unutmam Qafqaza girdiyin günü!
Gəlirkən qovmaya Turandan Rusu,
Ayağını Qara dəniz öpdümü?

İlk atarkən əski bürcə addımı,
Qars qalası salam topu atdımı?
Sən yaparkən orda zəfər şənliyi,
Məğlub düşmən qaşlarını çatdımı?

Çıxdığın gün Allah əkbər Dağına,
Dağıstan dağları qibtə eylədi.
Baxdım Sarayıviran tağına,
"Sən gəlirsən şən oluram" – söylədi.

Gəldiyin gün Kürün axar-baxarı,
Əski günahlardan silkindi, çıxdı.
Eşidib Gümrüdə təkbir səsini,
Araz sevincindən dünyanı yıxdı. (25, s. 152-153)

1918, Gəncə.
Seçilmiş əsərləri, I cild, Bakı, 1992.

ÇIRPINIRDIN QARA DƏNİZ

Çırpınırdın Qara dəniz,
Baxıb Türkün Bayrağına.
"Ah" deyərdin heç ölməzdim,
Düşə bilsəm ayağına!

Ayrı düşmüş dost elindən,
İllər var ki, çarpar sinən...
Vəfalıdır gəldi, gedən,
Yol ver Türkün Bayrağına!

İncilər tək, gəl yoluna,
Sırmalar sən sağ-soluna.
Fırtınalar dursun yana,
Salam Türkün Bayrağına!

"Həmdiyyə" o Türk qanı,
Heç birinin bitməz sanı.
"Kazbek" olsun ilk qurbanı,
Heyran Türkün Bayrağına!

Dost elindən əsən yellər,
Bana şer, salam söylər.
Olsun bizim bütün ellər,
Qurban Türkün Bayrağına.
Yol ver Türkün Bayrağına. (25, s. 149-150)

1914, Gəncə. 1918-ci ildə Qafqaz İslam Ordusu Bakını azad etdikdən sonra bəstəkar Üzeyir Hacıbəyli bu şerə musiqi bəstələmişdir. Seçilmiş əsərləri, I cild, Bakı, 1992.

BİSMİLLAH

Atıldı dağlardan zəfər topları,
Yürüdü iləri əsgər, Bismillah!
O Xan sarayında çiçəkli bir qız,
Bəkliyor bizlərdən zəfər, Bismillah!

Ey döyünən ürək, dumanlı şəhər,
Bilirmisən bu zor gurultu nədir?
Aç sisli qoynunu Ordumuz gəlir,
Nişanlın qoynuna girər, Bismillah!

Ey hərbin taleyi, bizə yol ver, yol!
Sən ey gözəl dəniz, gəl Türkə ram ol!
Sən ey sağa, sola qılınc vuran qol,
Qollarına qüvvət gələr, Bismillah!

Ey Bakı, sən qorxma, gəldik, gələli,
Sənincün atıldıq daim irəli.
Sağ qalanlar annələrə təsəlli,
Şəhidlərin ruhu gülər, Bismillah!

Ey düşmən alnının yazısı qara,
Öldürməz bizləri vurduğun yara.
Yolladığın qurşun ərməğan sana,
O kirli alnını, öpər, Bismillah!

Sən mərd olub dursan qarşımda əgər,
Qudurğan saçmalı növbətin keçər.
Saxlandığın topraq qanını içər,
Yurdum olmaz sana sipər, Bismillah!

Yurdumuzda bizə meydan oxuyan,
Murdar cəmdəkləri murdar qoxuyan.
Təkbur səslərini uzaqdan duyan,
Düşmənimiz aman istər, Bismillah! (25, s. 147-148)

Seçilmiş əsərləri, I cild, Bakı, 1992.

EY ƏSGƏR

(Ordumuza ərməğan)

Dağa, daşa sancağını öpdürüb,
Duman kimi bu dağları bürüdün!
Dənizlərə salam rəsmi yapdırıb,
Göylərdəki bulud kimi yürüdün!

Yürü, yürü batan günün izinə,
Gülümsəyir doğan Günəş yüzünə.

Baş əydi, bax, toplarının səsinə,
Yad ellərin yıldırımı, şimşəyi.
Quzğun kimi qurumağa başladı,
Səni görən cəlladların biləyi!

Yürü, yürü batan günün izinə,
Gülümsəyir doğan Günəş yüzünə.

Arslan kimi saldırdığın düşmana,
Ər oğlu ər olduğunu göstərdin!
Fələk bu gün uyğun sana, deyir ki,
Türk əsgəri, sən böyləmi istərdin?

Yürü, yürü batan günün izinə,
Gülümsəyir doğan Günəş yüzünə.

Qardaşlığın fərmanına baş əyib,
Məzlumların imdadına yetişdin!
Qaranlıqda süngün sana yol açdı,
Sən o yoldan muradına yetişdin!

Yürü, yürü batan günün izinə,
Gülümsəyir doğan Günəş yüzünə.

Ey Türk, sənin hansı dində oluğun
Minarəyə buyur, bizə söyləsin!
Eşitməyən qulaqlara səsini,
Əsən yelə buyur, xəbər eyləsin!

Yürü, yürü batan günün izinə,
Gülümsəyir doğan Günəş yüzünə.

Şu qarşıkı duman çıxan bacadan,
Sən gəlmədən iniltilər çıxardı.
Geciksəydin, məzlumların fəryadı,
Yeri, göyü, kainatı yıxardı.

Yürü, yürü batan günün izinə,
Gülümsəyir doğan Günəş yüzünə.

Ey Türk, bana sevda çiçək bu şeylər,
Göydə hilal, yerdə sənin sancağın!
Dumanlardan göndərdiyim salamı,
Gətirdimi sana ana torpağı?

Yürü, yürü batan günün izinə,
Gülümsəyir doğan Günəş yüzünə. (25, s. 151-152)

Seçilmiş əsərləri, I cild, Bakı, 1992.

MƏHƏMMƏD HADİ
ƏBDÜLSƏLİMZADƏ

TÜRKÜN NƏĞMƏSİ

Türkün tökülən qanları bihudə gedərmi?
Diqqətlə düşün, yoxsa bu qan həpsi hədərmi?
Dörd ildə verilmiş bu qədər can hədər olmaz,
Məfkurə yolunda tökülən qan hədər olmaz,

Qiymətli olan xuni-şəhidan hədər olmaz,
Dul qalmış olan noheye-nisvarı hədər olmaz,
Bax sən sonuna, himməti-türkan hədər olmaz,
Bədbəxt olan əfqani-yetiman hədər olmaz.
Türkün tökülən qanları bihudə gedərmi?
Diqqətlə düşün, yoxsa bu qan həpsi hədərmi?

Qan ilə qazandıq zəfəri, verməyiz əldən,
Xof eyləmədik atəşi-dəhhaşe-dövlətdən,
Bir zərrə belə qorxmayırız dəst-əcəldən,
İstərsə cahan çevrili, varsın da təməldən,

Türkün üzü çevrilməyəcək səmti-əməldən,
Türklər geriyə dönməyəcək müslih əməldən.
Yüksək yaşamaq istər ikən cümlə miləldən:
Türkün tökülən qanları bihudə gedərmi?
Diqqətlə düşün, yoxsa bu qan həpsi hədərmi? (1)

"Azərbaycan" qəzeti, 1918-ci il, N1.

ŞÜHƏDAYI-HÜRRİYYƏTİMİZİN ƏRVAHINA İTHAF

Sizin məzarınız iştə qülubi-millətdir!
Bu sözlərim yürəgimdən qopan həqiqətdir.
Sizi unutmayacaq şanlı millətim əsla,
Əmin olun buna, ey zinəti-cahani-vəfa.
Sizinlə buldu bu millət şərəfli istiqlal,
Sizinlə buldu bu millət həyati püriqbal.
Bu günlər etmədə əhli-vətən sizi dəryad,
Salamlayır sizi iştə bu millət-azad.
Müəbbədən diridir namınız bu dünyada,
Sizin də ruhunuz uçsun behişti-əlada.
Bizi xilas edərək pənceyi-əsarətdən,
Nicatbəxş olaraq dəsti-əhli vəhşətdən.
Çəkildiniz əbədi xüldzari-rəhmanə,
Behişti-rəhmətə yəni: diyari-rəxşanə.
O xuninizlə açıldı bəhari-hürriyyət,
Sizin də yurdunuz olsun behişti-ülviyyət. (20, s. 546)

Bakı, 31 mart 1919.
"Azərbaycan" qəzeti, 1919-cu il, 31 mart.

ZƏFƏRİ – NƏHAYƏYƏ DOĞRU...

Mərd olan əsgərliyi təqdir edər əzyan ilə,
Əsgər olmaq fərzdir hər mömünə Quran ilə.
Əsgər olmaq bir şərəfdir Trk üçün, İslam üçün,
Əsgəriyyətlə yaşar millət həyatı şan ilə.
Ən işıq bir ömr istərsək günəş altında biz,
Durmalı iddiayə qarşı qeyrəti-rəxşan ilə.
Daima türk oğlu hifz etmişdir öz namusunu,
Əldəki süyfü-şücaət, dildəki iman ilə.
Qorqmayırız düşməndən əsla dönsə dünya atəşə,
Hər zamanda etmişiz qovğa qövi-şahan ilə.
Ta əzəldəndir cahanda şanlıdır tariximiz,
Zişərəf bir millətiz tarixdə bürhan ilə.
Qaçmayız meydani-qovğadan əmin ol, ey əduv! (20, s. 546)

"Azərbaycan" qəzeti, 6 oktyabr, 1918-ci il.

ABBASAĞA QAYIBOV (nazir)

MİRALAY CƏMİL CAHİD BƏYİN MƏDHİNDƏ

Sənin ey sərvəri-vala, münnin Kirdigar olsun,
Pənahın rəhməti-həqqi, şəfəqqət Pərvədigar olsun.

Vücudi-pakini lütfi-Xuda hifz etsin afətdən,
Sənə tale həmişə dəstgirü bəxt yar olsun.

Edibsən dörd sənə millət yolunda himməti-qeyrət,
Sənə ey cani-millət, mərhəbalar səd həzar olsun.

Çəkibsən rəncü-zəhmətlər, əziyyətlər, məşəqqətlər,
Bu niyyətlə ki, qövmi-türk sahibi-iqtidar olsun.

Daha göstər həmiyyət, ərşə yüksəlt Türk növrağın,
Sənin üçün şövkətü izzət, bizim üçün iftixar olsun.

Edəməm şərhi-övsafi-Cəmilin etməyə cürət,
Budur ki, təbi-qasir aciz, şərmsar olsun.

Bu tazə məsnədin təbrik birlə gözlərəm ümmid,
Əhali içrə asayiş, müəssis bərqərar olsun.

Saralmış xüşksal zülmlə gülzarı İslamın,
Axır sərçeşmeyi-ədlin ki, sərsəbz abdar olsun.

Saqında Əhmədi-Həmdi, solunda həm Həsən Fəhmi,
Bu qeyrətli mücahidlər həmişə payidar olsun.

Bunu yazmağa etdi hissi-türkiyyət məni vadar,
Sənə bəs Türklüyün adından bu şerim yadigar olsun.

Qazağın şairi Abbas Qaibzadə Nazirdən,
Səmimi-qəlbdən ərzi-salami-bişümar olsun. (20, s. 547)

İyul, 1918-ci il.

Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, Qafqaz Unuversiteti Qafqaz Araşdırmaları İnstitutu Nəşriyyatı, N006, 2008.

SALMAN MÜMTAZ

ÖYÜN, MİLLƏT

Yavəran həzrət şəhriyaridən Qafqaz İslam Ordusu Baş komandanı, Süpəhsalar-əzim dövlətli fəriq Nuru Paşa həzrətlərinə ithaf olunur

Öyün, millət ki, iltafi olub şövkətli sultanım,
Hilalın haləsi qılsln əhatə Türk atanın.
Təfaxür eylə, ey millət, muradın hasil oldu,
Daha əflakə yüksəlməz əninü-ahü-əfğanın.
Ziyasız rus zülmündən o yüksək ruhum ölmüşdü,
Tuturdu şişəyə hərdəm şərabi-nab tək qanın.
Qızılgül tək açıl, gül, gör ki, Türkün şanlı ordusu,
Rəvaq-ərşə nəsəb etmiş Böyük Osmanlı ünvanın.
Səmayə doğru Toğrul tək, sən ey Türk oğlu, uç, yüksəl,
Ki, sənsən şanlı övladı şərəfli əski Türkanın.
Bulud altında qalmışdı əgərçi kövkəbi-bəxtin,
Gör imdi nücumzahtək hilalın nücumu tabanın.
Görək Tağ-Məqrənsdən açılsın toğrası,
Mələklər zib-duş etsin ləvasın al Osmanın.
Bütün mümtaz ellərdən olar Türk milləti Mümtaz,
Sürər bundan sonra Türklük şərəfli-şanlı dövranın. (20, s. 548)

"Azərbaycan", 30 oktyabr, 1918-ci il.

UMMÜGÜLSÜM

YOLUNU BƏKLƏDİM!

Bu şer bir il qabaq qanlı mart hadiseyi-ələməsindən Azərbaycan Türk müsəlmanlarını düşmən əlindən xilas etmək və ölümdən qurtarmaq üçün qardaş, arkadaş deyə, dərə, təpə, dağ, daş aşaraq yardıma gələn şanlı Türkiyə ordusuna ithafən yazılmışdır.

Yürüyürkən ölüm saçan fırtınalar önündən,
Uçqun dərələrə uçdumŞ tiyələrə dırmandım.
Baxdım ki, yox xilas yeri fəlakət cəngindən,
Qara yaşlar anma yenir gözlərimə çarpmadı,
Pək səmimi bir məhəbbət bir an bəni saxladı.
Görürdüm ağ dumanlar qara sislər altında,
Türk edlinin səadəti, xanimanı yaxılır.
Ləpə çalan qan içində, girdabların ağzında,
Qəhrəmanlar çabalayır, mərd igidlər can verir.
Of, sevgili yurdcuğazım, tayanamam bu kədərə,
Tayanamam ciyərimi parçalayan zəhərə.

Yaşayamam səndən iraq, dözəməm o hicrana,
Yaşayamam, annəcigim, bən çəkəməm o dərdi.
Heç sönməyən kinlərimlə yüzi qara düşmənə,
Alov saçan dodaqlarım bəd dualar söylərdi.
Şaşqın-şaşqın düşüyordum və qalxınca yürürdüm,
Düşmən bəni izlədikcə namusumu sürürdüm.

Qəlbi yanıq sızlayaraq gəzdim vəhşi çölləri,
Köksümdə uyutdurdum böyük arzu, böyük kam.
Boğularaq, inləyərkən rübabımın telləri,
Həp dağlar da səslənirdi həp: intiqam, intiqam!
Dinlədikcə o səsləri bənə qarşı anlardım,
Bir qurtuluş ümidilə izlərini arardım.

Nerdə bənim ardı-önü düşmən kəsən qılıncım?
Neredədir, yigit qardaş, nerdə bəklədigim?
Neçin susmuş biləklərim, nerdə bənim o gücüm?
Neçün gəlməz böyük ordu, neçün gəlmir sevdigim?
Yuca dağlar, arzumuzun salamına əgilin,
Bəni qurtarmaya gələn dostlarıma yol verin.

İştə gəldin, gözlərimin yaşlarını qurutdun,
Nəvazişin ovunmayan qərib ruhu oxşadı.
Heç ğlçüyə sığınmayan dərdlərimi ovutdun,
Qara günüm hilalıyın işığıyla parladı.
Artıa bana nəsib degil şadlıq, sevinc – deyərkən,
Gəldim, aldın yürəgimi – ağlama, gül, - dedin sən. (67a, s. 15)

Gözümüz yaşlıdır, sinəmiz dağlı. Bakı, 1992.

BU YILKI MAYISDA

Türklük eşqilə qəlbi çarpanlara

O günləri ovunmadan, gülmədən,
Ağladım ağlayan Türkün dərdinə.
Bu yılki yazıda bir nəşə bilmədən,
Yanardım yaxılan yurdun oduna.
Elimin baharı, həyatı sönmüş,
Qönçəsi, nəğməsi yasa bürünmüş.

Qoynunda inləyən bəni-bəşərin,
Acıqlı halına gülür təbiət.
İnsanlar uğrayan müsibətlərin,
Acısını bilməz, umar səadət.
Qanlı torpaqlar üstə talalar bitər,
Əninlərə qarşı bələlər ötər.

Ağ yüzləri qarartmış yoxluq qarası,
Açıq alınlara kölgə salmışdı.
Ağlardı yurdumun bağı, bağçası,
Gözü yoxsulluğun dərdi almışdı,
Türkü söylənməz olmuşdu o vədə,
Yox qızları kğyün tarla başında, ah.

Sevimli bir gözəl mayıs günündə,
Təqib etmişdi ikindi çağı.
Dolaşırdım yaşıllıqlar içində,
Könlümü ovladı bir gül yarpağı.
Güllüklərə baxdım, təsəlli buldum,
Dağılmış yurdumun şairi oldum.

Qəlbimin dərdini ovutmaq üçün,
Dinlədim bu zaman bülbül səsini.
Tanırdım zövqünü bütün gəncliyin,
Ümüdlü bir duyğu güldürdü bəni.
Hər çiçək yarpağı bəncə bir şer,
Hər qönçə ruhuma nəşələr verir.

Mələşən quzular indi təpədən,
Axacağa doğru, quyu başına.
Yürəgim şadlandı bilməm ki, nədən,
Baxınca yurdumun hər bir daşına.
İçimdən bir səda söylədi bana,
Xoş xəbər verirəm şimdi bən sana.

Ağlama, gözlərin ziya görəcək,
Firqətsiz vüsalın dadı bilinməz.
Gəlir bir zaman ki, yüzün güləcək,
Qaranlıq olmazsa, yıldız görünməz,
Ruhunu oxşayar sevdigin gözəl,
Boynuna sarılır qayeyi-əməl.

Səfa ümidilə cəfa gəlirsə,
Ağlama, hər cəfa səfa bəklədir.
Ümidini kəsmə, bəla gəlirsə,
Ağlama, yurdunda şənliklər olar,
Qaranlıq üfqündə bir günəş doğar.

Bundan sonra artıq degilsən məhkum,
Atılan addımlar haqqa doğrudur.
Yürüdüyün yollar degil uçurum,
Hakəm yalan degil, bu gün doğrudur.
İllərdir sənin aydın günlərin,
Vüslətini bəkləmədə dilbərim! (20, s. 550-551)

Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, Qafqaz Unuversiteti Qafqaz Araşdırmaları İnstitutu Nəşriyyatı, N006, 2008.

ABDULLA ŞAİQ

NEÇİN BÖYLƏ GECİKDİN?

Sənsiz qəlbim qırıq, sönük, çeynənmiş, xırdalanmış,
Ömür şüşəm daşa dəymiş, həyatım parçalanmış.
Qırıq bir saz kimi sızlar qanlı, yorğun telləri,
Yakılar da, yakar bütün qayğı vurmuş elləri.
Şu vətənin öksüzləri, gəlinləri, dulları,
Göz yaşıyla sulamış hər keçdiyiniz yolları.
Yolunuzu bəkləməkdən bənizləri saralmış,
Heç gəlmədin. O şən, gülər ürəkləri qəm almış.
Sən gəlməsən, dolumsanmış ürəklər heç şad olmaz,
Sən gəlməsən, xarabaya dönən qəlb abad olmaz.
Sən gəlməsən günəş doğmaz, ümid gülüm açılmaz.
Dodaqlarım gülməz, sönük baxtıma nur saçılmaz.
Başqasını istəməm də, ey Türk, sapuk sən gəl, sən,
Bəkləməkdən yoruldum, eh, iştə gec qaldın, nədən?
Yollarına daşmı qalanmış? Ya azğın quldurlar
Burakmıyor? Daş, dəmir, ya polad olsa da onlar.
Ürəyində şölələnən mətin, qızğın atəşlə,
Yak onları, ərit, söndür, çeynə, boğ, əz, xırpala,
Xain, alçaq düşmənlərə qol gücünü həp göstər.
Aç yolları, çapuk gəl ki, qəlbim səni istər. (20, s. 551-552)

Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, Qafqaz Unuversiteti Qafqaz Araşdırmaları İnstitutu Nəşriyyatı, N006, 2008.

YENİ AY DOĞARKƏN

(Türk bikələri qiyafəsində alicənab bir qadın oğlu Yavuza yeni doğan ayı göstərərək)

Oğlum, Yavuz, o alaca buludlardan az uzaq,
Gül yanaqlı, ağ bənizli, yeni doğan aya bax!
Almas kiprikli gözlərin nasıl dikmiş üzünə,
Nur saçaqlı saçlarını dağıtmış üz-gözünə,
Adaxlı bir gəlin kimi süsəni, sevimli, dilbər,
Bax nə qədər yaxışmış da canında yeddi ülkər.

Yavuz

Anacığım! Bən günəşi aydan, yeddi ülkərdən
Çox sevirəm, lakin bilməm şu aya bən baxarkən
Neçin əski diləklərim dalğalanır gözümdə,
Neçin tatlı, uğurlu bir duyğu doğar üzümdə?
Neçin bu ay ruhuma pək uyğun, munis görünür?
İçim, dışım günəş kimi neçin nura bürübür,
Neçin bu ay gözümdə bir dilək qədər sevimli?
O əski ay bunca parlaq, şux baxışlı deyildi.
Söylə, bu ay, anacığım, nə oldu, nədir o hürr idi?

Qadın

Yavrum! Onu mələklər həp yıldız-yıldız doğradı,
Bax, o ayın bölüyüdür parlaq o yeddi ülkər,
Hər birisi bir ülkər kimi, günəş kimi nur saçar.
"O ülkərin hər birisi bir igidin yıldızı",
" – Ya, benimki hankısıdır?"
" – Pək parlaq o qırmızı".
" – Ülkərlər, anacığım, bax nə qədər ufaqdır!
İşıqları pək sönük, həp bir-birindən uzaqdır.
Bən istərəm, yeddi ülkər qovuşsun bir-birinə,
Üzərimizə günəş kimi doğsun, ülkər yerinə.
Şu günəş həp doğsun da heç həqq eşqinə sönməsin!
Şən-Şən yurdlar bir qaranlıq məzarlığa dönməsin.

Bən istərəm ki, şu günəş yıldızları dikəltsin!
Bən istərəm, şu günəşə bütün yer-göy tapınsın,
Qurd, quzu həp bir otlasın, bir yatağa sığınsın.
Dörd yanımda ildırımlar çaxsın, şimşək oynasın.
O günəşdir iştə bənim taleyimin ülkəri".
Qadın
Oylə isə öyklü oğlum, ayı, yıldızları
Bir-birinə bitişdirib uğurlu bir bir günəş yap! (20, s. 552-553)

Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, Qafqaz Unuversiteti Qafqaz Araşdırmaları İnstitutu Nəşriyyatı, N006, 2008.

ƏBDÜ ƏFƏNDİZADƏ

Hər ürəkdə səbt olubdur (yazılıbdır):
YA ÖLÜM, YA TÜRKIYƏ!

BİR NEÇƏ SÖZ

İslam aləmində yaşayan diri millət yalnız Osmanlı olub, mabaqisi ölümcül bir halda imrari-həyat etməkdədir. İçərisində yaşadığımız aləmşümul müharibə burasını dəfaət ilə sübuta yetirdi. Binaən bəri bizlərdən bu halda hakim olmaz. Hər kəs bu iddiaya düşərsə, millətinə böyük bir xəyanət etmiş olur. Buna görə Türk və İslam aləmi xülafəyi-ali-osman bayrağı altında birləşib şanlı Türkiyəyə ilhaq olmazsa, artıq yaşamasına ümid yoxdur. Türkiyənin bizlərə babalıq etməyə hər bir cəhətdən haqqı vardır və edəcəkdir...

Mən də müharibəyə felən iştirak etmədimsə də, fikrən Osmanlı ordusunun dövri-bərində davranmaqda idim və ara-sıra hissiyyati millətpərvərlərimi[1] və başqa düşüncələrimi nəzmən kağız üzərində səbt edirdim[2].

Bu mənzumələr tək mənim deyil, bəlkə, cümlə Qafqazlı qardaşlarımın hissiyyati-milliyyələrini havidir. Zira ki, bunların hər birisi öz vaxtında millət içərisində əldən-ələ keçməkdə və xanəndələr ağzında oxunmaqda idi.

İndi haman əsərləri topladım və əl-həqq məsələsi üçün təşkilatda bulunduğum bir çox şəhərlər və vilayətlərin mürici-əfkarı olan

[1] Hissiyyati millətpərvərlərimi – milli hisslərimi
[2] Səbt edirdim - yazırdım

"Qafqaza dəvət" mənzuməmi Türkiyə ordusu namına əlavə etdim. Həmin əsərlər bizlərin əski tarixdən bəri ana Türkiyəyə qovuşmaq fikrimiz yeganə amalımız olduğu üçün və məhz bu cəhətdən layiqi-etina olunar deyib tərəfi-acizanəmdən qəhrəman Türk ordusuna təqdim olunmalarına cəsarət etdim. Qəbul olunursa, özümü ən böyük bəxtiyarlardan add edərəm.

Şəhri-Nuxa-sənei-1336. Səh 3.

Ərzrum qalasının ruslar tərəfindən işğal edilməsi və Qars müsəlmanlarının düşmən pəncəsi altında əzilmələri münasibəti ilə

NÖVHƏ

Xudavənda, hər iqlimə qılıbsan çarə yüz yerdən!
Nədəndir pəs bizim millət olub biçarə yüz yerdən?
Hesabca milləti-islam üçüz (üç yüz) milyonu keçmişdir,
Nə hikmətdir, həmin millət olub səd parə yüz yerdən?
Hanı İran? Hanı Turan? Hanı Şah Əkbərin təxti?
Dönüb bu aləmi-islam xarabazarə yüz yerdən!
Qazan getdi, Krım getdi, Mərrakuş[1], Əndəlis[2] getdi,
Buxara məhv olur dini satıb dinarə yüz yerdən!
Tarablus, Əlcəzair, Misir, Tunis, Xivə puç oldu!
Dağıldı aləmi-islam parə-parə yüz yerdən...
Səlatıni-şahənşahanı[3] millətdən bir ad qaldı,
Xilafətgahi-islamə uruldu yarə yüz yerdən!
Səlim, Osman, Ərtoğrul Bayəzid, Fatehin nəsli,
Bu aslanzadələrdir tək verən can yarə yüz yerdən.
Pənahı müsəlmanın qaldı tək Osmanlı ordusu!
Həmin ordu urdu başın daşa-divarə yüz yerdən!
Bu millət altı yüz ildir, edir övladını qurban...
Qoyur canın, tökür qanın, açıb fəvvarə yüz yerdən!

[1] Mərrakuş – Mərakeş
[2] Əndəlis – Əlcəzair
[3] Səlatıni-şahənşahanı – Sultanlar sultanı, şahlar şahı

Kəlami-Allahı, dini hifz edən bu qəhrəmanlardır,
Birə yüz düşmənə qarşı çalandır yarə yüz yerdən!
Məhəmməd-Müstəfanın, Kəbənin, şahi-şəhidanın
Bu millət xadimidir kim, düşüb azadə yüz yerdən!
Aya, ey milləti-ali! Dönübdür çərxi islamın,
Vətən qan ağlayır indi, geyinmiş qarə yüz yerdən...
Təcavüz eyləyir düşmən sərasər ərz namusa...
Bizim ümidimiz sənsən, buna qıl çarə yüz yerdən!
Həbibi-Allahı qıl hali, gəlib görsün bu əhvalı,
Nədəndir söyləsin, millət qalıb avarə yüz yerdən.
Təmənna qılsın Allahdan bizə namus, sizə himmət,
Bizə qeyrəti-məhəbbət... Sizlərə bir çarə yüz yerdən...

Sibirya, Romaniya, Rusiya və qeyriləri münhəzim olmaq münasibəti ilə

ÜMİD

Deyəsən bizlərə tann bu dönüş sayə salıb,
Baxıram hər tərəfə, düşməni ah-vayə salıb...
Tarixi seyr elə gör, bir nə edibdir düşmən...
İmdi tədbiri nədir, aləmi hay-hayə salıb?
Misiri, Hindi tutan ingilisi-düşməni-din
Bu dönüş hiylə oxum Bəsrəyə minayə salıb.
Əlcəzayirü-Mərrakuşlə Tarablus, Tunis,
Düşmənə loxma olub, millətə bir qayə salıb.
Səltənətlər dağıdan hürr Firəngistana bax!
Meylini indi də Şamə bu fərmayə salıb...
Qazanı, həm Krımı, Qafqazı, həm Turanı
Şimal ayısı udub, meyli Buxaraya salıb...
Kərbəla, Məkkə, Mədinə, Məşhədü Qüdsi-şərif,
Gör bu gün düşməni-dini necə sövdayə salıb?!
Xayinanə buluşur Türkiyəni, İranı...
Əfqanıstanı, Bellucistanı sonraya salıb.
Fatehin məscidinə xaş tikəcəkmiş məlun...

Səlimin mülkünü bayquş yıxacaq vayə salıb!..
Həmdüllah ki, rəva görmədi bu zülmü xuda,
Məscidin məxrəbini səmti-kəlisaya salıb!
Qəhrəmananə hücum eylədi düşmənlərinə,
Türkün ordusu nəhayət oxunu yayə salıb.
Ol səbəbdən bizə ümmidi-nicat oldu bu gün,
Əhli-imanı xudaməqsədi-mavayə salıb!
Bizə məxsus edilən bügzü, nifağı tann
Kafiristanə bu gün qismət edib, mayə salıb!
Bu gürüh ali-müsəlmanə rəva gördüyünü,
Döndərib bari-xuda ümməti-İsayə salıb.
Ayıq ol, türk, ərəb, fars, tatar əqvamı!
İtirib qüvvəsin ol kəs ki, sizi payə salıb.
İntiqam almalısan, bəy, gəda, müttəfiq ol!
Fürsəti fövt eləmə milləti qovğayə salıb!
Nüsrətin gör ki, xudanın necə tədbir elədi,
Qəhrəman nemsələri türklərə həmsayə salıb!
Züvqiya! Sən də bu gün canını qurban eylə!
Vətənin meylini çün aşiqi-şeydayə salıb...

Hürriyyətdən sonra keçdiyimiz
adi günlər təcrübəsi olaraq

Acı həqiqətlər qarşısında
böyük ümidvarlıq

Qəsəmi-pərvərdigarə qılmışam, səbrim nəhayətdir,
Gərək şimdi açam sirri, deməzsən çün xəyanətdir.
Nədəndir bizlərin halı rəzalət pür nədamətdir,
Məgər yalnız bətalətdir səbəb, yaxud cəhalətdir?
Deyil haşa! Əsl əsbabi bir başqa fəlakətdir!
Yıxan türk aləmini əskidən qalmış bənəmlikdir.
Bu aləm içrə hər dəm təfriqə salmış bənəmlikdir,
Ayırmış milləti, dinə qılıc çalımış bənəmlikdir.
Tamam əyani-ixvanı ələ almış bənəmlikdir,
Bənəmlikdən necə bizlər üçün bir qiyamətdir.

Yönəl tarixə doğru, gör bənəmlik bir nələr qoydu,
İgid Çingizin övladın ayırdı, dərbədər qoydu.
Teymurləngin büsatını dağıtdı, bisəmər qoydu,
Nə Baurdan, nə Nadirdən, nə Əkbərdən əsər qoydu,
Bənəmlik türklərə bəxş etdiyi yalnız zəlalətdir.

Bənəmlik kəndini sevməksə, bir əmri təbibdir
Ki, onsuz bir tərəqqi mümkün olmaz – bu bədihidir.
Fəqət hankı bənəmlik həm təbii, həm həqiqiqdir?
Firəngi, nemsəvi japonidir, ya ingilisdir...
Bənəmi bunlar üçün mənbəi-elmü səadətdir!

Nədəndir pəs ki, bir qövmq bənəmlik tacidar etdi?
Digər bir qövçü məhkum elədi, zülmə düçar etdi?
Birin alicənab etdi, birini kəsmədar etdi?
Bir iqlimə nicat verdi, birini tarımar etdi?
Birində hökm edir birlik, birisində şərarətdir?

Bu ondandır ki, hər bir türk millət içrə tənhadır!
Nemislər millətinin üzvüdür, hər fərdi danadır.
Firənglər, ingilislər həmçinin birlikdə yektadır.
Ayırmaq bunları yek-digərindən bir müəmmadır.
Qovuşdurmaq, barışdırmaq bizi eyni kəramətdir.

Nemis millətlə fəxr eylər, bizə məchuldur millət!
Firəng qövmündən ayrılmaz, bizə mənfurdur millət!
Yapon milli tərəqqidə, bizə çox dövrdür millət!
Olar madər sanır qövmün, bizə bir gordur millət!
Olar qurban verir qövmə, bizə millət nə hacətdir?

Cahanın ol güruha millətdir mərkəzi bişəkk,
Bizə mərkəz deyil, aləm özü qurbanımızdır tək!
Nə əyandan, nə alimdən, nə başqa sinifdən seçsək,
İki adam tapılmaz bizdə olsun yekcəhət-yekrəng!..
Bu ziddiyyət, bu keyf mayəşa milli dəlalətdir!

Bu nəfsaniyyəti hifz etməyə qalxandır millət,
Bu nəfsaniyyətə bişəkk verən qurbandır millət.
Budur bizdə olan məslək, belə talandır millət!
Nifaqə, zülmə yox sərhəd, tamam giryandır millət,
Rətasət, mənffəti-şəxsi bizə amal, adətdir.

Neçün hürriyyətə bizzat düşmənlik edir əyan?
Nasıl etməz ki, istibdad qılmış onları xaqan!
Qılıc, qamçı qoparsın nalə, qoy fəxr eləsin şeytan,
Qayıtsın, əsri-istibdad, olsun yurdumuz viran,
Yetişsin bir neçə adam muradına... ədalətdir!

Nəcabət bizlərə məxsus olan xislətdir, ey qafil,
Sədaqət, rəhm, insafü ədalət türklərə şamil...
Buna hökm eləyir düşmən, bunu isbat edir aqil,
Necə bədbəxt adamsan ki, "öz məqsudimə nail
Olum" deyirsən, düşünmürsən ki, bu milli cinayətdir?"

Ayıl, ey zadei-millət! Ey əyan! Ey müəllimlər...
Yaxışmaz sizlərə qəflət! Keçirsən fürsəti, kimlər
Görün meydan oxur: "Türk aləmində olmasın türklər?"
Rəvadımı bu gündən sonra bir də qəflət etsinlər
O kəslər kim düşünmüşlər ki, böhrani-siyasətdir?

Xoşa, Osmanlı imdi bu mərəzdən salim olmuşdur,
Vətən divanəsi... millət yolunda xadim olmuşdur...
Nicatın sirrini bulmuş, ayılmış, qaim olmuşdur,
Cocuqlar, həm qadınlar əsgər olmuş, alim olmuşdur,
Bizi ilhaq edərsə kəndinə, milli hidayətdir.

Aya, ey şanlı Osmanlı! Cahangir, qəhrəman millət!
Livayi-dini gəl qaldır! Tamam ixvanı qıl dəvət!
Ona qandır nədir borcu... əldən getməmiş fürsət,
Bu an keşməkeşdə ittifaqən kəsb edib qüvvət,
İtirmiş ixtiyarını geri alsın, kifayətdir...

Nemislər əsri sabiqdə pərişan idi bizlərdən,
Müəllim sayəsində aldılar təlim mərdü zənn...
Beyinlər milli amal ilə doldu, çünki hər evdən
Gələn layla sədası bəsləyirdi afəti-düşmən...
Tamamdır. Hal üçün, Zövqi, sənin borcun işarətdir!

Zaqafqaz Seymini millət tanımayır, Türk və İslam aləminin mənafeyinə zidd, fəqət qüvvəsiz bir firqələr qurultayı əbd ediyor. Millətin bu halda yeganə məqsədi qəhrəman türk ordusunun Qafqaza vüududur.

QAFQAZA DƏVƏT

Ey nəsib övladın ordusu, Şəki, Şirvanə gəl!
Tiflisü, Bakü yü Şişə, Gəncəbü Səlyanə gəl!
Qafqazın hər guşəsində guş qıl, nalanə gəl!
Hazırıq biz siz gələrkən can verək sultanə gəl!
Səbrimiz daha tükəndi, durma gəl, şahanə gəl!
Yurdumuz düşmən əlində olmamış viranə gəl!

Hər ürəkdə səbt olubdur: "Ya ölüm, ya Türkiyə!"
Hər ağızdan yüksəlir fəryadi-şeyda: Türkiyə!
Hər məqamda başqa söz yox, cümlə guya: Türkiyə!
Ən qəvi düşmən bu gün olmuşsa bərpa, Türkiyə!
Səbrimiz artıq tükəndi, durma gəl, mərdanə gəl!
Yurdumuz düşmən əlində olmamış viranə gəl!

Millətin sənsən pənahı, dini-islam rəhbəri!
Misrü Hindistaü İran... günbəgün getdi geri,
Bircəsinin yox bu gündə səltənəti-kərrü fəri...
Razı qıldın tək bu aləmdə sən o peyğəmbəri,
Tabü taqət qalmayıbdır kimsədə, dərmanə gəl!
Yurdumuz düşmən əlində olmamış viranə gəl! (24)

C. CABBARZADƏ

"BAKI MÜHARİBƏSİ"

ELAN

"Azərbaycan Dövlət Teatrosunda zilhiccənin 20-si, sentyabrın 16-da Bakı türk səhnəsi aktyorlarının iştirakı ilə, artist Abbas Mirzə Şərifzadənin təhti-idarəsində Azərbaycanımızın paytaxtı Bakı şəhərində mart hadiseyi-ələmiyyəsindən sonra düşmənlər əlində qalıb sonradan qəhrəman türk ordusu tərəfindən mühasirə edilib xilas olmasının bir illiyi münasibəti ilə gənc şair və mühərrirlərimizdən Cəfər Cabbarzadənin yeni yazmış olduğu "Bakı müharibəsi" draması mövqeyi-tamaşaya qoyulacaqdır (5 pərdədə, 7 şəkildə).

Həmin faciədə Bakı şəhərində mart-hadiseyi-ələmiyyəsindən sonra müsəlmanlara edilən zülm göstəriləcəkdir. Faciədə iştirak edəcəklər: Nuru Paşa, Mürsəl Paşa, Məhəmməd Tofiq bəy, Nuru Paşanın cəbhədə olması və Bakıya hücum planı yapılması göstəriləcəkdir. Bu faciə Bakının mart hadiseyi ələmiyyəsindən ta xilas olana qədər nə günlər gördüyü müfəssəl surətdə göstəriləcəkdir" (21).

"Bəsirət" qəzeti, 1919, 13 sentyabr, N246

MİRZƏ BALA MƏMMƏDZADƏ

BAKI UĞRUNDA MÜHARİBƏ

Türklərin Bakını azad etməsinə həsr edilmiş dram əsərinin tamaşaya qoyulmasının proqramı (1918-ci il, 17 sentyabr)

Axşam tamaşası – Hökumət teatrosunda Proqram

"Türk aktyorları" idarəsində çaharşənbə günü, sentyabr ayının 17-də 1919-cu ildə tamaşaya qoyulmuşdur: Mirzə Bala Məmmədzadənin yazmış olduğu "Bakı uğrunda müharibə" draması, 7 pərdədə.

İştirak edən şəxslər:

1. Sadiq – cənab Xəlil Hüseynov
2. Birinci qadın – xanım Lizina
3. İkinci qadın – xanım Qəmər
4. Aslan – cənab Hacıbaba Şərifov
5. Muxtar – A. M. Şərifov
6. Qurban – Gəraybəyov
7. Nivva – Sidqi Ruhulla
8. Birinci qız – xanım Lizina
9. İkinci qız – xanım Qəmər
10. Heydər – cənab Əliislam
11. Qafqar – cənab Nərimanov
12. Fəttah – cənab Hüseynağa

13. Birinci qoca – cənab Həmayil
14. İkinci qoca – cənab Qasımov
15. Kamil Feyzi – cənab Darablı
16. Arakel – cənab Mirpaşa
17. Andrey – cənab Kazım Kazımzadə
18. Sasun – cənab Anaplı
19. Arşak – cənab H. B. Şərifov
20. Səltənət – xanım İ. İ.linskaya
21. Yeleza – xanım Məqburə

Tamaşa başlanacaq: axşam saat 9-un yarısında.
Müdir: Baş rejissor: Abbas Mirzə Şərifov

ELAN: Həmin sentyabrın 19-da 4-cü dəfə olaraq Cəfər Cabbarzadənin yazmış olduğu "Bakı müharibəsi" tamaşaya qoyulacaqdır.

NURU PAŞA HAQQINDA ƏSƏR

Bakının Türklər tərəfindən azad edilməsi münasibəti ilə Bakıda bir çox dəyərli əsərlər nəşr edildi. Həmin əsərlərdən biri də belə adlanır: **"Mart hadisəsi – 1918 və yaxud Nuru Paşa Ordusu tərəfindən Bakının işğalı (azad edilməsi).** Əsərin müəllifi Seyidağa Axundzadədir. Kitab "Turan" mətbəəsi mürəttiblərinin nəşriyyatında çap olunub. Əsər tarixi-publisistik üslubdadır. Dörd hissədən ibarətdir. Birinci hissədə Mart faciəsi, aprelə qədərki hadisələr təsvir edilib. İkinci hissədə apreldən iyula qədərki hadisələr təsvir olunub. Üçüncü hissədə iyuldan sentyabra, Bakının alınması hadisələri verilib. **Dördüncü hissədə isə Bakının alınması, Nuru Paşanın xalq tərəfindən xilaskar kimi çağırılması göstərilib.**

III FƏSİL

AZƏRBAYCANLI MÜHACİRLƏRİN BAKININ QURTULUŞU TARİXİNİ YAŞATMASI

"Bakı uğrunda aparılan çətin savaşlarda Azərbaycan və Anadolu mücahidlərinin qanları bərabər axıdılmış və mübarək cəsədləri eyni qardaş məzarlarında dəfn edilmişdir. Bu müştərək savaşlar, müştərək alınyazısının və müştərək istiqbalın bir simvoludur.

15 Sentyabr 1918 tarixli günü Türk tarixinin şanlı zəfər günlərindən biri, həm də ən önəmlilərindən biridir. Bu zəfərin hər hansı maddi mənfəət, qayələri ilə heç bir əlaqəsi olmamışdır. Sırf qardaşın qardaşa yardımı hədəfini güdmüşdür"

TÜRKİYƏDƏ NƏŞR EDİLƏN MƏTBUAT ORQANLARINDA VƏ KİTABLARDA 15 SENTYABR HADİSƏLƏRİ

M. Ə. Rəsulzadə

QARDAŞ TÜRKİYƏNİN İMDADI

Bolşeviklər Azərbaycan Türklüyünün Rusiya ixtilalikəbiri (böyük inqilab – Oktyabr inqilabı) tərəfindən dəxi elan olunan "təyini-müqəddərat" haqqından istifadəyə qalxdığını, Bakı küçələrində axıtdıqları qanlarda boğmaq, "İsmailiyyə" binasında yaxılan hürriyyət məşəlini o möhtəşəm binanın ənqazi vərəmadi (xarabalıqları) altında söndürmək istədilər.

Belə müdhiş bir tarixi cinayət baş verdiyi zaman millətin fikir və iealını təmsil edən müsəlman deputatlar Tiflisdə idilər. O zaman Tiflisdə başlanan "Seym" müştərək məclisi bir tərəfdən çarizmdən varis olan Qafqaz cəbhəsinə aid məsələnin həlli, digər tərəfdən də Rusiyadan əbədi ayrılaraq istiqlal elan etmək məsələsini tədqiq və müzakirə etməklə məşğul idi.

Seymdəki müsəlman deputatlarının bütün hümmətləri (üzvləri) gərək cəbhə məsələsinin müsəlləhanə bir surətdə təsviyəsi gərək Qafqaz istiqlalının bir an əvvəl qüvvədən felə çıxarılmasına tərəf idi. **Çünki Rusiyanın ayrı, müstəqil bir Qafqaz üçün bundan daha yaxşı bir fürsət olmayacağına əmin idilər.** Müstəqil bir Qafqaz yalnız Qafqaz müsəlmanlarına deyil, daim rus taxt-tacının istilası altında olan digər islam ölkələrinin də mənafeyi üçün lazım idi. Bakı faciəsi əslində bu siyasi "cinayətkar" təmayüllərinə müqabil, bolşeviklər tərəfindən tərtib edilən bir cəza idi.

Bakı Tiflisin yardımını gözləyirdi. Yalnız Bakı deyil, bütün Azərbaycan azərbaycanlıların iştirakı ilə təşkil edilən "Seym" məclisi

ilə Cənubi Qafqaz hökumətinin bu yardımının intizarında idi. Fəqət, heyhat! Azərbaycanlı "Seym" tərkibinin yüksək səda ilə bağırıb-çağırması Tiflis hökumətinin həqiqi sahibləri olan gürcü menşeviklərinə lazımınca təsir etmədi. Gürcüstan daxilindəki bolşevizmi min bir şiddət və qəhrlərlə məğlub edən bu əfəndilər Bakıya qarşı elani-hərb belə etmək istəmədilər. Gəncə milli müsəlman komitəsinin təşkil etdiyi xilaskar ordusuna milyonlarla fişəng, onlarla metralyoz (pulemyot) və bir neçə top vəd edilsə də, bu vədlər yerinə yetirilmədi. Tiflis mətbuatı isə Bakının Azərbaycan "başı pozuq" qüvvəsi ilə gerialmaya qarşı "vaqeyi-irticaiyyə" – deyə protesto etdi. Nəhayət, "türk təhlükəsi varkən bolşeviklərə müxasim (zidd olmaq) ola bilmərik" – deyə aldıqları bu qərib vəziyyəti əcaib izah etdilər.

Bu sırada "Seym"dəki erməni qisminin hərəkət xəttini izah etməyə ehtiyac varmıdır?

Müsəlmanların intiqamından, Tiflisin yardımından qorxan üsyankar Bakı bolşevikləri əvvəlcə müdafiə vəziyyəti aldıqları halda, bu dəfə cəsarət edib təcavüzə keçmişdilər. Başda Amazasi, Avetisov kimi erməni fədailəri və Petrov kimi rus topçuları olduğu halda, Gəncəyə doğru yürüyən bu təcavüzkar qüvvədən əvvəl əmrlə Şamaxı mütəzərrər oldu (zərər çəkdi). Qədim Şirvanşahların bu qədim paytaxtı bir həmlədə atəşə tutulub, məşhur tarixi məscid dağılana qədər davam etdi. Yalnız erməni məhəlləsi salamat buraxıldı. Axırda müqabil təcavüz edən Gəncə müdafiə qəzasının şəhərə girib-çıxması üçün salamat qalmış olan bu məhəllə də yandı. Yanmayan yalnız 2 kilsə idi.

Şamaxının düçar olduğu təcavüzə Lənkəran, Salyan, Quba, Nəvahi və Kürdəmir kimi qəza, şəhər və qəsəbələri də məruz qaldı. Bu təcavüzlər əsnasında yaxılan xanimanların, qıyılan ərz və namusların, kəsilən qarı-qocaların, yağmaya gedən mal-qaranın təsviri qeyri-qabili-təsəvvür bir faciə təşkil edir.

Təhlükə artıq Gəncəyə gəlmişdi. Bir tərəfdən Gəncə məcburiyyətdə ikən, digər tərəfdən də Qarabağ ermənləri Bakı bolşevikləri ilə birləşmək üçün plan tərtib edirdilər. Azərbaycanın atəş ilə qılıncdan keçirilməsi planı! Məlum Şaumyanın qəzetəsi "muxtariyyat deyil, xarabazar alacaqsınız" – deyirdi.

Belə bir təhlükə qarşısında milləti müdafiə edəcək yalnız bir Gəncə qalmışdı. Gəncə öhdəsinə düşən bu ağır vəzifəni təkbaşına davam

etdirə bilməzdi. Müdafiə günləri uzandıqca işlərin idarəsi əldən çıxır, bolşevik əlinə keçməyən yerlərdə də böyük bir itaətsizlik və anarxiya yaranırdı.

Bu yolla həyat üçün yaranmış bir təhlükəyə qarşı hakimiyyətini qəbul etdiyi Tiflis hökumətindən laqeydlik görən Azərbaycan ictimai fikrində təbii olaraq bir inam yaranırdı. **Bu çətin vəziyyətdən milləti qurtaracaq yeganə bir çarə vardı: Türkiyə!**

Ümidlər ancaq oraya yönəlmişdi: **"O qardaş millət gələcək, bizi düşmən əlindən qurtaracaq!" Xalqın bundan başqa bir ümidi qalmamışdı.**

Halbuki məsafə bu qədər də bəsit deyildi. Özünü Rusiyadan ayrı, felən müstəqil bir halda idarə etməkdə olan Cənubi-Qafqaz Türkiyə ilə sülh yaratmaq istədiyi halda, məqsədinə daha müvəffəq ola bilmirdi. Türkiyə Cənubi-Qafqaz hökuməti naminə Trabzona gəlmiş, 1914-cü il hərbindən əvvəlki Qafqaz hüdudunun müstəqiliyini istəmək üçün gələn heyətə Brest-Litovsk müqaviləsinin tamamilə qəbulunu təklif edirdi. Bu təklifə görə Cənubi-Qafqaz hökuməti vaxtilə türklərdən hərbi təzminata müqabil olaraq alınan Qars, Ərdəhan və Batumdan əl çəkməlidir. Bu vilayətləri bolşevik hökuməti Brest-Litovsk müqaviləsi ilə tərk etmişdi. Vəziyyət bu hala çatanda Trabzon müzakirəsi olduqca ciddiləşirdi. Ermənilərlə gürcülər "hərb etmədən Türkiyəyə təslim olmarıq" deyirdilər. Bir tərəfdən bolşevizmin, digər tərəfdən də erməni və gürcü cəfəngiyyatı arasında qalan müsəlmanlar çətin bir vəziyyətə düçar olmuşdular. Bu vəziyyətin ciddiliyini dərk edən Trabzon heyəti erməni, gürcü və türk üzvlərinin birgə səyilə Türkiyə ultimatumunun qəbuluna qərar verdiyi zaman "Seym" məclisi gürcü menşevikləri ilə erməni daşnaklarının əksəriyyətilə hərbə qərar vermişdilər.

Konfrans yarımçıq qalmış, hərb başlamış, heyət Tiflisə getmişdi. Fəqət heyət Tiflisə gələnə qədər hərb də artıq bitmiş, Batum süqut etmiş, Qars mühasirəyə alınmışdı.

Artıq davam gətirmək mümkün deyildi, hərb dayanmalı, sülh yaradılmalı, Cənubi-Qafqaz istiqlalı rəsmən elan edilməlidir. Yoxsa biz ayrılır, öz başımızın çarəsinə baxırıq – deyə "Seym"dəki müsəlman üzvləri son çarəyə əl atmışdılar.

Yanlış macəraya qapıldıqlarını və Cənubi-Qafqaz xalqının belə bir hərbə qətiyyən hazır olmadığını dərk edən gürcülər də bundan başqa

bir çarə qalmadığına qane oldular. Cəfəng Qekçiqori hökumətini susdurub, yerinə sülhçü Çengeli kabinəsini gətirdilər. Batumda yeni müzakirə başladı. Çengeli Trabzondakı türk iddiasının artmayacağına ümid edərkən, həqiqət təsəvvür etdiyi kimi çıxmadı. Batum ilə Qarsda tökülən türk qanına İstanbul hökuməti qanhaqqı olaraq yeni bir ərazi tələb edirdi. Axsixə, Axalkələk, Aleksandropol, Sürməli və Naxçıvan qəzaları bu tələbi təşkil edirdi.

Cənubi Qafqaz icazəli heyəti ilə türk təşrif heyəti Batumda müzakirə məşğulunda ikən, Nuru Paşa ilə bərabər bir neçə zabiti İran və Qarabağ tərəfdən Gəncəyə daxil olmuşdular. O zaman müdhiş bir anarxiyaya məruz, digər tərəfdən də bolşevik təcavüzü ilə hədələnən Gəncə Nuru Paşanı göydən enmiş xilaskar bir mələk kimi qarşılamışdı.

Batum müzakirəsi bir çox çətinliklərə məruz qalırdı. **Müzakirə uzanırdı.** Gürcülər artıq Cənubi Qafqaz hökuməti itaətində qalmağı öz hesablarına zərərli görür, əl altından Almaniya ilə danışıqlar aparırdılar. Türkiyə ilə müttəfiqi Almaniya arasında ixtilaf gürcülərə belə bir hərəkətin faydalı olacağını təlqin edirdi. Nəhayət əmr yerinə yetirildi. Mayın 26-da Gürcüstan Cənubi Qafqazdan ayrı özbaşına müstəqil bir cumhuriyyət təşkil etdiyini elan etdi.

Gürcüstanın Cənubi Qafqaz federasiyasından çıxmaları üçün birləşmiş hökumət parçalanmışdı. Bunun üçün Seymdəki müsəlman üzvü də gürcülər kimi özlərinin Azərbaycan Milli Şurasını elan etdilər. **İki gün sonra Mayın 28-də Milli Şura Azərbaycanın istiqlalını elan etdi və bu hadisəni 30 may tarixli yayımı ilə bütün dövlətlərə bildirdi.** Milli Şura istiqlal elanı ilə bərabər Azərbaycan hökumətini də təşkil etdi. İlk hökumət, Tiflisdə Azərbaycan milli hərəkatının düşmənləri tərəfindən qətlə yetirilən mərhum Fətəli xanın rəyasət heyətində təşəkkül etmişdi.

Cənubi Qafqaz hökumətinin dağılması ilə Batumdakı icazəli heyəti də dağılmış, onun müqabilində Azərbaycan, Gürcüstan və Ermənistan heyətləri münfəridən sülh müzakirəsini idamə etdirmişdilər (fərqli qaydada sülh müqaviləsini davam etdirmişdilər). Batumda 4 iyunda dövlət mənafeyi naminə Ədliyyə naziri və birinci müavin Xəlil bəylə Şərq orduları komandanı və ikinci müavin Vəhib Paşa, Azərbaycan naminə Milli Şura rəisi Məhəmməd Əmin Rəsulzadə və Xarici İşlər naziri Məhəmməd Həsən bəylər tərəfindən bir əhdnamə imza edildi. Bu əhdnamənin 4-cü maddəsinə görə məmləkətin əmniyyət və asa-

yişini müdafiə etmək üçün Azərbaycan Cumhuriyyəti Türkiyədən əsgər yardımı istəmək haqqına malik idi.

Azərbaycanın hansı çətinliklərə məruz qaldığı və bu təhlükələrdən çıxa bilmək üçün Türkiyənin yardımına möhtac olduğunu Azərbaycan nüməsilləri (nümayəndələri) Trabzon ilə Batumda türklərlə yaranan təmasları əsnasında şifahi şəkildə anlatmışdılar. Bu dəfə Azərbaycan Milli Şurası naminə biz və Xariciyyə Nəzarəti naminə də Məhəmməd Həsən bəy müqavilənin 4-cü maddəsinə istinadən Türkiyə hökumətinə müraciətlə imdad istədik.

Bütün Azərbaycan xalqının ümidlərinə uyğun olan bu müraciətimizə Türkiyə icazəli heyəti öz müvafiq cavabını verdi. Fəqət Gürcüstan tərəfi ilə ediləcək imdad Almaniya hökumətini göstərdiyi çətinliklər ucbatından istənilən bir sürət ala bilmirdi. Fövqəladə vəziyyət və şərait içərisində istiqlal elan edən Milli Şura Gəncəyə üz tutdu.

İyun ayının 16-da keçirdiyi tarixi iclasında Milli Şura Fətəli xanın ikinci kabinəsini təşkil və bütün ixtiyarını yuxarıda adı çəkilən hökumətə həvalə edərək, fövqəladə vəziyyət adı ilə özü tətil etdi. Məclisin bu xüsusda qeyd etdiyi qərar aşağıdakı şəkildə idi: **"Azərbaycanın keçirməkdə olduğu daxili və xarici çətinlikləri nəzərə alaraq Azərbaycan Milli Şurası bütün hüquq və səlahiyyətini Fətəli xan Xoyski rəyasət Heyətində təşəkkül edən kabinəyə həvalə və yuxarıda adı çəkilən kabineni arayi-ümumiyyə üzərinə müstənid bilətəxir məclisi-müəssisan (ümumi seçkilər yolu ilə təxirə salınmadan Təsisçilər Məclisinin seçilməsi) dəvət oluncaya qədər Azərbaycan həqiqi hakimiyyətini öz əlində saxlayaraq heç kimə verməmək vəzifəsini saxlayır."**

Azərbaycan Milli Şurasının bu şəkildə tətili o zaman Gəncədə yaranan bir taqım (qisim) siyasi mübarizələr nəticəsində hasil olmuşdu. Bu mübarizə məmləkət üsul-idarəsinə aid demokratik cərəyanlarla aristokrat zehniyyətlər arasında vüqu gəlirdi (baş verirdi). Hər tərəfdən düşmən bir cərəyanla əhatə olunan məmləkətdə bu kimi mübarizələri bir zaman müvəqqət üçün bir tərəf etmək lüzumu vardı. Bu lüzum geniş səlahiyyətlərə malik bir hökumətin təşəkkülü üçün təmin edilmişdi.

Azərbaycanın təşəkkül tarixində mühümlükdən baş verən bu hadisə əsnasında Milli Şuranın nə kimi hissiyatla təsis olunduğunu göstərmək üçün söylədiyimiz açılış nitqini qismən burada dərc edirik:

"... Bəli əfəndilər! Azərbaycanın müvəqqəti paytaxtı olan Gəncədə naqis də olsa milli hakimiyyəti təmsil edən bir müəssisənin (təsisçilərin) bu surətlə meydandan çəkilmək məcburiyyətində qalması heç şübhəsiz, demokratiyanın bir ricəti (geriyə qaytarma, geriləmə və irticanın bir müvəffəqiyyətidir). Bu ricət (geriləmə) ağ və təmiz qüvvələrə müqabil qara və pak qüvvələri qüvvətləndirəcəkdir. Bu nöqteyi-nəzərdən görülüncə ilk baxışda bizim halımız Ukraynanın halına bənzəyir. Bu hallar bizdə Rusiya inqilabının iflasına dair bir əqidə formalaşdırır. Fəqət, əfəndilər! Zavahirlə qalmayaq, səthi düşünməyək, həm də məyus olmayaq. Rusiya inqilabı, nə deyirlərsə-desinlər, qətiyyən iflas etmədi. Rusiyada inqilab nə edəcəkdir? Bu sualla "Böyük Rusiya" fikri ilə zəhərlənmiş rus inqilabçıları nöqteyi-nəzərindən deyil, inqilabın öz kəndi təbiətini təhlil edərək cavab verməlidir. Belə baxılırsa, Rusiya inqilabı məzlum və məğdur siniflərlə məhkum millətləri azad etməlidir. Məğdur (zərər çəkən) siniflər, etiraf edək ki, istədiklərindən yaxşısını aldılar. Millətlər isə bir-bir istiqlal əldə edirlər. İnqilab dünyanın altıda birini tutan böyük Rusiya yaratmaq vəzifəsində idimi? Qətiyyən deyildi. İfrata varan sinif hürriyyətləri əlbəttə ki, qeyd olunacaq və mötədil (liberal) bir şəklə girəcəkdir. Çünki hürriyyətin bu şəkli heç şübhəsiz ki, hürriyyət deyil, bir afətdir (fəaldır). Fəqət, bu yolda ediləcək ricət (geriləmə), əminəm ki, hər halda inqilabdan əvvəl mövcud olan hüdudun övtəsində (o tərəfində) deyil, gerisində saxlanacaqdır. Demək, əvvələ nisbətdə hər halda yaxşı olacaqdır. **Əfəndilər! Mən sabit Rusiya ərazisində baş verən bu hadisəyə belə baxıram. Buna görə də hələ ümidlərimlə yaşayıram. Əfəndilər, bilirəm ki, Azərbaycan Rusiya inqilabının doğurduğu müsbət nəzəriyyələrlə elan etdiyi əsil hürriyyətdən son dərəcə istifadə edəcəkdir. İştə müstəqil bir Azərbaycan: siyasətin hürriyyət və istiqlal edəcək Azərbaycanda ictimai hürriyyətlər və bəşər hüququna aid düsturlar hər halda istilaçı Rusiya zamanından daha geniş, daha əlverişli olacağına şübhə etmirəm.** Hətta, əfəndilər, söyləmək istəyirəm ki, Azərbaycan Qafqazda ən hürriyyətpərvər və inqilabçı təsəvvür olunan Gürcüstandan daha məsuddur. Çünki burada bizim daxili hürriyyətlərimizə nüfuz edəcəyi təsəvvür edilən qüvvə yad bir qüvvə deyil, öz qüvvəmizdir (alqışlar). Buradan istiqbal böyük və şanlı bir millətin müxtəlif şöbə və budaqlarını tovhidə doğru gedəcəyi eyni məqsədimizdir (alqışlar).

İctimai və hüquqi hürriyyətlərdə itirsək də, siyasətdə qazanacağıq. Halbuki Ukrayna və Gürcüstan belə deyil.

Bəli, əfəndilər! Heç də ümidsiz olmayaq. Tarixin, milli amalımız nöqteyi-nəzərindən əlverişli bir zamanda olduğumuzu, türk ittihadı üçün fürsət ələ keçdiyini unutmayaq. Bütün qüvvəmizi bu hürriyyət siyasətinin təsbitinə sərf edək. **Bunun üçün də hər dürlü fədakarlığa hazır dayanaq...”**

Yuxarıda iqtibas olunmuş qərarnamə üçün Milli Şura tərəfindən məmləkətin idarəsinə vəkil edilmiş olan hökumət bir an əvvəl Bakını geri alacaqdır.

Nuru Paşa öhdəsindəki ordunun yardımı ilə az bir vaxtda Bakı vilayətindən başqa Azərbaycanın bir çox vilayətlərində sülhü təmin etdi. Yalnız Bakı ilə ətrafı bolşeviklərin əlində idi. Bunlar ara-sıra üsyan edərək təcavüz belə edirdilər. 5-6 aylıq bir fürsətdən istifadə edən bolşeviklər olduqca mühüm bir müdafiə hazırlamışdılar.

Xaricdən, Azərbaycan və Türkiyə milli qüvvələri tərəfindən təzyiq olunan bolşevik-daşnaksütyun qüvvəsi daxilən sarsılır, aralarına nifaq düşürdü. Nəhayət, mühasirədə olan Bakıda bolşevik diktaturasına qarşı bir-bir keçmişi və mövqeyi iqtidar erməni alayları ilə Bakı limanındakı bəhriyyələrə (dənizçilərə) istinad edən ermənilərlə ruslardan mütəşəkkil bir “direktvara” (birbaşa) kəsilir. Bu direktvar ingilisləri Bakıya dəvət edir. O zaman İranda olan ingilis komandanlığı bu dəvət üçün Bakıya əsgər çağırır. Vəziyyət bu şəkil alınca Türkiyədən yeni qüvvələrin gətirilməsi lazım gəlir. Almanlar isə yuxarıda deyildiyi kimi, Gürcüstan təriqi (vasitəsi) ilə Bakıya gedən türkiyə yardım qüvvələrini məğlubiyyətə uğradırlar. Bunun üçün Bakının geri alınması da iyulun 15-nə qədər gecikir.

Nəhayət, qanlı bir mücadilədən sonra qardaş xilasına can atan qəhrəman Məhmədciyin türk birliyi tarixində altun hərflərlə yazılacaq bir fədakarlığı ilə Azərbaycan milli qüvvələri öz payataxtına girir. Altı ay qan-yaş tökən islam əhalisinin üzü gülür. Qurban bayramı kimi məsud bir gündə Bakı təkrar öz sahiblərinin əlinə keçir.

O zaman biz İstanbulda idik. Vüstayi (bütün) Avropa dövlətlərinin iştirakı ilə toplanacaq konfransa iştirak üçün digər Qafqaz Cumhuriyyətləri ilə bərabər Azərbaycan Cumhuriyyətini təmsil edən heyət də var idi. **O dövrün Hərbiyyə naziri və baş komandan vəkili olan Ənvər Paşa həzrətləri telefon etdilər:**

- Əmin bəy, Bakı alındı!

Bu qısa xəbərin məndə yaratdığı təsiri tam təsvir edə bilmirəm. O təsiri hələ unuda bilmirəm.

Bundan bir neçə gün əvvəl Almaniya hökumətinin bir qərarını protesto etmişdik. Almaniya dövləti bolşevik hökuməti ilə Brest-Litovsk sazişinə əlavə olaraq yazdığı bir müqaviləyə əsasən Bakı vilayətinin Kür çayına qədər olan ərazisini rusların işğalına icazə vermiş, əvəzində özünə neft imtiyazını təmin etmişdi. Bu münasibətlə bizə müraciətedən qəzetçilərə: “ Bakısız Azərbaycan – başsız bədəndir” – demişdik. Başı məşhur Gilyotin məngənəsində olan bir adamın xilası necə mümkündürsə, Bakının geri qaytarılması da o nisbətdə möcüzəli bir iş idi. Həqiqətən də belə idi. Sonradan məzarları unudulmuş qalan Anadolu Məhmədcikləri Bakıdakı şəhidlikləri ilə türklüyə yeni bir siyasi vücud verirdilər. Maddətən unudulmuş, fəqət mənən bütün qəlblərdə dəfn edilən bu qəhrəman şəhidlər yalnız Bakıdadırlarmı? Naxçıvandan, Qarabağdan, Şamaxıdan, Gəncədən Bakıya qədər bir yer varmı ki, orada belə bir fədakar yatmasın?!..

Bəli, Azərbaycanın hər yerində şairin təsvir etdiyi “Sarmaşıqlı bir məzar” taparsınız ki, qızlar-gəlinlər tərəfindən ziyarətgah halına çatan bu məzar, qardaş imdadına çatan “TÜRK” məzrıdır (53, s. 36-43).

Azərbaycan Cumhuriyyəti (keyfiyyəti-təşəkkülü və şimdiki vəziyyəti) İstanbul 1339-1341 (1922)

Mirzə Bala

QAFQAZ İSLAM ORDUSU

4 iyun 1918-ci ildə Batumda Osmanlı dövləti ilə Azərbaycan Cumhuriyyəti arasında imzalanan anlaşmaya görə Azərbaycan komandanlığının əmrinə göndərilən 5 Qafqaz tümeni (diviziyası) az sonra Azərbaycan qüvvələrini də özünə birləşdirərək "Qafqaz İslam Ordusu" adını almışdı. Avqust 1918-ci ildə 15 piyada tümeni (diviziyası) ilə dəstəklənən Qafqaz İslam Ordusu 15 Sentyabrda Bakını qızıl istiladan qurtararaq Azərbaycandakı tarixi vəzifəsini zəfərlə bitirdikdən sonra Dağıstanın qurtuluşuna başlamış; sentyabrın sonu ilə oktyabr ayının əvvəlində Dərbəndi, Temir-Xanı-Şuranı və Şamil Qalasını düşməndən təmizləyərək, Dağıstan sülhsevərləri ilə birlikdə Terek-Qala üzərinə getdiyi bir zamanda Osmanlı Dövlətinin müttəfiqləri ilə birlikdə məğlubiyyət xəbəri alınmışdı. Qafqaz İslam Ordusu Azərbaycanı və bütün Qafqazı xilas edəcəkdi.

30.10.1918-ci il tarixli Mondros sülh müqaviləsinin 11-ci maddəsi bunu amir (əsasən) olduğu kimi 15-ci maddəsi də Bakını ingilis işğalına verirdi. Mondros sülh müqaviləsi daha imzalanmadan Tələt Paşanın yerini işğal edən Əhməd İzzət Paşanın verdiyi bir əmrə görə: "Brest-Litovsk müqaviləsi xaricində olaraq işğal edilən Qafqaz aksamının (ərazisinin) 24. 10. 1918-ci il tarixindən etibarən altı həftə ərzində xilası icra ediləcəkdir".

Brest-Litovsk müqaviləsi yalnız Batum, Ərdəhan və Qars vilayətlərini əlinə alır və başqa bir yazımızda da anlatdığımız kimi, Moskva bu hüdud xaricində, yəni Azərbaycan və Şimali Qafqazda Osmanlı ordusunun hərəkətini hər zaman protesto etmiş və buna mane olmaq üçün Almaniya ilə, Bakı nefti hesabına bir anlaşmaya da girirdi. Osmanlı dövləti ilə müttəfiqlərinin məğlubiyyətinə görə Moskva tərəfindən tamamilə feshedilmiş (ləğv edilmiş) olan bu Brest-Litovsk müqaviləsi "Hər millətin öz müttəfiqlərini ancaq özünün təyin etmək haqqına malik olduğundan" da bəhs etməkdə idi. Sovet Rusiyası tərəfindən də qəbul və elan edilən bu prinsipləri irəli sürən

Azərbaycan Cumhuriyyət Hökumətinin bu meşru (qanuni) haqqını şiddətlə müdafiə edən mərhum Tələt Paşa, 23 Sentyabr 1918-ci ildə Almaniya ilə bir protokol imzalamışdı. Bu protokola görə, hər iki tərəf Azərbaycanın istiqlalını tanıyır və Osmanlı qüvvələrinin çəkilməsi şərti ilə bu istiqlalın Rusiyada da tanınması işini Almaniya öz üzərinə götürürdü. Mondros sülh müqaviləsindən daha əvvəl Qafqaz İslam Ordusunun aqibəti bəlli idi. Fəqət bu ordu Azərbaycanda milli bir qüvvə yetişdirmək vəzifəsi ilə də məşğul idi. Sonralar Qafqaz İslam komandanlığına təyin olunan mərhum Nuru Paşa muallim-zabit heyəti başında 4 iyun 1918-ci il anlaşmasından çox əvvəl may ayının ortalarında bu məqsədlə Azərbaycana gəlmişdi. Maiyetini (ətrafındakıları) Mosulda buraxan Nuru Paşa Azərbaycandan Üçüncü Ordu Komandanı Vehip Paşaya yolladığı bir raportunda burada milli bir ordu təşkil etmək üçün hər cür imkanın və vəsaitin mövcud olduğunu, yalnız muallim-zabit kadrına ehtiyac hiss edildiyini yazır və Mosulda qalan müəllim-zabit heyətinin bir an əvvəl göndərilməsini rica edirdi. Bilindiyi kimi, bu heyət bir türlü gəlib çıxmadı. Gəncədə kiçik zabit məktəbi açılmışsa da, İstiqlal savaşı bu sahədə əsaslı bir gəlişməyə mane olmuşdu. Əsl fəaliyyət istiqlal zəfərindən sonra başlayacaqdı. Və Qafqaz İslam Ordusu yerini işğal edəcək bir Azərbaycan ordusu yaratmadan çəkilərsə, siyasi və əsgəri müvazinətin alt-üst olacağı Qafqazda hər şey məhv edilmiş sayılacaq və Azərbaycanın müqəddəratı təhlükəyə düşəcəkdi. Bu durumun nəzakətini təqdir etmiş olacaq ki, yeni Osmanlı kabinəsi, Qafqaz İslam Ordusunun Qafqazı tahliye etməsi (boşaltması) üçün verdiyi əmrdən iki gün sonra, 26. 10. 1918-ci il tarix və 5276 saylı bir əmrnamədə eyni ilə deyilirdi: "Şimali Qafqazla Azərbaycanda hizmət etmək istəyənlər qalacaqdır".

Bu müsaidəyə uyan Nuru Paşa Qafqaz İslam Ordusu komandanlığından istefa verərək, yerini "Azərbaycanda Osmanlı kıtaatı (ordu hissələri) komandanı" ünvanını alan Mirliva Mürsəl Bəyə (sonralar general Mürsəl Bakıya) vermiş və özü də Azərbaycan ordusu komandanı ünvanını almışdır. Bu şəkildə Nuru Paşa 4 noyabr 1918-ci ildə "Azərbaycan hökuməti ilə burada qalacaq zabitlər üçün əqd edilən müqavilə şəraiti" başlığı altında, orduya bir təbliğ yayınlatmışdır. 15 maddədən ibarət bu müqaviləyə görə: "Azərbaycan hizmətinə girəcək zabitlər və məmurlar mezkur (haqqında danışılan) hökumət təbəəsi olacaq. Cəza

və mükafat xüsuslarında da Azərbaycan qanunlarına tabe olacaqlar" (maddə 1). "Zabitlər rütbə səviyyələri ilə qalacaqlar. (Fəxri təbiri (rütbələri) qalacaqdır). Türkiyədə kıdemen terfi edənlər (növbəti rütbəni alanlar) burada bir dərəcə yüksək rütbəsi ilə qazanacaqlar" (maddə 2). "Hər zabitə ildə, azimet və avdet dail (gedişi-dönüşü), 2 ay məzuniyyət veriləcəkdir. Bu iki ay maaşı hərəkətindən əvvəl peşinen (arxasınca) və kamilən alacaqdır" (maddə 3).

"Azərbaycandakı xidmət müddətində xidməti əsgərliyə qabiliyyətini zəyi edəcəklərə, üç ildən beş ilə qədər olmaq şərti ilə maaş nisbətində təzminat veriləcəkdir" (maddə 10). "Üç il bütünlüklə Azərbaycanda keçirilənlərə xitam müddətində altı aylıq mükafat veriləcəkdir. Üç ilin xitamında konturatı (müqaviləni), üç ildən aşağı olmamaq şərti ilə tecdit (yeniləmək) edəcəklərə, bir dəfəyə məxsus olmaq şərti ilə, bir illik maaş nisbətində mükafat verilir" (maddə 11).

"Zabitlərin Türkiyədəki ailələrinə verilməkdə olan siparişat (yardım) və ərzağın bundan sonra yenə verilməsi üçün Azərbaycan hökumətinə görə lazımlı tədbir sayılacaqdır. Bunun üçün sərf olunacaq məbləğ Azərbaycan hökumətinin borcu olacaq və iki hökumət arasında mahsubu (məxsusi) yerinə yetiriləcəkdir" (maddə 12).

Fəqət, Mondros müqaviləsi bu kontratoyu (müqaviləni) kağız üzərində buraxdı. Müqavilənin 11 maddəsinə görə, Osmanlı hökuməti Cənubi Qafqazla şimal-batı İranı tahliye (boşaltmağı) edir. 15-ci maddəyə görə də Batumla Bakının ingilislər tərəfindən işğalına razılıq göstərirdi. Osmanlı hökuməti Hərbiyə naziri 24 noyabr 1918-ci ildə 9-cu Orduya bu əmri yollamışdır:

"1. – 28. 10. 1918 və 11. Ş. 5887 saylı əmr, vaziyeti ahire mucibince mefsühtur (son vəziyyətə görə ləğv edilmişdir). Şimali və cənubi Qafqazda olan bölümün zabit və efrad (fərdilər), iki ayı keçməmək şərti ilə, 9-cu ordu komandanlığına təyin ediləcək zaman ərzində 9-cu ordu ilə ittifaq edəcəkdir.

2 – Esliha və cebhane (silah və sursat) daha 9-cu orduya təslim ediləcəkdir.

3 – Bu əmrə itaət etməyənlər haqqında təqib kampaniyası qurulacaq və 9-cu ordu komandanlığı bu əmri Nuru Paşaya, Mürsəl Bəyə və Yusif İzzət Paşaya məsul edəcək və nəticəsini bildirəcəkdir".

Buna görə 9-cu ordu komandanı mirliva (albay) Z. Şövqi bəy "30 dekabr 1938-ci il tarixinə qədər Azərbaycanda və Şimali Qafqazda

heç bir Osmanlı zabit və nəfəri, silah və cəbbəxanası qalmayacaq" və "qalanlar haqqında təqib icra ediləcəyi" xüsusunda bir əmr göndərdi. Əmrdə: "Şimendifer (Dəmiryolu) nəqliyyat hərəkətindəki ademikifaye (kifayət olmayan) və sairə heç bir vəchlə esbabi-taahhür ad və qəbul edilməyəcəyi də tasrih (izah etmək) edilməkdə idi.

Bu qatı əmrə rəğmən, Azərbaycan hökuməti, Osmanlı müəllimzabit kadrının kontrato (müqavilə) gərəyincə qalmasını saxlamaq üçün Bakının işğalına hazırlanan İrandakı ingilis qüvvələri komandanı general Tomson nəzdində təşəbbüs etmişsə də, "Azərbaycan namında bir hökumət tanımadıqları" cavabını almışdı. Əslində Mondros müqaviləsində də Azərbaycanın adı qeyd olunmuş və Osmanlı dövləti ilə Azərbaycan Cumhuriyyəti arasındakı muahede (müqavilə) və anlaşçalar heç sayılmışdı.

Noyabr 1918-ci ildə Qafqaz İslam Ordusu Bakını ingilislərə təslim edərək çəkildi. Onlarla bərabər məhdud Azərbaycan qüvvələri də Bakıdan Gəncəyə çəkildilər. Hər şeyi yenidən qurmaq lazım idi. Və hər şeydən əvvəl milli bir ordu qurmaq lazımdı. Azərbaycanda yalnız Bakıya daxil olan ingilis işğalından 4-5 ay sonra, aprel 1919-cu ildə xalqın coşqun alqışları altında Bakıya girən süvari qüvvələri bu milli orduya mənsubdu. Başında general Səməd Mehmandarlı kimi Azəri subayları (zabitləri) duran bu milli ordunun kiçik zabitlərini, Qafqaz İslam Ordusunun yardımı ilə Gəncədə təsis olunmuş kiçik zabitlərə məxsus hərbi məktəbdə yetişənlər təşkil edirdilər.

Tarixi vəzifəsini şərəflə yerinə yetirib gedən Qafqaz İslam Ordusu özündən sonra gənc milli bir ordunun nüvəsini yaratmışdı. Bu ordunun təmin etdiyi nizam və intizam sayəsində ingilis işğal ordusu komandanlığı Azərbaycan istiqlalını tanımaqla ilk addım olaraq Azərbaycan hökumətini yeganə meşru (qanuni) məqam olaraq elan etmişdir (49, s. 3-11).

"Azərbaycan" aylıq Kültür Dərnəyi.
İyul-avqust 1954, yıl 3, sayı: 4-5(28-29)

Mirzə Bala

İSTİQLAL ZƏFƏRİNİN DASTANI

(15 sentyabr 1918-ci il zəfəri münasibətilə)

15 **Sentyabr 1918-ci ildə** parlaq zəfərlə bitən və Azərbaycanı həqiqi istiqlalına qovuşduran şanlı istiqlal savaşına dair bu günə qədər bir çox şeylər yazılmış və daha bir çox şeylərin də yazılacağı şübhəsizdir. Bir tarixçi gözü ilə araşdırılacaq ilk qaynaqlar arasında ədəbiyyatımızın başqa şöbələri ilə birlikdə, şerin də mühüm bir mövqeyi olacaqdır. **Vətən və hürriyyət şairi Məhəmməd Hadi** ilə istiqlalın ilk şerini yazan **İbrahim Tahirdən** bəhs edərkən, bunun şahidi olmuşduq. Fəqət, Məhəmməd Hadi hürriyyəti, İbrahim isə istiqlalı, istiqlala aid dadlı bir "Arzu" olaraq təhəyyül (vəsf etmək) və tərənnüm etmişdilər. Harsı (mədəniyyəti), ictimai, iqtisadi və siyasi sahələrdəki milli həmlələrinin məntiqi və təbii bir nəticəsi olaraq, bu halından dinamik milli bir ideal halına inqilab edən bu "Arzu"nun yaratdığı muazzam (böyük) istiqlal savaşını, bütün səhifələri ilə böyük milli şairimiz **Əhməd Cavadın** ölməz misralarında canlanmış sayırıq. Zalım və qəddar düşmən tərəfindən Sibirə sürgün edilmiş, müqəddəratı və aqibəti bu gün məlum olmayan milli şairimiz o savaş günlərində qurtuluş ordusunun sıralarında idi. Bu baxımdan hərəkat və savaşların şahidi olan şair, əsərini realitedən mülhem olaraq (reallıqdan ilham alaraq) yazmışdır. Qurban Bayramı ərəfəsinə təsadüf edən **14 Sentyabrı 15 Sentyabra bağlayan gecə,** sabaha qarşı, ani basqını ilə düşməni səngərlərindən atıb süngü ucuna almaq sürətilə qəti hücuma keçən qurtuluş ordusunun zəfər topları şairi coşdurmuşdur. Azərbaycan istiqlal zəfərini dastanlaşdıran bu şerinə şair tam haqlı olaraq "Bismillah" başlığını qoymuşdur. Tam haqlı olaraq dedik, çünki şair yepyeni bir dövrün başladığını müjdələməkdədir. Bu gün Azərbaycan Türkünün mənhus taleyi yenilmiş, hürr və müstəqil bir həyata girişmişdir. Buna

"Bəs-i bədelmevt" dahi deyilə bilər. O halda Bakı civarındakı Yanardağ, Şubanı və Yasamal yamaclarından atılan zəfər topları şairi nədən coşdurmasın?!

Atıldı dağlardan zəfər topları,
Yürüdü irəli əsgər, Bismillah!
O Xan Sarayında çiçəkli bir qız,
Gözləyir bizləri zəfər, Bismillah!

İstiqlal savaşının zəfər dastanına belə başlayan Cavad, min ildən çox tarixə malik olan Şirvanşahlar dövrünün parlaq xatirəsini yaşadan Bakıdakı Xan Sarayında özünün zəfər pərisini gözlədiyinə əmindir.

Memarlıq və təbii gözəlliyinə yad bilgilərin də heyran olduqları və "Daşa dönmüş musiqi" şəklində tərif etdikləri XV əsrin bu qüsursuz abidəsi yalnız gözəl bir sənət əsəri olmaqla qurtarmır, incə bir zövqün ifadəsi olmaqla bərabər hər şeydən əvvəl, milli dövlət ruhunu tərənnüm edən bir simvol rolunu oynamaqdadır. Bakıdakı Xan Sarayında çiçəkli bir qız şəklində təsvir etdiyi zəfər pərisinin şəxsində şair milli hakimiyyət idealının zəfərini müjdələyirdi. Yalnız milli dövlət dövrünün timsalı olan Xan Sarayı deyil, belki (bəlkə) ümumi heyəti ilə bütün Bakı, nişanlısını gözləyən bir gözəldir. Bütün irfan, kültür, iqtisadi həyat və müəssisələrini sinəsində barındıran (saxlayan) Bakı, o dumanlı şəhər, Azərbaycanın döyünən qəlbidir.

Ey döyünən ürək, dumanlı şəhər,
Bilmirsən bu zor gurultu nədir?
Aç sisli qoynunu, ordumuz gəlir,
Nişanlın qoynuna girər, bismillah!

Fəqət hərbin taleyi buna imkan verəcəkmi? Bu tale nişanlısının qoynuna girməyə can atan qurtuluş ordusuna yol verəcəkmi? Əzəldən bəri bir Türk dənizi, bir Türk gülü olan Xəzər, Türkə, yəni əsl sahibinə ram olacaqmı?

Ey hərbin taleyi bizə yol ver, yol!
Sən ey gözəl dəniz, gəl Türkə ram ol!

- deyə hayqıran şair bütün ümidini sağa-sola qılınc vuran qollara bağlamışdır.

Çünki bu xilasedici qollara haqdan qüvvə verilmiş olduğuna şübhə yoxdur:

Sən ey sağa-sola qılınc vuran qol,
Qollarına qüvvə gələr, bismillah!

Bu haqq qüvvəsinin qarşısında hərbin taleyi nə edə bilər?

Qanlı savaşın seyrinə qapılmış və bir sel kimi axan orduya qatılmış şairdə zəfərin qələbəsinə ümidi də artmaqdadır. Bakını da bu ümidə iştiraka çağıran şair qazi və şəhidləri də unutmur:

Ey Bakı, sən qorxma, gəldik gələli,
Sənincin atıldıq daim irəli.
Sağ qalanlar analara təsəlli,
Şəhidlərin ruhu gülər, bismillah!

Sağ qalanlar analara təsəlli bir qazi, ölənlər də məmnun və nəşəli bir şəhiddir. Əsasən, artıq alın yazısının qara olduğu anlaşılmış olan düşmənin atdığı qurğuşunlar da bizləri öldürmür. Halbuki, şairin ərməğan olaraq yolladığı qurğuşunlar düşmənin çirkli alnını öpməkdədir:

Ey düşmən, alnının yazısı qara,
Öldürməz bizləri vurduğun yara.
Yolladığım qurşun ərməğan sana,
O kirli alnını öpər, Bismillah!

Düşmən, "qudurğan saçmalı boş bir nöbet"dən (növbətdən) ibarət son müqavimətini göstərir. Əfsus, bu müqavimət faydasızdır: saxlandığı torpaq onun qanını içəcək və şairin yurdu ona sipər olmayacaqdır:

Sən mərd olub dursan qarşımda əgər,
Qudurğan saçmalı növbətin keçər.
Sağlamlığın olmaz sana sipər, Bismillah!

Bəli, şair haqlıdır. Görüşlərində və həyəcanlarında olduğu kimi, kehanetlərində də haqlıdır. Müqəddəs yurd torpaqları gasıp və qəddar düşmənə sipər ola bilməzdi və olmadı da. **Qəhrəman Qurtuluş ordusu** düşməni saxlandığı səngərlərdən süngüsünə keçirmiş və Xəzərə tökmüşdü. Bakını bürüyən hərb meydanı düşmən cəsədləri ilə dolmuşdu. "Allah, Allah" sədalarını top gurultuları və silah səslərinə qarışdıran müzəffər qurtuluş ordusunun şəhərə girməkdə olduğunu görən düşmən təslim bayrağı qaldıraraq aman diləmişdi.

İstiqlal savaşını zəfərə çatdıran və bizə hürr və məsud bir istiqlal həyatından bəhs edən bu möhtəşəm səhifəni Əhməd Cavad aşağıdakı misralarda əbədiləşdirmişdi:

Yurdumuzda bizə meydan oxuyan,
Murdar cəmdəkləri murdar qoxuyan.
Tək bir səslərini uzaqdan duyan,
Düşmənimiz aman istər, Bismillah! (47, s. 3-5).

"Azərbaycan" aylıq Kültür Dərgisi.
Sentyabr 1953, yıl 2, sayı 6(18)

"Azərbaycan" aylıq Kültür Dərgisinin redaksiya məqaləsi

15 SENTYABR 1918

Bundan tam 40 il öncə, 15 Sentyabr 1918-ci il tarixdə şanlı Türk Ordusu, Azərbaycan könüllüləri ilə birlikdə Bakını düşmən istilasından qurtarmışdı.

Azərbaycan 28 May 1918-ci ildə İstiqlalını elan edərkən, Başkəndi Bakı ilə birlikdə, məmləkətin bütün əsas hissəsi düşmən əsarətində idi.

Çar Rusiyası kimi bolşevik Rusiyası da Qafqazı və onun şahdamarı olan Bakını əldən buraxmaq istəmirdi. Gah daşnaklarla, gah da kayzer Almaniyası ilə anlaşaraq Azərbaycan əhalisini qətliam bahasına da olsa, əsarətdə saxlayırdı. Bakıda Mart faciəsini təşkil edərək minlərcə məsum insanı Şaumyanın əlilə qılıncdan keçirdikdən sonra Şamaxını yenidən viran etmiş və Lənkəranı qanla boğmuşdu. Əfsus yenə də məqsədinə nail olmamışdı. **Gəncə ətrafında birləşərək, yenilməz mücahidlərin mərd sinələrindən aşılmaz bir sədd quran Azərbaycan Milli Müqavimət hərəkatı, bolşeviklərin Bakıya doğru hərəkatına mane olmuşdu.** Bu müqavimət sayəsində Qafqazın başdan-başa sovetləşdirilərək yenidən bir rus sömürgesi xüsusunda Leninin Qafqaz fövqəladə komissarı Şaumyana vermiş olduğu geniş səlahiyyətlər hakim qalmışdı.

İxtilaldan sonrakı Qafqazda milli-dini ümidlərdən və tarixi ənənələrdən ilham alaraq, Rusiya ilə hər növ zorakı bağları başlanğıcdan etibarən çözüb atmağa hazırlanan əsas ünsürü Türk-İslam əksəriyyəti təşkil etməkdə idi. Xristian ünsürlər, Rusiyadan başqa, bolşevik rejiminə qarşı mücadilə etdikləri üçün Rus imperatorluğundan qəti surətdə ayrılma mövqeyində davranırdılar. Nitekim, Cənubi Qafqaz Seymində Qafqazın Rusiyaya hər növ irtibatını kəsərək bağımsız bir siyasi vəhdət halına gəlməsini israrla təhdid edən və ən sonda gerçəkləşən qüvvə də başda Müsavat Partiyası olmaqla Seymin Müsəlman Fraksiyası olmuşdu.

Azərbaycan Milli Müqavimət Hərəkatı bolşeviklərin Tiflisə və Batuma doğru irəliləyişini dayandırmışdı. Əfsus, Seym hökuməti Bakının istilasına qarşı heç bir yardım etməmişdi. Bu durum qarşısında hər şeydən əvvəl, millətin varlığını qurtarmaqla məşğul olan müstəqil Azərbaycan Hökuməti, Seymin inhilalından dərhal sonra Bakının xilası məsələsini ələ alaraq, Osmanlı Hökumətindən yardım istəmişdi.

Birinci Dünya Müharibəsinin sona yaxınlaşmasına və Türkiyənin çox zəif düşməsinə uyğun Böyük Vətənpərvər Sədrəzəm Tələt Paşanın idarə etdiyi Ənvər Paşanın Hərbiyyə Nəzarətini etdiyi qardaş Osmanlı Hökuməti bu müraciətə məmnuniyyətlə cavab vermiş və **Nuru Paşanın komandası altında xüsusi bir Qafqaz İslam Firqəsini Azərbaycana yardıma göndərmişdi.**

Bu firqə Alman Komandanlığının yaratdığı çətinlikdən irəli gələrək Tiflis-Bakı dəmiryolu xəttindən istifadə edə bilmədiyi üçün İran torpaqları üzərindən keçərək Gəncəyə gəlmiş və Azərbaycan könüllüləri ilə birləşərək məmləkətin əsas hissələrini düşməndən xilas etdikdən sonra Bakı qapılarında dayanmışdı.

Birləşmiş Türk Milli Qüvvələrinin xaricdən hücumu nəticəsində Bakı Sovet idarə sistemini təşkil edən Bolşevik-Menşevik-Eser-Daşnak millətçi qüvvələri birləşmiş və Şaumyan hökuməti devrilərək yerinə Rus Xəzər Donanmasına söykənən "Sentrokaspi" idarəsi keçmişdi.

Bakını mühasirə edən Birləşmiş Türk Qüvvələri təşkilat və təchizat etibarilə heç də şəhər daxilindəki yabançı düşmən birliklərindən üstün deyildi. Hələ Anadoludan göndərilən yardımçı qardaş Türk qüvvələrinin sayı da böyük sayıla bilməzdi.

Düşmən İrandakı ingilis qüvvələrindən tam təşkilatlı və təchizatlı, təqribən iki min nəfərlik yardım almışdı. Bakı daxilindəki yad qüvvələr o günün şərtləri içində bir az gec də olsa, Xəzər dənizi üzərindən maliyyə ala bilirdilər. Nəhayət Azərbaycanın siyasi şəraiti Qafqaz qonşuları da daxil olmaqla bütün dünyadan təcrid edilmişdi. Yardımına gələn Anadolu qüvvələri də o günün şərtləri içərisində Türkiyədən maliyyə ala bilmirdilər. Əldə olan nə vardısa ancaq onunla iş görmək lazım gəlirdi. **Bütün bunlara rəğmən Müzəffər Milli Qüvvələr 15 Sentyabr 1918-ci il tarixdə mərhum general Mürsəlin başçılığı ilə Bakını azad etmişdilər.** Çünki bütün Azərbaycan xalqı xilaskar ordu ilə birlikdə bütün var-yoxunu onun əmrinə buraxmışdı. Xalq yardımına qoşulan Anadolu qardaşlarına mehriban qucağını açmış və onların səflərinə qatılaraq birgə zəfər üçün canını və malını fəda etmişdi. 1918-ci ildə Bakı vuruşlarında iştirak edənlər və ya o sıralarda Azərbaycanda olanlar Türk birliyinin qüdrətinə, idealist Türk gəncliyinin qeyrətinə və xariqələr yaradan Türk gücünə şahid olmuşdular.

Anadolunun mərdanə yardımı Qafqazı iki ilə qədər bolşevizm vəhşiliyindən qorumuşdur. Hələ Bakının işğalından sonra Şimali Qafqazlı qardaşlarımızın yardımına qoşularaq onları da rus istilasından qurtaran xilaskar Anadolu Məhmətciklərinin Temirxan Şuraya qədər irəliləmələri bu zəfəri müəyyən bir zaman üçün tarsin etmiş olurdu. Yəni bütün Qafqaz millətləri nisbi bir hüzur içində müstəqil dövlət təşkilatlarını kurabilmeleri için icap edən zaman və fürsıti qazanmış olurdular. Bu fürsət verilməmiş olsaydı, Qafqazın İstiqlalı sadəcə nəzəri olaraq qalırdı.

Qafqaz üçün edilən qəhrəmancasına savaşlar Osmanlı Dövlətinin bir-iki il əvvəlinə rastlaşmış olsaydı, Türküstan və Krım da daxil olmaqla Türklüyün müqəddəratı tamamilə başqa bir cərəyan almış olurdu. Hətta kim bilir, bəlkə bu günkü dünya böhranları qismən və ya tamamilə atlatılmış ola bilərdi. Çünki rus imperiyasını bəsləyən sərvət qaynaqları məhkum Türk ölkələrində və xüsusilə də Qafqazda yatmaqdadır.

Bakı uğrunda aparılan çətin savaşlarda Azərbaycan və Anadolu mücahidlərinin qanları bərabər axıdılmış və mübarək cəsədləri eyni qardaş məzarlarında dəfn edilmişdir. Bu müştərək savaşlar, müştərək alınyazısının və müştərək istiqbalın bir simvoludur.

15 Sentyabr 1918 tarixi günü Türk tarixinin şanlı zəfər günlərindən biri, həm də ən önəmlilərindən biridir. Bu zəfərin hər hansı maddi mənfəət, qayələri ilə heç bir əlaqəsi olmamışdır. Sırf qardaşın qardaşa yardımı hədəfini güdmüşdür.

Azərbaycanda bu Böyük Zəfər Gününü və onun şanlı qəhrəmanlarını böyük və kiçik hər kəs bilməkdədir. Bu gün, istila altındakı Azərbaycanda belə gizlicə anılmaqdadır.

Azərbaycan xalqı bu Böyük Zəfər Gününü heç bir zaman unuda bilməz. Çünki bu g7ün ona yeni bir həyat, istiqlal haqqını və Başkəndini vermişdir. Bu uğurda şəhid olanlar, Azərbaycan İstiqlalı və Azərbaycanın qurtuluşu yolunda canlarını fəda etmişdilər.

15 Sentyabrın 40-cı ildönümündə bütün bu əziz şəhidlərimizi və zəfərin böyük qəhrəmanlarını dərin minnət və şükranlıqla anırıq.

Ulu ruhları şad olsun! (10, s. 14-15)

"Azərbaycan" aylıq Kültür Dərgisi.
1958, sayı 7

Nağı Şeyxzamanlı

TÜRKİYƏNİN YARDIMINI TƏMİN ETMƏK

Azərbaycanın qəlbi və mərkəzi Bakı rus və erməni əsgərlərinin işğalı altında idi. Bakını düşməndən təmizləmək lazım idi. Ancaq bu, xalq qüvvələri ilə başa gələcək iş deyildi.

Vəziyyətə bir çarə axtaran Milli Komitə Gəncədə bir toplantı keçirdi. Toplantıya Milli Komitə üzvlərindən başqa şəhərin adlı-sanlı üzvləri də dəvət edilmişdilər. Bu tarixi toplantını açan **Nəsib bəy** vəziyyəti izah etdikdən sonra nitqini bu cümlələrlə bitirdi: "Xalqın içindən toplanmış xalq qüvvələrinin gördüyü işlər xalqın gözünün qabağında cərəyan etmişdi. Hər hərəkatımız zəfərlə nəticələnmişdi. Ancaq bu qəhrəman hərəkatlar nəticəni əldə etməkdən çox uzaqdır. **Bu dəfə Azərbaycanın mərkəzi Bakı düşməndən təmizlənməlidir.** Əslində başsız bədən olmaz və yaşaya bilməz. Gerçək olaraq böyük bir yardıma ehtiyacı vardır və bu yardımı da bizə ancaq Osmanlı İmperiyası edə bilər. Burada Osmanlı İmperiyasına bir səlahiyyətli nümayəndə heyətinin göndərilməsini və hərbi yardım istənilməsini qərara alaq". Nəsib bəyin bu sözləri sürəkli alqışlarla qarşılandı. Bu təşəbbüsün nəticəsinin müsbət olacağına bütün toplantı iştirakçıları inanmışdılar. Osmanlı İmperiyasına nümayəndə göndərilməsi üçün Milli Komitəyə tam səlahiyyət verildi. Ertəsi gün Milli Komitə rəisi mərhum Nəsib bəy məni yanına çağırtdırdı. Nəsib bəy məni Milli Komitə binasındakı otağında qəbul etdi və sözünə belə başladı: "Nağı, bilirsən ki, böyük toplantı Osmanlı Dövlətinə bir nümayəndə heyəti göndərmək üçün tam səlahiyyət verdi. Bu ağır və təhlükəli vəziyyəti səndən başqa heç kəsə tapşıra bilmərəm. Hər tərəfdə anarxiyadır və cəbhələr rus əsgərləri ilə doludur. Hərəkət etdiyim andan etibarən sən-

dən heç bir şəkildə xəbər ala bilməyəcəyik. Sağ qalıb-qalmayacağın haqqında da heç nə bilməyəcəyəm. Ancaq sənə güvənirəm və düşmənə asanlıqla baş verməyəcəyinə inanıram. **Hüsaməddin bəy də çoxdandır ki, Türkiyəyə getmək istəyirdi.** Mən isə ona mane olurdum. Onunla bir xeyli söhbət etdim və razı qaldım. Hüsaməddin bəy də sənin lə gedəcək.

... Hüsaməddin bəylə mən stansiyaya gəldik. Səfərimiz gizli olduğundan heç kim bizi yola salmağa gəlməmişdi. 1918-ci ilin yanvar ayı idi. Dostlarımızı, xalqımızı, ölkəmizi təhlükələr içərisində qoyub qatara mindik və Tiflisə yola düşdük. Sabah səhər saat 8-də Tiflisə çatdıq və Xeyriyyə Cəmiyyətinə getdik. Cəmiyyətin rəisi doktor Xosrov bəylə görüşüb məqsədimizi bildirdik. Bizə Xeyriyyə Cəmiyyətinin üzvü olmağımıza dair sənəd verdi. Artıq bizim bu vəsiqələrdə bütün Qafqaz cəbhəsini dolaşmaq səlahiyyətimiz vardı. Vəsiqələri aldıqdan sonra Xosrov bəylə vidalaşıb Batuma hərəkət etmək üçün stansiyaya gəldik. Ancaq nə bilet almaq, nə də Batuma getmək imkanı var idi. Çünki, rus əsgərləri üçün Azərbaycan yolu ilə Rusiyaya getmək təhlükəli olduğundan Batum yolu ilə getməkdə idilər. Batuma hərəkət edən qatarlara mülki şəxslərin minməsinə icazə verilmirdi. Belə çətin bir vəziyyət qarşısında qohumum Kazımı axtardım. Kazım dəmiryol müfəttişi idi və Tiflisdə Azərbaycan xalqını təmsil edirdi. Vəziyyəti ona anlatdım. Kazım getdi və bir saatdan sonra gəldi. Bizə gülə-gülə: "Sizin üçün qatara kiçik bir vaqon qoşdurdu. Mən də sizinlə bərabər Batuma qədər gedəcəyəm. Ancaq stansiyalarda pəncərələrin qabağında oturmayın. Qatar hərəkət etdikdən sonra pəncərə önündə otura bilərsiniz. Vaqon və özümün işim üçün Batuma gedirəm deyə ala bildim" – dedi. Yolboyundakı stansiyalarda qatar durunca biz vaqonun içərisində bardaş qurub oturduq. Beləliklə, çox rahat şəkildə Batuma gəlib çatdıq.

Batumda da rus əsgərlərinin əlindən tərpənmək olmurdu. Qatarla gələn rus əsgərləri gəmilərin azlığından günlərlə Batumda qalmalı olurdular. Şəhər anarxiya içində idi və küçələrdə rus əsgərləri veyil-veyil gəzirdilər. Azacıq şübhələndikləri əsgərin zabit olub-olmadığını yoxlayırdılar. Zabitlər də qorxularından əsgər paltarı geyinmişdilər. Biz çox çətinliklə bunların arasından keçərək bir mehmanxanaya girə bildik. Əşyalarımızı bir otaqda yerləşdirib bayıra çıxdıq və bir yeməkxanaya gedərək yemək yedik. Mehmanxanaya dönərkən mehmanxana sahibi işıqları yandırmağı məsləhət gördü və işığı yanmayan otaqların

rus əsgərləri tərəfindən alına biləcəyini söylədi. Mehmanxana sahibinə sabah səhər yeməyinə pul verdik və təzədən yatdıq. Sabah səhər yemək yeyərkən qapı döyüldü və içəri 7-8 nəfər rus əsgəri girdi və zabit axtardıqlarını söylədilər. Hüsaməddin bəyin əynindəki dəri pencəyin çiynində tapança yeri axtardılar. Daha sonra axtardıqlarını tapa bilməyib çıxıb getdilər. Biz Kazımı Tiflisə qayıtmaq üçün stansiyaya qoyub Batum Xeyriyyə Cəmiyyətinin sədri doktor Mahmud bəyin yanına getdik. Məqsədimizi anlatdıqdan sonra bizi təhlükəsiz bir yolla Türkiyəyə keçirmələrini xahiş etdik. Sonra birlikdə doktorun evinə gəldik. Evdə Tiflisdə nəşr olunan "Molla Nəsrəddin" jurnalının mühərrirlərindən Axıskalı Ömər Faiq bəylə görüşüb tanış olduq. Doktor onun da Türkiyəyə getmək istədiyini bizə əvvəl söyləmişdi. Biz doktorun evində çay içib söhbət edərkən, qapının zəngi çalındı və içəri bir şəxs girdi. Doktorun hörmətlə qarşılayıb bizə də təqdim etdiyi bu şəxs əslən Qiresinli olub, Batumda tütün ticarəti edirmiş. Adı Bünyadoğlu idi. Doktor bizi Xeyriyyə Cəmiyyətinin üzvləri kimi təqdim etdi. Bünyadoğlu doktora: "Mahmud bəy, Sizdən xahişə gəldim. Bəlkə Siz də eşitmiziniz. Trabzon tərəfindəki Rum kəndlərinə hücum edirlər. Rumlar da mallarını, kəndlərini buraxıb Trabzona doğru qaçırlar. Biz bu vəziyyəti Tiflisdə olan rus hərbi komendantına da bildirdik.

Trabzona bir nümayəndə heyəti göndərərək təhqiqat aparıb nəticəni də onlara bildirəcəyik. Göndərəcəyimiz bu heyətə Xeyriyyə Cəmiyyətinin üzvlərindən iki nəfərin də daxil edilməsini təmin etmənizi xahiş edəcəyəm" – dedi. Bundan sonra doktor Mahmud bəy bizim üzümüzə baxdı və biz də "bəli, Mahmud bəy, əgər əmr etsəniz, gedərik" – dedi. Bünyadoğlu Tiflisdə Xeyriyyə Cəmiyyətindən aldığımız vəsiqələrin nömrələrini və adlarımızı dəftərinə qeyd edərək, ertəsi gün Trabzona gedəcək gəmi ilə hərəkət edəcəyimizi söylədi.

Gəmimiz Trabzon limanına yanaşıb dayandı. Limanda bizi qarşılayan rumlarla birlikdə Mitropolitxanaya getdik. Rumlarla dolu olan Mitropolitxanada bizi bir salona gətirdilər. İçəridə rumların adlı-sanlı şəxslərindən 30-40 nəfər var idi. Mitropolit bizim rus dilində bilmədiyimiz üzündən türkcə danışacağını söylədikdən sonra sözü vəkil olduğunu anladığımız bir ruma verdi. Vəkil çıxışında bu sözləri söylədi: "Möhtərəm qonaqlarımız, siz Trabzona gec gəldiniz və rum xalqının pərişan halını görmədiniz. Vəziyyəti sizə anlatdım. Sabah xalqının laz çeteçilərindən nə çəkdiklərini öz gözlərinizlə görəcəksiniz. Gördükdən

və müəyyən qənaətə gəldikdən sonra birlikdə bir raport hazırlayıb və imzalayıb Qafqaz Seyminə bildirək" – dedi. Vəkildən söz alıb danışan şəxs **"Əfəndilər, bu torpaqlar Osmanlı dövlətinə aiddir. Ruslar bu torpaqları işğal etmişdilər və indi də çəkilib getdiklərinə görə Türklərin bu yerləri geri almağa haqları vardır.** Ancaq rum kəndlərinə girənlər Osmanlı hərbi qüvvələri deyil, çeteçilərdir. Törədilən bütün vəhşilikləri çeteçilər edirlər. Türklər heç bir zaman kəndlərə girib deyilən vəhşilikləri etməzlər, buna inanırıq" – dedi. Bu şəxsdən sonra mən söz alaraq, Rusiyada baş verən inqilabdan bəhs etdim və sözlərimə davamla "Rusiyada bu gün anarxiya hökm sürməkdədir. Hərbi və mülki idarələr dağılmışdır. Rusiyanın heç bir tərəfi mərkəzi hökumətə tabe olmur, sosialist cərəyanlar bir-biri ilə çarpışmaqdadır. **Rusiyada yaşayan qeyri-rus millətlər də mərkəzdən ayrılıb müstəqil dövlət qurmaq ərəfəsindədirlər. Məncə tədqiqatımızı başa vurduqdan sonra Osmanlı dövləti və ordusu ilə də görüşməliyik.** Onlara bir heyət göndərərək vəziyyəti onlara da anlatmalıyıq" – dedim. Sözlərim oradakıların heç birinin xoşuna gəlməmişdi. Hələ Ellen komitəsinin rəisi Nikola əfəndi çox hiddətli bir şəkildə çıxış etdi və mənə: "Əfəndi, Osmanlı dövləti və ordusu ilə əlaqə saxlamağa səlahiyyətimiz yoxdur. Biz ancaq Tiflis "Krayevoysiyez"in istədiyi raportu verməliyik. Hələlik siz sabaha qədər istirahət edin. Sabah sizə rum kənd və kəndlilərinin halını göstərəcəyik" – dedi. Nikola əfəndinin çıxışından sonra iclas bitdi. Biz içəridə 4 nəfər qaldıq: Motropolit, Hüsaməddin bəy və mən. Mitropolit ruma tərəf dönərək bizim istirahətimizin təmini ilə məşğul olmasını və ertəsi gün səhər tezdən də bizimlə birgə olmasını tapşırdı. Rumun bayıra çıxmasından sonra Mitropolit bizə: "Əfəndilər, mən Almaniyada təhsil aldım. Həm almanların, həm də türklərin dostuyam. Eyni zamanda türk orduları komandanı Vəhip Paşa ilə də xoş münasibətdəyəm. Dünən ondan bir məktub aldım. Rusların qoyub getdikləri ərzaq və sairlərin mühafizə edilməsini xahiş edir. Ancaq siyasi vəziyyət bambaşqadır. Erməni mücahidi Tqranyan buraya 400 nəfər dəstəsi ilə gələrək bizim rum gəncləri ilə anlaşaraq Trabzon ətrafındakı bütün Türk kəndlərini dağıdıb, bütün xalqını da məhv etmək istəyirlər. Onlar bununla da mərkəzi Trabzon olan rumların Pontus hökuməti qurmalarını təmin edəcəklər. Bu səbəbləri də sizin Osmanlı hökuməti ilə əlaqə yaratma və nümayəndə heyəti göndərmə təklifiniz xoş qarşılandı". Mitropolit daha sonra Vəhip Paşanın göndərmiş olduğu məktubu bizə göndərdi. Məktubu oxuyan Hüsaməddin bəy Vəhip Paşanı tanıdığını, hələ hərbi məktəbdə müdir olduğu zaman ona yavərlik etdiyini söylədi. Bundan sonra biz mitropolitə "Sabah vəzifəmizi yerinə yetirəcəyik, ancaq sonra geri qayıtmayacağıq. Əslində Türkiyəyə getmək istəyirik" – dedi və bizə kömək etməyi xahiş etdik. Ayrıca olaraq İstanbulda Osmanlı hökumətinə onun Türkləri himayə etdiyini və bizə yardım göstərdiyini söyləyəcəyimizi də bildirdik. Daha sonra mitropolitlə vidalaşaraq ayrıldıq. Gecə saat 10-da qaranlıq və tənha Trabzon küçələrində addımlayırıq.

Trabzonda bizdən əvvəl Batumdan gəlmiş mühərrir Ömər Faiq bəylə görüşdük. Daha sonra nahiyyə müdiri vasitəsi ilə bir motorlu qayıq istədik. Qiresun valisi motorlu qayığın sabah səhər Tireboluda olacağını bildirdi. O gecəni Tireboluda keçirdik. Ertəsi gün səhər tezdən qalxaraq hazırlaşdıq. Ömər Faiq, mən və Hüsaməddin bəy Tirebolu limanına endik və motorlu qayığı gözləməyə başladıq. Hər üçümüz də sevinc içində gah söhbət edir, gah da dərin düşüncələrə qərq olurduq. Bir ara mən yuxulu kimi öz-özümlə danışmağa başladım: **Əgər Türkiyənin yardımını almağa müvəffəq olsaq, istiqlalımızı elan edər və müstəqil olarıq. Beləliklə, dünyada ikinci bir Türkiyə yaranmış olar".** Mən hələ sözlərimi bitirməmiş Ömər Faiq bomba kimi partladı: "Sən nə söyləyirsən? Sarıqamışda on minlərlə şəhid verən Türkiyə Qafqazı işğal etməyincə sizə necə istiqlal verəcək, hə". O, belə bağırır, həm də məni hədələyirdi: "Sən Osmanlı dövlətinin rəhbərləri ilə görüşəcək və fikrini anladacaqsan ha. Sən zindanlarda çürüyəcəksən". Bu sözlərdən sonra Ömər Faiq çıxıb getdi. Bu hadisədən üzülən Hüsaməddin bəy mənə: "Mən hökumətin İstiqlal haqqındakı fikrini bilirəm. Ancaq sən Azərbaycan ziyalılarının fikrini söyləyirsən. Bu fikir və istək yalnız sənə aid deyil ki. Mən də hökumətə raport verəcəyəm və Azərbaycanda görüşdüyüm bütün ziyalıların hamısının eyni fikirdə olduqlarını raportumda göstərəcəyəm" – dedi. Bir neçə saat sonra Ömər Faiq qəsəbədən qayıtdı və yanımıza gəldi. Ancaq danışmırdıq. Bu zaman uzaqdan motorun səsini eşitdik. Bir az sonra motorlu qayıq gələrək körpüyə yanaşdı və bizi götürdü. Motorlu qayıqda Ömər Faiqlə üzbəüz oturduq. Qiresuna çatarkən hökumət nümayəndələri, xalq və məktəb tələbələri bizi qarşıladılar. Qiresunun Bələdiyyə rəisi də bizə bir ziyafət verdi. Ertəsi gün hazırladıqları atlarla yola çıxdıq və at belində keçən bir neçə günlük yolçuluqdan sonra da Qafqaz cəbhəsi gə-

rargahının yerləşdiyi Suşəhərinə yaxınlaşdıq. Onlarla birlikdə ordu qərargahına gəldik. Bu zaman mənim sevincimin həddi-hüdudu yox idi. Birnəfəsə ordu komandanına söyləyəcəklərimi düşünürdüm. İlk öncə Qafqazda rus ordu qüvvələrinin, rus çar idarə-üsulunun qalmadığını bildirəcəyəm. Nə qədər məmnun olacaqlarını düşündükcə sevincim bir neçə qat da artırdı. **Nəhayət ,növbə ordu komandanı Vəhip Paşa ilə görüşəcəyimizə gəldi. Paşanın duruşu, baxışı, çevikliyi, əzəməti və ədası məni məftun edirdi. Vəhip Paşa danışmağa başladı.** O, danışır, mən dinləyirdim. Ancaq dinlədikcə də sevincim yox olur və qulaqlarıma inanmırdım. Kefimin pozulmasına əhəmiyyət vermirəm. Həyatımda kim bu sözləri mənə söyləməyə cəsarət edə bilərdi. Əziz oxucularım, anladanda siz də təəccüblənəcəksiniz. **Vəhip Paşa: "Mən bir neçə ildir Qafqaz cəbhəsi komandanıyam. Qafqazlıları tədqiq edib öyrəndim. Siz qafqazlılar da, biz albaniyalılar kimi təmizliyi sevirsiniz. Bu pis Türk nəfərlərini həm də bu görkəmdə Qafqaza göndərə bilmərəm" – deyir.** Məni elə bil ildırım vurdu. Heç bir cavab vermədim. Alban – bu söz mənə o qədər də yad deyil. Ancaq yer üzündə alban deyilən bir millətin varlığından xəbərdar deyiləm. Çünki rus məktəbində oxumuşdum. Osmanlı tarixi də qısa olaraq keçilirdi. Kiçik bir millət olan albanlardan isə bəhs olunmamışdı. Ancaq Balkan müharibəsini izlədiyimdən müharibə əsnasında İşkodrada Əsəd Paşa adlı bir diviziya komandiri olan albanın Osmanlı dövlətinə qarşı üsyan etdiyini rus qəzetlərində oxumuşdum.

Mən Vəhip Paşa ilə görüşərkən Ömər Faiq də yanımda idi. Vəhip Paşa Hüsaməddin bəylə ayrıca görüşmüşdü. Ertəsi gün hərəkət edəcəyimiz zaman Hüsaməddin bəyin Paşa tərəfindən saxlanıldığını öyrəndik. Hüsaməddin bəylə bir xeyli müddət görüşə bilmədik. Görüşərkən bir-birimizə sarılaraq öpüşdük. Hüsaməddin bəyə dərdimi danışmaq üçün fürsət tapa bilmədim. Ömər Faiqlə isə danışmırdıq. Ancaq hərəkətlərindən onun da bu işə mənim qədər sıxıldığını anlayırdım. Vəhip Paşa Baş komandan olan Ənvər Paşadan bizi bir an əvvəl İstanbula yola salmaq əmri almışdı. Bizi araba ilə Sivasa, oradan da avtomobillə Uluqışlaya qatara çatdırdılar. Yol uzunu biz iki yolçu bir-birimizə nifrət edirdik. İki küsmüş məmur kimi rəsmi danışırdıq. Ancaq hər ikimiz də bizimlə təmasda olanlara bu incikliyimizi hiss etdirmirdik. Qatarlar kömür olmadığından odunla işləyirdi. Bu da onların sürətinin zəif olmasına səbəb olurdu.

Uluqışlaqdan Konyaya getdik. Konya stansiyasında bizi vali və "İttihad və Tərəqqi"nin məşhur şəxslərindən olan Müammar bəy qarşıladı. Bizi şəhərə apararaq gəzdirdilər. Həzrəti Mövlanəni ziyarət etdik. Məktəbləri dolaşdıq. Bələdiyyə rəisi bizə bir ziyafət verdi. Daha sonra bizi stansiyaya qədər ötürdülər.

Konyadan qatarla Karahısara gəldik. Qatar dayandı, günəşli bir gün idi. Karahısar şəhərinin mənzərəsi məni çox cəlb etdi. Yolumuza davam edərək, şəklini gördüyümüz, özünün həsrətini çəkdiyimiz İstanbula – Heydər Paşa stansiyasına gəldik. Mən İstanbulu ilk dəfə görürdüm. Ömər Faiq isə İstanbulda olmuş və hər tərəfini yaxşı tanıyırdı. Qatar dayandı. Ömər Faiq və mən qatardan düşüb körpüyə endik. O, ildırım sürəti ilə iki bilet aldı və gəmiyə mindi və o biri tərəfə keçib körpüyə çıxdıq. Sonra bir faytona minərək "Meserret" mehmanxanasına gəldik. Kiçik əl çantalarımızı mehmanxanada qoyaraq bazara getdik. Mehmanxanaya gələndə artıq bizi ümumi işlər müdirinin müavini Əsəd bəy (sabiq Amasiya vəkili) gözləyirdi. O, bizə "Əfəndim, biz Sizi paşada qarşılamağa getdik, ancaq sizi tapa bilmədik. Bu mehmanxanada olduğunuzu öyrənərək dalınızca gəldik. Sizin üçün "Para Palass" mehmanxanasında otaq hazırlanmışdır, oraya gedəcəyik" – dedi. Onunla birgə "Para Palass" mehmanxanasına getdik. Əsəd bəy bizə, axşam saat beşdə bizi Babi Alidə Baş nazir həzrətləri ilə görüşdürmək üçün gəlib aparacağını söylədi və getdi. Saat hələ iki idi. Ömər Faiqlə danışmadığımdan bizə ayrılan otaqda dərin düşüncələrə dalıram: "Demək saat beşdə Tələt Paşa ilə görüşərək vəzifəmi yerinə yetirəcəyəm. Mənim üçün heç bir maneə yox idi". Ömər Faiq qəzet oxuyurdu. Saat dördün yarısı. Vaxt yaxınlaşır. Mən yerimdən qalxaraq Ömər Faiq bəyə yaxınlaşıb: "Faiq bəy, bir az sonra sizinlə birlikdə Osmanlı dövlətinin baş naziri ilə görüşməyə gedəcəyik. Bilirsiniz ki, sizin vətəniniz Axıskadır. Sizinlə bizim aramızda Gürcüstan vardır. Gərək Gürcüstandan o tərəfə keçməyəsiniz. Ora Azərbaycandır və sizin ölkənizlə heç bir əlaqəsi yoxdur. Ora haqqında söz söyləmək yalnız mənim səlahiyyətim daxilindədir. Bir-birimizi başa düşməməyimizə burada son qoyaq. Mənim söyləyəcəyim sözlərin məsuliyyəti mənə aiddir" – deyirəm. Ömər Faiq bu sözlərimə heç bir cavab vermir. Daha sonra Əsəd bəylə birlikdə Babi Aliyə gəlirik və düz saat beşdə də **Tələt Paşanın kabinetinə giririk. Sevincim və həyəcanım bir-birinə qarışmışdı. Kabinet böyük bir otaqdan ibarətdir. Baş**

tərəfdə böyük bir masa vardı. Tələt Paşa masanın arxasında oturmuşdu. Sağ tərəfində Ənvər Paşa, sol tərəfində isə Xəlil bəy (Məntəşə) oturmuşdu. Masanın qabağında iki boş stul var idi. Biz masaya yaxınlaşıb görüşür və otururuq. Mən etimadnaməni çıxarıb Tələt Paşaya verdim. Aldı oxudu və möhürdəki ay-ulduzun gözəlliyindən çox məmnun qalaraq etimadnaməni Ənvər Paşaya və Xəlil bəyə göstərərək "möhürdəki ay-ulduzun gözəlliyinə baxın" – dedi. Mən sözə başladım. "Əziz paşalarım, Azərbaycan xalqı 100 ildir rus hakimiyyətinin zülmü altında inləməkdə idi. Qafqaz Rusiya tərəfindən işğal olunarkən səkkiz xanlığın xalqı olan Azərilər, yəni dini bir, adət və ənənələri bir olan millətimiz Türk millətidir. Millətimiz rus hakimiyyətinə qarşı gecəli-gündüzlü hər fədakarlığa qatlaşaraq çalışdı. Bu çalışmanın rus çarlığının devrilməsində böyük rolu olmuşdur. Qafqazda başsız qalan rus ordusu pərişan halda idi. Millətimizin silahlı qüvvələrinin hücumuna, təzyiqinə dözə bilmədilər. Onlar az bir vaxtda silahlarını ataraq çəkildilər. Azərbaycanın hər tərəfində xalqı idarə edə biləcək milli komitələr quruldu. Artıq anarxiyadan heç bir əsər-əlamət qalmadı. Ancaq bu gün üçün yaxşı olan bu vəziyyət sabah təhlükəlidir. İqtisadiyyatımız, ictimai vəziyyətimiz, imanımız, mədəniyyətimiz hər sahədə rus millətindən qat-qat üstün olduğu halda Azəri türklərinin istiqbalı qaranlıq görünür. Müstəqil yaşamağa öyrənmiş millətimizin böyük bir nöqsanı vardır. Xalqımızın vaxtı ilə hərbi təlim və tərbiyədən məhrum edilməsi və rus çarı Dəli Pyotrun vəsiyyətnaməsi gərəyincə İran və Türkiyə, Rusiya himayəsi və nüfuzu altına keçmədən Qafqazdan əsgər alınmasını əmr etməsi bu əksikliyi doğurmuşdur. Azərbaycan xalqı sizdən yardım gözləyir. Siz qardaş əlinizi bizə uzadaraq yardım edin. Müstəqil olaq. Siz bizi çəkib özümüzə qatmaq istəsəniz, biz buna razı ola bilmərik. (Bu zaman mərhum Tələt Paşa salondakılara "baxın ilhamı nə gözəl Türkcə anladır" – dedi). Bizə böyük hərbi qüvvə göndərməyin. Bizə hərbi mütəxəssis və çavuş kadrları göndərin. Bizdə az bir zamanda böyük hərbi qüvvə qurmağın imkanı vardır. Türk olduğumuz üçün istənilən qüvvə qarşımızda mövcuddur. Xalqımızın milli qüvvətinə güvənərək az bir zamanda rusları torpağımızdan təmizləyib ata bildik. "Mən sözümü bitirmişdim. Tələt Paşa Xəlil bəyə baxaraq "Afərin Xəlil bəy" – dedi və bizə tərəf dönərək "Əfəndim, dünən firqə mərkəzində bu məsələni müzakirə edirdim. Xəlil bəy nəyin bahasına

olursa-olsun hər fədakarlığa qatlaşıb, Qafqazda bir İslam dövləti qurmamız fikrini müdafiə edirdi. (Mən dərhal sözə qarışdım: Bəli, biz islamıq, ancaq Türk olduğumuzdan Milli Türk hökuməti qurulmasını düşünürük və istəyirik" – dedim). Bu vəziyyətdə çox məmnun olduq və "inşallah edəcəyik" – dedik.

Danışdıqlarımızın rəsmi hissəsi bitmişdi. Mən Birinci Dünya müharibəsinin ilk illərində rus mətbuatının "Osmanlı dövlətinə ən ağır zərbəni ingilis ordusundakı müsəlmanlar, xüsusilə də ərəblər vurur" – deyə yazdığını söylədim və "Bu gün qardaşlarımızın içində Türk Məhmətciyini nişan olaraq canına qıyan bir kəs varmı?" – deyə soruşdum. Bu suala Tələt Paşa belə cavab verdi: "Mən ərəblərin millətçi liderləri ilə bu məsələni müzakirə etdim və onları ərəb millətinin ingilislər tərəfində olmamasını razı saldım". Sözə Ənvər Paşa qarışdı. "Bunlardan başqa ingilislər ərəblərə müharibənin sonunda xilafəti bizdən alıb ərəblərə verəcəklərini vəd etmişlər. Mən: "Paşam, xilafəti də onlara verəydiniz" – dedim. Ancaq bu sözlərə Ənvər Paşanın çox hirsləndiyini hiss etdim. Üzü qızardı və əsəbi bir səslə: "Ola bilməz, son nəfərin Xəlifə həzrətlərinin yanında şahid olması gərək" cavabını verdi. Artıq söhbətimiz bitmişdi. Bu zaman Ömər Faiq "Paşam, mən qəzetçiyəm. Azərbaycan mətbuatında çox çalışmışam. Azərbaycan xalqı Türklüklərini qəti dərk etmiş bir millətdir. İstiqlala layiqdirlər. Güclü bir ədəbiyyata malikdirlər. Ancaq mənim xahişim budur ki, bizim qəzamız Axıska düz Türkiyənin sərhəddindədir. Oranın Sizə ilhaq olunmasını istəyirəm – dedi. Tələt Paşa: "Əmin olun, Paşa həzrətləri bu arzunuzu yerinə yetirər. Sabah təşkilatı qurmağa başlayacağıq" – dedi. Əziz oxucularım, bunu da əlavə edim ki, Osmanlı dövləti rəhbərliyi ilə görüşən zaman mən bir dövlətin səlahiyyətli vəkili deyildim. Danışıqlarımızda heç bir etiket yox idi. Böyük Türk Millətinin bir qolu olan Azəri Türkləri öz qüvvələrinə dayanaraq əsarət zəncirini qırmışlar, vətənlərini düşməndən təmizləmişlər. İndi də bir övladını böyük qardaşları olan Osmanlı İmperatorluğu rəhbərliyinin yanına göndərmişdilər. **Bu görüş və anlaşma iki qardaşın dərdləşməsi idi.**

Qaldığımız mehmanxanaya gəldik. Sevincimin həddi-hüdudu yox idi. Ömər Faiqlə göz yaşları içində öpüşdük. Ömər Faiq lap düz yerində məni dəstəkləmişdi. Ertəsi gün Hərbi nazirliyə dəvət edildim. Nazirlikdə cənab Yavər Kazım bəylə (Kazım Orba) ilə görüşdük. Digər yavərlər ilə də tanış oldum. Cənab yavər Kazım bəy məni Umur

Şərqiyə Ali Başhamba ilə tanış etdi. Yarım saatdan sonra məni Ənvər Paşanın kabinetinə gətirdilər. Ənvər Paşa məni gülə-gülə qarşılayıb qarşısında oturtdu və "dünən verdiyiniz məlumat məni çox sevindirdi. Sevincim və nəşəm hələ davam etməkdədir. Hərbi təlim-tərbiyə görməmiş xalq qüvvələri nə müdhiş varlıq, nə yenilməz qüvvə imiş" – dedi. Mən də dərhal: **"Bəli, Paşam, o xariqəni yaradan Türk millətidir. Paşam, mənim verdiyim izahat Azəri türkləri haqqındadır. Rusiyada 35 milyon Türk-müsəlman yaşamaqdadır. Bunlar Türküstan, İdil-Ural, Krım, Şimali Qafqaz və digər yerlərdə yaşamaqdadırlar. Bu saydığım Türk xalqları hər tərəfdə öz torpaqlarından rusları qovmuşdular.** Artıq bu yerlərdə rus hərbi qüvvələri deyilən heç bir şey qalmamışdır. Ancaq təəssüf ki, əsil rus milləti 80 milyondur. Günün birində bu millət özünü ələ alacaq və ətrafını hədələməyə başlayacaqdır. Bizim təşvişimiz bu gün üçün deyil, sabah üçündür" – cavabını verdim. Ənvər Paşa: "Bilirsinizmi ki, rus çarı devrildikdən sonra hakimiyyətə gələn Kerenski müharibəni qələbəyə qədər davam etdirəcəyini bütün dünyaya elan edərək həm bizi, həm də almanları narahat etmişdir. Çar üsul-idarəsinin çürük olduğunu almanlar və biz bilirdik. Halbuki, Kerenski idarə etdiyi hökumətə deyil, 80 milyon rusa arxalanırdı" – dedi. Paşa daha sonra mənə Qafqaz İslam Ordusunun yaradılmağa başlandığını və yüksək rütbəli zabitlərlə təmin olunacağını, bunun üçün bir komissiya qurulduğunu anlatdı və "Sizin də komissiyada olmağınızı uyğun saydıq. İndi isə sizə gələcək Qafqaz İslam Ordusu komandanı şahzadə Fərrux ilə tanış edəcəyəm" – dedi. İçəriyə gənc bir zabit girdi. Ənvər Paşa bizi tanış etdi. Sonra birlikdə yavərin otağına keçdik. Orada da bir az söhbət etdikdən sonra ayrıldıq. Şahzadə ilə bir daha görüşə bilmədim. Daha sonra Ömər Faiqlə Məclisi-Məbusana (Deputatlar məclisi – C. Q., M. Ə.) getdik. Orada məclis rəisi Hacı Adil bəylə tanış olduq. Axşam "Para Palass" mehmanxanasında hökumətin senzur idarəsi ilə mətbuatın anlaşması məqsədi ilə hökumət tərəfindən veriləcək axşam yeməyinə dəvət edilmişdik. Hacı Adil məndən məclis barədə fikrimi soruşdu. Mən də "Bəy, əfəndi Məclisində 24 çalmalı saydım. Onların burada nə işi var" – deyə soruşdum. Hacı Adil bəy "İndi çox yaxşı vəziyyətdədir. İlk məclisimizdə 24 çalmasız tapa bilməzsiniz" – dedi. Sonra mənə Qafqaz haqqında suallar verdi. Cavablarını bildiyim qədər verdim. Ən axırda isə Bakı milyoneri,

xeyriyyəçi Hacı Zeynalabdin Tağını soruşdu: ona Hacı haqqında bildiklərimi anlatdım (Təfsilatı Ankarada nəşr edilən "Azərbaycan" dərgisində verilmişdir).

Bu zamanlar hər gün qurulacaq ordu ilə əlaqədar komissiyanın işində yaxından iştirak edərək müraciət edənləri yoxlamadan keçirtdikdən sonra qeydə alırdıq. Ancaq görüşdüyüm siyasi xadimlərdən "İttihad və Tərəqqi" Partiyasının mərkəzi qərargahında yalnız Tələt, Ənvər və Camal paşaların Türk ordusunun Qafqaza getmələrini istədiklərini, digərlərinin isə buna razı olmadıqlarını öyrəndim. **Mən demək olar ki, hər gün Ənvər Paşa ilə görüşürdüm. Mən görüşümüzün birində özümü topladım və Ənvər Paşanın mənim xatirimi istədiyindən istifadə edərək dedim: "Paşam, Sizinlə açıq danışmaq istəyirəm. Biz Qafqaz Türkləri iki qüvvəyə inanırıq. Yuxarıda Allah, aşağıda Ənvər Paşa. Eşitdiyimə görə Sizin Nuru adlı bir qardaşınız var. Sizdən xahiş edirəm. Qafqaza gedəcək hərbi qüvvənin başına Nuru Paşanı təyin edin. Paşam, ölkəmiz dünyanın ən zəngin yerlərindən biridir.** Qocaman div olan Rusiyanı qudurdan, sağa-sola hücum etdirən Bakı neftidir. Bu neftin 70%-i biz Azəri Türklərinindir. Xalqı zəhmətkeş və çalışqandır. Eyni zamanda olduqca qəhrəmandır. Bir də paşam, Sizin Qafqaza gedəcək hərbi qüvvələrə komandan təyin etdiyiniz şahzadəni hər axşam "Para Palass" mehmanxanasının salonunda içki içib, rəqs etdiyini görürəm. Qafqazda belə hərəkətləri xoşlamırlar". Ənvər Paşa məndən: "Hacı bəy, sizin orada içki içmirlərmi?" – deyə soruşdu. Mən isə bu suala: "İçirlər Paşam, ancaq pivə kimi zəif alkoqollu içki olan şərab, "Vodka" deyilən sərt içkiləri isə isə ruslar istifadə edirlər. Bizdə içki içərlər, ancaq sərxoş olmaq üçün deyil" – cavabını verdim. Məni dinləyən Ənvər Paşa "Çox yaxşı" – dedi. Sonra telefon edərək Qafqaza gedəcək zabitlərin içib-içmədiklərini də yoxlanmasını əmr etdi və sonra mənə "Nağı bəy, Nuru çox gəncdir, necə olar?" – dedi. Mən də dərhal: "Paşam, Nuru Paşanın Trablis-qərbdəki fəaliyyəti haqqında burada heç kəsdən məlumat ala bilmədim. Rus mətbuatının Nuru Paşadan və onun fəaliyyətindən uzun-uzadı bəhs edən materialları Qafqazda oxumuşdum. Və bir də, Paşam, Sizin qardaşınız olması yetər" – dedim. Ənvər Paşa "Yaxşı, sabah söhbət edərik" – dedi və ayrıldıq.

Ertəsi gün Hərbi Nazirliyə gələndə dərhal məni Ənvər Paşanın yanına apardılar. Ənvər Paşa həmişə olduğu kimi məni yenə də gülər

üzlə qarşıladı və "Bəli, Nağı bəy, istədiyiniz oldu" – dedi. Mən də Paşam, çox sevindim və sabah bütün Qafqaz Türkləri də sevinəcəklər" – dedim. Ənvər Paşa məndən Azərbaycanda İsa Aşurbəyov adlı bir nəfəri tanıyıb-tanımadığını soruşdu. Mən də: "Çox yaxşı tanıyıram, paşam. Zəngin bir ailəyə mənsub, vətənpərvər bir şəxsdir" – dedim. Ənvər Paşa ayrıca Aşurbəyovun Türkiyədən Rüşəni bəy adında bir dostu olduğunu və bunların mücadilə üçün pul istədiklərini söylədi. Rüşəni bəyi tanımırdım. Ancaq işin içinə pul məsələsi girincə iş dəyişmişdi. Ənvər Paşaya: "Paşam, indi iş dəyişdi. İsa bəy Bakılıdır. Bütün Qafqaz təşkilatlarının məsarifləri Bakıdan təmin edilməkdədir. Azərbaycanda, hələ Azərbaycanın mərkəzində pul məsələsi düşünülə bilməz. İsa bəy bunu məndən yaxşı bilir. Göndərməyin, mən məsuliyyəti öz üzərimə götürürəm. Bu işdə nə isə bir anlaşılmazlıq var" – dedim. Ənvər Paşa mənim sözlərimi qəbul etdi və pul göndərilmədi. Bu zaman içəri bir paşa girdi. Ənvər Paşa "bax, istədiyin Nuru bu" – deyərək bizi tanış etdi. Nuru Paşa ilə birlikdə İslam ordusunun qərargahına gəldik.

Günlər keçir. Nuru Paşanın qərargah rəisi miralay (albay – C. Q., M. Ə.) Nazim bəylə birlikdə (İstiqlal savaşı zamanı Sakaryada şəhid olmuşdur) gərgin bir şəkildə çalışır və kadrları tamamlayırdıq. Mən vəziyyətdən çox razı idim. Nuru Paşa həm özü işləyir, həm də bizi işlədirdi. Bu arada bir görüşümüz zamanı Ənvər Paşanı çox məmnun gördüm və bundan cəsarət alaraq: "Paşam, Sizdən Hüsaməddin bəyin rütbəsinin bir dərəcə artırılmasını xahiş etmişdim" – dedim. Ənvər Paşa: "Nağı bəy, əsir düşən bir zabitin necə əsir düşdüyü tədqiq edilməlidir. Baxarıq günahı necədir? – dedi. Mən dərhal: "Paşam, bizim orada gördüyümüz iş nəzərə alınmırmı? Ruslarla mücadiləmizdə Hüsaməddin bəyin böyük rolu vardır" – dedim. İki gün sonra Ənvər Paşa məni hüzuruna çağırdı. Gülər üzlə: "Nağı bəy, Hüsaməddin bəyin raportunu aldım və çox məmnun qaldım. İstifadə edəcəyik. Özünün də rütbəsini bir dərəcə yüksəltdim" – dedi. Sevindim və ona təşəkkür etdim. Hüsaməddin bəy raportunda general Əli Şıxlinskidən bəhs edirdi. Ənvər Paşaya: "Paşam, Dünya müharibəsində biz Azərbaycandan dörd general rus ordusunda ordu komandanı olmuşdular. Yalnız bir gürcü generalı korpus komandanı ola bilmişdir. Azərilərdən ordu komandanı Səməd bəy Mehmandarlı rus-yapon müharibəsində korpus komandanı olaraq rus ordusunun ən yüksək nişanını almışdı. İkinci

general Əliağa Şıxlinskidir. O, rus ordusunun artilleriya üzrə müfəttişi idi. Üçüncü general Xan Naxçıvanskidir. Dördüncüsü isə Xan İrəvanskidir. Bu generallar bizim ruslarla mücadiləmizdə heç bir rol oynamadılar" – dedim. Qeyd komissiyasının işi davam edir, ancaq mən bu arada heç bir fikir bildirmirdim. Əslində qeyd olunanlardan heç kimi tanımırdım. Ancaq bir gün əslən Qafqazlı olan Tahir adında bir müəllimin imam olaraq orduya daxil olmaq məqsədi ilə müraciət etdiyini gördüm. Etiraz etdim və dedim ki, "Qafqaza gedən ordu deyil ki, imamı olsun. Orada müəllim əfəndilərə iş yoxdur. Çünki oradakı müəllimlərə Dünya müharibəsində iştirak etmək qadağan olunmuşdur. Bir cümə axşamı Ənvər Paşa mənə: "Nağı bəy, sabah Sultan tərəfindən qəbul ediləcəksən. Saraydan avtomobil gəlib Sizi götürəcəkdir" – dedi. Cümə günü deyilən vaxtda avtomobil gəlib məni Yıldız sarayına apardı. Sultan Rəşad namazda idi. Biz bir başqa otaqda söhbət edib gözləyirdik. Sultanın namazdan çıxdığını bizə xəbər verdilər. Bayıra çıxdıq. Bəhriyyə orkestri marş çalır, vəkillərlə mən də sıraya düzülmüşdük. Sultan, yanında da Ənvər Paşa salam almış vəziyyətdə bizə doğru gəlirdilər. Vəkillərin hamısı fəsli olduğu halda təkcə mən gümüşü papaqla gözə çarpırdım. Düz yanımıza yaxınlaşdıqları zaman Sultan Ənvər Paşaya məni göstərərək: "Bu kimdir?" – deyə soruşur. Ənvər Paşa: "Qafqaz vəkili Nağı bəydir" – cavabını verir. Sultan mənim türkcə bilib-bilmədiyimi soruşur və sonra yanımızdakı pilləkənlərlə yuxarı çıxaraq otağına girir. Biz də onun arxasınca pilləkənləri çıxaraq qarşıdakı otağa giririk. Bir az sonra Ənvər Paşa gələrək mənə: "Nağı bəy, Sultanın hüzuruna qəbul olunursunuz." – dedi. **Sultanın otağına bərabər girdik. Mən ədəblə salam verdim. Sultan məni gözləri ilə süzdü və "Demək Türkcə bilirsən" – dedi. Mən də: - "Bəli, Sultanım, mən Türkəm" – dedim.** Sultan mənə: "Mən səni çərkəz zənn etdim" – dedi. Mən dərhal: "Qafqazda 5 milyon türk vardır. Bunların içərisində çərkəzlər 200 000-ə qədərdir" – dedim. Sultan Rəşad bu sözlərimdən məmnun olmadı və "demək zalım çar onları məhv edib tükətmiş" – dedi. Sonra o, mənə anasının çərkəz olduğunu və çərkəzləri çox sevdiyini söylədi. Mən: "Sultan həzrətləri, Rusiyada 35 milyon Türk-İslam vardır. Əsrlərlə zalım rus çarlarının zülmü altında inləməkdə idilər. Allahın köməyi ilə çarı devirərək zəncirləri qopardıq. Məni vəkil edərək: "get, müsəlmanların hörmətli xəlifəsinə salamımızı çatdır" – dedilər. "Hamımız Sizə dua etməkdəyik" – dedim. Bu sözlə-

rimdən çox məmnun olan Sultan Ənvər Paşaya tərəf döndü və: "Nağı bəyə üçüncü dərəcəli məcidiyyə verin" – dedi. O zaman əncir aldığım haqların məcburiyələri yadıma düşdü. Ənvər Paşa: "Sultan həzrətləri, Nağı bəy və yoldaşları ruslarla çətin müharibələr apararaq onları Qafqazdan qovmuşlar. Müharibə medalının devrilməsini əmr edin" – dedi. Biz bayıra çıxdıqda Ənvər Paşa əlimi sıxdı və "əmrlərə verilən üçüncü məcidiyyə nişanı ilə təltif edildiniz, təbrik edirəm" – dedi. Bu zaman anladım ki, alacağım məcidiyyə deyil, məcidiyyə nişanıymış. "İttihad və Tərəqqi" Partiyasının mərkəzindən doktor Baba Şakirlə doktor Nazim bəylə mehmanxanaya gələrək vizit vərəqələrini mənim üçün qoyub getmişdilər. Mən də onlarla görüşmək üçün partiya mərkəzinə getdim. Orada onlarla xeyli söhbət etdik. Mənə müxtəlif suallar verdilər. Bu sualların hamısına doğru-düzgün, ətraflı cavab verdim. Baba Şakir bəy, Xocalarla inqilabınızda necə dil tapa bildiniz? Sizi başa düşdülərmi?" – deyə soruşdu. Ona belə cavab verdim: "Xeyr, Xocalar toplaşaraq bir İslam partiyası qurdular. Şərait istədilər. İlk zamanlar əhəmiyyət vermədik. Bizim partiyamız, yəni Türk ədəmi Mərkəziyyət Partiyası bütün milli mənafelərimizə cavab verən prinsipləri proqramında əks etdirdiyindən qüvvətli idi. Bütün ziyalılar, tacirlər və bütün hörmətli şəxslər partiyanın ətrafında sıx birləşdilər. Ancaq biz sonradan bu xocaların əleyhimizə təbliğat apardıqlarının şahidi olduq. Onlar xalqa deyirdilər ki, partiya lideri olan Nəsib bəy bir kitab nəşr edərək, ətrafında gəncləri toplamış və Qurani-Kərimin əleyhinə təbliğat aparırı. Bunun qarşısını almaq məqsədilə biz böyük bir xalq toplantısı təşkil edib, onları xalq qarşısında təkzib edilməz dəlillərlə məğlub etdik. Biz bu xalq toplantısında xalqın təzyiqi ilə belə bir qərar çıxardıq. Xocalar, mollalar camelərdə otururaq nikah kəsəcək, cənazə mərasimini idarə edəcək, xalqın anlamaq istədiklərini izah edəcək və qətiyyən dünyəvi işlərə qarışmayacaqlar. Dini işlərimizlə onlar, milli işlərimizlə yalnız biz məşğul olacağıq. Bu qərardan sonra da onlar heç vaxt bizim milli işlərimizə mane olmadılar. Məsələ bununla da öz həllini tapmış oldu".

Bir neçə gün sonra Nuru Paşanın hərbi mütəxəssislərindən ibarət kadrların təşkilini tamamladığı və hərəkətə hazır olduğu xəbərini aldıq. "Nuru Paşanı Heydərpaşadan yola salırıq. Ənvər Paşa və yavərləri, digər paşalar və hökumət üzvlərindən bir neçə nəfər gözləmə salonundayıq. Qatar artıq yola düşməyə hazır və yola salanların

hamısı sahilə çıxırlar. Ənvər Paşa və qardaşı Nuru Paşa tək qalırlar. Mən də sahilə çıxanlar arasında idim. Birdən məni çağırdılar, geri döndüm. Oradakılar mənə: "Sizi nazir həzrətləri istəyir" – dedilər, getdim. İki qardaş baş-başa dayanmışlar. Yaxınlaşıram. Ənvər Paşa bir əlini Nuru Paşanın, digər əlini isə mənim çiynimə qoydu və "Siz ikiniz də mənim qardaşımsınız. Sizə son sözüm bu" – dedikdən sonra Qafqazda görəcəyimiz işlər haqqında təlimat verdi"...

Bir sabah yenə Hərbi nazirlikdən çağırıldım. Məni Ənvər Paşa görmək istəmişdi. Mən içəri girərkən o, yenə gülərüzlə "Nağı bəy, hazırsınızmı?" dedi. Mən də "Paşam, hər dəqiqə hazıram" cavabını verdim. Paşa mənə "Axşam saat 5-də "Rəşid Paşa" gəmisi ilə Kəstəncəyə, oradan da Braylova, sonra Rumıniyadakı korpus ilə bərabər Trabzona gedib oradan Batuma gedəcəksiniz. Bir xahişiniz, istəyiniz varmı? – deyə soruşdu. Mən cavabında: "Tez getmək istəyirəm. Qafqazda çox iş görmək lazım gələcək. İnşallah, Nuru Paşa müvəffəqiyyət qazanacaqdır. Mən onun üçün hər cür fədakarlıqları edəcəyəm. Əmin ola bilərsiniz" – dedim. O, bir an üzümə baxdıqdan sonra: "Nağı bəy, "Umuru Şərqiyyə" rəisi Əli Bacxana iki dəfə Sizə pul təklif etmiş, ancaq qəbul etməmisiniz. Sizə pul lazım olacaqdır. Mən istəyirəm ki, Siz Qafqazda xüsusi işlərinizdə deyil, Nuru ilə bərabər çalışasınız" – dedi. Mən də "Paşam, pulum var. İki aydır Türkiyə torpaqlarındayam. Ayaq basdığım andan etibarən Sizin hesabınıza yaşayıram. Əgər pula ehtiyacımız olsaydı, əmin olun ki, istəyərdim. Batuma qədər yenə də Sizin hesabınıza gedəcəyəm. Qafqazda isə pula ehtiyacımız olmaz. Paşam, Sizə söz verirəm, fəxri olaraq axıra qədər üzərimə götürdüyüm vəzifəni davam etdirəcəyəm" – dedim. Ənvər Paşa ilə vidalaşıb ayrıldıq.

QAFQAZA DÖNÜŞ

Axşam saat 5-də limandan "Rəşid Paşa" gəmisinə minərək Köstəncəyə gedirik. Gəmidə "Təşkilatı Məxsusə" tərəfindən Qafqaza göndərilən şəxslərlə görüşürəm. Bunlar sabiq sədrəzəm Kamil Paşanın oğlu Fuad bəy, Bəkir Sami bəyin oğlu Şövkət bəy, təyyarəçi Camal və başqaları idi. Nəhayət, Köstəncəyə çatdıq. Ancaq burada bizə məlum oldu ki, Tuna çayında sərsəri bir mina görünmüşdür. Bu səbəbdən də çayla üzmək təhlükəlidir. Gəmimiz Tuna çayına girə bilmədiyindən Köstəncədə gözləyəcək və sonra korpusda qatarla Kəstəncəyə qədər gələrək gəmiyə minəcəkdir. Biz bu vəziyyət haqqında alman komandanlığından özümə bir tərcüməçi götürdüm. Mən Rumıniya mərkəzinin görkəmli yerlərini gəzir və hərbi yeməkxanada da nahar edirdim. Bir türk zabiti mənə: "Sizinlə bir alman zabiti görüşmək istəyir, əgər razı olarsınızsa, bərabər gedərik" – dedi. Mən alman zabiti ilə görüşdüm. **Alman zabiti Qafqaz haqqında məlumat almaq istəyirdi.** Mən də Rusiyanın siyasi və hərbi idarələrinin vəziyyətinin sıfıra endiyini, hərbi qüvvələrinin tamamilə Qafqazdan qovulduğunu təfsilatı ilə anlatdım. Qafqazdakı türklərin müsəlman olduğunu və bir Türkiyəli kimi düşüncələrini də anlatdıqdan sonra: "Biz Qafqaz türkləri siz almanları da sevirik. Müharibə əsnasında beş alman kəndinin sakinlərinin mallarını müsadirə etmək və özlərini də Sibirə göndərmək istədilər. İmkan vermədik və onları himayə etdik. Ruslar daim bizlə hesablaşmaq məcburiyyətində qalmış və bizdən çəkinmişdilər" – dedim.

Hilmi Paşanın komandanlığındakı Rumıniya cəbhəsi korpusu "Rəşid Paşa" gəmisinə mindirildi və Kəstəncədən yola düşdük. Qara dənizdə Trabzon istiqamətində gedirdik. Vaxtaşırı radioqramma ilə cəbhələrdəki vəziyyət haqqında məlumatlar alırdıq. Gəmi ilə getdiyimizin ikinci günü radioqramla Türk ordusunun Batumu işğal etdiyi bildirildi. Bundan sonra biz də Batuma gəldik. Gəmi limana yaxınlaşır. Gəmini qarşılamağa gələnlərin yarıdan çoxu yaxından tanıdıqlarım idi. Gəncədən, Bakıdan, Qarabağdan, Şəkidən və Azərbaycanın başqa

vilayətlərindən, qəzalarından gələn yüzlərlə Azəri türkü var idi. Mən onları görüb tanıyıram. Onlar məni görə bilmirlər. Onların hamısı mənim Türkiyədə olduğumu bilirdilər. Ancaq mənim Rumıniyadan gələn ordunun içində olduğumu ağıllarına gətirmirdilər. Gəmi körpüyə tamamilə yan alır və artıq körpüdəkilər də gəminin göyərtəsində olanları tanımağa başlayırlar. Məni göyərtədə görənlər təəccüblənirlər. Hamı sevinc içində idi. Körpüdə çox gözəl bir mənzərə yaranmışdı. Gəmi də Türk gəmisi idi, üzərində dalğalanan sevimli bayraq da. Gəminin göyərtəsindən Batumu və xalqı məhmətciklər sevinclə seyr edirdilər. Gəmini göyərtəsindən körpüyə enirəm. Tanışlarım məni əhatə edir və öpüşüb görüşürəm. Məndən soruşurlar: "Gəmi Rumıniyadan gəlir, sən haradan mindin?" Mən onlara: "Əziz qardaşlarım, gəmini İstanbuldan boş götürüb, Rumıniya cəbhəsində vəzifəsini şərəflə yerinə yetirmiş Türk ordusunu Qafqaza gətirirəm" – deyirəm. Sevincdən hamımızın gözləri yaşlıdır. Məni mehmanxanaya apardılar. Burada bütün həmsədrlərimizlə görüşürəm. Mən onlardan: "Nə üçün belə çox adamla gəlmisiniz?" – deyə soruşdum. Onlar mənə: "Yox canım, gəlmək o qədər də çətin deyil. Sən Türk əsgərlərini buraya qədər gətirdin. Biz də buradan ölkəmizə qədər müşaiyət edəcəyik. Sənin gəlməyin çox yaxşı oldu, yəni bizə rəhbərlik edərsən. Seymin üzvləri istiqlal istəyirlər. Biz isə Azərbaycanın Türkiyəyə ilhaqını istəyirik" – deyirlər. Mən bu sözlərə Çox təəccübləndim. Onlara əsil həqiqətin nə olduğunu anlatmağın imkansız olduğunu hiss edib bir şey söyləmədim. Onlar coşmuşdular. Uca səslə: "Bizi hirsləndirməsinlər. Biz onları Batum küçələrində məhv edə bilərik" – deyirdilər. Mən çox kədərləndiyimdən səsimi çıxarmadım. Hətta bu sözləri söyləyənlər arasında uzun illər bərabər fəaliyyət göstərdiyim yoldaşlar da var idi. Bu şəxslər həmişə sevər və hörmət edərdilər. Onlar milli işlərimizdə göstərdiyim istiqaməti münaqişəsiz qəbul edirdilər. Fəaliyyətimizin hədəfinin istiqlal olduğunu bilməmiş deyildilər. **Əgər mən də "istiqlalçıyam" desəm, əleyhimə gedəcəklərinə əmin idim.**

İlhaqçılarla mübahisə etmək mənə çox çətin idi. Ruslarla mübarizəmizdə bu qədər güc sərf etməmişdim. Bu məsələni həll edə bildikdən sonra dərin nəfəs aldım.

Tarixçi Əhməd Rafik bəyin "Qafqaz yolları" adlı əsərini oxudum. Xatirə dəftərimdə adı çəkilən bir hadisə haqqında ətraflı yazılmış olduğunu gördüm və bunu xatirəmə daxil etməyi məsləhət gördüm.

"Bir yarım ay ərzində Batumun həyatında xeyli dəyişikliklər olmuşdu. Küçələrində əhali artmış və mehmanxanaları Osmanlı məmurları və Qafqazın Türk-Müsəlman yaşayan bölgələrindən gəlmiş qonaqlarla dolu idi. Küçələrdə, bulvarda, parklarda, teatrlarda Qafqazın ən uzaq nöqtələrindən gələn və Osmanlılarla birləşmək istəyənlərə təsadüf edilirdi. Bulvarın "İhtisap" kazinosunda əllərini masaya dayayaraq sərt və atəşli sözlərlə bir-birinə müraciət edən, bəzən də məlum və mütəəssir düşünən bir zümrə var. Bunlar Osmanlılarla müzakirədə iştirak etmək üçün Batuma gələn Gəncəli, Bakılı, Tiflisli və Qarabağlı müsəlmanlarıdır. Hamısının da siması qayğılı və işgüzar bir görkəmdədir. Məqsədləri Qafqazın istiqlalı deyil. Osmanlılarla birləşməsi, yəni ilhaqıdır. Fikrən azad, dinc və sərbəst yaşayan bu xalq şiəlik və sünnilik kimi adi məzhəb fərqlərinə əhəmiyyət vermir. Şapka geyməklə dini hisslərin məhv olmayacağına inanan bu zümrə millət məhəbbətini hər növ əlaqənin, hər növ qüvvənin gücündə görür. Batum Qafqaz sülh müzakirələrinin mərkəzinə dönmüşdür. Gah Gəncədən şeyxülislam gəlir, gah əhali içindən seçilmiş vəkillər Tiflisə göndərilir. Müzakirələr, nitqlər, teleqraflar bir-birini əvəz edir.

Qafqaz rus üsul-idarəsindən xilas olmaq əzmini bütün fəaliyyəti ilə göstərir. Bunların nəzərində ruslar ana vətəni istila edən işğalçılardır. **İndi isə bu zümrəyə daxil olanların nəzərləri Türklərə, yəni İstanbula dikilmişdir"** ("Qafqaz yolları", s. 72-75).

Batuma gəldikdən sonra ilk gündən görüşə bilmədiyim şəxslərlə də görüşdüm. Hamısı eyni fikirdə idilər. Bunların arasında vəkil, həkim, şeyxülislam, tacir, sənətkar, ziyalı müəllimlər də var idi. Onlar məni fikirlərimi söyləmək üçün sıxışdırırdılar. Onlara "İçərinizdən on nəfər seçin, onlarla söhbət edəcəyəm" – dedim. Razı oldular. Sakit bir yer müəyyənləşdirib orada görüşməyi qərara aldıq. **Onlardan ayrıldıqdan sonra Məhəmməd Əmin Rəsulzadə və Nəsib bəy Yusifbəylinin yanına gedərək onlarla görüşdüm.** Onlara bir neçə saat ərzində olub-keçənləri danışdım. Nəsib bəy mənə: "Bilirsənmi, burada nələr olur?" – dedi. Mən də "Nəsib bəy, hamısını bilirəm. Sabah onların başa düşənləri ilə görüşəcəyəm. Ümidvaram ki, onlara həqiqəti başa sala biləcəyəm" – dedim və onlardan ayrıldım. Oradan birbaşa Türkiyə Sülh heyəti rəisi Xəlil bəyin yanına getdim. Bir xeyli söhbət etdik və söhbət əsnasında vəziyyəti ona da anlatdım. O isə mənə "Bunu yalnız Siz öyrənə bilərsiniz" – dedi. Mən də cavabında

"İlhaqçılara heç bir söz söyləmək istəmədim, çünki söyləsəm də qəbul etməyəcəklər. Sabah onların öz aralarından seçəcəkləri başbilənləri ilə görüşəcəyəm. Əgər onları razılığa gətirə bilsəm, Sizin razılığınızla onların 7-8 nəfərini Sizin yanınıza gətirəcəyəm. Onlar Sizi dinlərlər. Bizim istiqlalımızı bizimlə görüşən "İttihad və Tərəqqi" Partiyasının mərkəzi qərargahında xəyalımızda qurub müdafiə etmişsiniz. Qurmaq istədiyiniz istiqlal qurulmadan qara cahillər tərəfindən hədələnir" – dedim. Xəlil bəy mənə: "Sizi anlayıram, əgər məni dinlərlərsə, sabah görüşün. O biri gün saat 10-da mənim yanıma gəlin. Ümid edirəm ki, nəyəsə müvəffəq olacağıq. Nağı bəy, Seymin üzvləri ilə görüdük və anlaşdıq. Onlardan son dərəcə razı qaldıq" – dedi və ayrıldıq. Mən axşam Nəsib bəyin yanına getdim. Bərabər yemək yedik və xeyli söhbət etdik. Mənə kədərli-kədərli: "Anarxiya zamanı xalqdan çəkmədiyim sıxıntını burada çəkirəm" – dedi. Ona: "Siz çox fikir etməyin. Xəlil bəylə görüşdüm və o biri gün bir neçə nəfərlə onu görüşdürəcəyəm. Ümidvaram ki, istədiyimizə nail olacağıq" – deyə təsəlli verdim. Ertəsi gün toplantıya getdim. Onlarla xeyli söhbət edib olub-keçənləri xatırlatdım. Ənvər Paşanın və Tələt Paşanın qərarlarını söylədim. Bir az yumşaldılar. Ancaq söylədiklərimin həqiqət olmalarına şübhə ilə yanaşdıqlarını hiss edirdim. Onlara: "İstəsəniz Sizi sabah Xəlil bəylə görüşdürərəm. Xəlil bəyin də bu fikirdə olduğunu özünüz görərsiniz" – dedim.

Ertəsi gün saat 10-da on nəfərlə Xəlil bəyin yanına gedirəm. **Xəlil bəy bizi qəbul edir. Mən onları Xəlil bəyə bir-bir təqdim edirəm. Tanışlıqdan sonra onların hər biri minlərlə imza atılmış kağızları Xəlil bəyə göstərdilər və hamısı birdən: "Möhtərəm bəyimiz, xalqımız istiqlal istəmir, biz də istəmirik. Osmanlı dövlətinin bir parçası olmaq istəyirik" – dedilər. Xəlil bəy gözəl söhbəti ilə bunları razı sala bildi. Onlara son söz olaraq: "Biz süngümüzlə Qafqaza girdik. Siz bizə ilhaq olmaq istəməsəydiniz də biz sizi süngü, ordu ilə ilhaq edərdik. Ancaq buna imkan yoxdur. Bizim birləşməmizi nə düşmən, nə də dost dövlətlər qəbul edər. Biz sizə yardım edər və edəcəyik. İstiqlaliyyət qurub müstəqil yaşamanız üçün lazımi qədər əsgərimizi göndərəcəyik. Hər cəhətdən yardım edəcəyik. Öz vətənimiz kimi sizin vətəninizi də qoruyacağıq. Evlərinizə dönün və qurulacaq istiqlaliyyəti dəstəkləyin" – dedi.**

Axşam Məhəmməd Əmin və Nəsib bəylə görüşüb Xəlil bəylə ilhaqçıların arasında olan söhbətin nəticəsini bildirdim. Onlar vəziyyətin belə nəticə ilə qurtarmasından çox razı qaldılar. Sonra mən Nəsib bəyin "Gəncədə Nuru Paşanı qarşılamaq lazımdır. Sabah axşam yola düşəcəyəm" – dedim.

İlhaqçılar yeməklərini böyük bir yeməkxanada Türk hökuməti hesabına yeyirdilər. Bir gün mən də onlarla nahar edərkən onlar mənə: "Canım, Türk ordusunun oraya getməsinə biz narazı deyilik. Bizə söylədilər ki, türklər gəlmək istəyirlər, ancaq Seymin üzvləri mane olurlar" – dedilər. Mən də onlara cavabında: "Qardaşlarım, burada qalmağa heç bir ehtiyac yoxdur: "mən axşam yola düşürəm. **Bu günlərdə Ənvər Paşanın qardaşı Nuru Paşa Gəncəyə gələcək. Onu orada qarşılamaq lazımdır" – dedim.**

Axşam yola düşəcək qatara mindiyim zaman bütün ilhaqçıları da Gəncəyə gedən gördüm. Gəncəyə çatdıq. Dörd aylıq ayrılıqdan sonra anama qovuşdum. Anam ağlayaraq mənə: "Sənin bu səfərin çox uzun çəkdi. Sən mənim sonbeşiyimsən. Bir daha səni gözümdən uzağa buraxmayacağam" – dedi. Yazıq anam hardan bilsin ki, zalım rus təkrar canlanacaq, rəngini dəyişdirib qızıla boyanacaq və zülmünü bir neçə qat artıraraq ölkəmizi işğal edəcək. Ruslar böyük oğlunu güllələyib şəhid edəcək və sevdiyi sonbeşiyini də müqəddəs vətənindən didərgin salacaqdı.

Gəncədə mənə xəbər verdilər ki, Nuru Paşa Qarabağa çatmış, bir gün sonra da Gəncədə olacaq. Mən dərhal ertəsi gün Yevlax stansiyasına hərəkət etdim. Yevlaxda bir saat gözlədik. Gəncədən gedən heyət Nuru Paşanı Qarabağda qarşılamışdı. İzdihamlı bir süvari dəstəsi arasında Nuru Paşa Yevlax stansiyasına gəlib çatdı. Görüşməmiz zamanı Nuru Paşa: "Görüşdüklərimdən hey səni soruşurdum" – dedi. Xalqımız Nuru Paşanı çox təmtəraqlı qarşıladı. Nuru Paşa ilə İstanbulda Heydərpaşa vağzalında ayrılmışdıq. Ondan sonra başıma gələnləri ona anlatdım, Nuru Paşa özü ilə bərabər gətirdiyi zabitləri, çavuşları və hərbi qərargah rəisi polkovnik Nazim bəyi Bakı cəbhəsinə göndərdi.

Batumdan göndərilən və Nuru Paşanın əmrinə veriləcək hərbi qüvvə ilə əvvəldən almanlarla anlaşmış olan gürcü milləti tərəfindən dəmiryolu ilə keçib Gəncəyə getməklərinə icazə verilirdi. Bu vəziyyət qarşısında Cəmil Cahid bəyin komandanlığında olan alay Qarsdan qu-

ru yolla Ermənistana, sonra Dilican üzərindən Qazax şəhərini ələ keçirərək, Ağstafa vağzalına gəlib çatdılar və oradan da qatarla Gəncəyə gəldilər. Onları Gəncə xalqı çox təntənəli qarşıladı. Qarşılanma mərasimi aşağıdakı kimi olmuşdur: Gəncə xalqı şəhər meydanına toplaşmışdı. Dövlət idarələri və məktəbləri həmin gün işləmirdi. Ona görə də müəllimlər dəstə halında öz yerlərini tutmuşdular. Müharibə illərində Türkiyənin ruslar tərəfindən işğal edilmiş Şərq vilayətlərindən Xeyriyyə Cəmiyyəti tərəfindən toplanaraq Azərbaycanın bir çox şəhərlərindəki uşaq evlərində saxlanan sahibsiz uşaqlardan dörd yaşından yuxarı olanlar da meydanda dəstə halında düzülmüşdülər. Meydanın ətrafını əhatə etmiş əhali sevincdən gözləri yaşarmış halda əsgərlərə baxırdılar. Uşaq evlərindən gəlmiş uşaqlar əsgərlərə yanaşaraq onlara sarılırlar və haralı olduqlarını bildirirlər. Əsgərlər uşaqlarına hər birisi ilə mehribanlıqla görüşür və əzizləyirlər. Bu zaman maraqlı bir hadisə olur. Əsgərlərlə görüşən uşaqlardan biri atasını tanıyır və ata-oğul sevincdən bir-birinə sarılaraq ağlayırdılar. Ətrafdakı minlərlə adam bu yaranmış vəziyyətə dözə bilməyib ağlayırdılar. Onlar dərddən-qəmdən yox, sevincdən ağlayırdılar.

Gəncə şəhərinin ermənilərlə məskun olan məhəllələri Cəmil Cavad bəyin alayı tərəfindən mühasirə edilərək itaətə məcbur olunurlar. Aylarla mühasirədə qalaraq ərzaqdan korluq çəkən ermənilər könüllü şəkildə mühasirədən çıxaraq Türk ordusunun gəldiyinə inanırlar. **Bir erməni heyəti də Nuru Paşaya təşəkkür etməyə gəlir. Artıq şəhərdə asayiş təmin olunur.** Türk və erməni xalqı arasındakı düşmənçilik aradan qalxır. Nuru Paşanın komandanlığı altında Osmanlı Türkləri ilə Azəri türkləri yan-yana Azərbaycan Cumhuriyyətinin mərkəzi olan Bakını xilas etməyə qoşulurlar. Bu zaman Bakını rus, erməni və ingilis qüvvələri müdafiə etməkdə idilər. Onlar iki Türk qardaşın birləşmiş məhmətciklərinə qarşı dayana bilərdilərmi? **1918-ci il Sentyabrın 15-də hücum nəticəsində ermənilərı və ingilisləri Xəzər dənizinə tökdülər.** Azərbaycan hökuməti müvəqqəti mərkəzi olan Gəncədən Bakıya köçdü. Azərbaycan xalqı və hökuməti əl-ələ verərək, səylə hər sahədə durmadan çalışırdı. Nuru Paşanın təşəbbüsü ilə ilk iş olaraq bir hərbi məktəb açılır və Azərbaycan ordusuna zabitlər hazırlamağa başlayırlar. Nuru Paşaya xahiş etməklə Batumdakı Vəhip Paşanın sərəncamında olan Hüsaməddin bəyin də Gəncəyə göndərilməsini təmin edə bildim. Bakı düşməndən tamamilə təmizlənə bilmişdi. Ancaq rus

qüvvələrinin bir hissəsi Lənkəran qəzasını öz işğalları altında saxlamağa nail olmuşdular. Azərbaycanın bir hissəsi olan Lənkəran da düşməndən təmizlənməliydi. Lənkəranı işğal etmiş rus tör-töküntüləri bolşevik olduqlarını Moskvaya bildirmişdilər. Ağ rusların əlində olan Xəzər dənizinin hərbi gəmiləri də bolşevik düşməni olduqları halda müştərək rus mənafeyi naminə Lənkərandakı bolşevik qüvvələrinə kömək edirdilər. **Nuru Paşa Lənkəranda olan son rus qüvvələrini də dənizə tökmək məqsədi ilə Lənkəranın sərhəd qonşusu olan İranda Türk irqinə mənsub və qəhrəmanlıqları ilə məşhur olan Şahsevənlərlə əlaqə yaradılmasını və onlarla birgə Lənkərandakı rusları oradan qovub çıxarmaq istəyirdi.** O, bu vəzifəni Hüsaməddin bəylə mənə tapşırdı. Biz də vəzifəmizi yerinə yetirmək üçün Salyana getdik. Oradan İrana getməyə hazırlaşırdıq ki, bir qara xəbər gəldi. Yəni Türkiyə məğlub olmuş və müqavilə bağlanmışdır. Biz Bakıya deyil, Gəncəyə qayıtdıq. Sonradan öyrənirik ki, Türkiyə Mondros sazişini yerinə yetirmək məcburiyyətində qalaraq ingilislərin İstanbulu işğal etmələrindən sonra burada qurulmuş Tefik Paşa kabineti teleqrafla Türk ordusunun Azərbaycandan çıxmasını Nuru Paşaya əmr etmişdi. Azərbaycan dövlətinin və xalqının istinadgahı olan Osmanlı dövləti çökmüş və Azərbaycan yalnız, arxasız qalmışdı (64, s. 151-164).

Nağı Keykurun (Şeyxzamanlı). Xatirələri.
Bakı, "Qartal" nəşriyyatı, 1997.

Məhəmməd Kəngərli

QARDAŞ YARDIMI

(Qəhrəman Türk Ordusunun Azərbaycana girişinin 39-cu ildönümü münasibətilə)

Birinci Dünya müharibəsinin patlak verməsi ilə, o zamana qədər sömürgeci dövlətlərin basqı və işğalında qalan bir çox millətlərin müqəddəratında önəmli rolu haiz bəzi siyasi və kültürəl təşəkküllər özünü göstərir, zaman keçdikcə bu nüvə halında olan təşəkküllər milli müəssisə halını alır və bunlardan da tam təşkilatlı siyasi partiyalar doğmağa başlayırdı.

O cümlədən, digər millətlərdə olduğu kimi, Azəri Türkləri də müxtəlif dövrlərdə qarşılaşdıqları qüvvələri bitərəf edərək, milli mücadilənin qayəsinə çatmaq üçün, sağlam təməllərə istinad edən proqramlı siyasi bir partiyaya zərurət yarandığını dərk etmiş və 1911-ci ildə "Müsavat" Xalq Partiyasını qurmaqla savaşa daha şumullü bir şəkildə girişmişdilər.

Millətin sinəsində doğmuş olan bu partiya məmləkətin hər tərəfində hummalı (enerjili) fəaliyyətə keçərək, yeni təşkilatlar qurmaqla milli qurtuluş məfkurəsini yayır və münəvvər kütləni bu hürriyyət məhvərinin ətrafında birləşdirməyə son qeyrətini sərf edirdi.

Mədəni millətlər səviyyəsinə yüksəlmiş və öz-özünü idarə edəcək qədər siyasi dolğunluğa çatmış olan Azəri Türkləri, siyasi, iqtisadi və ictimai həyatlarında milli ideallarına tərcüman olan "Müsavat" Xalq Partiyasının ətrafında toplaşır, maddi və mənəvi baxımdan ona takviye (yardım) edir və çalışmalarını böyük bir əlaqə ilə izləməkdə dəstəkləyirdilər. Çox keçmədən həmin bütün münəvvər Azəri gəncliyinin rəğbətini qazanan bu partiya, məmləkət mədəniyyətini öz omuzlarında

(çiyinlərində) daşıyan tək Milli-Siyasi müəssisə olaraq xalqın etimadını qazanmış olurdu.

Bütün ciddiyyəti ilə davanı ələ alan "Müsavat" Partiyası, Azəri Türkləri və dünya ümumi fikri qarşısında çox böyük və zamanın şərəfinə görə həlli güc tələb edən məsuliyyətli vəzifələrlə qarşı-qarşıya gəlmişdi. Çətin bir mücadiləyə atılmaqla, millətin hüzurunda öndərlik ləyaqət və mətanətinin siyasi tarix səhifələrində mühüm yer alacaq, ağır bir dönəmini keçirəcəkdi ki, bu da yüz ildən çox Rus tahakkum (zülmü) və işğalı altında inildəyən bir milləti, demokratik əsaslara dayanan Milli-Müstəqil bir hakimiyyətə qovuşdurmaqdan ibarət olacaqdı.

Nəhayət, bu milli və ülvi vəzifə müvəffəqiyyətlə yerinə yetirilmiş və 28 May 1918-ci ildə Milli Şura tərəfindən millət idarəsinin bir məhsulu olaraq Milli Azərbaycan İstiqlalı elan edilmiş və Fətəli Xanın başqanlığında birinci kabinə Gəncədə qurulmuşdur.

Fəqət, bununla iş bitməmiş, bu dəfə də gənc Cumhuriyyət, rus bolşevikləri və erməni daşnaklarının yıxıcı fəaliyyətləri ilə qarşılaşdığı kimi, digər tərəfdən də Orta Avropa Dövlətləri sırasında yer alan Almaniyanın Rusiya ilə gizli görüşlər keçirərək, Bakının ruslara verilməsi müvəffəqiyyətini bəyan etməsi ilə son dərəcə çətin durumlar yaranmışdır.

Səmimi olaraq bunu etiraf edək ki, o zamankı şərtlər altında bu maneələri Azərbaycanın təkbaşına dəf etməsi imkansızdı. Binaen-aleyhi (buna görə), duruma hakim ola bilmək üçün ikinci bir dövlətin yardımına ehtiyac yaranırdı. Təbiidir ki, bu dövlət ancaq Azəri Türklərinin üzbəüz qardaşı olan Türkiyə olacaqdı və bu ölümdirim savaşında yardım əlini bizə uzatmaq da yenə şübhəsiz ki, onun təbii haqqı və Milli vəzifəsi idi.

Durumun vahiməli olduğunu və ciddiliyini göz önünə gətirən Milli Hökumət, istiqlal elanını müttəfiq Osmanlı Dövləti ilə sıx münasibət qurulması və Azərbaycana əsgəri yardım təmini mövzularında həmin görüşmələrə girişilməsini qərarlaşdıraraq Türkiyəyə bir heyət göndərilməsi vacibliyini hiss etmişdir. **Bu məqsədlə Azərbaycan Cumhuriyyəti adına Milli Şura rəisi mərhum Məhəmməd Əmin Rəsulzadə ilə Xarici İşlər naziri Məhəmməd Həsən Hacınski, Türkiyə naminə də Dövlət Şurası rəisi və Ədliyyə naziri Xəlil bəylə 3-cü Ordu Komandanı Vəhib Paşa səlahiyyətli sayılmışdılar.** İki qardaş dövlət nümayəndələri arasında keçirilən görüşlər çox səmimi

bir şərait içərisində cərəyan etmiş və mühüm sonluqlara gətirib çıxarmışdır. 4 iyun 1918-ci ildə iki dövlət arasında bir yardım andlaşması akt və imza edilmişdir. Hər iki tərəf üçün ən doğru və faydalı hal olaraq çıxış yolu bu idi.

Bu andlaşmanın 4-cü maddəsinə görə, Azərbaycan Cumhuriyyətinin sülh və asayişinin yenidən iadesini (qaytarma, ödəmə) təmin məqsədi ilə Osmanlı Dövlətindən istənilən əsgəri yardım Türk heyəti tərəfindən qəbul edilmişdir. 3-cü Ordu tərəfindən 2 iyun 1918-ci ildə Azərbaycan hökumətinin o zamankı paytaxtı Gəncədə olan Nuru Paşaya göndərilən məktubda, Azərbaycan Hökuməti İslam Müstəqilliyinin tələbi üzrə İslamları bolşevik təcavüzündən qurtarmaq üçün qüvvətli bir əsgəri birliyin Qazax şəhəri üzərindən Gəncəyə göndəriləcəyi bildirilir. 7 iyun 1918-ci ildə isə 5-ci Qafqaz firqəsinin yenə Qazax tərəfdən Gəncəyə hərəkət etməsi üçün Vəhip Paşa tərəfindən əmr verildiyi bildirilirdi.

Düşmənlər tərəfindən tez-tez edilən basqınlar, gün keçdikcə Azərbaycandakı durumun son dərəcə təhlükəli bir şəkil aldığını göstərirdi. Durumun ciddiliyini görən Qafqaz İslam Ordusu Komandanlığı göndərilən qüvvələrin kifayət etmədiyini və bu kutalarla (hərbi hissələrlə) yabançı müstevilərin (işğalçıların) Azərbaycandan atılmasının xeyli çətin olacağını bildirərək, yeni əsgəri birliklərin sevkini (cəlb edilməsini) mərkəzdən israrla tələb edirdi.

Qafqaz İslam Ordusunun öz zamanında etdiyi bu tələb üzrə 9-cu Osmanlı Ordusundan 2475 ər, 65 subay (zabit), 2092 tüfəng, 16 makinalı tüfəng, 4 böyük dağ topu və 701 heyvandan ibarət 38 inək, alay və bir də batereyası Gümrüdən yardıma göndərilmişdi.

Göndərilən bu qüvvələri takviyə qayəsilə (yardım məqsədilə) nəhayət 56 və 106-cı piyada alayları da qərargahları ilə birlikdə Bakıya getmək məqsədilə Qarakilsədən hərəkət etmişdilər.

Görünür ki, Azərbaycan hökuməti ilə Osmanlı Dövləti arasında 4 iyun tarixli andlaşmaya görə, Osmanlı hökuməti, gənc Azərbaycan Cumhuriyyətinin əldə etdiyi Milli İstiqlalının yaşada bilməsi üçün əlindən gələn qeyrəti sərf etmiş, ən təcrübəli subaylarını (zabitlərini) və ən qüvvəli kutalarını (hərbi hissələrini) oraya göndərməkdə heç bir zaman tərəddüd etməmişdir.

Beləcə, hadisələr bu tarada (tərzdə) cərəyan edərkən, 27 avqust 1918-ci ildə Azərbaycanın əleyhinə Almaniya ilə Sovet Rusiyası ara-

sında Brest-Litovsk müqaviləsi eki Berlində imzalanırdı. Bu ek andlaşmaya görə, Almaniya, Türk Ordusunun Azərbaycana girməsinə mane olacaq, Rusiya da buna qarşılıqlı Bakı neftinin ¼-ni Almaniyaya verəcəkdi. Almaniya etdiyi xətanın fərqində belə deyildi, çünki 25 eylulda (sentyabrda) Bakıda bolşevik Şaumyan hökumətini devirərək idarəçiliyi ələ alan menşevik "Sentrokaspi" hökuməti İranda olan ingilis işğal ordusunu yardıma çağırmış və 4 avqust 1918-ci ildə bu ordu Bakıya girmişdi. Bakı vilayətini Kür çayına qədər Rusiyanın işğal etməsinə qərar verən Almaniya, İkinci Teşrinin (noyabrın) 11-də müttəfiqlərlə imzaladığı bir mütareke mucibince (sənəd əsnasında) məğlubiyyətini qəbul edərək xülyalarına nail olmamışdı.

İyulun 15-nə qədər Azərbaycanın hökumət mərkəzi Bakıdan sonra məmləkətin ən böyük şəhəri və tarixində yüzlərlə milli qəhrəman yetişdirmiş olan hürriyyət qalası Gəncədə idi. Gənc Cumhuriyyətin birinci və ikinci kabinəsi də bu tarixi şəhərdə qurulur, milli müqəddəratın təyinini sağlayan mühüm toplantılar burada keçirilir və mühüm qərarlar burada verilirdi. O meyanda (o zamanda) Orta Avropa dövlətlərinin İstanbulda toplanacaq olan Konfransına Azərbaycan Cumhuriyyətini təmsil edən bir heyət göndərilməsinə qərar verilir, Milli Şura rəisi və "Müsavat" partiyası lideri mərhum Məhəmməd Əmin Rəsulzadənin rəyasətindəki bu heyət İstanbula gedir.

Rəsulzadə Məhəmməd Əmin bəy İstanbuldakı Alman Böyük Elçiliyinə, Müttəfiqlərə və bitərəf dövlətlər təmsilçilərinə birərə nota tevdi etməklə (nota verməklə) Bakı ilə ilgili Alman – Rus ek andlaşmasını şiddətli etiraz etmişdir (12 sentyabr 1918).

Fəqət, hadisələr nə Rusiyanın sinsi əməllərini tahakkuk (zülm) etdirmə yolundakı siyasətinə, nə Almaniyanın xülyalarına və nə də ingilislərin ümidlərinə yardım edə biləcək bir tarada (tərzdə) cərəyan etmişdir.

Alman-Rus andlaşmasından sonra, 39 il bundan əvvəl, 15 sentyabr 1918-ci ildə dünya sülhü üçün strateji və geopolitik əhəmiyyəti haiz olan Bakı şəhərinə mərhum general Mürsəl Bakının komutasındakı (komandirliyindəki) Türk-Azərbaycan müttəfiq orduları girmişdir. Düşmən orduları bu qəhrəman Məhmətciklərin cəsarət, mətanət və savaş qüdrətləri qarşısında davam gətirməyərək, yedikləri darbelerin (zərbələrin) acısı ilə pərişan bir halda Bakını tərk etməyə məcbur olmuşdular. Beləcə, Türk irqi, öz torpaqlarına göz dikənlərə, dünya

ümumdünya təfəkkürü önündə bir kərə daha qüdrət və əzəməti ilə bunu isbat etmişdir ki, bu vətəndə yaşama və söz sahibi olma haqqı yalnız Türklərə aid ola bilər. Bu torpaqların xəmiri onların qanları ilə yoğrulmuş və onların yapıcı qeyrətləri ilə ihya edilmişdir. Hər qarışında şəhidlərin və qazilərin yatdığı bu müqəddəs torpaqlarda yabançıların hökm sürməsinə əlbəttə ki, müsaade (icazə) edilə bilməzdi. Binaenalyh (buna görə də) gərək Azərbaycan hökuməti, Osmanlı Dövləti qəti qərarlarını vermiş və bunu bütün dünyaya elan etmişdilər. **Azərbaycan hürr və müstəqil bir Cumhuriyyət olaraq yaşayacaqdı.**

Müttəfiqlər tərəfindən Osmanlı Ordusunun Qafqazı tərk etməsi israrla tələb edilərkən, 23 sentyabr 1918-ci ildə Berlində Almaniya ilə gizli bir protokol imzalayan Osmanlı Sədr-Əzəmi mərhum Tələt Paşa, Türk silahlı qüvvələrinin tahliyə (boşaltmaq) edəcəklərinə, buna müqabil Almaniya da Azərbaycan istiqlalının Rusiya tərəfindən tanınmasını təminə çalışacağına söz verirdi.

Beləcə, Türkiyə hökuməti öz mənfəətlərindən belə ferağat (vaz keçərək) edərək, Azərbaycan istiqlalının tanıdılması və yaşadılması üçün qardaşlıq vəzifəsinin əzəmətini qurmuş olurdu.

Vətən torpaqları üzərində yenidən tapışaraq qucaqlaşan və bu əcdad diyarını müştərək olaraq düşməndən qurtaran iki öz (doğma) qardaşın bu məsud başarıdan (uğurdan) dolayı duyduqları sevinc və həyəcan sonsuzdu.

Bu tarixi Qurtuluş günü münasibəti ilə, şanlı Türk Ordusuna və onu yetişdirən qəhrəman və əsil Türk millətinə bir kərə daha sonsuz şükran (minnətdarlıqla) və minnətdarlığımızı ərz edərkən, bu yolda şəhid olan ünlü qazilərə Cənabi Haqdan ənginn rəhmətlər diləyirik (37, s. 5-8).

"Azərbaycan" aylıq Kültür Dərnəyi.
Sentyabr 1957, yıl 6, sayı 6(66).

Feyzi Aküzüm

QARDAŞ YARDIMI

(15 Sentyabr 1918 Zəfəri münasibətilə)

Ölkələrin tarixlərində unudulması mümkün olmayan bir çox şərəfli olaylar yer almaqdadır. Bu olaylar aradan illər, əsrlər keçdiyi halda, daha yeni və daha canlı olaraq beyinlərdə və könüllərdə yer almaqdadır. Bunlara, bilxassə (xüsusilə) Türk tarixində çox rast gəlinir. 15 Sentyabr 1918 tarixi də bunlardan biridir. Azərbaycanın qurtuluş savaşında, onun yardımına çatan **Qardaş Türk Ordusunun, 15 Sentyabr 1918-ci il tarixində Bakını düşmən istilasından qurtararaq Azərbaycanın tam bağımsızlığa qovuşmasını saxlayan bu hərəkəti, uzun illər unudulmayacaq dərin və kutsal (müqəddəs) bir qəhrəmanlıq örnəyidir.**

Bilindiyi kimi, Rusiyada müvəqqəti Kerenski hökuməti vaxtında demokratik və genel oylama (ümumi səsvermə) ilə seçilmiş olan Genel Rusiya Qurucular Məclisinin fevral 1918-ci ildə bolşeviklər tərəfindən – bolşeviklərin azlıqda qalması məcburiyyətində - zorla dağıdılması üzərinə, Azərbaycan, Gürcüstan və Ermənistandan mütəşəkkil, Güney Qafqaz Məclisi (Cənubi Qafqaz Seymi) toplanaraq, bolşevik hakimiyyətini tanımama qərarını aldı və bunu bütün dünyaya elan etdi. Bu hərəkətə əsəbiləşən bolşeviklər, Azərbaycanın başkəndi Bakını zorla ələ keçirməyə çalışdı. Bakı qanlı olaylara qərq oldu. Müdafiəsiz qalan 17 000 Türk və müsəlman əhali qılıncdan keçirildi. 31 Marta düşən bu acı olay Azərbaycan tarixində **"Mart faciəsi"** olaraq nifrətlə yer aldı.

Bu faciəli hadisə qarşısında bütün Azərbaycan qan ağladı Azərbaycanın və başkəndi Bakının düşmən zülmündən qurtarılması, mütləq intiqamının alınması əsnasında bütün Azərbaycanı bürüyən geniş bir mücadilə bayrağı açıldı.

Güney Qafqaz Məclisindəki Türk və Müsəlman millət vəkilləri, Bakının bolşevik istilasından qurtarılmasını istəyərək, bir an öncə hərəkətə keçilməsini təklif etdilər.

Maalesef (təəssüf ki) bu təklif məclisdəki gürcü və erməni qruplar tərəfindən qəbul olunmadı. Onlar özlərini Türkiyə Dövlətinin müdaxiləsi qarşısında görürdülər. Əsasən, Türk hökuməti ilə bolşevik Rusiya hökuməti arasında imzalanan Brest-Litovsk müqaviləsi ilə Qars, Ərdəhan və Batumun Türkiyəyə verilməsi gürcü və ermənilərı bir xeyli üzmüşdü. Bu səbəblə gürcülər Güney Qafqaz Məclisindən ayrılaraq bağımsızlıqlarını elan etdilər. Bunun əvəzində Məclisdəki azərbaycanlı millət vəkilləri qrupu da dərhal başqanlığa Məhəmməd Əmin Rəsulzadəni gətirməklə 28 May 1918-ci ildə Milli Azərbaycan Şurasını elan edib, Azərbaycan Türk Cumhuriyyətini qurdular.

Təşəkkül edən Azərbaycan Milli Şurası ilk iş olaraq 4 iyun 1918-ci ildə Türkiyə ilə bir müqaviləni imzalayaraq Azərbaycanın sülh və asayişini qorumaq üçün Türkiyədən əsgəri yardım istədi. İstək həmin an qəbul olundu. Nuru Paşa (mərhum general Nuru Killigil) komandasındakı 5-ci Qafqaz Tüməni Gəncə istiqamətində hərəkətə keçdi. Gəncədə bir müddət qalaraq asayişi təmin edən Nuru Paşa 14 iyun 1918-ci ildə Türkiyə və Azərbaycan könüllü silahlı birliklərindən ibarət Qafqaz Ordusu Baş Komandanlığına təyin edildi. Bu ordu 3 avqustda Qubanı düşməndən aldı və 31 avqustda Bakı qapıları qarşısında dayandı. Qısa bir hazırlıq dönəmindən sonra 15 sentyabr 1918-ci ildə Bakıya girən Albay Mürsəl bəy (mərhum general Mürsəl Bakı) Komitəsindəki Türk Ordusu çətin və qanlı mücadilələrdən sonra Bakını düşməndən qurtardı. Beləcə, Azərbaycan tam müstəqil bir Türk Cumhuriyyəti halına gəldi.

Azərbaycan xalqı tam müstəqilliyə qovuşmasının həyəcanını günlərcə, aylarca, hətta illərcə dərin bir eşqlə yaşadı.

Bu gün 20 iyulda başlayan Kıbrıs Barış Hərəkatını böyük bir müvəffəqiyyətlə başa çatdıran qəhrəman Türk Ordusunu böyük bir xilaskar olaraq qucaqlayan Kıbrıs Türkləri kimi, Azərbaycanlılar da o zaman bundan qat-qat böyük bir sevinc və iştiyakla (şadlıqla) qəhrəman Türk Ordusunu bağrına basdı. Qardaş yardımına gəlmənin sonsuz həyəcanı ilə qurbanlar kəsildi. Şərqi və türkülər bəstələndi.

Zəfər alayları düzənləndi. Qurban Bayramına təsadüf edən bu müqəddəs qurtuluş günü, bağrı hürriyyət və istiqlal atəşi ilə yanan qadınlı, kişili, gənc, qoca bütün Azəriləri, iki bayramı bir arada qeyd etmənin sevinci içində sonsuz xoşbəxtliyə qovuşdurdu. Günlərcə həyəcan dalğası halında davam edən bu böyük bayramda qızlar, gəlinlər, gənclər və qocalar ən yeni və ən gözəl ürək sözlərini deyərək, milli oyunlar oynadılar, əyləncələr təşkil etdilər.

Salon gəlir aralı,
İçi dolu yaralı.
İçində bir gözəl var,

Azərbaycan maralı – deyə başlayan və bu gün daha dillərdən düşməyən "Salon" (Tren) türküsü, iki qardaşın bir-birinə qovuşmasının ilk müjdəçisi oldu. **Doğulan uşaqlar Ənvər, Nuru, Mürsəl adlarını aldılar.**

Türk Ordusu şərəfinə Bakıda verilən tədbirdə milliyyətçi şair və müəllim Hüseyn Cavidin lojadan tələbələrinə oxutduğu

Türk elindən əsən yellər,
Sənə şirin salam söylər.
Olsun bütün Qafqaz ellər,

Qurban türkün Bayrağına – deyə davam edən "Bayraq Marşı" salonun coşqun və sürəkli alqışlarla canlanmasına, masaların göz yaşları ilə sulanmasına vəsilə (səbəb) oldu.

Milli şair Əhməd Cavadın 15 Sentyabr günü yazdığı:

Atıldı dağlardan zəfər topları,
Yürüdü irəli əsgər, Bismillah!
O xan sarayında çiçəkli bir qız,

Bəkləyir bizləri zəfər, Bismillah!.. şeri qısa zamanda bütün Azərbaycanda dildən-dilə dolaşmağa başladı.

Şəhid olan Məhmətciklərin əziz xatirələrini anmaq üçün bir "Türk Şəhitliyi" meydana gətirildi.

Bakının "Çənbərə Kəndi" məzarlığında yatan Məhmətciklərin xatirələrini əbədiləşdirmək üçün ölümlərinin ildönümü olan 15 Sentyabr 1919-cu ildə sonsuz bir şükran (minnətdarlıq) ifadəsi olaraq Qardaş Məzarlığı üzərində bir abidə tikildi. Bu abidənin təməlqoyma tədbirində çıxış edən Məhəmməd Əmin Rəsulzadə hissiyyatını sərbəst bir şəkildə dilə gətirərək belə dedi:

"Ey hürr Azərbaycanın hürr Vətəndaşları!

Əziz Millətdaşlar!

Milliyyət və qardaşlıq hissi ilə uzaq yollardan keçərək bizi qurtarmağa gələn və öz ölümləri ilə yeni bir Türk Dövlətini yaşadan bu böyük insanları yad edərkən sizi bir az düşündürmək istərəm:

Milli muxtariyyət və istiqlal Rusiya ixtilalının şüarlarından idi. Hər millət öz müqəddəratını təyinə yetkilidir (müqəddəratını təyin etməyə haqqı var) deyilmişdi. Fəqət ictimai məfkurələr heç bir zaman o məfkurənin müstənet əleyhi (əleyhinə əsaslanmayan) olmayan qüvvələr sayəsində inkişaf etməmişdir. Rus əmelesi (fəhləsi) millətlərin haqqı istiqlalını elan edər: bu mümkündür və vakidir (baş verəndir). Fəqət bir Türk istiqlalının təhəkkukunu (meydana çıxmasını) rus əmelesindən (fəhləsindən) gözləmək əbəsdir. Sinfi məfkurələrin təhəkkuku (meydana çıxması), siniflərin öz qüvvə və səylərinə bağlı olduğu kimi, milli məfkurələrin təhəkkuku (meydana çıxması da milli qüvvələrin səy və hümmətinə bağlıdır.

Bunun üçündür ki, millətlərə haqqı istiqlal elan edən rus kommunizmi, iş Azərbaycan İstiqlalına çatınca, Türk düşməni qüvvələrilə birləşdi. Başımıza qanlı Mart hadisəsini gətirdi. "Bizə muxtariyyət" vermək deyil, "xarabazar" vermək istədi. Bu qızıl və qanlı yalana qarşı Milli İstiqlalımızın haqqı müdafiə olaraq bizə Xızır kimi gələn qüvvə, bitabbi Rus əmelesi (fəhləsi) deyil, Türk Ordusu idi. Milli bir qüvvə idi.

Əvət, Azərbaycan Milli Hürriyyət və İstiqlalını, yeni Türk Dövlətinin vücudunu, bu gün böyük məzarları başında, huşu və huzu ilə (canbaşla) üzərində diz çökdüyümüz bu böyük insanlara, qardaşını düşünən bu böyük Türklərə medyundur (minnətdardır)".

Türk Şəhidliyi uzun illər gəlinlərin, qızların ziyarətgahına çevrildi. Dini bayramlarda və Milli günlərdə edilən ziyarətlərlə məzarlıq bir çiçək bağçası halına gətirilirdi. Bundan narahat olan rusların və kommu-

nistlərin ziyarətləri zəiflətmək üçün həyata keçirdikləri tədbirlər nəticə vermədi. Nəhayət, məzarlığı dağıtmağa qərar verdilər. 1932-ci ildə buldozerlər məzarları sökərək və abidəni yıxaraq yeri dümdüz etdikdən sonra oranı bolşevik müstəvilər (işğalçılar) üçün məsire (əyləncə) halına gətirmək məqsədilə şəhər parkına çevirdilər.

Bütün bu tədbirlər qarşısında qardaş yardımına keçən Türk Ordusunun sevgisini, sayğısını, xatirələrini Azərilərin könüllərindən və qəlblərindən çıxarmağı bacarmadılar. Çənbərə Kəndinə gələn hər kəs istər böyük olsun, istər kiçik olsun, orada böyük Türk Vətəndaşlarının yatdığını xatırlamaqda və Onlara rəhmət oxumağı özü üçün böyük vəzifə saymaqdadır.

Bu gün Hürriyyətindən və İstiqlalından yoksun (itirilmiş) Azərbaycan, ergeç (tez-gec) zalım rus pəncəsindən qurtularaq, 28 May 1918-ci il tarixdə yetişdiyi istiqlalına yenidən qovuşacaq. Bu gün şəhər parkı olan "Əziz Türk Şəhidliyi" yenə gənc qızların, gəlinlərin, qadınların, gənc və qoca hər kəsin ziyarət edəcəkləri əziz bir vətən parçası olacaq.

O məsud günləri yaradan əziz Məhmətciklərə minlərcə rəhmət!

Ruhları Şad Olsun! (18, s. 9-13).

"Azərbaycan" Türk Kültür Dərgisi.
İyul-sentyabr 1974, yıl 23, sayı 211.

"Azərbaycan" aylıq Kültür Dərgisinin redaksiya məqaləsi

15 SENTYABR

Bundan 36 il əvvəl 15 Sentyabr 1918-ci ildə Azərbaycanın rus-bolşevik istilasında olan başkəndi Bakı, qardaş Türkiyə ordularının yardımı ilə milli Azərbaycan qüvvələri tərəfindən qurtarılmış və beləliklə 28 Mayda İstiqlalını elan edən Cumhuriyyət əsil bu tarixdən etibarən felən təsis edilmişdi. Bu böyük hadisənin milliyyətçi Azərbaycan tərəfindən necə tərəqqi edildiyini göstərmək niyyətilə, Milli Azərbaycan Hərəkatının nəşr orqanı olan "Yeni Qafqasiya" (1) dərgisinin vaxtilə bu olaya ayırdığı baş məqaləni aşağıda nəşr edirik:

Yalnız Azərbaycan tarixinin deyil, yeni Türk tarixinin ən vacib günlərindən biri də 15 Sentyabrdır.

1918-ci il tarixində, Sentyabrın 15-də qardaş imdadına çatan Türk Ordusunun yardımı ilə Azərbaycan millətpərvərləri bolşevik əsarətində olan Bakını xilas etmiş və İslam tarixində ilk dəfə təşəkkül edən Cumhuriyyəti bilfiil (birbaşa, gerçəkdən) təsis etmişdilər.

15 Sentyabr münasibətilə qurulan mərasimi təsidiyədə (təntənəli mərasimdə) Azərbaycan Milli Hökuməti Rəisi, irkan (irqən) və harsan (mədəniyyətcə) bir olan qardaş millətin eyni məqsəd uğrunda bərabər axıtdıqları qan sayəsində daha artıq qaynaşıb qarışdıqlarını bildirmişdi.

Bəli, Rəis doğru söyləmişdi. Çənbərə Kəndində yatan fədakar Məhmətciklərin qardaş məzarı üzərində dikələn şəhidlik abidəsinin vazı (bünövrə qoyma) əsas mərasimi əsnasında, 1919-cu ildə vuku bulan (baş verən) milli təəssüratı xatırlayanlar, bu müqəddəs ölülərin öz fədakarlıqları ilə nə məqsəd, və nə ülvi hiss və məfkurələr doğurmaqlarına şahid olmuşdular.

Qəlbi millət eşqi ilə çarpan Türklərə 15 Sentyabr tarixinin müteşəkkir (minnətdar) Azəri qəlbində tevlit etdiyi (baş qaldırdığı) sammit və qüdsi (müqəddəs) həyəcanları, bir az olsun, Məhəmməd Əmin Rəsulzadənin millətpərvər Azərilərin hissiyat duyğularına uyğun olan bir nitqini burada dərc etmək istəyirik. Zamanın təsirindən məsun qalma-

yacağı (solmayacağı) muhəkkək (dəqiq bilinən) olmaqla bərabər, bu nitqdən xatirimizdə qalan qismi belə o günlərdə yaşanan həyəcan və duyğuları az-çox ifadə edir.

Abidənin ilk daşı qoyulduqdan sonra Çənbərə Kəndini dolduran camaat hüzurunda kürsi xitabətə çıxan natiq bir neçə dəqiqə sükut etdi. Sözünə belə başladı:

"Ey hürr Azərbaycanın hürr vətəndaşları! Əziz millətdaşlar... Qeyri düşünən böyük bir hiss, milliyyət və qardaşlıq hissi ilə uzaq yollardan keçərək bizi hilasa (xilasa) gələn və öz ölümləri ilə yeni bir Türk dövlətini yaşadan bu böyük insanları teşit (bayram etmək, yad etmək) edərkən sizi bir az düşündürmək istəyirəm. Milli muxtariyyət və istiqlal Rusiya İhtilalının (inqilabının) şüarlarından idi. Hər millət öz müqəddəratını təyin etməyə səlahiyyətlidir, deyilmişdi. Fəqət, ictimai məfkurələr heç bir zaman o məfkurənin müstənit əleyhi bulunmayan (əsaslanmasının əleyhinə olmayan qüvvələr) sayəsində tahakkuk (zülm) etməmişdir. Rus əmələsi (fəhləsi) millətlərin istiqlal haqqını elan edir, bu mümkündür və vakidir (baş verəndir). Fəqət, bir Türk istiqlalının təhəkkukunu (zülmünü) rus əmələsindən (fəhləsindən) gözləmək əbəsdir. Sinfi məfkurələrin tahakkuku (zülmü) siniflərin öz qüvvə və səylərinə bağlı olduğu kimi, milli məfkurələrin təhəkkuku (zülmü) da milli qüvvələrin səy və hümmətinə bağlıdır.

Bunun üçündür ki, millətlərə haqqı istiqlal elan edən Rus kommunizmi, iş Azərbaycan istiqlalına müncər olunca (çatınca), Türk düşməni olan ünsürlərlə üzləşdi, başımıza qanlı Mart hadisəsini çıxardı. Bizə "muxtariyyət yox, xarabazar vermək" istədi. Bu qızıl və qanlı yalana qarşı milli istiqlalımızın həqiqi müdafiəçisi olaraq bizə Xızır kimi gələn qüvvə hansı qüvvə idi?! Bu qüvvə bitabbi (təbii ki) Rusiya əmələsi (fəhləsi) deyil, Türk Ordusu idi. Milli bir qüvvə idi!..

Bəli, Azərbaycan milli hürriyyət və istiqlalını, yeni Türk dövlətinin vücudunu bu gün böyük məzarları başında huşu və husu (bütün varlığı) ilə üzərində diz çökdüyümüz bu böyük insanları, qardaşlarımızı düşünən bu böyük Türkiyəyə medyundur (minnətdardır)!

Bu borclarını əda etmək (qaytarmaq) üçün Azərbaycan Türklərinə 15 Sentyabr şəhidlərinin şanlı fədakarlığına teessi etməkdən (baş əyməkdən) başqa bir çarə, üzərlərinə düşəcək bir vəzifə yoxdur!.." deyəndən sonra natiq zamanın əhəmiyyətini təsvir və nəticədə

"Kuzğun Dəniz"in mavi suları ilə, mavi səmada parlayan günəşi şahid tutaraq məzar başındakı xalqa: "Bu böyük şəhidlər kimi biz də fədakar olacaq, hürriyyətimizi, milli vəhdət və istiqlalımızı canımızı verərək müdafiə edəcəyik!" deyərək özlərinə söz vermişlər.

Əfsus ki, bu söz həyata keçirilə bilmədi. Taleyin dönən üzü yalnız Azərilərdən bir qismini deyil, o məzar altında yatan böyük şəhidlərlə silahdaşlıq edənləri belə iğfal etdi. Bolşeviklər ikinci dəfə daha qanlı və qızıl yalanları ilə meydana çıxdılar; düşməni ikən dost, müstəmləkəçi ikən xilaskar cildinə girdilər!..

15 Sentyabr təsidi mənedildi (qeyd edilməsi qadağan edildi), indi Bakıda Çənbərə Kəndindəki Türk Şəhid məzarına getmək böyük bir təhlükə yaradır.

Fəqət nə beis (ruhdan düşməyə dəyməz) var. Türk şəhidlərinin məzarı yalnız Çənbərə Kəndidədirmi? Xeyr, orada Məhmətçiliyin yalnız əti və sümüyü dəfn olunub. Onun təmsil etdiyi böyük məfkurə isə Azərbaycan gəncliyinin atəşin və müntəkim (intiqam) qəlbinə keçmişdir. O, orada, sönməz bir şölə kimi daim yanır və yalandan dikələn qanlı istila binasını bir həmlədə yıxmaq üçün tarixin özünə vəd etdiyi böyük günü gözləyib durur!

O gün gələcək və Azəri gənci "Kuzğun Dəniz"lə "parlaq günəş"ə qarşı duyduğu hicabı al qanı ilə yuyacaqdır!.. (9, s. 11-13).

Sentyabr-oktyabr 1954, №6-7(3031).

* * * *

GÖZƏL QAFQAZ NƏĞMƏSİ

Qarlı dağları aşalım,
Qafqazyaya tez varalım.
Zəfər üçün gecə-gendüz,
Tanrımıza yalvaralım.

Axıtmalı rus qanını,
Dəlməlidir hər yanını.
Kafir, səndən istəyirəm,
Anamın dadlı canını.

Düşmənləri öldürməli,
İslamları güldürməli.
Zalım, vəhşi Moskovları,
Əskih ininə sürməli.

Cəng yerinə gedəcəyik,
Düşməni qəhr edəcəyik.
Tanrı üçün, zəfər üçün,
Sevinərək öləcəyik.

Sultan Murad hücum deyir,
Oc al deyə bağırıyor.
Qafqazyada əsir olan,
Türklər bizi çağırıyor.

Öldürdülər babamızı,
Boğdurdular anamızı.
Kafir ruslar, ağlatdınız,
Məzardakı babamızı.

Qazbəylərdə, Batumda gəz,
Kimsə səni məhv edəməz.
Biz Moskovu görür isən əgər,
O zalımın beynini əz.

Batum qanla boyanacaq,
Sahumda atəş yanacaq.
Türk ordusu bir hücumda,
Tiflislərə dayanacaq.

Türk ordusu yenilməsin,
Türklük bitdi deyilməsin.
Ey Allahım, xain Moskov,
Bu dünyada sevinməsin.

Gözəl Qafqaz şansla dolsun,
Moskovların rəngi solsun.
Cəngdə şəhid olalım ki,
Məkanımız Cənnətə olsun.

Araz çayı çağlamasın,
Ürəkləri dağlamasın.
Şəhidlərin anaları,
Övladını ağlamasın.

Qəlbimizdə iman dolu,
Qafqazyadır cənnət yolu.
Heybətinlə hücum elə,
Ey qəhrəman İslam oğlu.

Moskovlara Batum neçin,
Hey ağlayır için-için.
Türk milləti əmin etdi,
Qafqazyanı almaq üçün.

Türk ordusu, Türk ordusu,
Məhv elə sən xain rusu.
Sənin üçün həm duaçı,
Türk qadını, Türk yavrusu.

Ya yurd üçün öləcəyik,
Ya zəfərlə dönəcəyik.
Türk yurdumun günlərini,
Bundan sonra görəcəyik.

Aslan dolu daşım, dağım.
Atəş saçar solum, sağım.
Qafqazyanı almaq üçün,
Kainatı yıxacağam.

Tufan kimi qonacağız,
Dünyaya şan saçacağız.
Biz Türklərin bayrağını,
Qafqazyada asacağız.

Həmşirəmiz kəsilsinmi,
Atalarımız əzilsinmi.
Bundan sonra Qafqazyada
Vəhşi Moskov gəzinsinmi.

Tanrım, artır qüvvətini,
Şərəfləndir dövlətini.
Məhəmmədin hörmətiyçün,
Yüksəlt böyük millətini.

Qorxma sakin, Türk oğlusan,
Haydı, hücum, mərd oğlusan.
Qafqazyada atəşlər saç,
Çünki yıldırım oğlusan.

Baxın, görün, mən əsgərəm,
Cəngdən qaçmam, çünki ərəm.
Əgər şəhid olur isəm,
Cənnət olur mənim yerim (8, 9-14)

"Azərbaycan" Türk Kültür Dərgisi.
1973, yıl 22, sayı 206

Taki Aran

AZƏRBAYCAN TARİXİNƏ QISA BİR BAXIŞ

Anadolu və Azərbaycan əsgərlərinin amansızcasına çarpışaraq qazandıqları 15 Sentyabr 1918-ci il zəfərinin, Azərbaycan İstiqlal savaşlarında müstəsna bir yeri və Müstəqil Azərbaycan Cumhuriyyətinin torpaq bütövlüyünün saxlanmasında dəyərli bir rolu vardır. 15 Sentyabrın anlam və önəmini daha yaxşı görə bilmək üçün Azərbaycanın yaxın tarixinə qısa bir göz yetirmək faydalı olacaq.

Coğrafiya baxımından böyük Türk aləminin bir parçası olan və bu aləmin mərkəzində mövqe qazanan Azərbaycan Anadolunun şərqi ilə, Xəzər dənizinin qərbi arasındakı torpaqların sahibidir.

Bu ölkədə yaşayanların 92 faizini Azəri Türkləri təşkil edir. Şərqi Anadolu dağlarından çıxıb Xəzər dənizinə tökülən Araz çayı bu torpaqların ortasından keçir. Araz çayının cənubunda qalan Azərbaycan, Cənubi Azərbaycan, şimalında qalan torpaqlar isə Şimali Azərbaycan və ya Qafqaz Azərbaycanı adını alır.

Tarixi, Miladdan əvvəl VII yüz ildən bəri məlum olan Azərbaycan ölkəsi o gündən bu yana şərq-qərb, şimal-cənub istiqamətində çeşidli uğurlara müvəffəq olmuşsa da, bu istilaların çoxu keçici mahiyyət kəsb etmiş və bu ölkənin əsas heyətinin dəyişməsinə təsir etmişdir.

Miladdan əvvəl VII əsrdə Azərbaycanda Saka Türklərinin mövcudluğu təsdiq edilmişdir. Daha sonra şərqdən qərbə doğru hərəkət edən Türk köç və axınları ilə bu torpaqlar tamamilə Türkləşmiş və İslamın yayılmasından sonra burada Səlcuqlular, Moğollar, Azərbaycan atabəyləri, Səfəvilər və Osmanlılar tərəfindən hər cür formalarda hökmranlıqlar edilmişdir. Bunları özündə yaşadan Şirvanlar dövrü Azərbaycan tarixində, çəkişmə və davamlılıq baxımından Zirvə nöqtə sayılmalıdır. XIX əsrin əvvəlinə qədər Şimali və Cənubi Azərbaycanın bu şəkildə az-çox coğrafi və ictimai bir birlik təşkil etdiyi görünür. Rus istilası dövründə isə bu torpaqlarda Qarabağ, Gəncə, Bakı, Şirvan, İrəvan, Quba və Talış xanlıqlarının hökm sürdükləri tarixi bir faktdır. XIX əsrin əvvəlindən rusların

cənuba doğru başlayan istila təşəbbüsləri nəticəsində 1828-ci ildə Araz çayının şimalında qalan torpaqlar işğal edilmiş və Azərbaycan torpaqları ikiyə bölünərək Araz çayının şimalında qalan hissə Rus imperiyası idarəçiliyinə, cənubunda qalan hissə isə İran imperiyası idarəçiliyinə tabe edilmişdir.

100 ilə yaxın bir zamanda davam edən Rus işğalı əsasında Azərbaycan türkləri hər cür haqq və azadlıqlardan məhrum edilmiş, milli, ictimai, siyasi və iqtisadi inkişafına mane olunmuş, bütün sərvət qaynaqları əlindən alınmışdır.

Azərbaycanda türk xalqının yox edilməsi üçün Ruslar tərəfindən təşkil edilərək nifrət və lənətlə yad edilən soyqırım həyata keçirmək üçün erməni kütlələrini silahlandıraraq, orada heç bir səbəb və bəhanə mövcud olmadığı halda Azərbaycan Türkləri ilə qarşıdurma yaratsalar da heç bir nəticə verməmiş və Türk xalqı əsgəri təlim və tərbiyəyə tamamilə biganə olduqları və əllərində silah əvəzinə qılınc və dəyənəkdən başqa bir şey olmadığı halda, qəhrəmancasına özlərini mühafizə edə bilmişdilər.

Rus imperiyasının hər cür təzyiq tədbirlərinə uyğun Azərbaycan türkləri arasında daha XIX əsrin ortalarından etibarən Milli şüurun oyanmağa başladığını görürük. Mirzə Fətəli Axundovun yaratdığı yeni əlifba mədəni birliyi təsis məqsədilə bütün Türk ölkələrinə qəbul etdirmək üçün sərf etdiyi qeyrət, Həsən bəy Zərdabinin "Əkinçi" adı ilə ilk dəfə olaraq Türkcə qəzet nəşr etdirməsi, Türk qadınlarının intibaha dəvət olunaraq çadranı atmalarına şərait yaradılmasını və türk qadın və qızlarının təhsilə cəlb olunması kimi hərəkətlər 1850-ci ildən etibarən Azərbaycan Türkləri arasında milli və mədəni davranışların yayılmağa başladığını göstərən hərəkətlərdir.

1905-ci il Rus-Yapon müharibəsində rusların məğlubiyyəti Azərbaycan Türkləri üçün geniş imkanlar yaratmış və onları daha əsaslı bir şəkildə mücadiləyə sövq etmişdir. 1905-ci ildə Azərbaycanın zəngin və xeyriyyəçi şəxsiyyətlərindən olan Hacı Zeynalabdinin maddi yardımı ilə Əlimərdan bəy Topçubaşovun nəşr etdiyi "Həyat" qəzetində Əli bəy Hüseynzadənin və Əhməd Ağaoğlunun Türkçülük mövzuları ətrafında yaratdıqları nəşriyyat məhsulları bütün Türk qüvvələri arasında dərin bir əlaqə yaratmışdır. İstanbul ləhcəsinin bütün Türklər arasında qarşılıqlı danışıq dili olaraq qəbulu fikrini ortaya atan Əli bəy Hüseynzadə 1907-ci ildə "Füyuzat"

məcmuəsində Türklər arasında kültür birliyi fikrini də yaymağa başlamışdır. Bundan sonra Azərbaycanda çeşidli adlar altında bir nəşr həyatının başladığı və bunun nəticəsində Azərbaycanda mütəfəkkir və mübariz bir nəslin yetişməsinə yol açılmışdır.

Dünyanı iki düşmən cəbhə halında qarşı-qarşıya qoyan Birinci Dünya müharibəsinin sonunda Rusiyada çarlıq rejimi yıxılan zaman uzun illərdən bəri istibdad altında inləyən Türklər və rus olmayan digər millətlər devrilən Rus imperatorluğunun çökən divarları üzərində öz varlıqları üçün qurtuluş yolu aramağa başladılar. Burada Qafqazdakı türk, Gürcü və ermənilər arasından Rus Müəssisan Məclisinə üzv seçilmiş deputatlar bir araya gələrək Tiflis şəhəri mərkəz olmaqla "Cənubi Qafqaz Cumhuriyyəti" adı ilə bir hökumət qurdular. Bu hərəkət Rus imperializmi boyunduruğu altından qurtarmağı hədəf tutan Rus istilasına qarşı Qafqazda yaşayan millətlərin qarşılıqlı müdafiəsini təmin etmək zərurətinə dayanan bir hərəkat idi. **Əfsus bu üçlü Cumhuriyyət uzun müddət yaşaya bilmədi.** Bir tərəfdən ehtiraslı əməl sahibi ermənilərin, Türkiyə hüdudundan geri çəkilən Rus ordusu birliklərinin insan və silah qaynaqlarından faydalanaraq, silahsız və əsgəri təlim-tərbiyədən məhrum Türkləri məğlub etmək və bütün Qafqazı əllərinə keçirmək yolundakı fəaliyyətləri; digər tərəfdən Gürcülərin müstəqil bir Gürcüstan qurmaq üçün girişdikləri hərəkət, Cənubi Qafqaz Cumhuriyyətini iş görməz bir hala gətirdi və nəhayət 26 May 1918-ci ildə gürcülər Müstəqil Gürcüstan Cumhuriyyəti qurduqlarını elan edərkən, azərbaycanlılarla ermənilər də ayrı-ayrı dövlətlər halında tanınmaları zərurətinə gəldilər və üçlü Cumhuriyyət də bu şəkildə ortadan çıxdı. Onu da dərhal qeyd etmək lazımdır ki, Azərbaycan Cumhuriyyətinin elanı sırf "Cənubi Qafqaz Hökuməti"nin yıxılmış olması faktının doğurduğu bir nəticə deyildir. Cənubi Qafqaz Cumhuriyyəti Məclisində Azərbaycan Türklərini təmsil edən deputatlar arasında əksəriyyəti təşkil edən və "Federalist-Türkçü" qrupa mənsub olanlar əsasən Milli əməllərinin və Milli mənfəətlərinin yerinə yetirilməməsi qarşısında Seymdən ayrılaraq Müstəqil Azərbaycan Cumhuriyyətini elan edəcəklərini gürcü və ermənilərə açıqca söyləməkdə idilər. Gürcülərin müstəqil bir dövlət qurmaları üçün Seymdəki: Azərbaycan Türklərinə mənsub bütün partiyalar (Müsavat Firqəsi, Bitərəflər Qrupu, Əhrar Firqəsi, İttihad Firqəsi, İxti-

lal Sosialist və Sosial Demokrat Firqələri) arasındakı fikir ayrılığını bir tərəfə buraxaraq, Milli müqəddərata birlikdə əl qoyma olduğunu göstərdilər və bu müxtəlif partiyalara mənsub 27 Azərbaycanlı deputat Həsən bəy Ağaoğlunun başqanlığında və Milli Şura adı altında toplanaraq **28 May 1918-ci ildə Tiflisdə "Canişin" sarayında Azərbaycan Cumhuriyyətinin elan olunmasına qərar verdilər (65, s. 3-5).**

"Mücahid", 1961, sayı 7.

Cingiz Göygöl

15 SENTYABR 1918

Şərqin qapısı Azərbaycanın göz bəbəyi, Xəzər dənizinin ən böyük limanı Akar altun, neftin xəzinəsi, Azəri Türklüyünün qəlbi olan Bakı, bolşevik kommunist ruslarla, daşnaksütun ermənilərlə bunları dəstəkləyən ingilis qüvvələrinin istilasına məruz qalmışdı.

Azərbaycan və dünya millətləri tarixinə Mart hadisəsi olaraq keçən o məşum, milyonlarla Türkün haqsız olaraq qətliamının baş verdiyi 17-31 Mart günlərindən sonra, Azərbaycanın digər şəhərlərinə kommunist-daşnak ittifaqının üstün qüvvələri hücuma başlamışdılar. Lənkəran, Quba və sonra Şamaxı kimi Azərbaycanın ən qədim mədəni şəhərlərinin sakinləri olan Azəri Türk və Müsəlmanlar da günahsız olaraq qətl edilərək evləri bu qüvvələr tərəfindən yağmalanmışdı. Bu ittifaq ingilislərdən gördüyü yardımla hücumlarını genişləndirərək, Azərbaycanın ikinci mərkəzi Gəncəni hədəf tutaraq irəliləməyə başlamışdı. Əslində bu faciəli günlərdə Daşnaksütunun təşviqatı ilə Azərbaycanın digər vilayətlərində, Qarabağ-Şuşa, Şəki, Gəncə kimi şəhərlərdə yaşayan ermənilərin olduqları şəhərlərdə Azəri Türk və Müsəlmanları hər cür hüquqsuzluqlara məruz qalırdılar. Demək olar ki, Azərbaycanın qəlbi Bakıda başlayan qırğın hər gün bir az da genişləndirilərək, Azərbaycanı ortadan qaldırmaq məqsədilə yerinə boşevik Daşnaksütun ittifaqının istila qüvvələri kaim (dayanmaq, mövcud olmaq) olacaqdı. Bu hədəf və qayə ilə zamanın kommunist Rus dövlətinin Baş vəkili Lenin, erməni Şaumyana, Böyük Hayastanı vəd edən bir səlahiyyətnaməni də imza edərək, ittifaqın dürlü mükafatını da verirdi. "Böyük Hayastan" xəritəsi içərisinə isə yalnız Azərbaycan torpaqları deyil, Türkiyənin bir çox vilayətləri və İranın bəzi torpaqları da daxil edilmişdi. Azərbaycanın istilası ilə Türkiyə hüdudlarından dönən Bakı qüvvələrinin yerini alma vəzifəsi də "Hayastan" (Böyük Ermənistan) ordusuna

verilmişdi. Anadolu Türklüyünün hərbdəki durumu da çox parlaq deyildi. Bir çox cəbhədə çarpışır və belə hərb durumu ilə böyük güclüklərlə qarşı-qarşıya qalmış olurdu. İranın durumu isə Azərbaycanla məşğul olacaq vəziyyətdən çox özünün də istiqlalının mühafizəsini təmin etməyəcək durumda idi.

Şimali Qafqaz və türküstan Türk və Müsəlmanlarının durumları, Azərbaycanı düşünənlər də fayda qazanmaqdan uzaqdı. Onlar da qırmızı və ağ rus qüvvələri ilə mücadilə halında idilər. Bu əhval və şəraitdə Azərbaycan Türklərinin nə qədər çətin zorakılıqlara qarşı olmaları öz-özlüyündə anlaşılmaqdadır. Bütün bu şərtlərə rəğmən Azərbaycan Türklərinin, bütün şəhər, qəsəbə və kəndlərdə Türklüklərinə uyğun bir şəkildə, milli qüvvələrini bir araya toplayaraq ordu qurmağa başladıqları şayanı diqqət (diqqətə layiq) görülmüşdür. Bilindiyi kimi, Azərbaycanın işğalı zamanı çarlıq Türk və Müsəlmanlardan əsgər toplamırdı. Bu etibarla rus istilası altındakı Türk və Müsəlmanlar, əsgərlik təliminə yiyələnmədikləri kimi, hərbi alətlərlə də tanışlıqları yox idi. Üstəlik də silah daşıma qadağasına görə də heç bir silaha sahib deyildilər. Nəzərə çatdırdığım fikirlər Azərbaycanlıların böyük bir təhlükə ilə qarşı-qarşıya qaldıqlarını göstərməkdədir. Əslində bu ağır şərtlər altında hummalı (enerjili) fəaliyyət göstərən Azərbaycanlıların imdadına Türk ordusunun çatdığı duyulur. İstila içində olan Azərbaycan şəhər, qəsəbə və kəndləri yeganə yardımçı qüvvə Türk ordusunu böyük həyəcanla qarşılayır. Gəncədə qərargahını quran Ənvər Paşanın qardaşı rəhmətlik Nuru Paşa istila altındakı Azərbaycan qüvvələri ilə təmas yaratdı. Gəncədə həmin vaxt ordu təlim hazırlıqları başladı. Azərbaycan gəncləri böyük inamla bu təlim verən hərbi məktəblərə keçdilər. Bu hazırlıqla birlikdə istilada olan Azərbaycan şəhərlərinin daxilindəki milli qüvvələrlə gizli əlaqələr yaradıldı. Artıq qol-qanad açan Türklük yeganə bir varlıq olaraq düşmənə qarşı dura bildi. Türk ordusu rəhbərləri məhvolma təhlükəsi keçirən qardaşlarına yardıma başlamışdılar. Azərbaycanlıların Türk ordusuna qarşı istisnasız sevgi təzahürləri özünü göstərirdi. **Mərhum Nuru Paşanın Gəncəyə gəlişi ərəfəsində Seyfəli kəndindən adını xatırlamadığım çox zəngin bir nəfər xalılarla döşənmiş stansiya meydanında kəsilən minlərlə qurbana iləvətən (əlavə olaraq) tək bir oğlunu qurban vermək istəməsi, bu orduya qarşı Azərbaycanlıların sevgisinin ən böyük təzahürü sayılır.** Mərhum Nuru Paşanın bu kəndli ilə danışmasının,

eynən deyildiyi kimi olduğunu bu gün sağ qalanlar da xatırlayırlar. Paşa: "Neçin oğlunuzu qurban vermək istədiniz?" – deyə soruşanda bu cavabı almışdı: "Mənim minlərcə qoyun, inək, öküzüm vardır. Bunların hamısı pulla alınır. Fəqət oğlum sevgimin ta özü, ciyərimin bir parçasıdır. Uzun düşündükdən sonra, sizlərə layiq bir qurban tapa bilmədim. Ancaq oğlumu layiq gördüm". Bu baş verənlərdən şəhərə yayılan rəvayətlərin təsirindən mərhum paşanın və məiyyətinin (ətrafında olanların) özlərini saxlaya bilməyib ağlamaları məlumdur. Türk ordusu kiçik qardaşlarının düşmən istilası altında inləməsinə çox dözmədi. Mərhum Mürsəl Bakının komandasında olan ordu Azərbaycanlılarla birləşmişdi. 15 Sentyabr 1918-ci ildə Bakının düşmən qüvvələrindən təmizlənərək öz sahiblərinə təslimi Azərbaycan milli tarixinin ən qiymətli səhifəsini təşkil etmişdir.

Azəri Türkləri 15 Sentyabrı daim şükranlıqla (minnətdarlıqla) anacaq. Azərbaycanın müstəqil dövlət halında quruluşu heç şübhəsiz 15 Sentyabr ilə çox yaxından əlaqəlidir. Azərbaycanda qurulan Cumhuriyyət hökuməti, Azərbaycanlıların şükran və minnət hisslərini ifadə edən Məhmətcik Abidəsini ilkin olaraq Bakının Çənbərə kəndində qurmuşdur. Bu və Gəncədə Şah Abbas məscidinin önündəki parkda qurulan Məhmətcik Abidəsi, Məhmətciyin sevə-sevə qardaşları üçün axıtdığı qanın əbədi xatirəsi olaraq azərbaycanlıların qəlblərinə naxış edilən bir xatirədir. Bunu da qeyd etmək yerinə düşər ki, Türk ordusu Azərbaycana heç bir zaman istila məqsədi ilə girməmiş, tamam bir qardaş yardımı olaraq, Azərbaycan türklərini bolşevik-daşnaksütyun ittifaqının zülm və işgəncələrindən qurtarmış və Milli Hökumətin qurtularaq azad günlərə qovuşmasından sonra geri çəkilmişdir. 15 Sentyabr xüsusiyyətləri ilə Azərbaycanlıların unutmaları mümkün olmayan bir gündür. **Bu gün Türkiyə demokratiya cəbhəsində aldığı mövqe və kommunizmə qarşı qoyduğu qanuni məmnuniyyətlə Azərbaycan Türkləri ilə eyni fikir birliyinə sahib olduğunu göstərməkdədir. Türkiyə Cumhuriyyətinin qüvvətlənməsi, onun cahanşümul həmlələrə varması Azərbaycan türklərini ən az Anadolu Türkü qədər məmnun etməkdədir. Tanrı Türkiyə Cumhuriyyətini yer üzündə payidar və müvəffəqiyyətini daim qılsın. Azərbaycanlılara da 15 Sentyabr Abidəsini yenidən Bakıda inşa etmək fürsətini bəxş etsin və istiqlala qovuşmasını nəsib etsin (29, s. 1-2).**

"Mücahid", sentyabr 1957, yıl 3, sayı 10.

Hüseyn Baykara

TÜRKİYƏNİN AZƏRBAYCANA HƏRBİ YARDIMI

1918-ci il iyunun 4-də Batumidə, istiqlaliyyətimizi yenicə elan edən Azərbaycan hökumətinin nümayəndələri – Məhəmməd Əmin Rəsulzadə, Xarici İşlər naziri Məmmədhəsən Hacınski və Osmanlı hökuməti tərəfindən Ədliyyə naziri Xəlil bəy, 3-cü ordunun komandiri Vəhib Paşa arasında imzalanan yardım müqaviləsinə görə 5-ci Qafqaz diviziyası Gümrü və Qazax istiqamətində Azərbaycana yardım etmək üçün hərəkət etmişdir. Bu qüvvələr iki qrup halında Qazaxa gəlmişdir.

1-ci qrup:
Diviziya qərargahı;
Onuncu Qafqaz alayı;
Doqquzuncu Qafqaz alayına mənsub 26-cı batalyon;
Dağ topçu batalyonu;
İstehkam bölüyü;
Teleqraf vzvodu;
Orkestr bölüyü;
Cəmi: 147 zabit, 1812 əsgər; 698 heyvan.

2-ci qrup:
13-cü Qafqaz alayı;
Güclü dağ topçu batalyonu;
Səhiyyə bölüyü:
24-cü səyyar xəstəxana;
Səyyar mətbəx vzvodu:

Cəmi: 110 zabit, 2763 əsgər, 668 heyvan.

Osmanlı ordusu Cəlaloğlu, Sadaxlı, Kəmərli, Aslanbəyli, Qazax istiqamətində hərəkət edərək 11.06. 1918-ci ildə birinci qrup, 12. 06. 1918-ci ildə isə ikinci qrup Qazaxa gəldi. Qazaxda Azərilər türk ordusunu tarixdə görünməmiş bir sevinc və səmimiyyətlə qarşıladı. (İstefada olan podpolkovnik Rüşti. Bakı yollarında. Hərbi məcmuə. №93, səh. 24-25).

30. 06. 1918-ci ildə rus qüvvələrilə birlikdə ermənilər Göyçaya qəfil basqın etdikləri üçün, Azərbaycandakı Osmanlı ordusunu gücləndirmək məqsədilə 38-ci alay aşağıdakı qüvvələrlə Azərbaycana göndərilmişdir:

65 zabit;
2475 əsgər;
701 heyvan;
2092 tüfəng;
16 dəzgahlı pulemyot;
4 güclü dağ topu;
1 güclü dağ batareyası.

Bu qüvvələrdən başqa 3-cü ordunun ehtiyatda olan 350 əsgərinin 9. 07. 1918-ci ildə Qazaxa gəldiyi və bu ehtiyat hissəsinin Bərgüşad vağzalından diviziyanın əmrinə göndərildiyi ordu komandanlığı tərəfindən bildirilirdi. Osmanlı ordusu tərəfindən kömək məqsədilə Azərbaycana göndərilən 5-ci qrup Bakıda döyüşlər gedən zaman gəlmişdir. Bundan başqa bir Azərbaycan korpusu da vardı (Rüştü Bakı yollarında. Hərbi məcmuə №93, səh. 78). Bu ordunun təşkili, kiçik zabitlər və zabitlərin İslam ordusu komandanlığı tərəfindən Gəncədə açılan qısa müddətli hərbi kurslarda təhsil aldıqları məlumdur. Azərbaycan korpusuna bir neçə azərilərdən ibarət nizami alayı, Dağıstan süvari alayı və bunlardan başqa Azərbaycanın hər tərəfindən gələn arası kəsilməyən könüllülər də daxil olurdu. Hərbi təlim-tərbiyənin vaxtı az olduğu üçün vuruşma zamanı çoxlu tələfat olurdu. Buna baxmayaraq döyüş meydanından əsla geri çəkilməyərək, "Biz buraya ölməyə gəldik, dönməyə yox" – deyərək vuruşur və getdikcə döyüş havasına alışırdılar. Azərbaycan korpusunun təşkilatı tamamlandıqdan sonra ona podpolkovnik Həbib bəy Səlimov komandanlıq edirdi.

Cəsur və döyüş texnikasını gözəl bilən Türk ordusunun yüksək rütbəli zabitləri tərəfindən layiqincə qiymətləndirilən podpolkov-

nik Həbib bəy rus ordusunda yetişmiş azərbaycanlı zabitlərdəndir. Bu döyüşlərdə cəbhə iki yerə - cənub və şimal qruplarına ayrılır, cənub qrupuna podpolkovnik Həbib bəy komandir təyin edilir. (Rüştü. Bakı yollarında. Səh. 101). Şimal qrupuna isə qərargah podpolkovniki Osman bəy təyin edilmişdir.

"İlk yaradılığında cənub qrupunun qüvvələri belə idi: 4-cü piyada alayı (azəri alay), 1-ci və 2-ci batalyon, iki süvari bölüyü, azəri süvarilərindən ibarət daha bir bölük, iki qrup dağ və rus səhra topundan ibarət olmuşdur. Bundan başqa alaylarına verilən Azərbaycan səhra topçu vzvodu öküzlə daşındığı üçün şosse yolundan kənara çıxa bilmirdi. Ancaq bu heyvanlar düşmənin zirehli avtomobillərini, zirehli qatarlarını qaçırmaqda və toplarını susdurmaqda çox yararlı olurdular. (Yuxarıda göstərilən əsər, səh. 92). Əsasən toplar, Türkiyə cəbhəsini tərk edərək Rusiyaya dönən əsgərlərdən Azərbaycan partizanları tərəfindən zorla alınmışdı. Bu topların mərmiləri rus alaylarından qənimət olaraq əldə keçirilmiş və olduqca çox idi. Azərbaycan korpusunda olan silahlar Rusiyada istehsal olunmuşdu. Buna görə də mərmi sarıdan çətinlik çəkilmirdi. Amma Osmanlı ordusunda istifadə olunan silahlar üçün mərmi çatışmırdı" (Yuxarıda göstərilən əsər). Döyüş zamanı Osmanlı ordusunu, Azərbaycan ordusunu Azərbaycan hökuməti və xalqı ərzaqla təmin edirdi.

İslam ordusu komandanlığından 5-ci Qafqaz diviziyası komandanlığına, Bakıya hücum zamanı verilən bir əmrdə aşağıdakı qeydlər çox əhəmiyyətlidir: "Bakıya yaxın olan müsəlman kəndlərinin silahlı yardımla bərabər, sizi ət, su, çörək və digər ərzaqla yardım edəcəkləri də şübhəsizdir. Baxmayaraq ki, indiki vaxtda siz həmin kəndlərdən 70 km aralıdasınız (Yuxarıda göstərilən əsər, səh. 113).

Bakıda gedən döyüşlər çox çətin keçdiyindən, Osmanlı ordusunun 15-ci diviziya qərargahı, 56-cı və 106-cı piyada alayları 1200 əsgərlə Qaraköcədən Bakıya göndərilmişdir. Hacıqabul ilə Ələt vağzallarından Bakı istiqamətində hərəkət edən ordu susuzluqdan əziyyət çəkirdi. Buralar məhsul verməyən, şoranlıq bir ərazidir. Tiflisdən Bakıya gedən dəmir yolu buradan keçir. Ələt vağzalı Xəzər dənizinin sahilinə yaxındır. Düşmən bu cəbhədə həm dənizdən, həm də təyyarə ilə havadan ordumuza saysız-hesabsız hücumlar edirdi. Türk ordusu özünəməxsus dözümlülük göstərərək, susuzluğa və itkiyə baxmayaraq, düşmənin hücumlarını dəf edərək Bakıya yaxınlaşmış və Qobu kəndində qərargah qurmuşdu.

Böyük hərbi nüfuza malik İsmət İnönü vaxtilə bəzi xatirələrini yazdığı "Akis" jurnalında, Fəxrəddin Altay isə "Həyat" jurnalında 1918-ci il Birinci Dünya müharibəsinin axırında Osmanlı ordusunun Azərbaycana səfərini "macəra" kimi qiymətləndirmişdir. İstefada olan podpolkovnik Rüştünün "Bakı yollarında" adlı müfəssəl əsərində təfsilatı ilə verdiyi faktlardan görürük ki, Azərbaycana beş qrup halında göndərilən hərbi qüvvələr cəmi 10 000 nəfərdən ibarət olmuşdur. Özünü yabançı bir ölkədə hiss etməyən bu ordu Azərbaycan nizami və könüllü dəstələri ilə yan-yana, çiyin-çiyinə vuruşmuşdular. Azərbaycanı azad etməyə gələn və "İslam ordusu" adı altında toplanan Osmanlı ordusunun itkisi podpolkovnik Rüştünün verdiyi məlumata görə 800-dən 1000 nəfərə qədərdir. Azərbaycan hissələrinin hərbi təlim səviyyəsi zəif olduğundan onların itkisi türklərdən 3-5 dəfə çox olmuşdur. İndi bu əziz şəhidlərimiz Azərbaycan torpağında yan-yana yatırlar. Onlara min rəhmət olsun!

Görəsən Birinci Dünya müharibəsinin son aylarında Azərbaycana göndərilən Osmanlı qüvvələrinin üzündən hansı cəbhədə, hansı döyüş məğlubiyyətə uğramışdır? Belə qüvvələrə misal olaraq rus inqilabı zamanı Şərq cəbhəsini tərk edərək geri dönən rus ordusuna qarşı vuruşan Osmanlı qüvvələrini göstərmək olar (19, s. 233-239).

Azərbaycan İstiqlal Mübarizəsi Tarixi.
Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1992.

Kərim Odər

MİLLİ AZƏRBAYCAN CÜMHURİYYƏTİ

Azərbaycan Cümhuriyyəti daxili təşkilatını qısa bir zamanda qurdu. Milli hakimiyyəti təmsil edən Millət Məclisi (əvvəlcə Şurayi-Milli, sonra Məclisi Məbusan) açıldı. Dövlət işlərini yürütmək üçün Nazirlər Heyəti (hökumət) təsis edildi...

Xarici siyasətdə də başarılı bir dövrə girmişdir. Əvvəlcə Osmanlı dövlətilə əsgəri bir anlaşma imzalanaraq Nuru və Mürsəl Paşaların komandasında Türkiyə əsgərləri Azərbaycanın yardımına gəlmiş və Bakını rus-bolşevik istilasından qurtarmışdılar. İran Şahlığı ilə də yaxşı danışıq, Gürcüstanla əsgəri ittifaq, Ermənistanla yaxşı danışıq anlaşmaları imzalanmışdır. İstanbula, Tehrana, Tiflisə, İrəvana, Temirxan-Şuraya və başqa yerlərə elçi və konsullar göndərilmişdir. Almaniya ilə münasibətlərindən ibarət olan Mərkəzi Avropa Dövlətləri (digər bir təbirlə - ittifaq dövlətləri) nəzdində Cümhuriyyəti təmsil etməli və İstanbulda toplanacaq müttəfiqlər konfransında Azərbaycan məsələsini müdafiə etmək üçün M. Ə. Rəsulzadənin, daha sonra da Azərbaycanı Versal Sülh Konfransında işğalçı dövlətlərə qarşı müdafiə etmək üçün A. M. Topçubaşovun rəhbərlikləri ilə nümayəndələr heyəti göndərilmişdir. Digər tərəfdən, Amerika, İngiltərə, İtaliya başda olmaqla Azərbaycana İran, Polşa və başqa məmləkətlərdən hər cür heyətlər gəlmişdir. Nəhayət 12 yanvar 1920-ci ildə Böyük Dövlətlərin yüksək şurası tərəfindən Azərbaycanın istiqlalı tanınmışdır.

Bakıda və Tiflisdə Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndəliklərindən ibarət Qafqaz konfranslarında Şimali Qafqaz da daxil olmaqla bu Cümhuriyyətlər arasında federativ əlaqələr yaratmaq üçün Azərbaycan hökuməti tərəfindən təkliflər edilmişdir. Azərbaycan Cümhuriyyəti Şimali Qafqazla Türküstan və Naxçıvan türklərinin milli mücadiləsinə də özəl surətdə əlaqə ya-

ratmış, onlara maddi və mənəvi yardımlar edilmişdir. Eyni zamanda Anadoluda cərəyan edən istiqlal hərbinə yardım olmaq üçün Qazi Mustafa Kamal (Atatürk) adına önəmli bir məbləğ göndərilmişdir (36, s. 83-85)

Azərbaycan. Boğaziçi Yayınları A. Ş. Kazım İsmayıl Gürkan Cad: 12\25 Cağaloğlu P. K. 1397, İstanbul.

ƏNVƏR PAŞA MARŞI

Ənvər Paşanın 1918-ci ilin yaz aylarında Yavuz ilə Batuma gəlişində Türk ellərində söylənən "Çırpınırdı Karadəniz baxıb Türkün bayrağına" marşı yanında bu marşı da "Ənvər Paşa Marşı" olaraq söylənilirdi:

Ənvər Paşa Marşı

Xoş gəlişlər ola Qəhrəman Ənvər Paşa,
Əmr elə Əsgərə, Qafqaz dağlarını aşa,
Arş, arş, arş irəli!
Marş, marş, marş irəli.
Dönməz geri Türkün Əsgəri!

Cəbhədə mitralyoz ayna kimi parlayır,
Qafqasya Türkləri bayraq açıb bəkləyir.
Arş, arş, arş irəli!
Marş, marş, marş irəli.
Dönməz geri Türkün Əsgəri! (7, s. 14)

"Azərbaycan", yıl – 26, sayı – 224, 1977, ekim, qasım, aralıq.

Əhməd Cəfəroğlu

AZƏRBAYCAN CÜMHURİYYƏTİ

Yeni elan edilən bu Ek Türk Cümhuriyyəti tamamilə demokratik olub, hakimiyyəti hüdudsuz və kayıtsız (şərtsiz) millətə vermişdir. Bütün dinlərə və millətlərə qarşı tolerant və himayədar idi. Azərbaycan onu sevən və onu qoruyan hər kəsin vətəni kimi idi. Qardaş Türkiyəyə qarşı irkan (irqən) kültürcə və dilcə bağlı olduğu kimi, Qafqaz daxilində qurulan Gürcüstan, Şimali Qafqaz və Ermənistan Cümhuriyyətləri ilə də yaxşı münasibətdə idi. İnsani və ülvi qayələri ilə qurulan bu Cümhuriyyətin ən böyük qayəsi istiqlalına sadiq tam bir varlıq olmaq idi. Türklük qayəsindən bir an üçün olsun belə ayrılmamışdır. Əlindən gəldiyi qədər Türkiyəyə, Şimali Qafqaza, Türkmənistana, Türküstana yardım əli uzatmış və ağır günlərində bu dövlətlərdən yardım görmüşdür. Nitekim (necə ki) Azərbaycanın rəsmi elanından daha öncə, Batumda Osmanlı İmperatorluğu mümessilleri (nümayəndələri) ilə akt edilən müqaviləyə görə, Türkiyə Azərbaycan Cümhuriyyətini tanımış və hər an əsgəri yardımda olmağı üzərinə götürmüşdür. Bu müqavilədən istifadə edilərək daha 1918-ci ildə Osmanlı dövlətindən yardım istənmiş və Anadolu Türkləri Nuru Paşanın idarəsi altında Azərbaycan Cümhuriyyətinin quruluşuna mənən və maddi iştirak etmişdir. Azərbaycan tarixində imdad qüvvəsilə yer alan bu qardaş köməyi, Azəri Türklüyünün əbədi bir iftixarı, Türk birliyinin də başlanğıcı və təməl daşıdır. Üzərindən illər keçdiyi halda bu imdad xatirəsi hər an qəlbimizdə və inamımızdadır. Bu gün Azərbaycan Cümhuriyyətinin paytaxtı Bakı kıyılarından (sahillərindən) yüksələn Mehmetcik türbəsi də, bu inamlı inanışın bir abi-

dəsi olaraq düşmən gayizinə (nizəsinə, silahına) köksünü gərməkdədir. Tarix o məsud anları bir daha yaşamaqla, Azərbaycan istiqlal inamının nə qədər qüvvətli olduğunu bir daha isbat etmiş olacaqdır.

Azərbaycan Cümhuriyyəti 4 000 000 nəfərə malikdir. Şimali Qafqaz Türk və İslam ünsürlərilə bərabər Qafqaz İslam əhalisi isə 7 266896-dır. Gürcüstan və Ermənistandakı 1 000 000-a yaxın Türk əhalisi də bura daxil edilərsə, Qafqazın Türk və İslam əhalisi 8 000 000-a çatır. Bu şəkildə Qafqazın hakim və sıxlıq zümrəsini təşkil etməkdədir (22, s. 8-9).

"Mücahit", yıl-6, sayı-31-32, iyul-avqust 1960.

A.Həmdi

15 SENTYABR 1918

Bu gün, iki il davam edən Azərbaycan İstiqlalının Bakıda felən quruluşunun və bütün Azərbaycan türkçülüyünün qurtuluşunun altıncı il dönümüdür.

Tamam altı il əvvəl bu gün şanlı türk ordusu Azərbaycanın paytaxtı Bakını düşmənlərdən qurtarır, şərəfli türk və Azərbaycan bayraqları Bakı üzərində dalğalanır, bütün xalq Məhmətcilkəri anıb da sevinc və hörmət hissləri ilə göz yaşları tökürdülər...

Bakı aylarca düşmən əlində qalmış, aylarca şanlı böyük qardaşının imdad və müavinətinə intizar edərək, fəlakətə qatlanmış idi. Fəqət iştə bu gün: 15 Sentyabr, Azərbaycan qurtulur, Azərbaycan türklüyü yeni bir həyata qovuşurdu...

Nuru Paşa həzrətləri sevimli siması ilə Bakıya girərəkən minlərcə xalq ona qəlbdən və vicdani-millidən qopan hörmətlərlə baş əyir, digər tərəfdən vüqar və ciddi duruşu, dərin bir etimad təlqin edən gözləri ilə Mürsəl Paşa da sürəkli alqışlarla qarşılanır, böyük, fədakar və qəhrəman vətənpərvər Nazim bəy də əl üzərində gəzdirilir və bütün türk ordusu, xəlqin minlərcə alqış sədası ilə türk oğlu vətəni Bakını iştə ziyarət edirdi. Artıq böyük qardaşı kiçik qardaşın imdadına yetişmiş, kiçik qardaş da böyük qardaşına dərin hisslərini bildirirdi... O gün bütün türk aləmi üçün həqiqətən günlərin ən böyüyü yaşanırdı. Məchul əsgər, türkün məlum bu vətəni və əsrlərdən bəri bu gün cahanın təsdiq etdiyi türk qəhrəmanlığını yüksəltmiş və qurtarmışdır. Fəqət məchul türk əsgəri daha nələr qurtarmamış, daha nə şah əsərlər yaratmamışdır?

Fəqət Azərbaycan məchul türk əsgərinə qarşı ziyarət etməkdən də məhrumdur! Hər millət öz millətinin şairinə aid məchul hisslərini təkrar və izhar etməklə tarix hüzurunda milliyə böyük bir əlavə etmiş olur. Fəqət bu hissiyyat milliyyəni öz vətənində hürr və müstəqil olaraq ifadə edə bilməmək qədər bir millət üçün həzin bir lövhə deyilmidir? Əfsus! İştə Azərbaycan türkü... Bu gün Azərbaycan dörd ildən bəri bolşeviklərin istilası altındadır. Azərbaycanın yalnız siyasi deyil, hərbi və milli hürriyyətini də bu gün bolşevik idarəsi qapmış və

həqq (15 iyul) olmaq münasibəti ilə Bakının xilasına aid təzahürat milliyyədən və Bakını qurtaran məchul türk əsgərinə qarşı iddia deyən vəzifədən də məhrum edilmişdir. Bununla bərabər türkün məchul əsgəri Azərbaycana məlum bir şüarda vardır: "Bir kərə yüksələn bayraq bir daha enməz!". Əlbəttə Azərbaycan bir gün zalım rus boyunduruğundan və o şimal canavarının qanlı pəncəsindən qurtulacaq və həqiqi hürriyyət və istiqlalına qovuşacaqdır. İştə uzman Azərbaycan türkü (15 Sentyabr) bu günü şəhamət və dilavərliyinə aid, fəqət məchul qalmış bir şah əsəri olaraq yad və təcil edəcəkdir. Əvət, Azərbaycan qurtulacaq, Azərbaycan elmə, mədəniyyətə, bir dəfə daha simayi milliyyəsinə daxil olacaqdır. Çünki Bakı və ətrafında mədfun türkün məchul əsgəri böylə istəyir, çünki, məchul əsgər böylə söyləyir: "Bir kərə yüksələn bayraq, bir daha enməz!" (71a, s. 14-16).

"Yeni Qafqasiya", 16 eylul 1340-1343, 18 səfər, 1924-cü i.l

Askar Aras

İTİRDİYİMİZ BÖYÜK ADAM

Türk ordusunun mümtaz (parlaq) şəxsiyyətlərindən biri olan Orgeneral hörmətli Müzəffər Tuğsavul May ayında aramızdan ayrılaraq əbədiyyətə qovuşmuşdur.

Orgeneral Tuğsavul hərtərəfli mükəmməl bir insandı. Mən burada bu böyük insanın yaxından tanıdığım türkçülük vəsfini anlatmaq istəyirəm.

Möhtərəm orgeneral, hələ çiçəyi burnunda təzə bir əsgər ikən, tale ona özü kimi üç gənc dostu ilə Azərbaycanın acı günlərində bu ölkəni başdan-başa qət edərək tetkiklərdə olmaq imkanını bəxş etmişdir.

Söhbətlərimizdə daima mənə "İştə Türklük bütün şahlanışı ilə bu səyahətimdə mənim mənliyimə işlədi" – deyər və Allaha şükür edərdi.

Azərbaycanda ikən günü gününə yazdığı 3 ədəd böyük not dəftərini daima çalışma masasının gözündə itina ilə (diqqətlə) saxlar və özünü hər ziyarət edişimdə bunlardan parçalar oxumaqla özünü həyəcana gətirər, gözlərini yaşardardı: "Bu mövqeyə gəldim, o günlərdəki kimi içdən qarşılanmanı nə gördüm, nə də görə biləcəyimi təxmin edirəm" – deyirdi. "Bizə kəsilən saysız qurbanlarımı, Türk əsgərlərini gördükləri üçün üzlərini qibləyə çevirib səcdəyə qapananlarımı, yoxsa yeddisindən yetmişinə qədər qatıldıqları möhtəşəm alaylarla əl üstündə daşınmamızımı anladım" – deyər və bütün bunları təsvir edən not dəftərini həyəcanla oxuyardı.

İştə Bərdə qəsəbəsinə girərkən ayaq izlərimizə üz sürtmək istəyən ixtiyar nənənin nasırlı (qırışlı) əlini necə alıb öpdüyünü oxumağa başladı.

Heç unutmaram, vali olaraq İzmirə gedəcəyi günlərin ərəfəsində idi. Bir gün mənə küçədə rast gəlmiş və düşüncəli olduğumu təxmin edərək "Nə düşünürsən Aras, mən Aras çayını 4 dəfə keçdim, beşinci dəfə keçəcəyim mütləqdir" – deyib mənə təsəlli vermişdi.

Nur içində yatsın! (17, s. 9).

"Türk izi" jurnalı, Ankara, 1952, sayı: 2-3.

ALMANİYADA NƏŞR EDİLƏN QƏZET VƏ JURNALLARDA BAKININ XİLASI İLƏ BAĞLI YAZILAR

M. Ə. Rəsulzadə

15 SENTYABR MÜNASİBƏTİLƏ

Bundan 19 il əvvəl Sentyabrın 15-də Bakıda Azərbaycan tarixinin mühüm bir hadisəsi baş vermişdir! Bu gün milli qurtuluş hərəkatımızda tarixi mərhələ təşkil edən böyük bir zəfər qazanılmışdır!..

Milli Azərbaycan qüvvələri yardımına gələn qardaş Türkiyə qüvvələrilə birlikdə düşmən istilası altında olan Bakını əsirlikdən xilas etmiş və bu şəkildə yeni Türk tarixində silinməz iz buraxan Azərbaycan Cümhuriyyətinin qurulmasını felən təmin etmiş, fikrən də əbədiləşdirməyə vəsilə olmuşdur!..

Azərilərin türklərlə birlikdə Bakıdan qoşduqları birləşik qüvvə türklüyün və müsəlmanlığın yaxşı tanıdığı tarixi düşmən Rus imperializmi idi.

Sadə türklüyün və müsəlmanlığın deyil, eyni zamanda Qafqazla Rusiya məhkumu bütün millətlərin də əbədi düşməni olan bu imperializmin daşıdığı dürlü boyaları həyata keçirdiyi hər cür taktikanı, 6-7 ay sürən əsarəti dövründə Bakı köməksiz qalmış, rus vəhşiliyinin hər növünə, qanlı güllələrinə məruz qalmışdı.

Bayraqlarında "millətlərə istiqlal" şüarını yazan yalançı bolşeviklər, mahud Şaumyan, çarlıq Rusiyasının vəd edib icra edə bilmədiyi, dənizdən-dənizə dayanan Ermənistanı təşkil etməyə vəkil etmişkən ("Dekret №13), muxtariyyət istəyən Azərbaycanı "xarabazara döndərmək" istədilər!.. (1917-ci ildə Bakıda çıxan "Bakinski Raboçi").

Atəşə verilən Şamaxı şəhərilə qılıncdan keçirilən Quba və ətrafındakı qırğınları "qanlı Mart günləri" ünvanilə tamamlayan vukuat silsiləsi, rəngdən-rəngə girməyinə uyğun, rus imperializminin milli Azərbaycan ideyasına qarşı duyduğu düşmənçiliyin qanlı ərizələrindən başqa bir şey deyildi.

Bu hadisələr, milli balası özlərindən deyil, beynəlmiləl ideologiya pərdəsi altında gizlənən inqilabçı rus ordusu və sözdə insanpərvər görünən rus marksistlərindən umanların nə qədər qəflət və zəlalətdə olduqlarını göstərdi...

Bu ideyanın tahakkuku üçün o idealla orqanik surətdə bağlı qüvvələrə güvənmək və ancaq onlardan nicat gözləmək şərtdir!..

15 Sentyabrda Bakıda elan olunan zəfər - əslində bu ideologiyanın zəfəridir!

Milli Azərbaycan idealı, türklüyün əbədi düşməni rusluqdan doğan "Moskva ordusunun" yardımı ilə deyil, şübhəsiz, ona qarşı, öz qüvvəsilə və qardaş Türk yardımı ilə qurtarılmışdır!..

Milli qüvvələrlə milliyyət naminə və milli istiqlal üçün!.. Əslində 15 Sentyabr zəfərinin ifadə etdiyi məna!

Milli mənfəətlərin bu düstur xaricində də müdafiə edilə biləcəyini təsəvvür edən qafillərə, təkrar yad əlinə keçmək bədbəxtliyinə düşən Azərbaycanın 17 ildən bəri davam edən faciəsi əsərli bir misal və öyrədən bir fəlakətdir!..

Rus bolşevizminə məhkum və məzlum millətlərin beynəlmiləl hamisi kimi baxan "27 Aprel qəhrəmanlarından" bu gün millətçilik və casusluqda ittiham olunub "təmizlənməyən" birisi qalmamışdır!..

15 Sentyabr zəfərindən əvvəl millətçilik və istiqlalçılıq əzm və duyğusu bir idisə, indi mindir.

Dünya qurtuluşumuzu yeni başdan təmin edəcək hadisələrlə zəngindir!.. Qızıl çarlıq bəyazından daha müdhiş bir çöküşlə yıxılmağa məhkumdur!

Sovet imperializminin dağıntıları üzərində mənfi heç bir təlkinin, pozucu heç bir təsirin məhv edə bilmədiyi istiqlal fikri Azərbaycanın atəş dolu torpaqları altındakı sönməz qalan alov kimi təkrar parıldayacaq və mübarək nurilə qızıl qaranlıqda boğulan cananımız yurdu əbədi aydınlığa yetişdirəcəkdir!.. (54, s. 4-5).

"Qurtuluş", sentyabr, 1937, №35.

15 SENTYABR MÜNASİBƏTİLƏ

Bundan on beş il əvvəl idi. Azərbaycan Cümhuriyyətinin ordusu müttəfiqi qardaş Türkiyə yardımı ilə birlikdə düşmən istilasına uğramış paytaxtı xilas edirdi.

Bakının Türk və müsəlman xalqı bu tarixdən altı ay əvvəl, tariximizdə qanlı Mart deyə anılan günlərdə qızıl rus bolşeviklərilə müttəfiqləri Daşnaksütun çeteləri (quldur dəstələri) tərəfindən qırğına məruz qalmış və o andan etibarən Azərbaycan yurdundan ayrılan bu şəhərdə azərbaycanlılar hər cür həqarət və əsarətə məhkum olunmuşdular.

Bakılı azərbaycanlıları uşaq, qoca və qadın fərqi qoymadan min bir faciələrlə məhvə qalxan bu qanlı müttəfiqlərə görə Türklərin günahı ağırdı. Onlar Azərbaycan istiqlalından bəhs etməyə cəsarət etmişdilər.

Sözdə bütün məhkum millətlərin hürriyyət və istiqlalı üçün vuruşan bolşevizm – o zaman – mahut (xəyanətkar) Şaumyana Türkiyə və Qafqaz ərazilərindən mürəkkəb "böyük Ermənistan"ı qurmaq üçün tam bir səlahiyyət vermiş və bu zəmin üzərində özünü Daşnaksütyun firqəsi ilə görüşməyə vəkil etmişkən ("Lenin və Stalin" imzasilə Qafqaz komissarı Şaumyan adına verilmiş maruf bilinən, məlum) dekret, mərkəzi Bakı olmaqla Azərbaycan Cümhuriyyətinin hürriyyət və istiqlalından bəhs edən "Müsavatçıları" təhdid etmiş, Rusiyanın azərbaycanlılara hürriyyət və istiqlal deyil, bir xarabazar verəcəyini öz partizanlarının ağzı ilə söylətmişdi.

Yuxarıda qeyd etdiyimiz Mart qırğını, əslində bu təhdidin sözdən işə keçilməsindən başqa bir şey deyildi. Qızıl Moskva Azərbaycan ideyasını qanla söndürmək və istiqlal fikrini yanğınlarla məhv etmək istəmişdi.

31 Mart hadisəsi ilə maruf (məlum) olan bu vəhşət, düşmənin təsəvvürü xaricində Azərbaycan xalqının milli mənliyini yaralamış və bu yaranın təsirilə o, yediyi acının intiqamını almaq və haqqı bulunan istiqlalına qovuşmaq üçün mübarizəsinə davam etmişdi.

15 Sentyabr, əslində bu əzmin zəfərini təmin edirdi. Bu gün Azərbaycan xalqı, əsir paytaxtını düşməndən qurtarmaqla susadığı intiqamını alırdı.

Sadə intiqammı?!.. Xeyr!

Azərbaycan xalqının tarixində bu gün 28 May qədər böyük bir dəyərə malikdir. 28 Mayda Cümhuriyyətin istiqlalı bütün cahana elan edilmişsə, 15 Sentybarda bu istiqlal maddətən təyin olunmuş, Azərbaycan hökuməti öz təbii mərkəzinə müzəffərliklə girmişdir.

Bu gün sadə zillət həqarətindən qurtulan xalqın köksü intiqam hissilə qabarmamış, eyni zamanda illərdən bəri hürriyyət və istiqlal eşqi ilə yanan ürəklərə də su səpilmişdir.

Əlbəttə, Azərbaycan istiqlal dövrünün, 15 Sentyabr ən şanlı fəsillərindən biridir. Siyasi tarixin makus əsərilə (təsadüfü nəticəsində) təkrar qızıl rus əsirliyinə düşən vətənimiz bildiyimiz kimi heç bir zaman xilas olacağından məyus olmamışdır. O, var qüvvəsilə çarpışır. Bütün imkanları ilə istilaya qarşı dayanır. İrəlidə Azərbaycanın yeni bir 15 Sentyabra malik olacağı qənaəti Azərbaycan istiqlalçılarını canlandırmırmı?..

Əlbəttə canlandırır, tarixin qeyd etdiyi digər misallar kimi Azərbaycan xalqı da müxtəlif mərhələlər keçən mücadiləsi nəticəsində öz qayəsinə girəcək, öz yurduna həmin özü hakim olacaqdır.

Bu mütləqdir!

Bu müvəffəqiyyətin birinci şərti, heç şübhəsiz, onun öz əzm və mücadiləsinə güvənməsidir.

Bu belə olmaqla bərabər, yenə tarixi misalları ilə məlumdur ki, bir millət hürriyyət və istiqlal uğrundakı qayəsinə beynəlmiləl bir takım hadisələr və amillərin yardımı ilə nail olur.

Böyük Dünya müharibəsi nəticəsində Rusiya məhkumu millətlərdən bir qismi də zühur edən beynəlmiləl imkanı ən böyük ölçüdə istifadə edə bildilər. Hürriyyət və istiqlallarına nail oldular. Azərbaycan da daxil olduğu halda, Qafqaz millətləri bütöv dövlət halında təşəkkül etdilərsə də, hadisələr özlərinə tamamilə müsait olmadı. Qısa bir müddət istiqlal həyatı ilə yaşadıqdan sonra, məlum amillərin təsirilə, Rusiya təkrar bu yerləri tutmuş oldu.

13 ildən bəri qızıl Rusiya istiqlal altında əzilən Qafqaz, indi yüz ildən bəri bəyaz Rusiya istilası altında sıxılan Qafqazdan da artıq bir sürətlə hürriyyət və istiqlalına qovuşmaq üçün inkişaf edir.

Bu inkişaf, bir tərəfdən Sovetlər İttifaqında hər cür mənadan məhrum hökumət qəlbinə həqiqi istiqlal mənası doldurmaq üçün artan milli şüurun böyüməsilə Qafqazlı millətlərin bir-birinə daha artıq bağlan-

maları, digər tərəfdən də beynəlmiləl amillərin Sovetlər İttifaqı şəklində qurulan yeni Rusiya əleyhində qüvvətlənməsilə məşhurdur.

Əlbəttə, müvazinətini bir cür tapmayan dünya qüvvələrinin, istər-istəməz toqquşması dünya müharibəsi ərəfəsində olduğundan daha çox bir ehtimalla yaxınlaşır. Qızıl Moskva bu toqquşmadan, atəşdən qaçar kimi çəkinməsinə rəğmən, onunla qarşılaşacaq, hərb və inqilabdab doğduğu kimi, yeni bir hərb və inqilab nəticəsində də parçalanacaqdır. **Yaxın tarixində 15 Sentyabr zəfəri kimi mücadilə günlərinə malik olan Azərbaycan xalqı gələcək bu fürsəti istifadəyə, şübhə etmirik ki, 1918-ci ildə olduğundan da hazırdır.**

O, indi bir kərə yüksəltdiyi istiqlal bayrağı altında can verən minlərcə fəadailərə malik olduğu kimi, ali mənfəətlərinin birliyini duyan Qafqazlı qonşulara və eyni yolun yolçusu olduqlarına qane olan "Prometeyçi" müttəfiqlərə malikdir!

Və buna da əmindir ki, qızıl rusluğun çökəcəyi bu tarixi zamanda 15 Sentyabrda özünə müttəfiq olan qardaş qüvvələr təkrar onunla olacaq, nihai zəfəri özü ilə birlikdə təmin edəcəkdir!..

Bu qüvvələrin vəzifələrini qəhrəmanca yerinə yetirərək, indi Bakı məzarlığının bir guşəsində haqq etdikləri milli şükran (sayğı, hörmət) təzahüratını dörd gözlə axtaran şəhidlər ruhuna bizdən min rəhmət, min salam!.. (57).

"İstiqlal" qəzeti, 20 sentyabr 1933, yıl 2, №42.

Mirzə Bala Məmmədzadə

BAKI YOLLARINDA

(Bakı zəfərinin 17-ci ildönümü münasibətilə)
(1918 – 15 Sentyabr 1935)

Daxildən gələn bir sevgi ilə, diqqət və ehtimalla hər vəsiqə, əmr, raport və müşahidələr əsasında yazılmış mükəmməl bir əsər: "Böyük hərbdə Bakı yollarında 5-ci Qafqaz Piyada Firqəsi..."

Türkiyə Cumhuriyyəti Baş Erkanı (Qərargahı) Hərbi Rəyasətinin 4.12.1933 tarixli rəsmi əmri ilə, eyni Firqəyə mənsub və 1918-ci ildə Bakı uğrunda apardığımız istiqlal savaşına, əvvəlindən sonuna qədər birbaşa iştirak etmiş Erkanıhərb (Baş Qərargah) kaymakamı (qəza rəisi) Rüştü bəy kimi səlahiyyətli bir adam tərəfindən qələmə alınmış olan bu mükəmməl əsərin qiymət və əhəmiyyəti üzərində çox dayanmağa lüzum varmı? Və 15 Sentyabr zəfərinin 17-ci ildönümü münasibətilə oxucularımıza bundan daha qiymətli nə hədiyyə verilə bilər?

6 kroki (diaqram), bir qururluş, bir cədvəl və iki xəritəni özündə cəmləşdirən 218 səhifəlik bu əsər, 93 saylı "Əsgəri Məcmuə"nin, 1 iyun 1934-cü il tarixli və 34 saylı "Tarix qismi"ni başdan-başa işğal etmişdir. Ələlxüsus "Osmanlı ordusunun Azərbaycana qardaş yardımı"nı canlandırmağa çalışan müəllif, Anadolu MƏhmətciklərininUnudulmaz qəhrəmanlıqları ilə yan-yana bizə Azərbaycanın o zamankı siyasi və əsgəri vəziyyəti, millətimizin məruz qaldığı fəlakətlər və istiqlal hərbində göstərdiyi fədakarlıqlar haqqında da məlumat verir.

"Rus ihtilal (mübarizə) və inqilabının orduya təsiri və Rusiyadakı kiçik millətlərin siyasi hərəkatları" başlığı altında topladığı giriş qismində Qafqazdakı siyasi vəziyyəti, Cənubi Qafqaz hökumətinin quruluşunu, gürcülərlə ermənilərin rus ordusundakı əsgərlərindən ibarət milli ordu yaratmalarını, Azərbaycanın belə bir ordudan məhrum olduğunu, ermənilərin Şaumyanla əlbir olaraq Bakıda qətliam törətdiklərini və bu xüsusda Cənubi Qafqaz hökumətinin Azərbaycana yardım etmədiyini qeyd etdikdən sonra deyir ki:

"Bu elim (ağır) vəziyyət qarşısında Tiflis Seymində olan müsəlman üzvü bir qrup təşkil edərək teşrif və siyasi işlərdən başqa milli və ictimai işləri də həyata keçirməyə məcbur olmuşdu. Əfsus icra qüvvəsindən məhrum və orduya dayanmayan Seym müsəlman qrupu bu qətliam və imha vəkainin önünə cezri şəkildə keçə bilmirdi (qırğının, talanların qarşısını ala bilmirdi). Cənubi Qafqaz hökumətindən gözlənən ümidlər boşdu. Seymin, ordu təşkilatı üçün Gəncə Milli Müsəlman Komitəsinə verməyi vəd etdiyi mühüm miqdardakı silah və cəbbəxana da tamamilə verilməmişdi. Nəhayət, Bakını ələ keçirən bolşevik-erməni qüvvəsi Şamaxı-Kürdəmir xəttinə qədər qırıb-çataraq irəliləmiş və bu təcavüzdən Lənkəran, Salyan və Quba qəsəbələri də özlərini qurtara bilməmişdilər".

Brest-Litovsk müqaviləsinə əsasən Türkiyəyə verilən Batum, Ərdəhan və Qars vilayətlərindən ötrü Cənubi Qafqaz hökuməti ilə Osmanlı dövləti arasında başlanan hərbi, 3-cü ordunun bu yerləri işğalı, bunun nəticəsində gürcülərin Almaniyanın himayəsinə sığınaraq Qafqaz Federasiyasından çıxıb istiqlalını elan etdiyini, onu erməni və Azərilərin də öz istiqlallarını elan edərək Türkiyə ilə ayrı-ayrı müzakirəyə girişdiklərini xülasə etdikdən sonra müəllif Qafqaz İslam Ordusunun komandanı Nuru Paşanın Gəncəyə gəlişinə naklikelam edərək (toxunaraq) Paşa Həzrətlərinin 3-cü orduya, Azərbaycanın əsgəri və daxili vəziyyəti haqqında göndərdiyi raportu nəql etməkdədir.

Nuru Paşa Həzrətlərinin 3-cü ordu komandanı Vəhib Paşa Həzrətlərinə yazdığı raportdan anlayırıq ki, Gəncədə Milli Kolordu (korpus, hərbi birləşmə) naminə təşkil edilən 600 nəfərlik bir qüvvə var. Bakıya qarşı da Kürdəmir stansiyasında knyaz Mağalof namında (adında) bir gürcü miralayının (albayının) komandanı altında 400-ə qədər əsgər vardır. "Bakı qətliamında gürcülərin müsəlmanlarla birlik təşkil etmələrinə bir nümunə olaraq Tiflisdən göndərilmiş bu əsgərlərin 300-dən ibarət gürcüləri də Tiflisə dönmüşdülər.

Azərbaycanda milli bir ordu yaratmaq imkanı mövcuddur. Əsgərliyə tələbkar çox insan vardır. Muğan kimi məntəqələrdə bolşevik əlinə keçməmiş 10 000 000 kilo qədər də buğda və ərzaq var. Əfsus, ordu təşkili üçün silah və cəbbəxana yoxdur. Paşa Həzrətləri bu barədə yardım edilməsini rica edir və əlavə edir ki: "Əsgərin təlim və tərbiyəsi üçün buraya təyin olan əsgər heyəti Mosulda qaldı. Bir aya qədər gəlməyəcək. Təşkil olunacaq əsgərə komanda etmək üçün

mümkün olduğu qədər müəllim-zabit və kiçik zabit ezamını xahiş edirəm. Kıtaatı Osmaniyenin Gəncəyə ademi vürudu muhtemel ise bilhassa mezkur heyete (Osmanlı hərbi hissələrinin Gəncəyə gəlməməsi ehtimal edilirsə, bu heyətə) fövqəladə ehtiyacımız olacaq".

Yeni qurulmaqda və qurulacaq olan Azərbaycan Milli Ordusu üçün müəllim-zabit məsələsinin sonuna qədər gəlmədiyini və bu üzdən də milli ordu təşkil edilmədiyini eyni əsərdən öyrənirik.

3-cü komandanı Vəhib Paşa Həzrətləri Nuru Paşa Həzrətlərinə yazdığı 2.06.1918-ci il tarixli cavabında ermənilərlə sülh bağlandığını, gürcülərlə də bağlanmaq üzrə olduğunu qeyd etdikdən sonra deyirdilər ki:

"Azərbaycan hökuməti Müstəqil İslamçılıq tələbinə görə İslamları bolşevik təcavüzündən qurtarmaq üçün müxtəlif qüvvələrdən ibarət dəstə ilə Qazax tərəfdən Gəncə istiqamətinə göndərəcəyik. Bu dəstənin süvarisi Qazax və Gəncə arasındakı stansiyaları mühafizə edəcəkdir..."

Aşağıdakı vesaik (sənədlər) Vəhib Paşa Həzrətlərinin Azərbaycan məsələsilə candan əlaqədar olduğunu göstərməkdədir. Azərbaycana yalnız bir piyada alayı ilə (2 tabur piyada, iki top) bir də mürəttəb (tərtib edilmiş) süvari alayı (2 bölük) sövq etmək üçün əmr verildiyindən eyni 2.06.1918ci il tarixində Baş Komandanlıq Vəkalətinə (Ənvər Paşa Həzrətlərinə) verdiyi müstacel (təcili) şifrəsində bir əmri yerinə yetirmək məqsədilə Azərbaycana bir Firqə göndərdiyini və icab ederse (lazım olarsa), bu qüvvəni takviyə edəcəyini (əlavə kömək göndərəcəyini) yazmaqda idi.

O günlərdə, başda Azərbaycanın Milli Şura rəisi Məhəmməd Əmin Rəsulzadə Bəy olmaqla Azərbaycan Mürəxxəs Heyəti ilə, başda Vəhib Paşa və Xəlil Bəy olmaqla Türkiyə Mürəxxəs Heyəti arasında müzakirələr cərəyan edirdi. Mərhum Ənvər Paşanın tasvipkar mahiyyətdə (bəyəndiyi, razılıqla qarşıladığı) 5 iyun tarixli cavabından bir gün əvvəl, yəni 4 iyun 1918-ci il tarixdə Batumda Osmanlı nümayəndələri (Ədliyyə naziri Xəlil Bəy və Vəhib Paşa) Azərbaycan nümayəndələri (Məhəmməd Əmin Rəsulzadə və Məhəmməd Həsən Bəylər) arasında bir muhadenet (razılıq) əhdnaməsi bağlanmışdı. Bu əhdnamənin 4-cü maddəsinə görə Azərbaycanın sülh və əmin-amanlığını qorumaq üçün Ali Osmanlı Dövlətindən istənilən əsgəri yardım Osmanlı Heyəti tərəfindən dərhal qəbul edilmişdi.

Əslində bu əhdnaməyə istinadən, Azərbaycan tərəfindən verilən bu rəsmi müraciət üçün Vəhib Paşa 7 iyun tarixində bu əmri verirdi:

"Beşinci Qafqaz Firqəsinin aksami sairəsinin (digər hissələrinin) də Qazax tərəfdən Gəncəyə göndərilməsini xahiş edirəm. Firqənin Ağstafa stansiyasından Gəncəyə qədər göndərilməsi üçün indidən hazırlıq işləri görün və bunun üçün serian icab (lazım olan hər şeyi) edənləri Qazağa göndərin. Müsəlman zabitlərindən Gəncəli İbrahimzadə Nazim Əfəndi Ağstafa stansiyası ilə Gəncə arasındakı gedişi tənzim etmək üçün əvvəlcə Batumdan Gəncəyə göndərilmişdi. Məmurlarımız Nazim əfəndi ilə əlaqə yaratsınlar, firqənin nəzdində ikinci Qafqaz kolordusu (korpus, hərbi birləşmə) telsiz stansiyasının verilməsini xahiş edirəm. Firqə indilik əmrinizdə və Gəncədə qalacaq, əfəndim."

Ordu komandanının bu əmrinə əsasən Qrup komandanı da eyni gündə Beşinci Qafqaz Firqəsi Komandanlığına, 8 iyunda Cəlaloğlundan hərəkət üçün lazım gələn əmri vermiş və hərəkət günü firqə zabitlərinə bu müraciəti etmişdir:

"Baş komandan etibarən hamımızın etimadını qazanmış və hər xüsusda müntəzəm olan Beşinci Qafqaz Firqəsini Azərbaycana, Gəncəyə göndərirəm. Burada olduğu kimi orada da fədakarlıqla çalışacağımızdan əminəm. Allah müvəffəqiyyətlər versin."

Bu Osmanlı ordusundan Azərbaycana ikinci yardım"dır.

Bunun nəticəsində iyunun 22-də Azərbaycandakı əsgəri qüvvənin mövcudluğu bu qədər olmuşdur:

Beşinci Qafqaz Firqəsi:

Zabit: muharib (döyüşən) - 225, muharib olmayan (döyüşməyən) – 105; əsgər: muharib – 5.227, muharib olmayan – 2, 126.

Heyvan: 1939; silah: tütək – 4.342; makinalı tütək – 36; kəsici silah – 3.752; top – 14.

Cəbbəxana: tüfəng üçün – 847 sandık; top gülləsi – 801; əl bombası – 1739; qazma – 520; kürək – 1.412; balta – 225; tel makinası – 169; prtatif çadır – 3.242. Eyni tarixdə 5-ci Firqə əmrində olan Azərbaycan Cümhuriyyətinin müharibə cəbhəsində olan qüvvəsi də aşağıdakı miqdardadır:

Zabit: muharib (döyüşən) – 30; muharib olmayan (döyüşməyən) – 4 nəfər; muharib (döyüşən) – 727; muharib olmayan (döyüşməyən – 99; heyvan – 435; silah: tüfəng – 605; makinalı tüfəng – 21; kəsici silah – 322; top – 6.

Cəbbəxana: tüfəng üçün – 100 sandık; top gülləsi – 472; şarapnel – 528. Qüvvələr bununla bitmir. Düşmənin Göyçayı alması münasibətilə Qafqaz İslam Ordusu Komandanlığı tərəfindən "vəziyyətin vahiməli" olmasına dair: verilən teleqraflarına əsasən 9-cu Osmanlı Ordusundan 65 zabit, 2.475 nəfər, 701 heyvan, 2.092 tüfəng, 16 ağır markalı tüfəng və 4 qüdrətli dağ topundan ibarət 38-ci alay və bir qüdrətli dağ batereyası 11 iyulda Qazaxda olmaq üçün 6 iyulda Gümrüdən hərəkət etmişdi.

Bundan başqa Şamaxının zəbtindən sonra Bakıya yaxınlaşan ordu 5 avqustda Bakı şəhərinə etdiyi müvəffəqiyyətsiz hücuma əsasən 15-ci firqənin Azərbaycana göndərilməsi üçün müraciət etmişdi. İranın təhrikilə ingilislərin yardımını nəzərə alaraq Bakıya ilk öncə Qarakilsədən 1200 muharibdən ibarət 107-ci alay, sonra da 9-cu ordunun 15-ci firqə qərargahı ilə 56-cı və 106-cı piyada alayları ilə bir qüdrətli, bir on buçukluk Skoda dağ obüs (on tam onda beş millimetrlik dağ) və bir də on buçukluk sahə obüs (on tam onda beş millimetrlik istehkam) batareyaları gəlmişdir. Bunlardan başqa Culfa – Ordubad yolu ilə Qarabağa da yardım göndərilmişdir. Bu şəkildə artan Türkiyə yardım qüvvələrilə bərabər Azərbaycan qüvvələri də artmış, təşkil edilən kıtaatları (ordu hissələrindən) başqa Qazax, Gəncə, Zaqatala, Şəki, Cavanşir, Ağdam, Ağdaş, Göyçay, Salyan, Quba və Bakı ətraflarında süvari, milis təşkilatı, könüllü müsəlləh qruplar və s. yaradılmışdır.

Maruf (məlum) "Vəhşi Firqə" deyilən və istiqlal dövründə birinci süvari alayında olan müntəzəm qüvvələrdən başqa Zaqatala süvarisi, Qazax, Gəncə, Göyçay və Bakı könüllülərindən başqa Salyan ilə Cavadda Ramazanovun təşkil edib düşmənin Kür hövzəsini və Muğanı ələ keçirməsinə mane olan və bu şəkildə ordunun sağ cinahını təmin edən qüvvələrlə, Quba tərəflərində kaymakam (qəza rəisi) Şükrü Bəyin təşkil edib Qubanı azad etdiyi və Bakı-Dərbənd dəmiryolundan istifadə etməməsinə müvafiq olduğu qüvvələrin həyata keçirdikləri tədbirlər Qafqaz İslam Ordusu komandanlığında təqdirə layiq görülmüşdür.

Üçüncü Ordu komandanı Vəhib Paşaya yazdığı raportda Qafqaz İslam Ordusu komandanı Nuru Paşa, Erkanıhərb (Baş Qərargah) rəisi kaymakam (qəza rəisi) Nazim bəyin Kürdəmir cəbhəsinə göndərildiyini bildirirdi. Mağalof qüvvələri çəkildikdən son-

ra, irəliləməkdə olan bolşevik-erməni qüvvələrinə qarşı bu cəbhəni süvari alayımızla könüllülər müdafiə edirdilər. Eyni zamanda Şamaxını geri almağa müvəffəq olan Gəncə könüllüləri oranı müdafiə etməmiş çəkilmiş, bu şəkildə düşmən Ağsuya, oradan da Göyçay istiqamətində Qaraməryəmə gəlmişdi.

Daha 5-ci Qafqaz Firqəsi gəlməmişdi. Qüvvə gəldikdən sonra gah Kürdəmir cəbhəsi Müsüslüyə, gah da Göyçaya yardım göndərilmişdi. Eyni zamanda Salyan-Cavad məntəqəsindəki Azərbaycanlı minbaşılardan Ramazanovun müfrəzəsi də takviyə edilmişdir (taburu ilə möhkəmləndirilib). Müsüslüyə göndərilən bu qüvvə Kür çayı ilə düşmənin irəliləməsinə mane olduğu kimi Kürdəmir –Bakı dəmiryoluna etdiyi basqınlarla düşmən qüvvələrini müvəffəqiyyətsizliyə uğratmaqla məşğul olmuşdur.

Göyçayda Qafqaz alayı komandanı Osman Bəy qərargahı ilə bərabər dayanıb. Qaraməryəm cəbhəsində türkiyəli Muammər Əfəndinin komandasındakı Azərbaycan xalqından toplanmış milis bölüyü vuruşmaqdadır.

Qafqaz İslam Ordusu Komandanı Azərbaycan cəbhələrindəki vəziyyət haqqında 3-cü ordu komandanı Vəhib Paşaya belə yazırdı:

"Bakı bolşevikləri kısmı küllisile (hamısı, bütünlüklə) dəmir yolu istiqamətindən irəliləyərək Müsüslü stansiyası civarındakı bataqlıq məntəqəsinə gəlmişdir. 500 nəfər qüvvəsi təxmin olunan bir qüvvəni də Şamaxı üzərindən kəndləri dağıdaraq və islamları məhv edərək Qaraməryəmə irəliləmişdir. Piyada 10-cu Qafqaz alayı indi də bu düşmənlə təmasdadır..."

Qafqaz İslam Ordusu komandanı cəbbəxana və yeni yardım qüvvələri göndərilməsini xahiş etməkdədir. 5-ci Qafqaz Firqəsinin başında kaymakam (qəza rəisi) Mürsəl Bəy (hal-hazırda Mürsəl Paşa), erkanıhərbiyə rəyasətində də əsərin müəllifi Kd. Yüzbaşı (sonralar kaymakam, qəza rəisi) Rüştü Bəy idi.

Yardım qüvvəsi ilk öncə Gəncədəki ermənilərin silahlarını aldıqdan sonra 15 iyunda Qaraməryəm cəbhəsində müvəffəqiyyətli bir basqın etmişdi. Bundan cürət alan Göyçaydakı qüvvə 17 iyunda özbaşına yenidən hücuma keçmiş, əfsus şiddətli bir istidən və susuzluq nəticəsində məğlubiyyətə uğramışdır. 10-cu Qafqaz alayının verdiyi zaiyat (itki) belə olmuşdur: 28-ci tabur: 4 nəfər şəhid, 15 nəfər yaralı, Mülazim (leytenant) Lütfi Əfəndilə 52 nəfər itkin, 29-cu tabur:

Birinci mülazim (leytenant) İsmayıl Haqqı və mülazim (leytenant) Zəki Əfəndilər şəhid, mülazim Nəzmi Əfəndilə zabit vəkili Zəki Əfəndilər ağır yaralı, 11 şəhid, 26 yaralı, 3 nəfər itkin.

30-cu tabur: mülazim (leytenant) Kazım və İbrahim Əfəndilər şəhid, Birinci mülazim (leytenant) Bəsri Əfəndi yaralı, 13 nəfər şəhid, 78 nəfər yaralı, 15 nəfər itkin.

Dağ topçu takımından: 19 nəfər itkin, 6 heyvan ölmüş, iki top, on tüfəng və 41 atım cəbbəxana düşmən əlinə keçmişdir.

Bu məğlubiyyətə görə cəbhəni tədqiq etmək istəyən Qafqaz İslam Ordusu komandanı yanında azərbaycanlı generallardan Əli Ağa Şıxlinski, 5-ci Qafqaz Firqəsi erkanıhərbi (Baş Qərargahı) və başqa zabitlər olduğu halda Göyçaya gəlmiş və döndükdən sonra 5-ci Qafqaz Firqə qərargahı Göyçaya təyin edilmişdir: "Müsüslü cəbhəsində olan ordu erkanıhərb (Baş Qərargah) rəisi Nazim Bəy də geri alınmış və bu cəbhədəki kıtaatla (ordu hissələri) Azərbaycanı kaymakam (qəza rəisi) Həbib Bəy Səlimov komandirlik etməyə başlamışdı."

"Azərbaycan kolordusu (hərbi birləşmələri) namilə meydanda olan kıtaat (ordu hissələri) 500-600 nəfərdən ibarətdi. Əfsus bu təşkil ediləcək kolorduya (hərbi birləşmələrə) aid bir qisim maliyyə və təchizat vardı. Əslində bu maliyyə və təchizatdan istifadə edə bilməsi üçün 5-ci Qafqaz Firqəsi də 25 iyundan etibarən Azərbaycan kolordusu (hərbi birləşmələri) əmrinə verildi. Kolordu (hərbi birləşmələri) komandanı Əli Paşa Şıxlinski ilə cərəyan edəcəyinə və o vasitə ilə firqənin hərəkəti hərbinə verilən raportların Orduya tətbiq olunacağına dair ordudan əmr alındı."

Anadolu qəhrəmanlarının unudulmaz fədakarlıqlarından ilham alan Azəri Türkü ikinci 15 Sentyabrın da doğulmasına dərin inam bəsləməkdədir. Çünki o, Anadolu qəhrəmanlarının mübarək qanları bahasına bizə bəxş etmiş olduqları 15 Sentyabr zəfərini heç bir zaman unutmamış və unutmayacaqdır.

Anadolu Türklərinin Azərbaycanın istiqlalı və istiqbalı uğrunda apardıqları çətin və qanlı müharibələr və mücadilələr həqiqətən də nəsildən nəsilə keçərək unudulmaz bir dastan halına çatmışdır (48, s. 10-16).

"Qurtuluş, sentyabr 1935, YIL 2, sayı 11.

BAKI MƏSƏLƏSİ

(15 Sentyabr zəfərinin 18-ci ildönümü münasibəti ilə)

Yeni tariximizin böyük günlərindən ən böyüyü olan 15 Sentyabr zəfərinin 18-ci ildönümünü xatırlayırıq. Bu gün birləşmiş Azərbaycan-Türkiyə orduları Bakını tarixi və əzəli düşmənindən təmizləmiş, bununla Yaxın və Orta Şərqin tarixində yeni bir dövr açmışdır. Bakının düşməndən təmizlənməsi və əsil sahibi olan Azərbaycanlıların əlinə keçməsi Yaxın və Orta Şərqin tarixində yeni bir dövr açmaq demək olduğunu anlamaq üçün Bakını bir neçə cəbhədən mütaliə etməmiz lazımdır.

Bakının düşmən əlinə keçməsi bu günkü vəziyyəti doğururdu. Yəni yalnız Bakı deyil, onunla birlikdə bütün Azərbaycan istilaya uğramış və qonşu cumhuriyyətlər də təhlükə altına alınmışdır. Bakının alınması Azərbaycan istiqlalını təmin etmiş, qonşu Qafqaz cumhuriyyətlərindən Gürcüstanla Ermənistanın qızıl istilaya uğramasına mane olmuş və Şimali Qafqazın qurulmasına yol açmışdır.

Bakı məsələsinin axıdılan Türk qanının bahasına Azərbaycan faydasına olan həlli yalnız Azərbaycan və Qafqaz xalqından deyil, bütün türklük və müsəlmanlıq aləminin mənfəətləri haqqından daha qüvvətli idi.

Bakının alınması münasibətilə o zaman İstanbul qəzetlərinin hamısının hərarətli məqalələri arasında "Tan"ın da bu sətirləri vardı: "Bakının bu dəfəki işğalı, yalnız Rusiya və Qafqaz məsələləri etibarilə deyil, bütün Türk və müsəlman aləmi üçün də böyük bir əhəmiyyətə malikdir".

Bakı yalnız sonsuz, bitməz, tükənməz sərvətləri etibarilə deyil, işğal etdiyi coğrafi mövqe etibarilə də dünya əhəmiyyətlidir. Qərbi Şərqlə birləşdirən tarixi ticarət yolları üzərində duran Bakı, Xəzər dənizinə hakim bir qala və bu dənizin bircə limanı, ticarət və tranzit mərkəzidir. İranın və Türküstanın dünya ilə olan münasibəti Bakı vasitəsilə yaradılır. Bakı kimin isə Xəzər dənizi də onundur. Xəzər dənizi isə Türküstanla İdil-Uralı Azərbaycanla birləşdirən bir körpüdür. Bu baxımdan Bakı məsələsinin həlli ilə Türklük məsələsinin həlli üçün yol açılmış olurdu.

Məhəmməd Əmin bəy Rəsulzadə Bakının alınması münasibətilə 1919-cu ildə yazmış olduğu bir məqaləsində deyir:

"Bakı, Türklüyün şahrahı üzərində olan, sönməz atəşlərlə yanan əbədi bir əməl məşəlidir."

Bakının alınmasından vəcdə gələn Azərbaycanın milliyyətçi şairi milli bayrağımıza olan müraciətində deyir:

Türküstan yelləri öpüb alnını,
Söyləyir dərdini sənə, bayrağım!
Üç rəngin əksini Qara dənizdən,
Ərməğan yolla sən yara, bayrağım!
Gedərkən Turana çıxdın qarşıma,
Gölgən dövlət quşu qondu başıma.
İzn ver gözümdən axan yaşıma,
Dinləsin dərdini aha bayrağım!

Bakının alınması, Azərbaycanın Xəzərə hakimliyi, böyük milli əməllərin həyata keçirilməsi şəkk və şübhədən azaddır.

Yalnız Azərbaycan, Qafqaz, Türklük və müsəlmanlıq üçün Bakı məsələsi bütün şərq məsələsinin yeni bir səhifəyə girməsi deməkdir. Azərbaycan Cümhuriyyətinin böyük dövlətlər tərəfindən tanınması münasibətilə, 1920-ci ilin əvvəlində böyük mütəfəkkirimiz mərhum Akçura Oğlu Yusif Bəy nitqində demişdi: "Bakı, İstanbul, Bəsrə, Süveyş-Şərq məsələsinin dörd köşəsidir. İstanbul dünya ticarətinin həyati memarlarından biri isə, Bakı da dünya sənayesinin həyat mənbələrindən biridir."

"...Kardif və koksun (torfun) vətəni Böyük Britaniya adası isə, neft və petrolun mənbəyi Bakı və Abşeron yarımadasıdır. İstanbulun müstəsna mövqeyi özünə necə bir afət olmuşsa, Bakının sərvətinin intəhasızlığı da başına bir bəladır.."

Hindistana və isti dənizlərə çıxmaq üçün Qafqazı və əsasən Xəzər sahillərini ən pis yol adlandırdığından, işğala qərar verən Böyük Pyotr Xəzər sahillərini tədqiq üçün Von Verdenlə Saymonofların rəyasətində göndərmiş olduğu heyətdən daha 1719-cu ildə belə bir məlumat alırdı: "Bakı ağ daşdan yapılmış surla mahsurdur (hasarla əhatə). Şə-

hərin önündə saysız gəmilər gördük. Onlar müxtəlif İran limanlarına götürmək üçün neft yükləməkdə idilər. Çox tələb olduğundan burada bu yer yağı ticarəti çox böyükdür."

1722-ci ildə Şimali İrana olan səfəri zamanı təhqiqat icrasını yerinə yetirməkdə idi. İki il sonra ruslar Bakını müvəqqəti bir zaman üçün işğal etdikləri vaxt Pyotr general Mutuşkinə Peterburqdan belə bir əmr göndərirdi: "Min put və ya nə qədər mümkünsə ağ neft göndərin."

Bakı rusların əlində uzun müddət qalmadı və 1735-ci ildə buranı tərk etməyə məcbur oldular. Fəqət, Rusiyanın Bakıya olan tamahı sönməmişdi.

"Qafqaza hakim olan Hindistana da hakim olur" – deyən Böyük Yekaterina zamanında Bakı və Azərbaycan məsələsi yenidən meydana çıxır. 1796-cı ildə ruslar Dərbəndi alır və 1801-ci ildə Gürcüstanda yerləşir. Əslində bu zamandan etibarən Azərbaycan şimaldan, şərqdən (dənizdən) və qərbdən od arasına alınır. Bu vaxtlarda Qafqazdakı rus orduları komandanlığına təyin olunan məşhur Sisiyanov Xəzər sahillərini yenidən zəbtə qərar verərək general Zavalişin komandası altında Bakı üzərinə dəniz yolu ilə bir ordu göndərir. Fəqət, Bakı xanı Hüseynqulu Xan Qubadan aldığı yardımla Zavalişini məğlubiyyətə məcbur edir.

Gəncəni qılıncdan keçirən və Cavad Xanın qəhrəman müqavimətini qıran Sisiyanov hiddətlənərək həmin vaxt Bakı üzərinə gəlir. Yol üzərində Şirvan xanı Mustafa Xanın bəyatını (ona tabe olmaq vədini) alan Sisiyanov Şamaxı dağlarını aşaraq, 1806-cı ilin əvvəlində Bakı surlarına (qala divarlarına) dayanır. Hüseynqulu Xanın tabeçiliyindəkilərdən biri Sisiyanovla yaxşı Eristofu öldürür. Bundan panikaya düşən rus ordusu gəmilərə minərək qaçır. Qafqaz rus ordusu komandanlığına təyin olunan Kudoviç Bulqakovun komandası altında Bakı üzərinə göndərdiyi bir qüvvə 3 Sentyabr 1806-cı ildə Bakını işğal edərək Rusiyaya tabe edir.

Bakının, Azərbaycanın zəbti və Rusiyanın bütün Qafqazda yerləşməsi bütün Şərq üçün böyük bir təhlükə yaradır. Rusiya bu üsulla sistematik bir sürətlə şərqə və cənuba doğru irəliləməyə başlayır. Dağıstan mühasirəyə alınaraq yarım əsrlik müqavimətdən sonra təslimə məcbur edilir. Türkiyə Qarsını, Ərdəhan və Batumunu, hətta Şərqi Anadolunu itirir. Türkiyə bir rus müstəmləkəsi halına gəlir. Türküstan işğal olunur.

Məhəmməd Oğlunun çox əsaslı və faktlara əsaslanan tədqiqindən öyrənirik ki, Rusiya tərəfindən zəbti XIX əsrin ilk yarısına qədər siyasətən bitmişsə də, iqtisadən Rusiya XIX əsrin sonuna qədər Azərbaycan iqtisadiyyatına hakim olmamışdır. Rusiyanın işğalından sonra 1872-ci ilə qədər Azərbaycan xanlıqları dövründəki üsul və metodla işləməkdə davam etmiş, Rusiya buraya heç bir yenilik əlavə etməmiş və ixracatını yenə əvvəlki kimi İrana və şərq məmləkətlərinə etməkdə davam etmişdir.

Bu da azdır. Rusiya hakimiyyəti əsnasında Bakı petrol sənayesi süqut etməyə başlamış və müstəqil xanlıqlar dövrünə nisbətən istehsal və qazanc fövqəladə azalmışdır. Yalnız 1872-ci ildən sonra xüsusi mülkiyyətə və xarici sərmayəsinə söykənərək Bakı sənayesi texnika və sərmayə sahəsində ildırım sürətilə yüksəlməyə başlamış, 1867-ci ildə 999 000 pud olan istehsal 1877-ci ildə 20 000 000 pud olmuşdur. Xüsusi mülkiyyətin tanınması və qərb sərmayəsilə texnikanın məmləkətə gəlməsilə yüksələn neft sənayesi Bakı məsələsini yeni bir səhifəyə salırdı. Bir tərəfdən Bakı beynəlmiləl bir əhəmiyyət alır, o biri tərəfdən yerli Azərbaycan burjuaziyası yetişirdi. Artan sənaye sayəsində Bakı sürətlə böyüyür, az zamanda kiçik bir qəsəbə halından amerikasayağı bir şəhər halına gəlir, on minlik əhali yüz minə, iki yüz minə, hətta üç yüz minə çəxərdə. Hər tərəfdən axışan erməni və sairə kimi qüvvələrə qarşı Türklərdə milli hiss qıcıqlanır və Türklər bir tərəfdən milli sərvətlərini itirməmək, digər tərəfdən əhalinin əksəriyyətini təmin etməyə çalışır və heyrətedici bir müvəffəqiyyətlə hər iki sahədə qələbə çalırlar. Bakı hər cəhətdən bir Türk şəhəri olaraq qalır və eyni zamanda Azərbaycanın mədəniyyət, sənaye, ticarət və siyasi mərkəzi halına gəlir.

Rusiya XIX əsrin əvvəlində Azərbaycana girdiyi zaman qarşısında özündən çox irəlidə olan bir məmləkət tapmışdı. Azərbaycan ona təslim olmurdu. Mütəhərrik bir şəkildə olsa da, məmləkət ona 30 il müqavimət göstərmişdi. Rusiya məmləkətin bütün hakim ictimai zümrələrini mütiləşdirərək özünə bir qapı qulu zümrəsi yaratmışdı. Ticarət və sənaye burjuaziyasını ortadan qaldırmışdı.

Bakıda başlayan yeni dövr yeni ictimai qüvvələr gətirir və Avropa əqidəsilə yetişən bu qüvvələr millətin idarə mövqeyinə keçirdilər.

Yeni ideyalar, yeni fikirlər və yeni məfkurələr doğurdu və bu fikirlər Bakıdan məmləkətin hər tərəfinə yayılaraq yeni milli bir hərəkat yaradırdı. Milli Azərbaycan İstiqlalı Hərəkatı!..

Bu hərəkat qarşısında rusların ağından tutub qızılına qədər hamısı vahid bir cəbhə aldılar və bizə bolşeviklər xarabazar bir məmləkət verəcəklərini söylədilər. Halbuki, Bakı tarixi, abidələri, xatirələri, coğrafi vəziyyəti, əhalisinin əksəriyyəti və milliyyəti etibarilə, iqtisadiyyatı etibarilə bir Türk və Azərbaycan şəhəri idi. Azərbaycanda və Azərbaycanlılara məxsus neft ocaqlarında rusların iştirakı azərbaycanlılara nisbətən heç dərəcəsində olmuşdur, İstiqlalını elan etmiş olan Azərbaycan, bu tarixi, milli siyasət, iqtisadi, insani haqlarına dayanaraq Bakıya qızıl ruslardan qurtulmaq üçün savaşa girişmiş, Türkiyədən aldığı qardaş yardımı ilə Bakı məsələsini Azərbaycanın xeyrinə həll etməyə müvəffəq olmuşdu. Bu zəfər günü haqqın boşla verilməyib silah gücü ilə, qan axıtmaqla alınması və yenə əldə silah olaraq bütün fədakarlıqla qorunmasını sübut edən bir gündür.

Bu gün Bakı yenə bütün Azərbaycanla, bütün Qafqazla birlikdə rus işğalı altındadır. İldə 20 000 000 ton neft və məhsullarından doymayan və sovet təyyarəçiliyinin, traktor, tank, fabrik və sairənin Bakı neftinə getdikcə daha çox ehtiyac hiss etdiyini söyləyən Moskva, eyni zamanda iki illik istiqlal dövründən bəhs edərkən "Müsavatçılar dünya inqilabını iki il şərqdən uzaqlaşdırdılar" – deməyi də unutmurlar.

Bu, Bakı məsələsinin yalnız Azərbaycan məsələsi olmadığını isbat edir. Bolşevizmlə kapitalist dünyası arasında çarpışmanın ən mühüm səhnəsi müstəmləkə yollarının keçdiyi Yaxın Şərqdə cərəyan edəcəyini kimsə gözləmir. Və bu çarpışmada Azərbaycanın qanını içən sovet təyyarələri üçün Qafqaz ən əmin bir üssulhareke (hərəkət bazasıdırsa) isə, Türkiyə ilə İran kimi qonşu qardaş dövlətlər də əlahiddə bir körpü rolunu oynayacaqlar.

Hindistana və Ağ dənizə doğru irəliləyən dünənki Rusiya üçün bu belə olduğu kimi, bugünkü bolşevik Rusiya üçün də belədir.

İranı rəsmən müstəmləkə halına gətirən dünənki Rusiya bu üssulharekedən (hərəkət bazasından) hərəkət etmədimi? "Ya otonomi, ya anatomi" – deyə Türkiyəni xəritədən silməyə qalxan dünənki Rusiya kimi, Türkiyəni Kürdüstan, Ermənistan, Ləzgistan, Qərbi Anadolu və Trakiya şəklində təsəvvür etdiyini yeri gəlmişkən rəsmən söyləyən bu günkü Rusiya da Qafqaza söykənməyirmi?

Binaenaleyh (ona görə də) Bakı, onunla birlikdə Azərbaycan və bütün Qafqaz məsələsi şərq məsələsi deməkdir. Və 18 il bundan əvvəl Bakının qurtuluşu uğrunda axıdılmış olan qan, yalnız Azərbaycan istiqlalı üçün deyil, bütün Qafqaz, bütün Türklük və bütün müsəlmanlıq dünyası üçün axıdılmışdır. Bu, dünən belə olduğu kimi, sabah da belə olacaqdır və bu gün Azərbaycan istiqlalı üçün axıdılan qan da eyni məqsədlə axıdılır (46, s. 9-12).

"Qurtuluş", sentyabr 1936, №23.

Məhəmməd Əli Rəsuloğlu

XATİRƏLƏR

Balkan müharibəsi başlayanda Qafqaz müsəlmanlarının arasında böyük bir həyəcan var idi. Balkan müharibəsi münasibəti ilə bir bəyannamə hazırlandı. Bu bəyannamə Oruc Oğullarının mətbəəsində sahiblərindən xəbərsiz, arkadaşımız Seyid Hüseynin yardımı və partiyamıza mənsub olan mürəttiblərin əl birliyi ilə bir gecədə çap edildi. Bu bəyannamənin Qafqaz müsəlmanlarının mərkəzi sayılan Bakıda dağıdılmasını istəmirdik. Abbas bəy, bu bəyannamələri alaraq Tiflisə getdi. Orada bunları poçta qtularına ataraq bir gün sonra da geri döndü. Bu bəyannamə Qafqaz müsəlmanları arasında böyük bir həyəcan yaratdığı kimi, Çar polisini də böyük bir təlaşa salmışdı. Bəyannamədə hər cür yardımda olması fikri irəli sürülür və yardım edilməsi istənilirdi.

O zamanlar necə isə Bakıda Türkiyə Konsulluğunun açılmasına icazə verilmişdi. "Hilaliahmər"ə yardım etmək üçün konsulluq binası önündə məhşəri bir toplantı halında toplanırdı. Bu həyəcandan ürkən Çar hökuməti Konsulluğu bağladı.

Bəyannamə arkadaşımız Yusif Ziya tərəfindən İstanbula aparıldı. Sabilülirşad məcmuəsi bu bəyannaməni eynilə nəşr edərək Qafqaz müsəlmanlarının Türkiyəyə qarşı göstərdikləri münasibətdən ötrü məmnuniyyətini bəyan edən sətirlər yazdı.

Bu bəyannamə dolayısı ilə bir gecə mənim evimdə də axtarış edildi. Axtarış edən komissar müavini: "İstanbulda olan qardaşın (Rəsulzadə Məhəmməd Əmin bəyi ittiham edirdi) tərəfindən sənə bir bəyannamə göndərildiyini və sənin də onu bütün Qafqaza yaydığını bildirdilər. Sizdə də bu bəyannamə çıxmadı" – dedi və getdi.

1918-ci ildə Türk ordusu Bakını çevirdi. Türk ordusu qərargahına xəritə, plan və silah yetişdirmək üçün Müsavat Partiyası bütün qüvvəsilə çalışırdı. Hər gün dəniz və quru yolu ilə Türk ordusu qərargahı nəzdində olan arkadaşımız Abbas bəy vasitəsilə şəhərdəki əsgərlərin hərəkəti haqqında Türk ordusu qərargahına müntəzəm məlumatlar verilirdi. Bolşeviklər bu məlumatın sürətlə verilməsinə heyrət edirdilər. Türk ordusunun Bakını xilası Azərbaycanlıları böyük bir qətliam təhlükəsindən qurtardı. Bu ordu yetişməsəydi, Azərbaycanın bir tərəfində çox geniş ölçüdə qətliamlar olacaqdı. Türk ordusu, Azərbaycana yerləşdikdən sonra Azərbaycanlılardan mürəkkəb bir hökumət qurulsa da, yaxşı bir fəaliyyət göstərmək imkanı tapılmadı. Nəhayət Türk ordusu, Türkiyə hökumətinin müttəfiqlərilə etdiyi bir razılaşmaya görə Bakıdan çəkilməli oldu. Məhəmməd Əmin bəy Türk ordusu komandanları nəzdində, bizi buraxıb getməmələri üçün çox rica və israr etdi və zabitlərin rütbələrinin bir dərəcə yüksəldiyini və əsgərlərə yüksək maaş veriləcəyini söylədisə də, zabitlərin aralarında çıxan ixtilaf nəticəsində çəkilib getmə qərarı möhkəmləndi. **Türk əsgərləri Gəncəyə daxil olduqdan sonra Türk ordusu komandanları ilə yaxşı münasibətdə olan arkadaşımız Vəli bəy arxalarınca Gəncəyə göndərildi. Qalmaları üçün bir dəfə də xahiş edildi (58, s. 10-11).**

Milli Azərbaycan "Müsavat" Xalq Partiyası bülleteni, Berlin,1962, sayı 4.

MÜQAVİLƏ

OSMANLI DÖVLƏTİ İLƏ AZƏRBAYCAN CÜMHURİYYƏTİ ARASINDA İMZALANAN MÜAHƏDƏ

Bismilləh-ir-rəhman-ir-rəhim

Səltənət-i Seniyye-i Osmaniyyə ilə Azərbaycan Hükumət-i Cümhuriyyəsi Beynində Mün'aqid Muhadənət Mu'ahədənaməsi

Bir tərəfdən Hükumət-i Osmaniyyə, digər tərəfdən axirən elan-i istiqlal edən Azərbaycan Hükumət-i Cümhuriyyəsi, siyasi, hüquqi, iqtisadi və fikri sahələrdə məmləkətləri arasında münasibət-i dostanə və həmcivari təsisi xüsusunda ittifaq etdiklərindən muraxxasları olmaq üzərə:

Səltənət-i Seniyye-i Osmaniyyə;
Ədliyyə Naziri və Şura-ı Dövlət Rəisi Dövlətli Xəlil Bəy-əfəndi həzrətləriylə; Qafqaz cəbhəsi Osmanlı orduları komandanı Ferik Dövlətli Vehib Paşa Həzrətləri;

və Azərbaycan Hükumət-i Cümhuriyyəsi:
Xariciyyə Naziri Mmməd Həsən Bəy Hacınski həzrətləriylə;
Məclis-i Milli Rəisi Rəsulzadə Məmməd Əmin Bəy-əfəndi həzrətlərini təyin etmişlər və müşarün-ileyhim ale'l-usul tənzim olunan rüsxətnamələrini tədqiq və teati etdikdən sonra mevadd-i atiyəyi qərarlaşdırmışlar..."

Dördüncü Maddə
Hükumət-i Osmaniyyə ikinci və üçüncü maddələr mucibincə sahib olduğu gaqqdan müttəfiqi bulunan hökumətlər ordularını da istifadə etdirə bilir.

Beşinci Maddə
Hükumət-i Osmaniyyə Azərbaycan Hükumət-i Cümhuriyyəsi daxilində bulunan yollardan nəqliyyat-ı əskəriyyə üçün istifadə edə biləcəkdir.

Altıncı Maddə
İşbu mu'ahədə-namətəsdiq və təsdiq-nameləri bir ay və ya müddət-i kəsirə-i mümkünə zərfində Dərsə'adət'də teati olunacaqdır. Təsdiqən li'l-makal muraxxaslar işbu mu'ahədə-naməni imza və möhürləriylə taxtim etmişdirlər.

İşbu mu'ahədə-namə iki nüsxə olaraq Batumda tənzim olunmuşdur.

4 Haziran 1334

Məmməd Həsən Hacınski — **Xəlil**
Məmməd Əmin Rəsulzadə — **Mehmed Vehib**

(Bu müqavilə ixtisarla çap edilir)

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

Azərbaycan türkcəsində

1. "Azərbaycan" qəzeti, Gəncə, 1918, N1.
2. "Azərbaycan" qəzeti, Bakı, 1918, N
3. "Azərbaycan" qəzeti, Bakı, 1918, N5.
4. "Azərbaycan" qəzeti, Bakı, 1919, N276.
5. "Azərbaycan" qəzeti, Bakı, 1919, N
6. "Azərbaycan" qəzeti, Bakı, 1919, N
7. "Azərbaycan" jurnalı, Ankara, 1977, sayı-224, səh. 92-93.
8. "Azərbaycan" jurnalı, Ankara, 1973, sayı-206, səh. 11, 14.
9. "Azərbaycan" jurnalı, Ankara, 1954, sayı-6-7 (30-31), səh. 11-13.
10. "Azərbaycan" jurnalı, Ankara, 1958, sayı-7.
11. "Azərbaycan" jurnalı, Ankara, 1955, sayı 6-7.
12. Azərbaycan Yurt Bilgisi, jurnal, İstanbul, 1933, sayı-19-20, səh. 341.
13. Azərbaycan Yurt Bilgisi, jurnal, İstanbul, 1933, sayı-1933, səh. 199-205.
14. Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, 2008.
15. Azərbaycan Respublikası Dövlət Arxivi, fond 894, siyahı-2, iş-88.
16. ARSPİHDA, fond, 277, siyahı-2, iş-1.
17. Asker Aras. Kayıp etdiyimiz böyük adam. "Türk izi" jurnalı, 1952, sayı-2-3.
18. Aküzüm Feyzi. Qardaş yardımı. "Azərbaycan", Ankara, 1974, sayı-211, səh.9-13.
19. Baykara H. Azərbaycan İstiqlal mübarizəsi tarixi. Bakı, 1992, 276 s.
20. Bayramoğlu A. Cümhuriyyət ədəbiyyatında Qafqaz İslam Ordusu (Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Toplu). Bakı, 2008, səh. 531-562.
21. "Bəsirət" qəzeti, 1919, N246.
22. Cəfəroğlu Ə. Azərbaycan. "Mücahit", Ankara, 1960, sayı-31-32, səh. 31-32.
23. Dağıstan C. Tarixi gün. "Azərbaycan" qəzeti, Bakı, 1918, N5.

23a. Darabadi. P. XX əsrin əvvəllərində Güney Qafqaz beynəlxalq münasibətlər sistemində toplu. Bakı, 2008, s. 28).

24. Əfəndizadə Ə. Hər ürəkdə səbt olubdur: Ya ölüm, ya Türkiyə. Şəki, "Mədəniyyət" mətbəəsi, 1918.
25. Əhməd Cavad. Seçilmiş əsərləri, I cild, Bakı, 1982.
26. Əhməd Cavad. Seçilmiş əsərləri, II cild, Bakı, 1982.

27. Əhmədov S. Azərbaycan tarixi muzeyində mühafizə edilən Qafqaz İslam Ordusuna aid əşyalar. (Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Toplu, Bakı, 200 s. səh. 563-568.
28. Göyüşov A. Qafqaz İslam Ordusunun Dağıstan Hərəkatı (Toplu), səh. 391-410.
29. Göygöl Çingiz. 15 Sentyabr 1918. "Mücahit" jurnalı, Ankara, 1957, N10.
30. Hacıbəyli Ü. Nuru Paşa həzrətləri şərəfinə böyük bir ziyafət. "Azərbaycan" qəzeti, 14 noyabr N37.
31. Həsənli C. Azərbaycan Beynəlxalq Münasibətlər sistemində, 1918-1920. Bakı, 1993.
32. Hüseynov Ş. Mənəvi irsimiz və gerçəklik. Bakı, 2004.
33. Hüseynov Ş. Milli haqq və ədalət axtarışında. Bakı, 2004.
34. İbrahimli X. Azərbaycan Siyasi Mühacirəti. Bakı, 1996.
35. İlkin Q. Nuru Paşa haqqında həqiqətlər. "Günay" qəzeti, N51, 1995.
36. Kerim Odər. Azərbaycan. İstanbul, 1982.
37. Kəngərli M. Qardaş yardımı. "Azərbaycan" jurnalı, 1957, sayı-6(66), səh. 5-8.
38. Kurtulan E. Türk Orusunun Azərbaycanda qalması məsələsi. "Azərbaycan", 1969, N4-6.
39. Qasımlı M. Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. Bakı, 2000.
40. Mehdizadə M. Beynəlmiləl siyasətdə petrol. Bakı, 1994.
41. Mehmet Rıhtım. İngilislərin Bakı və Xəzər dənizinə hakim olmaq xüsusunda cəhdləri. (Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu). Toplu, Bakı, 2008, səh. 483-522.
42. Məmmədova H. Yuxarı Qarabağda müvəqqəti General-qubernatorluğun yaradılması və erməni separatizminin ləğv edilməsi (1918-1920-ci illər). Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Toplu, Bakı, 2008, səh. 411-438.
43. Mustafa Budak. Nuru Paşanın Qafqaz İslam Ordusu haqqında raportu. (Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Toplu, Bakı, 2008, s. 441-184.
44. Məmmədzadə M. B. Milli Azərbaycan hərəkatı. Bakı, 1990.
45. Mustafa Çolak. Almaniyanın Qafqaz siyasəti (1917-1918-ci illər). Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Toplu. Bakı, 2008, səh. 135-164.
46. Məmmədzadə M. B. Bakı məsələsi. "Qurtuluş" jurnalı, Berlin, 1936, N23, səh. 9-12.
47. Mirzə Bala. İstiqlal zəfərinin dastanı. "Azərbaycan" jurnalı, Ankara, 1953, sayı-6 (18), səh. 3-5.
48. Mirzə Bala. Bakı yollarında. "Qurtuluş", Berlin, 1935, N11.

49. Mirzə Bala. Qafqaz İslam Ordusu. "Azərbaycan" jurnalı, Ankara, 1954, N4-5 (28-29), səh. 4-5,14.
50. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921). Bakı, 1998.
51. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Bakı, 1990.
52. Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı, 2001.
53. Rəsulzadə M. Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990.
54. Rəsulzadə M. Ə. 15 Eylul münasibəti ilə. "Qurtuluş" jurnalı, Berlin, 1935, N35, səh. 4-5.
55. Rəsulzadə M. N. Qurtuluş günü. "Azərbaycan" qəzeti, Bakı, 1919, N276.
56. Rəsulzadə M. Ə. Bir zəfərin ildönümü, "Qurtuluş" jurnalı, Berlin, 1935, N11.
57. Rəsulzadə M. Ə. 15 Sentyabr münasibəti ilə. "İstiqlal" qəzeti, Berlin, 1933, N42.
58. Rəsuloğlu M. Ə. Müsavat Partiyasının quruluşu. "Müsavat" bülleteni, Münhen, 1962, sayı-4, səh. 10-11.
59. Rüstəmli A. Silahına arxalanmayan bir millət dağlara belə dayanırsa, yıxılacaqdır. "Ulus" qəzeti, 19 may, 1999.
60. Rüştü T. Qafqaz Türk İslam Ordusu Bakı yollarında. Bakı, 2008.
61. Süleymanlı M. Qafqaz İslam Ordusunun quruluşu, hazırlıq və səfərbərlik vəziyyəti. Toplu, səh. 227-286.
62. Süleymanov M. Qafqaz İslam Ordusunun digər fəaliyyətləri və missiyasının sona çatması (Toplu), səh. 355-392.
63. Süleymanov M. Qafqaz İslam Ordusunun Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəsi, toplu, səh. 287-332.
64. Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsinin xatirələri. Bakı, 1997.
65. Taki Aran. Azərbaycan tarixinə qısa bir baxış. "Mücahit" jurnalı, Ankara, 1961, sayı-6, səh. 3-5.
66. Təkləli Minaxanım. Azadlıq və Qurtuluş ordusu haqqında "Son söz" və ya Türk İslam Ordusunun "dərsləri". (Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Toplu). Bakı, 2008, səh. 569-572.
67. "Türk izi" jurnalı, Ankara, 1952, sayı-2-3, səh. 21.
68. Yaqublu N. Ağrılı ömürlər. Bakı, 1990.
69. Yaqublu N. Məhəmməd Əmin Rəsulzadə. Bakı, 1991.
70. Yaqublu N. Azərbaycan Milli İstiqlal Mübarizəsi və M. Ə. Rəsulzadə. Bakı, 2001.
71. Yaqublu N. Müsavat Partiyasının tarixi. Bakı, 1997.
71a. "Yeni Qafqasiya" jurnalı. İstanbul, 18 səfər, 1924.
72. Yüceer N. Qafqaz İslam Ordusunun Bakı şəhərini azad etməsi.

Türkiyə türkcəsində

73. Aşırlı A. Azərbaycan Xalq Cümhuriyyəti dönəmi basımında Kavkaz İslam Ordusu. Bakı, 2008.
74. Birinci Dünya hərbində Türk Hərbi Qafqaz cəbhəsi. Ordu Hərəkatı. Ankara, 1993.
75. Kurat A. N. Türkiyə və Rusiya. Ankara, 1990.
76. Qarabəkir K. İstiqlal Hərbimiz. İstanbul, 1988.
77. Nadir Yüceer. Birinci Dünya savaşında Osmanlı Ordusunun Azərbaycan və Dağıstan səfəri. Ankara, 2002.
78. Sürəyya Aydəmir. Makedoniyadan Orta Asiyaya Ənvər Paşa. İstanbul, 1978, səh. 3.
79. Svyetoçovski T. Rus Azərbaycanı 1905-1920. Ankara, 1988.
80. Sorgun M. T. Bitmeyen Savaş. (Halil Paşanın Anıları). İstanbul, 1972.

Rus dilində

81. «Азербайджан», газета, Баку, 1919, N197.
82. «Азербайджан», газета, Баку, 1919, N
83. «Азербайджан», газета, Баку, 1918, N13.
84. «Азербайджан», газета, Баку, 1918, N3.
85. «Азербайджан», газета, Баку, 1918, N16(2).
86. «Азербайджан», газета, Баку, 1918, N19.
87. Балаев А. Азербайджанское национально-демократическое движение 1917-1920 г. Б. 1990.
88. Дарабади П. Г. Военные проблемы политической истории Азербайджана начала XX века. Баку, 1991.
89. Летопись Внешней Политики СССР 1917-1978. Москва, Политиздать, 1978.
90. Людендорф Э. Мои воспоминания о войне 1914-1918 гг. Т. 2. Москва, Госвоениздат, 1924.
91. Микоян А. Так было (Размышления о минувшем). Москва, 1999.
92. Насиров Т. Борьба за власть в Азербайджане (1917-1920). Баку, 1993.
93. Раевский А. Английская интервенция и мусаватское правительство. Баку, 1927.
94. Стеклов А. Армия Мусаватского Азербайджана. Баку, 1928.
95. Топчибашев А. А. Дирломатические беседы в Стамбуле (1918-1919 г.). Баку, 1994.
96. Токаржевский Э. А. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. Баку, 1957.
97. Шаумян С. Г. Избранное произведение. Т. 2. Москва, 1978.

KİTABDA ADLARI ÇƏKİLƏN ŞƏXSİYYƏTLƏR

NURU PAŞA KİLLİGİL (1889-1949)

Bakının xilaskarı kimi tarixə daxil olmuş **Nuru Paşa Killigil 1889-cu ildə Türkiyənin İstanbul şəhərində anadan olub.** Tanınmış hərbçi Ənvər Paşanın qardaşıdır. Hərbi məktəbdə təhsil alıb, buradan teğmen olaraq məzun olub. 1909-cu ildə 3-cü Ordu əmrinə, 1910-cu ildə isə padşah hizmətindəki piyada bölüyünə, 1912-ci ildə isə 1-ci Kolordu (Korpus, hərbi birləşmə) Komandanlığına, 1914-cü ildə isə Vyana Ateşmilleterliyinə alınıb. 1915-ci ilin fevralından 1918-ci ilin əvvəllərinə qədər Afrika Grupları Genel Komandiri vəzifəsində çalışıb. 1918-ci ilin yanvarın 3-də Qafqaz İslam Ordusu komandiri olaraq çalışmağa başladı və general rütbəsi ilə həmin ilin mayında Gəncəyə gəldi. Qafqaz İslam Ordusunun qurulmasına çalışdı. Birinci Dünya müharibəsinin sonuna qədər bu vəzifədə qaldı. Rütbədə isə fəxri generaldan ordugenerallığa yüksəldi. 1919-cu ildə İngiltərə hökuməti tərəfindən həbs edildi. Sonradan Batumdakı hərbi cəza evindən Azərbaycana qaçdı. Milli Mücadilədə 1920-ci ilin iyununda əmrindəki qüvvələrlə Doğu Cəbhəsi komandirliyinə könüllü olaraq qatıldı və ermənilərə qarşı aparılan təərrüz hərəkatında 12-ci Tümənin sağ qanadını təşkil edərək, Sarıkamışın geri alınmasında vəzifə aldı. Daha sonra Doğu Cəbhəsi emalatxanalarında vəzifə aldı. 1923-cü ilin 4 oktyabrında təqaüdə çıxdı. Əlavə edək ki, İkinci Dünya müharibəsi illərində Almaniyada əsirlikdə olan müsəlman-türk xalqlarından ibarət legionların (könüllü birliklərin) yaradılmasında türk generalı Ərkilət Paşa ilə birgə Nuru Paşanın da adına rast gəlinir. Bu insanların ölümdən qurtarılıb, bolşevizmə qarşı savaş açıb silahlanmasında Nuru Paşanın xüsusi rolu olmuşdur.

1949-cu ilin martın 2-də, saat 16.30-da İstanbuldakı silah fabrikasının partlayışı zamanı 27 nəfərlə birlikdə Nuru Paşa da həlak oldu.

ƏNVƏR PAŞA

Türkiyənin Sultan hökumətinin Hərbi Dəniz naziri olmuşdur. Gənc türklərin "Birlik və tərəqqi" partiyasının liderlərindən biri idi. 1918-ci ildən Almaniyada mühacirətdə olmuşdur. 1920-ci ilin sentyabrında Bakıda Şərq xalqlarının qurultayında iştirak etmişdir. 1921-ci ildə Ənvər Paşa Türkiyəyə keçmək məqsədilə Batuma gəlmişdir. Lakin Mustafa Kamal Paşanın başçılığı ilə TBMM hökuməti ona Türkiyəyə keçməyi qadağan etmişdir. 1921-ci ilin noyabrın 27-də G. Çiçerin Rusiyanın Batumdakı konsuluna məktub göndərərək belə bir göstəriş verdi: "...indiki vaxtda Ənvərin Türkiyədə görünməsinə yol vermək olmaz... Biz ona daha Batumda qonaqpərvərlik edə bilmərik".

1921-ci ilin sonunda Ənvər Paşa xəlvəti olaraq Buxaraya gəldi və antisovet hərəkata başçılıq etdi. 1922-ci ilin avqustunda bolşevik ordu hissələri ilə döyüşdə öldürüldü.

QAİMMƏQAM RÜŞTÜ TÜRKƏR

Qafqaz İslam Ordusunun zabiti olub. **Hərb rəisi kimi məsul vəzivə də daşıyıb.** Azərbaycanın müstəqilliyi uğrunda Qafqaz İslam Ordusunun apardığı müharibənin canlı şahidi olub. 1934-cü ildə özünün çox dəyərli xatirələrini "Böyük hərbdə Bakı yollarında 5-ci Qafqaz piyada firqəsi"ni Əsgəri Məcmuədə çap etdirir. **Bu xatirələr Bakının azad edilməsi ilə bağlı bu gün də ciddi bir mənbə olaraq qalır.**

MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ (1884-1955)

Azərbaycanın görkəmli dövlət xadimi olan Məhəmməd Əmin Rəsulzadə 31 yanvar 1884-cü ildə Bakının Novxanı kəndində doğulub. İlk təhsil və tərbiyəsini atasından alıb. Sultan Məcid Qənizadənin (1886-1942) müdir olduğu Bakıda fəaliyyət göstərən 2 saylı "Rus-tatar" məktəbində oxuyub. Qafqazda yeganə türk dilində çıxan "Şərqi-Rus" qəzetində (1903, N20) ilk "Müxəmməs" adlı şerini nəşr etdirir. 17 yaşlı Məhəmməd Əmin 1902-ci ildə "Müsəlman Gənclik Təşkilatı"nı yaradır. Sonradan həmin təşkilat "Müsəlman demokratik "Müsavat cəmiyyəti"nə çevrilir. 1904-cü ilin payızında milli ziyalılarımızın görkəmli nümayəndələrindən Mir Həsən Mövsümovun, Məhəmməd Həsən Hacınskinin və M. Ə. Rəsulzadənin təşəbbüsü ilə müsəlman sosial-demokrat "Hümmət" təşkilatı yaradılır. İctimai-siyasi işlərlə yanaşı M. Ə. Rəsulzadə publisistik fəaliyyətini də davam etdirir. Əlibəy Hüseynzadənin redaktor olduğu "Fyüzat", həmçinin Ə. Ağayevin redaktorluğu ilə çıxan "İrşad" və "Tərəqqi" qəzetində müxtəlif mövzularda məqalələri və şerləri ilə çıxış edir. Bir müddətdən sonra "İrşad" qəzetinin müvəqqəti redaktoru olur. Onun "Qaranlıqda işıqlar" adlı pyesi 1908-ci ildə Bakıda "Nicat" cəmiyyətinin teatrında tamaşaya qoyulur. Bakıda təqib olunduğu üçün isə 1909-cu ildə İrana gedir. Təbrizdə Səttarxanla və onun silahdaşları ilə görüşür. Tehranda Avropa təhsili görmüş bir qrup iranlı ilə birlikdə 1910-cu ildə "İran Demokratik Partiyası"nın əsasını qoyur və onun orqanı "İrani-nov" (Yeni İran) qəzetinin redaktoru olur. Burada da M. Ə. Rəsulzadə təqiblərdən yaxa qurtarmaq üçün İstanbula mühacirət edir. Burada 1911-ci ilin noyabrından nəşrə başlayan "Türk yurdu" jurnalının əsasını qoyanlardan biri olur. 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi ilə əlaqədar əfvümumidən sonra M. Ə. Rəsulzadə Bakıya qayıdır. 1911-ci ilin oktyabrında əsası qoyulan "Müsəlman demokratik "Müsavat" partiyasının rəhbərinə çevrilir. 1918-ci il mayın 27-də Zaqafqaziya Seyminin müsəlman fraksiyasına daxil olan müxtəlif partiyaların üzvlərindən ibarət olan Azərbaycan Milli Şurası yaranır. Səs çoxluğu ilə M. Ə. Rəsulzadə Milli Şuranın sədri seçilir.

1920-ci ilin aprel hadisələrindən sonra M. Ə. Rəsulzadə həbsə alındı. Keçmiş mübarizə dostu Stalin şəxsən həbsxanaya gedib M. Ə. Rəsulzadəni azad etdi. Sonra M. Ə. Rəsulzadəni özü ilə birlikdə Moskvaya apardı və RSFSR Millətlər Komissarlığında mətbuat müvəkkili vəzifəsinə təyin etdi. Bir müddət sonra M. Ə, Rəsulzadə Sankt-Peterburqa, oradan isə gizli yolla Finlandiyaya keçərək Türkiyəyə mühacirət etdi. 1922-ci ilin sonlarında onun İstanbulda siyasi mühacir həyatı başladı. M. Ə. Rəsulzadə 1931-ci ildə Sovet hökumətinin təqiblərinə əsasən, Türkiyəni tərk etməyə məcbur oldu. 1932-ci ildən onun mühacirətinin Polşa və Almaniya dövrü başladı. 1939-cu ildə İkinci Dünya müharibəsinin başlanması ilə Polşadan Fransaya, oradan İsveçrəyə, İsveçrədən İngiltərəyə, nəhayət Rumıniyaya keçdi.

1942-ci ildə Azərbaycanın istiqlalına nail olmaq üçün Almaniyanın Xarici İşlər Nazirliyi və Şərq Nazirliyi ilə danışıqlara girsə də müsbət cavab ala bilmədi. Almaniya tərəfindən Azərbaycan müstəqilliyinin tanınmadığını görən M. Ə. Rəsulzadə 1943-cü ilin sonlarında Almaniyanı tərk edib Buxarestə gedir. 1947-ci ildə Türkiyəyə qayıdan Rəsulzadə burada Azərbaycan Milli Mərkəzinin başçısı kimi fəaliyyətini davam etdirirdi. M. Ə. Rəsulzadə ömrünün sonunadək Azərbaycanın müstəqilliyinin bərpa olunması uğrunda istiqlal mübarizəsini davam etdirmişdir. M. Ə. Rəsulzadə 1955-ci il, mart ayının 6-sı, bazar günü, Ankara vaxtı ilə saat 22^{50}-də, üç dəfə "Azərbaycan, Azərbaycan, Azərbaycan" deyərək əbədi olaraq həyata göz yumdu. M. Ə. Rəsulzadə Ankaranın Əsri qəbirstanlığında dəfn olunmuşdur.

FƏTƏLİ XAN XOYSKİ (1875-1920)

Azərbaycanın görkəmli dövlət xadimidir. 1875-ci ildə Şəkidə anadan olub. 1901-ci ildə Moskva Universitetinin Hüquq fakultəsini bitirib. Gəncə, Suxumi, Batum, Kutaisi məhkəmələrində müxtəlif vəzifələrdə çalışıb. II Dövlət Dumasının nümayəndəsi olub. Zaqafqaziya Federativ Respublikasının Ədliyyə naziri olub. 1918-ci ilin Mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra bu ölkənin tək Baş naziri təyin edilib.

1919-cu ilin dekabrın 23-də isə N. Yusifbəylinin təşkil etdiyi hökumət kabinəsində Xarici İşlər naziri vəzifəsini icra edib.

1920-ci ilin 27 Aprel işğalından sonra Fətəli Xan Xoyski Gürcüstana getmiş, iyun ayının 19-da Tiflisdə arxadan bir muzdlu erməni qatili tərəfindən qətlə yetirilmişdir.

NƏSİB BƏY YUSİFBƏYLİ (1881-1920)

Azərbaycanın görkəmli dövlət və siyasi xadimi Nəsib bəy Yusifbəyli 1881-ci ildə Gəncədə anadan olub. 1902-1907-ci illərdə 1902-1907-ci illərdə Odessa Tibb Universitetinin Hüquq fakultəsində təhsil alıb. Bir müddət Krımın Baxçasaray şəhərində yaşamış, "Tərcüman" qəzetində məqalələrlə çıxış etmişdir. Ar hökuməti tərəfindən təqib olunduğundan Türkiyəyə gəlmiş, bir müddət İstanbulda yaşamışdır. 1917-ci ilin martında "Türk ədəmi-mərkəziyyət partiyası"nı yaradıb. 1918-ci ilin aprelində Zaqafqaziya Respublikası hökumətinin Maarif naziri olub. 1918-ci ilin Mayın 29-da Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra o, Xalq Maarif naziri vəzifəsində çalışıb. 1919-cu ilin aprelin 14-dən Azərbaycan Respublikası Nazirlər Şurasının sədri təyin edilib. 1920-ci ilin 27 Aprelində bolşeviklər Azərbaycanı işğal etdikdən sonra Nəsib bəy Yusifbəyli Kürdəmir və Yevlax rayonları arasındakı ərazidə qətlə yetirilib.

ƏLİMƏRDAN BƏY TOPÇUBAŞOV (1862-1934)

Azərbaycan Parlamentinin sədri olub. 1862-ci ilin mayın 4-də Tiflisdə anadan olub. 1889-cu ildə Peterburq Universitetinin hüquq fakultəsini bitirib. Bakıda rus dilində çıxan "Kaspi" qəzetinin Baş redaktoru olub. 1905-ci ildə Rusiya Müsəlmanlarının Nijni-Novqorod şəhərində ilk qurultayının keçirilməsinin təşkilatçılarından olub. Azərbaycan Xalq Cümhuriyyəti

elan edildikdən sonra 1918-ci ilin oktyabrında Xarici İşlər naziri təyin edilmiş, həmin ilin dekabrın 7-də isə Azərbaycan Palamentinin sədri seçilib. 1918-ci ilin dekabrın 28-də Azərbaycan Nümayəndə Heyətinin Paris Sülh Konfransının başçısı təyin edilib. Azərbaycanın 1920-ci ilin yanvarın 11-də dünya dövlətlərinə tanıdılmasında böyük xidmətləri olub. 1920-ci ilin 27 Aprel işğalından sonra Fransada qalıb, mühacirət həyatı yaşayıb. 1934-cü ildə Parisdə vəfat edib.

HƏSƏN BƏY AĞAYEV (1875-1920)

Tanınmış dövlət xadimi Həsən bəy Ağayev 1875-ci ildə Gəncədə anadan olub. 1901-ci ildə Moskva Universitetinin Tibb fakultəsini bitirib. Vətənə qayıtdıqdan sonra bir müddət həkim olaraq çalışıb. 1906-1907-ci illərdə İrana mühacirət edib, orada yaşayıb. 1911-1912-ci illərdə Gəncədə rus dilində çıxan "Yujnı Qafqaz" qəzetinin redaktoru, müsəlmanlar arasında maarif yayan cəmiyyətin sədri idi. O, 1917-ci ildə təşkil edilmiş Zaqafqaziya Seyminin üzvü idi. 1918-ci ilin mayında Azərbaycan Milli Şurasının sədr müavini seçilib.

1918-ci ilin Mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra Həsən bəy Ağayev Dəniz Yolu İdarəsinin Baş həkimi vəzifəsində çalışıb. 1918-ci ilin dekabrın 7-dən Azərbaycan Parlamentinin sədr müavini seçilib.

1920-ci ilin Aprelin 27-də Azərbaycan işğal edildikdən sonra Tiflisə getmiş, orada bir muzdlu erməni qatili tərəfindən güllə ilə öldürülmüşdür.

MƏHƏMMƏD HƏSƏN HACINSKİ (1875-1931)

Tanınmış ictimai-siyasi xadim olan **M.h.mm.d Həsən Hacınski 1875-ci ildə Bakıda anadan olub.** Peterburq Texnoloji İnstitutunu bitirib. Bir müddət Moskvada ça-

lışdıqdan sonra Bakıya qayıdıb. 1904-cü ildən ciddi siyasi fəaliyyətə başlayıb. 1918-ci ildə Azərbaycan Xalq Cumhuriyyəti yaradılanda ilk Xarici İşlər naziri olub.

1931-ci ildə Tiflis həbsxanasında həlak olub.

ÜZEYİR HACIBƏYLİ
(1885-1948)

Azərbaycanın tanınmış musiqi xadimi və görkəmli ziyalısı **Üzeyir Hacıbəyli 1885-ci ildə sentyabr ayının 5-də anadan olub.** Üzeyir Hacıbəyli Azərbaycanın musiqi mərkəzi olan Şuşada böyüyüb. 1899-1904-cü illərdə Qori Müəllimlər Seminariyasında təhsil alıb. "Həyat", "İrşad" qəzetlərində çalışıb, "Həqiqət" qəzetinin redaktoru, sonradan isə "Azərbaycan" qəzetinin müvəqqəti redaktoru olub. 1908-ci ilin 12 yanvarında onun yazdığı "Leyli və Məcnun" operasının ilk tamaşası olmuşdur. 1920-ci ilin 27 Aprel işğalından sonra bütün fəaliyyətini musiqiyə həsr etmişdir. 1937-ci ildə onun yazdığı "Koroğlu" operası tamaşaya qoyulub. **Üzeyir Hacıbəyli Azərbaycanın Dövlət Himninin müəllifidir. Üzeyir Hacıbəyli 1948-ci ildə vəfat edib.**

KƏRİM ODƏR
(1901-1961)

Azərbaycan mühacirətinin tanınmış xadimi Kərim Odər 1901-ci ildə Bakıda anadan olub. Bakı Ticarət Litseyini bitirdikdən sonra, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Xarici İşlər Nazirliyində özəl Qələm müdirliyi vəzifəsində çalışıb. 1920-ci ilin 27 Aprel işğalından sonra Azərbaycanı tərk etmək məcburiyyətində qalıb. Üç ilə yaxın Tiflisdə qaldıqdan sonra, Türkiyəyə gedib. O, burada Mərkəzi bankda çalışıb. "Azərbaycan", "Azərbaycan ekonomisi" kimi kitablarını çap etdirib. "Azərbaycan" jurnalında çoxlu yazılarla çıxış edib.

Kərim Odər 1981-ci ildə vəfat edib.

CEYHUN HACIBƏYLİ
(1891-1962)

Tanınmış ictimai-siyasi xadim və jurnalist olan Ceyhun Hacıbəyli 1891-ci ilin fevralın 2-də Şuşada anadan olub. Bir müddət Peterburq Universitetinin hüquq fakültəsində, 1909-cu ildən isə Fransanın paytaxtı Parisdə Sorbon Universitetində təhsil alıb. Bakıya qayıtdıqdan sonra "İttihad" və "Müsəlmanlıq" qəzetlərinin redaktoru vəzifəsində çalışıb. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra Şəfi bəy Rüstəmbəyli ilə birlikdə "Azərbaycan" qəzetinin redaktoru olub. Versal Sülh konfransında Azərbaycan nümayəndə heyətinin üzvü olaraq iştirak edib. Azərbaycanın dünya dövlətlərinə tanıdılmasında onun da böyük xidmətləri var.

1920-ci ildə Aprelin 27-də Azərbaycan bolşeviklər tərəfindən işğal edildikdən sonra həmişəlik olaraq Parisdə qaldı, Azərbaycanın müstəqilliyi uğrunda mühacirətdə ağır mücadilə apardı.

Ceyhun Hacıbəyli 1962-ci ilin oktyabr ayının 2-də vəfat edib, Parisin Sen-Klu məzarlığında dəfn edilib.

MƏHƏMMƏD HADİ
(1879-1920)

XX əsr Azərbaycan şerində romantizm cərəyanının ən qüdrətli nümayəndələrindən biridir. 1879-cu ildə Şamaxı şəhərində anadan olmuşdur. Kiçik yaşlarından atadan yetim qalan Hadi təhsilini davam etdirə bilməmişdir. O, "Bürani-tərəqqi", "Həyat", "Fyüzat", "İrşad" kimi mətbu orqanlarda fəal çıxış etmişdir. "Firdovsi-ilhamat", "Şükufeyi-hikmət" adlı şer kitablarının müəllifi olmuşdur. Birinci Dünya müharibəsi illərində şair Qafqaz Ordusu sıralarında müxtəlif döyüş cəbhələrində olmuşdur.

1920-ci ildə vəfat etmişdir.

CƏFƏR CABBARLI
(1899-1934)

Ən yeni dövr Azərbaycan dramaturgiyasının banisidir. Müasir ədəbi-bədii dilin formalaşmasında əhəmiyyətli təsir göstərmişdir. 1899-cu ildə Bakının Xızı kəndində kömürçü Qafar kişinin ailəsində doğulmuşdur. İlk təhsilini molla yanında alan Cəfər sonra Bakıda rus-tatar məktəbinə daxil olub. O, politexnik məktəbində və Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsində təhsil almışdır. 16 yaşında yazdığı "Bahar" adlı ilk şeri "Məktəb" jurnalında çap olunmuşdur.

Milli hökumət qurulandan sonra C. Cabbarlı parlamentdə stenoqraf işləmiş, dramaturji fəaliyyətini gücləndirmişdir. Milli hökumət süqut etdikdən sonra "Gənc müsavatçılar hərəkatı"nın katibi seçilmişdir. 1923-cü ildə təşkilatın bir sıra üzvləri ilə yanaşı C. Cabbarlı da həbs edilir, müəyyən şərtlə azadlığa buraxılır. 1920-1926-cı illər C. Cabbarlının ağır mənəvi böhran keçirdiyi dövr idi. O, bu çətin illərdə tərcüməçi işləyir, universitetin tarix-filologiya fakültəsində oxuyurdu.

"Sevdiyim", "Azərbaycan bayrağına", "Ana" və s. şerlərinin, "Aslan və Fərhad", "Mənsur və Sitarə", "Firuzə" hekayələrinin; "Vəfalı Səriyyə", "Solğun çiçəklər", "Nəsrəddin şah", Trablis müharibəsi", "Ödirnənin fəthi", "Aydın", "Od gəlini", "Sevil", "Almaz", "Yaşar" və s. kimi pyeslərinin müəllifidir.

Cəfər Cabbarlı 1934-cü il yanvarın 31-də vəfat edib.

MİRZƏ BALA MƏMMƏDZADƏ
(1898-1959)

Azərbaycan milli istiqlal hərəkatının görkəmli xadimlərindən biri də Mirzə Bala Məmmədzadədir. Publisist, yazıçı, tarixçi kimi tanınan M. B. Məmmədzadə 1898-ci ildə Bakının Zirə kəndində balıqçı ailəsində anadan olmuşdur.

Mirzə Bala Bakıdakı 7-ci "rus-tatar" məktəbini (1908-1914), Alekseyev adına 3-cü Ali ibtidai məktəbi bitirdikdən sonra təhsilini Bakı Texniki Sənaye məktəbində davam etdirmişdir.

Texnikumda oxuduğu zaman qeyri-leqal "Məhəmmədiyyə" Komitəsinə daxil olmuşdur. Stalinin yaxın adamı olan Lavrenti Beriya ilə yoldaşlıq etmişdir. Azərbaycanın məşhur ədib və dramaturqu C. Cabbarlı da M. Balanın məktəb yoldaşlarından biri idi.

Ədib yaradıcılığa təhsil illərində başlamış, 1912-ci ildə onun "Kaspi" mətbəəsində "Nəfi-elm və yaxud elmin sonu" adlı kitab çap olunmuşdur. 1915-ci ildə M. Ə, Rəsulzadənin nəşr etdirdiyi "Açıq söz" qəzetinə ara-sıra məqalələr yazan Mirzə Bala, sonradan həmin qəzetin işində fəal iştirak edənlərdən biri olmuşdur. Eyni zamanda "Bəsirət" jurnalında baş redaktor işləmişdir. Fevral inqilabından (1917) sonra, açıq siyasi fəaliyyətə qoşulmuş, "Müsavat" partiyası sıralarına daxil olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra M. B. Məmmədzadə "Müsavat" partiyası nəzdində yaradılmış "Gənclər cəmiyyəti"nin orqanı olan "Gənclər yurdu" (1918-ci il iyul-noyabr) jurnalının redaktoru (Firudin Tofiq Hacızadə ilə birgə) və "Azərbaycan" qəzetinin müxbiri olmuşdur. 1919-cu ilin sentyabrında M. Balanın mövzusu mart qırğınından bəhs edən "Bakı uğrunda mübarizə" əsəri Azərbaycan Dövlət Teatrında A. Şərifzadənin rejissorluğu ilə tamaşaya qoyulmuşdur.

1918-1920-ci illərdə o, Azərbaycan Parlamentində stenoqrafçı işləmişdir. Azərbaycan Cümhuriyyətinin süqutundan sonra M. B. Məmmədzadə Bakıda "Müsavat"ın gizli təşkilatının rəhbəri olmuş, 1923-cü ilə qədər onun orqanı olan"İstiqlal" qəzetini nəşr etmişdir. 1923-cü ildə M. Bala məsləkdaşları ilə birlikdə həbs edilir. Sonralar təsadüf nəticəsində həbsdən azad olunur.

1924-cü ilin mayında M. B. Məmmədzadə İranın Ənzəli şəhərinə gələrək oradakı mühacirlərin fəaliyyətinə başçılıq edir. 1927-ci ildə İstanbula köçmüş, elə həmin il İstanbulda onun "Azərbaycan misaqi millisi: 28 Mayıs İstiqlal Bəyannaməsinin təhlili", "Ermənilər və İran" kitabları çap olunmuşdur. M. Ə. Rəsulzadənin redaktorluğu ilə çıxan "Yeni Qafqaziya", "Azəri Türk" (1928-1931) və "Odlu Yurd" (1929-1931) jurnallarında çalışan ədib həmçinin İstanbul Universitetinin hüquq fakültəsində təhsil almışdır.

Sovet hökumətinin tələbi ilə Azərbaycan mühacirlərinin rəhbərliyi Türkiyədən çıxdıqda (1931-ci il) M. B. Məmmədzadə də Varşavaya və az sonra Almaniyaya köçməli oldu.

İkinci Dünya müharibəsinin başlanması və Polşanın Almaniya tərəfindən işğalı ilə əlaqədar yenidən İstanbula köçən M. B. Məmmədzadənin "Milliyyət" və "Cümhuriyyət" qəzetlərində, "Türk ensiklopediyası"nda, "İslam ensiklopediyası"nda və digər nəşrlərdə Azərbaycan tarixinə dair çoxlu məqaləsi dərc edilmişdir.

1949-cu ildə M. B. Məmmədzadənin yaxından iştirakı ilə Ankarada "Azərbaycan Kültür Dərnəyi"nin əsası qoyulmuş, 1951-ci ildə "Azərbaycan tarixində türk Albaniya" adlı əsəri həmin dərnək tərəfindən çap olunmuşdur. O, 1954-cü ildən Münhendəki SSRİ-ni Öyrənmə İnstitutu"nda çalışmış, burada iki il elmi şuranın sədri, iki il isə sədr müavini vəzifəsini icra etmişdi. M. B. Məmmədzadə 1959-cu il mart ayının 8-də İstanbulda vəfat etmişdir. Qəbri Qaracaəhməd məzarlığındadır.

ƏHMƏD CƏFƏROĞLU (1899-1975)

Əhməd İsmayıl oğlu Cəfərzadə 1899-cu il aprelin 17-də Azərbaycanın qədim şəhərlərindən biri olan Gəncədə, tacir ailəsində anadan olmuşdur. Üç yaşında ikən atasını itirən Əhməd anası Gövhər xanımın və qohumlarının himayəsində böyümüşdü. 1905-ci ildə ermənilər Gəncədə milli toqquşma törətdikləri zaman Gövhər xanım üç uşağı ilə Səmərqəndə - qohumu Hacı Mirtağının yanına gedir və 1909-cu ilə qədər orada yaşayır. Ailəsi 1910-cu ildə Gəncəyə qayıtdıqdan sonra o, təhsilini Gəncə gimnaziyasında davam etdirmiş, 1916-cı ildə gimnaziyanı başa vuraraq Kiyev Ali Ticarət İnstitutunun İqtisad fakultəsinə daxil olmuşdu.

1918-ci il mayın 28-də Tiflisdə Azərbaycanın İstiqlal Bəyannaməsinin elan edilməsindən sonra Gəncəyə köçən hökuməti qarşılayanlardan biri də gənc Əhməd idi. O, Nuru Paşanın komandanlığı altında Milli Komitənin dəvəti ilə Azərbaycana köməyə gəlmiş Qafqaz – İslam Ordusuna könüllü yazılmışdı. 1918-ci il sentyabrın 15-də Bakının daşnak və bolşevik tör-töküntülərindən azad edilməsində Əhməd də iştirak etmişdir. Bakı Dövlət Universitetində isə o, təhsilini davam etdirmişdir. 1920-ci il aprelin 27-də Azərbaycanın XI Qızıl Ordu tərəfindən işğalından sonra o, Azərbaycanı tərk etdi. Ə. Cəfəroğlu dil və din baxımından azərbaycanlılara hər cəhətdən yaxın olan Türkiyəni seçdi. Az sonra Kiyevdə və Bakıda yarımçıq buraxmağa məcbur olduğu ali təhsilini İstanbul Universitetinin ədəbiyyat fakultəsində davam etdirdi.

1925-ci ilin sonunda o, Almaniya Xarici İşlər Nazirliyinin təqaüdünü qazanaraq aspirantura təhsilini davam etdirmək üçün dünya türkologiyasının mərkəzlərindən biri kimi tanınan Almaniyaya yollanır. Burada Berlin, sonra isə Breslau Universitetində mükəmməl türkoloji təhsil almışdır. Bu universitetdə oxuyarkən o, Avropa və dünya miqyasında tanınan şərqşünaslıq-türkoloq professorlarından Von Kop, Vasmer, Vasmermann, Gize, Karl Brokkelman, Şader və başqalarının tələbəsi olmuşdur.

1929-cu ildə Azərbaycanlı gənc Breslau Universitetində məşhur türkoloq Fəgizinin rəhbərliyi altında "Gəncə dialektində 75 Azərbaycan bayatı türküsü. Bir dil araşdırması ilə" adlı dissertasiya müdafiə etmiş və filologiya doktoru alimlik dərəcəsinə layiq görülmüşdür. Onun bu tədqiqat əsəri 1919-30-cu ildə Berlində "Şərq dilinə dair seminarın materialları"nda alman dilində ayrıca kitabça şəklində çapdan çıxmışdır.

1929-cu ildə Avropadan Türkiyəyə qayıtmış və bir vaxt tələbəsi olduğu türkologiya şöbəsinin türk dili tarixi kursuna dosent təyin edilmişdir. 1938-ci ildə professorluq vəzifəsinə yüksəlmişdir. O, Şərq dillərindən başqa rus, alman, fransız və italyan dillərini də bilirdi. O, 30-cu illərdə 10-dan çox kitab və kitabça yazıb, türk və alman dillərində nəşr etdirmişdir. 1932-ci ildən başlayaraq Ə. Cəfəroğlunun redaktorluğu altında "Azərbaycan yurd bilgisi" dərgisi nəşr olunmağa başladı.

O, bir sıra milli və millətlərarası cəmiyyətlərin üzvü olub. Türk Dili Qurumunun, Polşa Müştərəklər Cəmiyyətinin, Millətlərarası Ümumi Dialektoloji Mərkəzin, Ural-Altay cəmiyyətinin və Millətlərarası Dəniz Kültürü İnstitunun üzvü, Polşa Elmlər Akademiyasının (1938), Ukrayna Elmlər Akademiyasının, Fin-Uqor Cəmiyyətinin müxbir üzvü seçilmişdir. Bunlardan başqa o, 1944-cü ildə Millətlərarası Onomastika Cəmiyyətinin, 1956-cı ildə Atlantik-Ağ dəniz Linqvistik Cəmiyyətinin Türkiyə təmsilçisi olmuşdur. 1953-cü ildə Ukrayna Uni-

versitetinin Fəxri doktoru seçilmişdir. 1955-ci ildə İspaniya hökuməti Ə.Cəfəroğlunu "De Alfonso XEL Sabio" nişanı ilə təltif etmişdir.

Əhməd Cəfəroğlu 1975-ci il yanvarın 6-da vəfat etmiş, İstanbulun Zincirlik qəbirstanlığında dəfn edilmişdir.

FEYZİ AKÜZÜM
(1922-1991)

Feyzi Aküzüm 1922-ci ildə Qarsda doğulmuşdur. İlk və orta təhsilini Qarsda başa vurduqdan sonra Ankara Universitetinin Ziraət fakultəsinə daxil olmuşdur. Təhsilini bitirdikdən sonra Türkiyə Kənd Təsərrüfatı Nazirliyində çalışmışdır. O, burada yüksək vəzifələrdə işləmişdir.

1949-cu ildən isə Azərbaycan Kültür Dərnəyinin işlərində böyük fəallıq göstərmişdir. M. Ə. Rəsulzadə ilə yaxın təmasda olmuşdur. Sonralar Azərbaycan Milli Mərkəzinin üzvü və Azərbaycan Kültür Dərnəyinin Başqanı olan Feyzi Aküzüm "Azərbaycan" dərgisində çoxlu sayda dəyərli yazılar çap etdirmişdir.

Feyzi Aküzüm 1991-ci ildə 26 dekabrda Ankarada vəfat etmişdir.

MƏHƏMMƏD KƏNGƏRLİ
(1914-2006)

Azərbaycan milli istiqlal mübarizəsinin və mühacirət mətbuatının önəmli simalarından biri olan Məhəmməd Kəngərli 1914-cü ildə yanvarın 10-da Şuşada anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra 1933-cü ildə Universitetin tibb fakultəsinin rus bölməsinə daxil olmuş, daha sonra isə Leninqrad Hərbi Akademiyasına qəbul edilmiş və 1939-cu ildə oranı bitirmişdir.

O, 1928-ci ildən, 14 yaşından etibarən Müsavat Partiyasının "Gənc Azər" Təşkilatının üzvü olmuşdur.

1942-ci ildə İkinci Dünya müharibəsində almanlara əsir düşmüş və burada Azərbaycan Milli Mərkəzinin Başqanı M. Ə. Rəsulzadə ilə yaxından tanış olmuşdur.

İkinci Dünya müharibəsindən sonra Almaniyada çətin şəraitdə yaşayan Məhəmməd Kəngərli 1952-ci ildə Türkiyəyə gəlmiş, Ankarada Azərbaycan Milli Mərkəzində və Azərbaycan Kültür Dərnəyində çalışmışdır.

1952-1979-cu illərdə Türkiyənin Sağlıq və Sosial Yardım Bakanlığının müxtəlif xəstəxanalarında baş həkim, sağlıq müdiri, Qızılay Baş müdir yardımçısı, Türkiyənin Bonndakı səfirliyində müşavir vəzifələrində çalışmışdır.

1963-cü ildə Kıprıs hadisələrində Lefiotəyə getmiş, orada Qızılay xəstəxanasını qurmuşdur. Sonradan Türkiyədə Anıtlar Dərnəyi Genel Başqanı olaraq fəaliyyət göstərmişdir.

Məhəmməd Kəngərli Ankarada nəşr edilən "Azərbaycan" jurnalında Azərbaycanın müstəqilliyi mübarizəsi ilə bağlı çoxlu sayda məqalələrin müəllifidir.

Məhəmməd Kəngərli 2006-cı ildə Ankarada vəfat etmişdir.

ƏHMƏD CAVAD
(1892-1937)

Azərbaycanın tanınmış şairi Əhməd Cavad (Cavad Axundzadə) 1892-ci ilin may ayının 5-də Şəmkir rayonunun Seyfəli kəndində anadan olub. İlk təhsilini molla yanında alıb. 1906-1912-ci illərdə Gəncə Müsəlman Ruhani Seminariyasında təhsil alıb. Əhməd Cavad 16 yaşından müəllimlik edib. 1918-1920-ci illərdə "Qoşma", "Dalğa" şerlər kitabını çap etdirib. 1920-ci ilin 27 Aprel işğalından sonra təqib edilib. 1923-cü ildə ilk dəfə həbs olunub. 30-cu illərdə yenidən həbs edilərək həmin ilin oktyabr ayının 13-də güllələnib.

MƏHƏMMƏD ƏLİ RƏSULOĞLU (1882-1982)

Azərbaycan istiqlalı uğrunda böyük mücadilə aparmış Məhəmməd Əli Rəsuloğlu 1882-ci ildə aprel ayının 7-də Bakıda nadan olub. Məhəmməd Əmin Rəsuloğlu görkəmli dövlət xadimi Məhəmməd Əmin Rəsulzadənin əmisi oğludur. Məhəmməd Əli Rəsuloğlu Azərbaycanın ilk milli-siyasi partiyası olan Müsavatın üç qurucu rəhbərlərindən biridir. Məhəmməd Əli Rəsuloğlunun Azərbaycanda başlayan mücadiləsi (sonradan – mühacirətdə) Türkiyədə, İranda, Almaniyada, Polşada, Rumıniyada və bir çox ölkələrdə davam etmişdir. Məhəmməd Əmin Rəsuloğlu 1982-ci ildə fevral ayının 3-də vəfat etmiş və İstanbulda dəfn edilmişdir.

ÇİNGİZ GÖYGÖL

Azərbaycan Mühacirət Mətbuatının tanınmış xadimidir. 1955-ci ildən Ankarada nəşr edilən "Mücahit" jurnalının Baş redaktoru olub. Yüksək ali təhsilə malik olan Çingiz bəyin əsli Gəncədəndir. Azərbaycan mühacirət mətbuatında Azərbaycanın müstəqilliyi və azadlığı ilə, mədəniyyət tarixi ilə bağlı çoxlu sayda məqalələr müəllifidir.

Türkiyənin Ankara şəhərində yaşamış və orada vəfat etmişdir.

ÜMMÜGÜLSÜM (1899-1944)

Tanınmış şairə Ümmügülsüm 1899-cu ildə Bakının Novxanı kəndində anadan olub. O, tanınmış dövlət xadimi Məhəmməd Əmin Rəsulzadənin əmisi qızı və yazıçı Seyid Hüseynin həyat yoldaşı olub. İlk şerini 1908-ci ildə yazıb. Dövrün aparıcı mətbuat orqanları olan "İqbal"da, "Açıq söz"də, "İstiqlal"da, "Azərbaycan"da, "Dirilik" və "Məktəb"də şerləri çap edilib. Bolşeviklər Azərbaycanı işğal etdikdən sonra 30-cu illərdə Ümmügülsüm xanım sürgün edilir. Ağır sürgün həyatı yaşayan Ümmügülsüm xanım 1944-cü ildə vəfat edib.

ABDULLA ƏFƏNDİZADƏ (Əbdü Əfəndizadə) (1873-1928)

Tanınmış siyasi xadim Abdulla bəy Əfəndizadə 1873-cü ildə anadan olub. 1899-cu ildə Tiflisdə Aleksandrovski Müəllimlər İnstitutunu bitirib. Şəkidə, sonradan isə Bakıda pedaqoji fəaliyyətlə məşğul olub. 1918-ci ildə Şəkidən Azərbaycan Parlamentinə deputat seçilib. "Əhrar" partiyasının yaradıcılarındandır. 1918-ci ildə Şəkidə "Mədəniyyət" mətbəəsində "Hər ürəkdə səbt olubdur: ya ölüm, ya Türkiyə!" kitabçası çap edilib. Kitabçada Birinci Dünya müharibəsi, Türkiyənin və İslam dünyasının bu müharibəyə qədərkivə müharibə dövrü du-rumunu diqqətlə izləmiş, Azərbaycanın və bütünlüklə Qafqaz türklərinin taleyi ilə bağlı problemlərə münasibətini bildirmişdi. Abdulla Əfəndizadə 1928-ci ildə vəfat edib.

NAĞI ŞEYXZAMANLI
(1883-1967)

Tanınmış dövlət xadimi olan Nağı Şeyxzamanlı 1883-cü ildə Gəncədə anadan olub. "Difai" və "Türk Ədəmi-Mərkəziyyət" partiyalarının fəallarından olub. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Təhlükəsizlik orqanında "Əksinqilab ilə mübarizə" təşkilatına başçılıq edib. 1920-ci ilin 27 Aprel işğalından sonra Türkiyəyə gedib. Türkiyədə o, bir çox maraqlı kitab və məqalələr yazıb və nəşr etdirib. Nağı Şeyxzamanlı 1967-ci ildə vəfat edib.

HÜSEYN BAYKARA
(1904-1984)

Tanınmış ziyalı Hüseyn Baykara 1904-cü ildə Şuşada anadan olub. Bakı Dövlət Universitetində təhsil alıb. Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparıb, tələbələr qarşısında çıxışlar edib. Təqiblərə məruz qaldığından 1927-ci ildə əvvəlcə İrana, oradan da Türkiyəyə gedir. İstanbul Universitetinin hüquq fakultəsində oxuyur. İstanbulda prokuror vəzifəsində çalışır. Eyni zamanda mətbuatda maraqlı məqalələrlə çıxış edir. Hüseyn Baykara 1984-cü ildə vəfat edib.

SALMAN MÜMTAZ
(1884-1937)

Ərdoğan Salman Məmmədəmin oğlu – şair, ədəbiyyatşünas, mətnşünas. 1884-cü il mayın 20-də Nuxa (indiki Şəki) şəhərində anadan olub. Kiçik yaşlarından ailəlikcə Orta Asiyanın Aşqabad şəhərinə köçdüklərindən uşaqlıq dövrü burada keçib. Klassik Şərq ədəbiyyatını toplayıb nəşr edir. Klassik Azərbaycan ədəbiyyatının toplanıb nəşr edilməsi və tədqiqində onun xidmətləri təqdirəlayiqdir.

Azərbaycan dövri mətbuatında satirik şerləri, mənzum felyetonları çap edilib. 1937-ci ildə həbs edilərək həbsxanada vəfat edib.

ABDULLA ŞAİQ
(1881-1959)

1881-ci ildə fevralın 24-də **Gürcüstanın Tiflis (Tbilisi) şəhərində anadan olub.** 1889-cu ildə altı sinifli məktəbə daxil olub. Sonra İrana köçüb. 1900-cü ildə yenidən Tiflisə qayıdır. Sonra Bakıya köçüb buradakı məktəblərdə müəllimlik edir. Çoxlu sayda dərs kitablarının, pyeslərin, hekayələrin və əsərlərin müəllifidir.

1959-cu ildə iyulun 24-də Bakıda vəfat edib.

FOTOLAR VƏ SƏNƏDLƏR

FOTOLAR VƏ SƏNƏDLƏR

Bakının xilaskarı general Nuru Paşa

Bakının Qurtuluşunda fədakarlıq göstərmiş Mürsəl Paşa (Baku)

Ənvər Paşa (soldan) və Nuru Paşa (sağdan) ataları ilə birgə

Nuru Paşanın atası Hacı Əhməd Paşanın 1919-cu ildə Şəkiyə ziyarəti. Şəkildəkilər (soldan sağa): 1. Fabrik sahibi Yaqub bəy (bolşeviklər onu sonradan güllələyiblər); 2. Fabrik sahibi kiçik Yaqub bəy; 3. Şəki bölgə komandiri Yarbay Nəcib bəy; 4. Tacir (adı bilinmir); 5. Hacı Əhməd Paşa; 6. Şəki Bələdiyyə Başqanı Aran bəy; 7. Hacı Əhməd Paşanın yaveri (adı bilinmir) 8. Mehmet (Məmi) bəy Əhmədoğlu

Nuru Paşa Gəncədə azərbaycanlılar arasında

Qafqaz İslam Ordusunun zabitləri



Nuru Paşa Yelenondrofda almanlarla

Kazım Qara Bəkir

Nazim bəy

Qafqaz İslam Ordusunun komandanları

Xilaskar ordu Bakıda

Azərbaycan ordusunun zabitləri

Azərbaycan ordusunun zabit və əsgərləri



Nəsib bəy Yusifbəyli Türkiyəyə yola düşəcək nümayəndə heyəti ilə (soldan: N.Yusifbəyli, M. Ə. Rəsulzadə, M. Hacınski, A. Səfikürdski və b. 1918-ci il)

Qafqaz İslam Ordusu ilə birgə Bakıya qayıdan, Nuru Paşanın fədakarlığından "Bakı uğrunda mübarizə" pyesini yazan tanınmış mühacir Mirzə Bala Məmmədzadə

Gəncədə Qafqaz İslam Ordusuna könüllü olaraq topçu əsgər kimi qoşulan, Bakı savaşında döyüşən, sonralar İstanbul Universitetinin məşhur professoru olan Əhməd Cəfəroğlu

آخشام تماشه N24

حکومت تیاترو سنده

پروغرام

تورك آقتیورلاری شراکتی [redacted] تحت اداره‌سنده

چهارشنبه کونی سنطیابر آینك ۱۷ نده ۱۹۱۹ نجی ایلده

موقع تماشایه قویولاجقدر

میرزه بالا محمد زاده نك یازمش اولدیغی

باکو اوغرونده

محاربه

دراماسی ۷ پرده‌ده

اشتراك ایدن اشخاص :

جناب خلیل حسین اوف

M. B. Məmmədzadənin "Bakı uğrunda müharibə" pyesinin proqramı



صادق
ب. بیگم قادین
ایکنجی قادین
اصلان
مختار
ر بان
لیوبا
برنجی قیز
ایکنجی قیز
حیدر
غفار
فتاح
برنجی افوجه
ایکنجی افوجه
کامل فیشی
آراکیل
آندرمی
سامسون
آرعاق
ماطلت
یه‌ه‌با

جناب خلیل حسین اوف
خانم لیزینا
خانم قمر
جناب حاجی باباخ یف اوف
جناب [illegible] اوف
جناب کرای یگوف
جناب صادق روح الله
خانم لیزینا
خانم قمر
جناب علی اصلام
جناب نریمانوف
جناب حسین آقا
جناب قانایف
جناب قاسم اوف
جناب دارایف
جناب مهر یاها
جناب کاظم کاظم زاده
جناب آنایف
جناب ح. ب. هریه‌وف
خانم ی. اولینسکایا
خانم مشوره

تماشا باهلاناجاق آقشام ساعت ۹ ده یاریسنده

مدیره یاش رژیسور ع[illegible]

خلاصه: همین سنطیابرك ۱۹ نده ۲ نجی دفعه اولارق
جعفر جبار زاده‌نك یازمش اولدیغی
نخ تماشایه **باکو محاربه‌سی** قویولاجقدر.

"Bakı uğrunda müharibə" pyesinin proqramı

آقشام تماشاسی

حکومت لیاقلو سنده

پسوو غرام

لوبرك آکتیورلاری طرافندن [redacted] تحت ادارهسنده

سه‌شنبه گونی سنطیابر آیلك ١٦ نده ١٩١٩ نجی یلده

موقع تماشایه قویولاجقدر

جعفر جبارزاده‌نك یازمش اولدیغی

(باکو محاربه‌سی)

درامادن ٧ پرده‌دم

مشترك آیلین اشتراکی

یاسو بك	جناب کرای یگوف
صمد	جناب مهر یاها
اولیا	خانم لیزینا
ناباترا	خانم ق. اولینسکایا
رستم بك	جناب کاظم کاظم زاده
مشتوبا	جناب صادق روح الله
امجد	[redacted]
مریم	خانم آ. ن. اولینسکایا
آوانیس	جناب یانایف
چاپارزاده	جناب گیرایگوف
گاباگولو	جناب آغا کریم نوف
اسکندر	جناب علی اصلام
صفر	جناب یاها
پوپ طور	جناب حسین آقا
سیا	جناب نریمانوف
جمیل بك	جناب خلیل حسین اوف
شکران بك	جناب حاجی باباخ یف اوف
توفیق بك	جناب دارایف
تو زی یاها	جناب صادق روح الله
میل یاها	جناب سوبایف
فریده	خانم قمر

تماشا باهلاناجاق آقشام ساعت [illegible] ده یاریسنده

C. Cabbarlının Türklərin Bakını azad etməsinə həsr olunan "Bakı müharibəsi" pyesinin afişası

1919
20

مارت حادثه‌سی

۱۹۱۸

— ویاخود —

نوری پاشا

اوردوسی طرفندن

باکونک اشغالی

ACb

«توران» مطبعه‌سی مرتبلرینک نشریاتی

وچنجی حصه

قیمتی ۵۰ منات

ACb

۱۹۱۸

1919-cu ildə Bakıda Seyidağa Axundzadənin nəşr edilən "Mart hadisəsi-1918 və yaxud Nuru Paşa ordusu tərəfindən Bakının işğalı (azad edilməsi)" əsəri



برنجی سنه‌دوامیه‌سی — نمره ۱ —

آذربایجان

— اعلان —

آذربایجان حکومتنک قرارلرندن

"Azərbaycan" qəzetinin Gəncədə nəşr edilən ilk sayı (1918-ci il, 15 sentyabr)

Цѣна номера 1 руб.

Издаѣія годъ первый

АЗЕРБАЙДЖАНЪ

Выходитъ два раза въ недѣлю.

№ 1 Воскресенье 15 Сентября 1919 года. № 1

ОБЪЯВЛЕНІЕ.

"Azərbaycan" qəzetinin (rusca) ilk sayı (1918-ci il, 15 sentyabr)

Взятіе Баку.

Вчера ночью на имя Азербайджанскаго Правительства получена отъ Кури Паши сльдующая телеграмма:

„Божей милостью городъ Баку 15 | 9 | 34 въ качалъ 9-го взятъ нашими частями".

Командующій Кавказской Мусульманской арміей

Генералъ-Лейтекатъ Кури.

Мѣстная хроника.

— По свѣдѣніямъ полученнымъ отъ призывныхъ призывъ новобранцевъ проходитъ удовлетворительно. Выборгскій и Сердобскій уѣзды совсѣмъ неопредѣленность отсрочки. Ближайшія къ Баку селенія высылаютъ на фронтъ всѣхъ добровольцевъ кромѣ Новобранцевъ Шуханскаго и Арешскаго уѣзда уже участвуютъ въ бояхъ подъ Баку.

— Правительство рѣшило теперь же послать одновременно въ пріемныя отдѣленія и участковыя по эвакуированнымъ турецкимъ языкамъ. Въ связи съ этимъ на свободныя вакансіи мировъ судей назначены лица владѣющія языкомъ и т. д. и тѣхъ судовъ, которые не владѣютъ турецкимъ языкомъ, оставленные впредь до дальнѣйшихъ распоряженій.

— Занятія по всѣмъ учебнымъ заведеніямъ Азербайджана предположено открыть съ 1 октября.

